# VİLAYƏT BAĞÇASI

**ÜÇÜNCÜ CİLD**

İslam İnqilabının Böyük Rəhbəri Ayətullah Xameneinin
tələbə və müəllimlərə tövsiyələri

Çevirən: İbrahim Mirzə

## Tələbənin sualı, Rəhbərin cavabı[1]

Bismillahir-Rəhmanir-Rəhim.

Sizi düşündürən sualları yazın. Mən də lazım bildiklərimi sonradan deyəcəyəm. Amma ürəyim istəyir əziz tələbələr sual versinlər, mən cavablandırım. Deyilənlərin hamısı olmasa da, heç şübhəsiz, bəzisi faydalı olacaq. Mənim vaxtım çoxdur. Bugünkü vaxtım bu iş üçündür, bu gün axşama qədərki bütün işlərimi kənara qoymuşam. Amma bilirsiniz ki, suallar çox olacaq. Təbii ki, dayanmadan sual verilir və mən zamanın imkan verdiyi həddə bu sualların ancaq bəzisinə cavab verə biləcəyəm. Amma qalan sualları aparsam və dostlar tənzimləsələr, sonradan cavab verib sizə qaytarmaq olar. Dəqiq söz vermirəm, amma buna çalışacağam. Əgər baş tutsa, çox yaxşı olar.

### Bəsic üzvlüyünün dəyəri

**Sual:** Bəziləri Bəsicin hərbi qurum olduğunu və digər buna bənzər fikirləri ortaya atıb, onun universitetlərdə olmasına etiraz edirlər. Sizin fikriniz nədir?

**Cavab:** Xeyr! Bəsic qətiyyən hərbi təşkilat deyil. Bəsic - xalq deməkdir. Ola bilsin, mən də onun üzvü olum, amma hərbçi deyiləm. Universitetlərdə, zavodlarda, elm hövzələrində, idarələrdə - hər yerdə Bəsic var. Bu, hərbi təşkilat deyil. Tələbələrin Bəsicə üzv olmalarının da heç bir eybi yoxdur. Bu hətta dəyərli işdir. Hamı Bəsicə qoşula bilər.

### İmamın yadigarı

**Sual:** Tələbələr könüllü şəkildə və həvəslə Bəsicə ad yazıdırmalarına baxmayaraq, universitetlərin bəzi məsul şəxsləri onlara yaxşı baxmırlar.

**Cavab:** Məncə, könüllülərə pis baxılması yaxşı hal deyil. Mən indi bundan xəbərsizəm. Sonradan universitetin möhtərəm rektorundan soruşmalıyam ki, görüm ümumiyyətlə, belə bir şey var, yoxsa yox. Amma bu məmləkətdə heç kim Bəsicə pis baxmır. Bəsic bu ölkəyə o qədər xidmət göstərmişdir ki, kimsə onun faydalı və hətta zəruri olmasına şübhə edə bilməz. Bəsic imamın yadigarıdır.

---

[1] Tehran Universitetindəki sual-cavab toplantısında söhbətlərdən: 12 may 1998.

**Yaxşı mətbuatın inkişaf etdirilməsi**

**Sual:** Ölkə mətbuatının zəhərli təbliğatı barədə fikrinizi bilmək istəyirik.

**Cavab:** Hər halda, mətbuat mətbuatdır: biri yaxşıdır, biri daha yaxşı, biri pisdir, biri daha pis. Hər birinin də öz ümməti var. Məncə, pis mətbuata qarşı ən uğurlu tədbir yaxşı mətbuatı inkişaf etdirməkdir. Əgər ölkənin mətbuat mühiti faydalı və münasib olsa, pis mətbuat çox da macal tapmaz. Əlbəttə, bunu siz pis adlandırdınız. Mən bilmirəm bunun meyarı nədir? Bunun özü də bir mövzudur.

**Prezidentin şəxsiyyəti**

**Sual:** Prezident seçkilərində xalqın möhtəşəm iştirakından sonra bəzi şəxslər və məmurlar müxtəlif ifadələr işlədərək problem yaratmaq, sevimli və möhtərəm prezidentdən öz maraqları üçün istifadə etmək istəyirlər.

**Cavab:** Xeyr! Prezident sui-istifadə ediləsi adam deyil. Prezident dövlət başçısıdır, ləyaqətli, dəyərli və ayıq şəxsiyyətdir. O, düz yol seçib və həmin yolla hərəkət edir. Kimsə özü üçün danışa bilər, amma məncə, heç kim prezidentdən sui-istifadə edə bilməz, inşallah.

**Ehkamçılıq problemi**

**Sual:** Bizim universitetlərimizin ən böyük problemi əsl İslam elmi və mədəniyyəti sahəsində ehkamçılıqdır. Sizcə bu halı necə aradan qaldırmaq olar?

**Cavab:** Çox əhəmiyyətli və diqqətəlayiq məsələdir. Əlbəttə, bunun bizim ən böyük problemimiz olmasına şübhəm var. Amma şəksiz, ehkamçılıq harada olsa, bir problemdir. Onu aradan qaldırmağın yolu budur ki, siz tələbələr elmi sahələrdə bacardığınız qədər düşüncə keyfiyyətinizi artırasınız. Sizin hər biriniz elm, mədəniyyət, düşüncə və aydınlıq adamı olduqda, bu anlayışları əməldə təbliğ edə bilərsiniz. Bu da ehkamçılığın, doqmatizmin əksidir. Onunla vuruşmaq istəyiriksə, yolu budur: elmi-mədəni vuruş. Ehkamçılıqla döyüş qılınc döyüşü deyil. Çünki bu, elm və mədəniyyət tipindəndir, bir növ mədəniyyətdir, durğunluq mədəniyyətidir. Onunla mədəni yollarla mübarizə aparmaq lazımdır. Məncə, tələbələr bu sahədə mühüm işlər görə bilərlər.

**Sual:** Əgər imkan olsa, şahid ailələrinin, xüsusən şahid tələbələrin problemləri müzakirə edilsin. Ümidvaram bu istəyimizlə razılaşarsınız.

**Cavab:** Mən anlamadım ki, şahid tələbələrlə söhbət etməyim təklif olunur, yoxsa bir nəfəri müəyyən edim, o, söhbət etsin. Eybi yoxdur, bu problemi araşdırarıq. Baxmayaraq ki, biz bu gün buraya dəftərxana dəm-dəsgahı ilə gəlməmişik. Amma cənabların biri bunu qeyd etsin. Mən sonra onu dəftərxanaya verərəm ki, araşdırsınlar. Bu kağızı da sonradan baxılması üçün kənara qoyuram.

**Əsas nəzəriyyələr**

**Sual:** Rəhbərin cari məsələlər barədə əsas fikirləri ilə aydın şəkildə necə tanış olmaq olar? Belə olsa, digərləri sizin nəzərlərinizi tərsinə deyə bilməzlər.

**Cavab:** Çıxışlarımda dediklərim mənim əsas fikirlərimdir. Ölkənin cari məsələləri, İslam və müsəlmanların vəziyyəti və digər ictimai məsələlər barədə açıq deyə bilməyəcək və kiminsə qulağına pıçıldayacaq fikrim yoxdur. Mənim fikirlərim şəffaf və aydındır. Siz onları cümə namazı xütbələrində və müxtəlif qruplarla söhbətlərimdə eşidirsiniz.

**İranda azadlıq**

**Sual:** Məgər bizim əziz Quranımızda göstərilməyib ki, insan azad yaradılıb? Ən böyük azadlıq da oxumaq və yazmaq azadlığıdır. Bəs nə üçün İslam Respublikasında bu haqqı bizdən alıblar?

**Cavab:** Mən bilmirəm bu haqqı kim alıb. Kim almışsa, mənə deyin gedib ondan alıb özünüzə qaytarım. Gerçək budur ki, siz gənclər bu ölkənin inqilabdan öncəki dövrünü görməmisiniz. Dünyanın çoxlu ölkələrini də görməmisiniz. Bu gün xoşbəxtlikdən, İranda olan düşüncə və söz azadlığının dünyada bənzəri azdır. Əlbəttə, mən demək istəmirəm ki, İslam bu azadlığı qeyd-şərtsiz verib. Xeyr, belə deyil. Bu sahədə bəzi məhdudiyyətlər var. Bu məhdudiyyətlər bizim qanunlarımızda da nəzərdə tutulub. Bəlkə də bütün bunların məhsulu sizin dediyiniz Quran təliminə uyğun azadlıqdır. Xoşbəxtlikdən bu, mövcuddur, çox da yaxşıdır. İndi sizin gördüyünüz bu vəziyyətin, bizim bir yerdə oturmağımızın, sizin danışmağınızın və mənim sizin sözlərinizi oxumağımın da dünyada analoqu azdır. Humanizm və insan şəxsiyyətinə hörmət nöqteyi-nəzərindən ölkəmizin vəziyyəti o qədər yaxşıdır ki, daha artıq gözlənti yaranıb. Mən buna sevinirəm. Heç eybi yoxdur. Amma bilin ki, siz başqa yerlərə, bizim ölkəmizə bənzəyən, keçmişləri bizim keçmişimizə oxşar ölkələrə gedib azadlığa aid məsələləri araşdırsanız, görərsiniz ki, xoşbəxtlikdən, bu baxımdan heç bir yer İran kimi deyil.

**Mənzil və ailə qurmaq**

**Sual:** Gənc tələbələrin ailə qurması barədə nə düşünmüsünüz?

**Cavab:** Bu, çox mühüm sualdır. Mən heç vaxt bu sualı zarafat qəbul etmirəm. Doğrudan da əhəmiyyətli sualdır. Məncə, aidiyyətli şəxslər buna diqqət yetirməlidirlər. Biz bu sahələrdə - həm gənclərin ailə qurması və həm də bundan irəli gələn məsələlər haqda hökumət rəsmilərinə, həmçinin Mənzil nazirliyinə çoxlu tövsiyələr vermişik. Onlar bəzi işlər görürlər. Yeni ailə qurmuş gənclərə kirayə vermək üçün müvəqqəti mənzillər tikiblər. Ümidvarıq bu işlər görülsün və inşallah, izdivac problemi tamamilə həll olunsun. Nəhayət, bu məsələdə haqq sizinlədir.

**İslam universiteti**

**Sual:** Universitetləri İslama uyğunlaşdırmağa kömək baxımından elmi şura üzvlüyünə yeni qəbul olunmuş kadrların vəzifəsi nədir?

**Cavab:** Universitetləri İslama uyğunlaşdırmaq məsələsi Mədəni İnqilab Ali Şurasının proqramlarındandır. Bunun üçün onların planları var, işlər görürlər. Bu baxımdan, yeni qəbul olunmuş kadrlarla köhnə kadrlar arasında fərq yoxdur. Mən onların fərqləndiyini düşünmürəm. Hər halda, işin icra tərzinə qarışmıram və qarışmamışam. Bu, universitet rəhbərlərinə və Mədəni İnqilab Ali Şurasının dəyərli üzvlərinə aiddir. Onlar qərar verməlidirlər. Mən məsələni qaldırdım və onlardan tələb etdim. Yenə də tələb edəcəyəm. Universitetlər İslama uyğunlaşanda anlaşılacaq və bilinəcək ki, mən nə istədim və nə dedim. Məncə, universitetlərdə bu işin zəruriliyini, yaxşı və faydalı olmasını hiss etməyən bircə nəfər də tapmaq olmaz. Bunun üçün hamı məsuliyyət daşıyır. Əlbəttə, mən də hiss edirəm ki, universitetlərin İslama uyğunlaşdırılmasında qarşıya qoyulan məqsəd hər yerdə düzgün başa düşülmür. Bəziləri onu çox məhdud, kiçik və zəif başa düşmüşlər. Lakin məqsəd bunlardan çox ucadır.

**Hökumətin qərarı**

**Sual:** Yüksək təhsil pillələrində imkanların çox zəif olduğunu nəzərə alsaq, sizcə, elmi inkişaf, tərəqqi və lazımi səviyyəyə çatmaq mümkün olacaqmı?

**Cavab:** Universitetlərdə mövcud olan imkanlar haqda geniş məlumatım yoxdur. Lakin xəbərim var ki, hökumət tələbələrin təhsil və tədqiqat imkanlarının genişləndirilməsinə qərar verib. Mümkündür hər hansı bir universitetdə hökumətin büdcə və gəlir çatışmazlığından irəli gələrək

müvəqqəti nöqsanlar yaransın. Lakin hökumətin qəti qərarı budur ki, bu problemləri həll etsin.

**Sual:** Sizcə, elmi inkişafın sürəti İranda daha çoxdur, yoxsa ABŞ-da?

**Cavab:** Çox qəribə sualdır. Amerikalılar uzun illərdir elmi işlərdə çalışırlar. Onlar bu sahədə azad şəkildə, həm öz milli imkanları, həm də digər ölkələrdən qarət etdikləri imkanlar sayəsində alim yetişdirəndə və inkişaf edəndə bizim xalqımız elə bir rejimin çomağı altında idi ki, qorxu və asılılıq yaratmaqla, siyasi və əxlaqi fəsadlarla yerli alimə hətta düşünmək imkanı vermirdi. Siz istəyirsiniz ki, belə bir şəraitdə biz ABŞ səviyyəsində və onunla ayaq-ayağa irəliləyək?! Bu, artıq gözləntidir.

**Keçmiş rejimin qeyri-müstəqilliyi**

Mən bəlkə bir dəfə də demişəm: Keçmişdə ABŞ-dan alınan hərbi təyyarələrin hər hansı bir hissəsində - böyük bir detalın xırda bir hissəsində nöqsan yaransaydı, amerikalılar bizim Hərbi Hava Qüvvələrimizin texniki mütəxəssislərinə bu böyük detalı açıb onun kiçik hissəsindəki nöqsanı aradan qaldırmağa, yaxud dəyişməyə icazə vermirdilər. Onlarla, bəzən yüzlərlə kiçik hissədən təşkil olunan bu böyük detalı təyyarəyə qoyub ABŞ-a aparır, orada dəyişdirir və geri qaytarırdılar. Belə rəftar edirdilər. Bu ölkədə nə tələbənin sayı, nə təhsilin keyfiyyəti, nə işə şərait, nə tədris və nə tədqiqat həvəsi vardı. Belə bir vəziyyətdə siz gözləyirsiniz ki, İran xalqı inkişaf etmiş olsun?!

**Universitetə qayğı**

Biz on doqquz ildir başlamışıq. Bu on doqquz ilin əvvəlləri inqilabın ilk problemləri, universitetlərdə silahlı qruplaşmalar və müharibə dövrü olub. Mənim bu məscidlə bağlı çoxlu xatirələrim var; həm inqilabdan qabaq, həm inqilabın müxtəlif illərində. Onların birini sizə danışsam, pis olmaz.

İnqilabın birinci ilində həftənin bazar, yaxud bazar ertəsi günü bu məscidə gəlir və zöhr namazını qılırdım. Tələbələr toplaşırdılar, mən suallara cavab verir və onlar üçün söhbət edirdim. Həmin il bu Tehran universiteti müxtəlif adlar altında fəaliyyət göstərən silahlı qruplaşmaların səngərinə çevrilmişdi. Onlar universitetin içindən J-3 və Kalaşnikov silahları ilə bayırdakı insanların və müsəlman tələbələrin canına düşürdülər. Universitetdə gərgin çatışmaların olduğu günlərin birində mən adət üzrə günorta buraya gəldim. Universitetə daxil olduqda bir neçə tələbə gəlib dedi ki, bu gün təhlükəlidir, içəri girməyin. Mən dedim ki, yox, proqramımı tətil etməyəcəyəm. Gəldim. Universitetdə sakitlik idi, demək olar ki, heç kim yox

idi, tək-tük adam gözə dəyirdi. Çünki vəziyyət təhlükəli idi. Tələbələr bizim gəldiyimiz yolla məscidə gəldilər. O gün bəlkə də on nəfər məscidə toplaşmamışdı, hamı qaçmışdı. Məncə, namazı qılıb getdik. Əslində, biz də bir az qorxduq. Bundan sonra universitet bir müddət tətil oldu; bəlkə də bir il. Baxın, bu on doqquz ilin belə dövrləri olub: çatışma dövrü, dərs oxumamaq dövrü, universitetlərdə aksiyalar dövrü. Bunların təsiri yoxdurmu?! Tələbəni dərs oxumağa qoymurlarsa, siz istəyirsiniz ölkənin elmi mühitində ildırım sürətli tərəqqi yaransın?!

Sonra müharibə başladı. Onun da öz problemləri vardı. Əlbəttə, onda universitetlər açıq idi, dərslər keçirilirdi, amma ölkə müharibə ilə məşğul idi. Biz bu on doqquz ili xəlbirdən keçirsək, ondan düz-əməlli on il qalmaz. Əslində, biz müharibə bitdikdən sonra universitetlərlə məşğul ola bildik. Xeyr! Bizim onillik elmi tərəqqimiz ABŞ-ın iki yüzilllik elmi sürəti qədər deyil. Amma mən sizə demək istəyirəm ki, iranlı tələbə öz istedadı, imanı, müstəqilliyi, bu gün xalqımızda, xüsusən də gənclərdə və tələbələrdə olan başucalığı hissi ilə otuz il çalışsa, digərlərinin yüzillik işi qədər inkişaf edə bilərik.

**Dillə dəvətin təsiri**

**Sual:** Günah və bəyənilməz işlərə qarşı ən yaxşı tədbir nədir?

**Cavab:** Baxır kim tədbir görmək istəyir. Əgər siz istəyirsinizsə, bunun yolu dildir. Dillə deməkdən başqa sizin üzərinizə heç bir vəzifə düşmür. Xalqı pis və bəyənilməz işlərdən çəkindirmək yalnız dillədir. Lakin dövlət üçün belə deyil. Əgər bəyənilməz iş böyük olsa, dövlətin qarşılığı bəzən qanunla və sərt də ola bilər. Lakin müqəddəs İslam şəriətində göstərilən "yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə" prinsipi yalnız dillədir.

Təəccüb etməyin. Şübhəniz olmasın ki, dillə dəvət etmənin və çəkindirmənin təsiri dövlətin polad yumruğundan da artıqdır. Mən bir neçə ildir yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə üzərində təkid göstərirəm. Bəziləri bunu bilirlər, amma hamı yox. Dillə dəvəti təcrübə etmir, sınaqdan keçirmir, amma deyirlər ki, təsir eləmir. Bunu sınayın, təcrübədən keçirin, bəyənilməz iş gördükdə dillə deyin. Dili acılaşdırmaq, yaxud pis işi aradan qaldırmaq üçün çıxış etmək lazım deyil. Bir kəlmə deyin ki, xanım, qardaş, bu, pis işdir. Siz deyin, ikinci adam desin, üçüncüsü desin, onuncusu, əllinci desin. O nə zamana qədər pis işini davam etdirə bilər?!

Əlbəttə, mənim əzizlərim, siz pis və bəyənilməz işləri tanımalısınız. Ola bilsin, bəzi işlər kimlərəsə pis görünsün, lakin belə olmasın. Yaxşı və pisi öyrənmək, hər hansı işin doğrudan da pis olduğunu bilmək lazımdır.

Bəzilərinə görə, bunda təsir ehtimalı mövcud olmalıdır. Mən isə deyirəm ki, güclü quldur rejimləri və şahları çıxsaq, təsir ehtimalı hər yerdə var. Doğru söz yalnız onlara batmır, təsir eləmir. Camaat isə belə deyil. Söz insanlara təsir edir. Deməli, mənim cavabım bu oldu ki, bu yönümdə sizin üçün ən yaxşı yol dillə dəvət etməkdir.

**Sual:** Universitetlərdə mədəni-ideoloji hücumun, bəzi Elmi Şura üzvlərinin diktatura və monopoliyasının mövcud olduğu, müsəlman müəllimlərə təzyiq göstərdikləri halda, quruluş belə müəllimləri müdafiə etmək, onların ixracının qarşısını almaq məqsədilə hansı tədbirləri nəzərdə tutur?

**Cavab:** Əlbəttə, mən siz əziz qardaş və ya bacının yazdığı bu sözü təsdiq etmirəm. Mənim oxumağım bunu təsdiq etmək demək deyil. Mən yazılanı oxuyuram. Çünki belə bir halın mövcudluğundan xəbərdar deyiləm. Əgər doğrudan da belə bir şey varsa, universitetdə müsəlman müəllimə qarşı təzyiqlər edilirsə, bu, çox pis haldır. Amma belə bir halın mövcudluğuna inanmağım gəlmir. Ümidvaram belə olmasın.

**Yaxşı əlaqələr**

**Sual:** Lütfən, müxtəlif qruplar arasında birlik barədə fikrinizi bildirin.

**Cavab:** Mən birliyi, yaxşı münasibətləri vacib sayıram. Düzgün və qəti məsələlərdən geri çəkilməmək mənasında olan yaxşı münasibətləri nəzərdə tuturam. Məncə, üsul və metodlarından asılı olmayaraq, tələbə qrupları arasında yaxşı əlaqə bərqərar edilməlidir. Siz baxın, dünya ölkələri, müxtəlif ictimai və siyasi qruplar çoxlu ixtilaflarına rəğmən, bir stol arxasında oturub danışır, müzakirələr aparır, nəhayət, vahid bir fikrə də çatırlar. Bir müsəlman universitetində eyni etiqadlara inanan, İslamı, imamı, inqilabı, dəyərləri qəbul edən, lakin üslubları fərqlənən insanların bir araya gələ bilməmələrinin mənası yoxdur. Mən bunu anlaya və qəbul edə bilmirəm.

**Sivil cəmiyyət**

**Sual:** Sivil cəmiyyət, partiyaların yaradılması və bələdiyyələrin seçilməsi barədə fikriniz nədir?

**Cavab:** Sivil cəmiyyət bir sözdür, baxır mənası nə ola. Sivil cəmiyyət devizini bizim prezidentimiz irəli sürüb. O bunu izah edərkən deyib ki, məqsədim “Mədinətünnəbi”dən, yəni Peyğəmbər şəhərindən örnək alan cəmiyyətdir. Bizim hamımız belə bir cəmiyyət uğrunda canımızı qurban verməyə hazırıq. Bu, məlumdur.

**Bələdiyyələr və partiyalar**

Bu gün Qərbdə bu terminin xüsusi mənası var. Bilin ki, qərblilər bütün mümkün fəndlərlə özlərinin əsas düşüncə və mədəniyyətlərini sırımağa çalışırlar. İndi bir şey düzəldib ona bir ad da qoyublar. Bununla işimiz yoxdur. Bizim özümüzdə bu termin izah olunub və biz onu qəbul edirik.

Partiyalara, bələdiyyə seçkilərinə və digər bu kimi məsələlərə gəlincə isə, konstitusiya bunların hamısının vəzifəsini müəyyənləşdirib. Məgər kimsə konstitusiyanı qəbul etməyə bilərmi?! Konstitusiya bələdiyyə və partiyaların funksiyasını müəyyən edib. Əgər konstitusiyada və digər qanunlarda təsbit olunmuş tərzdə əməl olunsa, mən razıyam və onu düzgün sayıram.

**Əhli-beytin vilayəti**

**Sual:** Vilayəti müdafiə edən qruplar barədə fikrinizi bilmək istərdim.

**Cavab:** Məncə, bütün qruplar vilayəti müdafiə edirlər. Mən ölkədə vilayəti qəbul etməyən ciddi bir qrup tanımıram. Hamı vilayəti qəbul edir. Ola bilsin, kimsə bunu çox sevsin, kimsə az. Misal üçün, imamların vilayətini hamımız qəbul edirik. Amma elə adam var ki, Əmirəlmömininin adı çəkiləndə gözü yaşla dolur. Onun daha çox eşqi var və təbii ki, daha çox savaba nail olacaq. Biri də var ki, yox, onu qəbul edir, imam bilir, sevir, onun yolunda ölümə də hazırdır, amma daha "Əssəlamu ələykə ya Əmirəlmömінin" deyən kimi gözləri yaşarmır. Buna demək olmaz ki, siz nə üçün vilayəti qəbul etmirsiniz və gözləriniz yaşarmır.

**Birliklərin məqsədi**

Bütün tələbə birliklərinin, istər birliklərin özünün, istərsə də tələbələrin mənimlə əlaqəsi var; hamısı yanıma gəlir və vilayətə sevgilərini bildirirlər. Hamı qəbul edir. Qəbul etməmələri mümkün deyil. Bəllidir ki, qəbul edirlər. Mən də bir mənada hamısını dəstəkləyirəm. Əlbəttə, maddi dəstək yox. Mən heç kimi maddi cəhətdən dəstəkləmirəm. İnanıram ki, bunlar universitetdə olmalı, çalışmalı, zəhmət çəkməli və təbii ki, xalqı islamçı və inqilabçı etməlidirlər. Tələbə birliklərinin vəzifəsi budur ki, müxtəlif təbəqələri əsl müsəlman və inqilabçı etməyi, onları inkişaf etdirməyi, əxlaqi cəhətdən saflaşdırmağı, onların əxlaq və inqilab əsaslarını dərinləşdirməyi özlərinə məqsəd seçsinlər.

**Uğurlu tələbə**

**Sual:** Uğurlu tələbə hansı tələbədir?

**Cavab:** Məncə, uğurlu tələbə yaxşı dərs oxuyan, yaxşı əxlaqlı olan və yaxşı idman edəndir. Mən uğurlu tələbə üçün üç özəllik tanıyıram. Əlbəttə, evdə uğurlu bir gəncin başqa meyarları da ola bilər. Uğurlu bir tacirin, uğurlu bir idarə işçisinin də digər meyarları da ola bilər. Lakin tələbəlik baxımından uğurlu tələbə yaxşı dərs oxuyan, əxlaqlı olan və idman edəndir.

**Sual:** Pis əməl və niyyətlər qarşısında hizbullahçı və mömin gənclərin vəzifəsi nədir?

**Cavab:** Əgər pis və münkər iş olsa, vəzifə çəkindirməkdir.

**Bizim gənclik dövrümüz**

**Sual:** Lütfən, bir qədər öz gəncliyinizdən danışın.

**Cavab:** Bizim gəncliyimiz bir baxımdan çox həyəcanlı və macəralı keçib, bir baxımdan isə həsrət çəkməli gənclik olmayıb. Sizin dövrünüz kimi gənclik dövrü isə həqiqətən, həsrətini çəkməli dövrdür. Mənim əzizlərim! Siz azadlıq və istedadların aşkarlığı dövründə yaşayırsınız. Bizim gənclik dövrümüz belə deyildi.

Mən bu universitetin hüquq institutunun qabağında bir qardaşı gözləyirdim. Danışmışdıq ki, mən gəlim və birgə bir yerə gedək. Təxminən on dəqiqə burada dayandım. Hiss etdim ki, SAVAK işçiləri və universitetin təhlükəsizlik məmurları hər tərəfdən mənə şübhə ilə baxırlar. Mən tələbə olmadığımdan öz-özlərinə deyirdilər ki, bu əmmaməli adamın burada, hüquq institutunun qabağında nə işi var, məqsədi nədir, bəlkə siyasi iş görmək istəyir.

Dəqiq yadımda deyil, altmışıncı illərin sonları, ya da yetmişinci illərin əvvəlləri idi. Mərhum Riyazi Yəzdi bizə gəldi. O, nisbətən yaxşı şair idi, Tibb institutunda işləyirdi. Bu yaxınlarda gördüm ki, şeir divanı çap olunub. O bizimlə yaxın dost idi. Məni çağırdı və salamlaşdı. Sonra dedi ki, siz universitetin məscidini görmüsünüz? Mən görmədiyimi bildirəndən sonra dedi ki, gedək göstərim. Məncə, buralarda idi. İndi dəqiq yadımda deyil. Deyəsən, o zamandan vəziyyəti dəyişib. Orada üzərinə şeir yazılmış kətibələr var idi. Bizi o kətibələrin yanına gətirdi və dedi ki, bu şeirlərə baxın. Sonra oxumağa başladı. Axırına çatanda bildik ki, şeirlərin onun özünündür. Allah ona rəhmət etsin! Bizi gətirmişdi ki, bunları görək. Hər halda, biz onun şeirlərindən çox istifadə etmişdik. Bu da başqa bir nümunəsi idi. Mühit şübhəli və təhlükəli idi. Mən mübarizədə olmuş, həbsxanaya düşmüşdüm. Hüquq institutunun qarşısında on dəqiqə dayanmaqla məmurların şübhəli baxışlarına tuş gəlirdim. Bu baxımdan, vəziyyət çətin idi.

**Nümayəndəlik**

**Sual:** Fəqih rəhbərin universitetlərdəki nümayəndəliyinin rolunu necə dəyərləndirirsiniz? Sizcə bu qurum hal-hazırda özünün atalıq və təşkilatlarüstü mövqeyini yaxşı ifa edirmi?

**Cavab:** Bu, çox yaxşı qurumdur, universitetin buna ehtiyacı var. Əlbəttə, bu məndən qabaq da vardı, mən bir qədər təkmilləşdirdim, daha gənc və daha fəal insanlar cəlb olundular. Bəzi universitetlərdən mənə çatan xəbərlərə görə, Allaha şükür olsun ki, çox yaxşıdır. Amma bəzi yerlərdən də tələbələr gəlib şikayətlənirlər. İndiyədək qardaşlar dəfələrlə mənim yanıma gəlib şikayət ediblər. Lakin şikayət oradakı qardaşın pis fəaliyyətindən deyil, məsələn, az işlərin görülməsindəndir; lazımi işi görmürlər, işi vaxtında bitirmirlər və sair. Hər halda, problem varsa, aradan qaldırılmalıdır.

**Sual:** Meriyaların işinin sonu nə olacaq?

**Cavab:** Bunu prokurorluqdan soruşmaq lazımdır. Çünki mən bu məsələyə qarışmıram. İndi də işin hansı yerdə olduğunu bilmirəm. Bu işdə bir düyün yaranmışdı və mən gördüm ki, doğrudan da problemli məsələdir. Onu müvəqqəti həll etdim. Bu, məsələnin tərəflərini nəzərə almaqla edildi. Mən gördüm ki, məsələnin ölkənin yüksək çinli məmurlarından olan tərəfləri bu məsələ ilə bağlı problemlə üzləşiblər. Buna görə də, qarışıb məsələni müvəqqəti olaraq həll etdim. Lakin bu, son həll deyildir. Hər halda, bu iş məhkəməyə gedir və nəticə məlum olacaq. Məncə, məhkəmə pis bir şey deyil, yaxşıdır.

**Ruhaniliyin sevilməsi**

**Sual:** Mən bazar günü Fəhlə xiyabanında bir ruhaninin birisi tərəfindən yaralandığının şahidi oldum. Sizcə inqilabdan sonra ruhanilərin hörmətinin azalması nə ilə bağlıdır?

**Cavab:** Bu, bir ruhaninin yaralanmasını görüb, amma mən bir neçə ruhaninin təxminən şəhid edilməsinin şahidi olmuşam. Bu, çox da qəribə bir hal deyil. Hər bir insanın düşməni ola bilər. Xiyabanda bir ruhani yaralanıb, amma həmin saatda digər yerlərdə onlarla qeyri-ruhani yaralanır. Bu, hörmətin azalması demək deyil. Ümumi olaraq inqilabdan sonra ruhanilərin hörmətinin azalmasını, yaxud artmasını demək olmaz. Bir qisminin hörməti artıb, bir qisminin isə azalıb. İnqilabdan sonra bir zaman çox yüksəlib, bir zaman da bir qədər azalıb. Bu, şəraitlə və dövrün bəzi amilləri ilə bağlıdır. Müxtəlif amillər bu məsələyə təsir edir. Bu, çox təbii bir haldır.

Əlbəttə, mən bunu da deməliyəm, ola bilsin, müqəddəs bir insan heç bir işə qarışmayıb kənarda dayansa, onun müqəddəsliyi və cənnətməkanlıq halı da qorunacaq. Amma meydana atıldığı andan bəziləri ona qarşı çıxacaq, bəziləri də razılaşacaqlar. Əgər ruhanilər inqilabın əvvəlində bəzi komitə və orqanlarda iştirak etdikləri kimi, müxtəlif məsələlərə qarışmasaydılar və bu məscidin bir küncündə otursaydılar, bəzən də, məsələn, saqqallarını tərpədib vəziyyəti tənqid etsəydilər, heç şübhəsiz, bəziləri onları sevəcəkdilər. Amma mənim əzizlərim, bunu bilin. İnsan meydana atılanda həmişə bir qrup ona qarşı çıxır, bir qrup da onunla razılaşır.

**Kənara çəkilmək, yoxsa meydana atılmaq?**

Üsullar iki növdür. Bəziləri düşünürlər ki, biz cənnətməkan qalsaq, yaxşıdır; bir kənarda dayanaq və heç bir işə qarışmayaq. Bir qrup da deyir ki, mən cənnətməkanlığı kənara qoyub meydana atılıram, özümə vəzifə bildiyim işləri yerinə yetirirəm; bir qrupun xoşu gələ bilər, bir qrupun acığı tuta bilər, əsas odur ki, Allah razı olsun, Allahın xoşu gəlsin. Bu da bir üsuldur. Bu, yaxşı əməli seçənlərin yoludur. Amma hamı eyni deyil. Burada belə bir iddia etmirik ki, kim bu yolda olsa, məqamı ucadır. Xeyr. Bu yolda və hər bir gözəl, pak və müqəddəs libasda olub, çirkin məqsəd güdən çoxlu adamlar ola bilər.

**Hökmlərin icrasına maneələr**

**Sual:** Sizcə, İslamın nurlu hökmlərinin və İslam Respublikasının kosntitusiyasının mütərəqqi prinsiplərinin icrasına mane olan amillər hansılardır?

**Cavab:** Əlbəttə, çoxlarına əməl olunub. Ümumi şəkildə əməl olunmamasını demək olmaz. Amma, bəli, doğru deyirsiniz, onların bəzisinə əməl olunmayıb. Maneələr də bir-iki deyil ki, mən bir cümləyə yerləşdirim. Hər halda, müxtəlif maneələr var. Bu maneələrin bəzisi əməllərlə bağlıdır, bəzisi də idarəçilikdə, əsasən də idarəçilik ənənəsində mövcud olan güclü qüsurlarla əlaqədardır. Bu məneələrin bəzisi keçmişdən irs qalmış yararsız şərtlərə, bu hökmlərin və ya İslam Respublikasının əleyhinə aparılan təbliğata qayıdır. Hər halda, müxtəlif maneələr var.

**Dillə çəkindirmək**

**Sual:** Lütfən, deyin ki, mədəni sahələrdə inqilabçı hərəkətləri münasib sayırsınızmı? Başqa sözlə desək, aidiyyətli qurumların səhlənkarlıq etdiyi günah və fəsadlara fiziki müdaxilə məsləhətdirmi?

**Cavab:** Xeyr. Siz şəriət baxımından heç zaman pis və münkər işlərə qarşı fiziki müdaxiləyə vəzifəli deyilsiniz. Sizin vəzifəniz yalnız deməkdir. Sizin nə işiniz var, siz sözünüzü deyin. Siz demirsiniz, buna görə də elə bilirsiniz ki, desəniz, düzəlməyəcək. Yoxlayın, deyin, dəfələrlə deyin. Əlbəttə, bir nəfər desə, təbii ki, təsiri olmaz. Digərlərini də deməyə vadar edin. Deməyin təsiri yumruqdan qat-qat artıqdır. Bu, bəzən mimikalı etirazdan da təsirlidir. Baxmayaraq ki, mimika da təsirlidir və yumruq kimi deyil. Hər halda, pis işlərə qadağada fiziki müdaxilə lazım olsa, dövlətin işidir, camaatın yox. Amma hökumət icazə versə və kimisə bu işə məmur etsə, bu başqa məsələdir və indi bizdə belə bir vəziyyət yoxdur. Biz doğrudan da heç kimi məmur etmir və bu halların baş verməsini məsləhət görmürük.

**Sual:** İslam hövzələrinin tələbələrinin ruhani geyimi məsələsi necə olacaq?

**Cavab:** Mən məqsədinizi başa düşmədim. Yəni hövzə tələbəsi universitetə gəlsə, geyimi nə olacaq? Ruhani geyimi ilə gəlsin. Nə eybi var?! Paltarın nə fərqi var?! Hər halda, məqsəd budursa, cavabını verdim.

**Qanuna tabe olmaq**

**Sual:** Tibbi məsələlərin şəriət qanunları ilə uyğunluğu layihəsi barədə fikriniz nədir?

**Cavab:** Mən bu layihəni görməmişəm və olduğundan da xəbərsiz idim. Qəzetlərin qalmaqalından anladım ki, belə bir layihə var. Bir dəstə müxalifdir, bir dəstə isə müvafiq. Mən bu layihənin nə və necə olduğunu bilmirəm. Ümumiyyətlə, qanun və qaydalar haqda fikir yürütmək istəmirəm. Qəsdən bunu etmək istəmirəm. Çünki bunun öz proseduru var və onu təbii şəkildə keçməlidir. Amma əgər qanun olsa, mən qanuna tabe olacağam. Hamının vəzifəsi tabe olmaqdır. Hər halda, bu işin mənası universitetlərdə İslam qanunlarına əməl etməkdirsə, çox yaxşı və hətta vacib bir işdir. Əgər nöqsanları olsa, aradan qaldırmaq lazımdır.

**Tənbəllikdən çəkinmək**

**Sual:** Biz həzrət Ruhullahla və aşiq şəhidlərimizlə bağladığımız əhdə sadiq qalmışıq və inşallah, bundan sonra da sadiq qalacağıq. Bu gün universitetdə, sizin dediyiniz kimi, tələbələrin ən azı qırx faizini əhatə edən birlik yoxdur. Nə üçün quruluşun mütəfəkkirləri qüvvə cəlb etməyə və həmçinin mədəni məhsullar təqdim etməyə örnək göstərmirlər?

**Cavab:** Məncə, tələbə birlikləri bayırdan örnək götürməməlidir. Örnək lazım deyil. Mən qırx faizin cəlb olunmasını dedikdə bildirmək istəyirəm ki, indi mövcud olan tələbə cəmiyyətləri yaxşı işləməli və ən azı tələbələrin qırx faizini toplamağı bacarmalıdırlar. Məncə, onlar az işləyirlər. Əgər belə olmasaydı, doğrudan da tələbələrin qırx faizini və bəlkə daha artığını cəlb edərdilər. Az çalışmaq, bəzən zövqsüzlük, üslub yanlışlığı və bəzən də qüsurluluq buna mane olur. Hansı örnəyin lazım olduğunu isə tələbələrin özü tapmalıdırlar.

**Nisbilik**

**Sual:** Bizim İslam quruluşumuzda kimisə mütləq haqq, kimi, yaxud hansısa düşüncəni isə mütləq batil bilmək olarmı? Yoxsa hər bir təfəkkürdə və hər bir fərddə az-çox haqq və batil var? Mən bu sualı özümün və çoxlu tələbələrin əsaslı suallarından bilirəm.

**Cavab:** Bu nisbilik məsələsi yaxşı söz deyil. Belə deyil ki, mən kiminsə mütləq haqq, yaxud kiminsə mütləq batil olmasını demək istəyirəm. Xeyr. İnsan təbii olaraq anlayır ki, düşüncələrində hətta bilmədən də bir yanlışı olmayan insan yoxdur. Yanlış təsəvvürü, yaxud batil fikri izləyən adamın sözlərində də nə isə doğru məqam var. Yəni hər bir yalançı da, təsadüfən olsa belə, nəhayət, bir dəfə doğru danışır. Mən bunu qəbul edirəm. Amma bunu elmi və fəlsəfi əsas kimi qəbul edib mütləq həqiqətin və mütləq yanlışlığın olmamasını demək səhvdir. Xeyr, mütləq haqq da var, mütləq batil də.

**Nisbiliyin rəddi**

Əziz Peyğəmbərimiz Bədr döyüşündə dedi ki, İlahi, bu gün bütün haqq bütün batilə qarşı dayanıb. Doğrudan da elə idi. Peyğəmbər mütləq haqq idi, qarşı tərəfdəki cəbhə isə mütləq batil. Siz deyin görək savadı olmayan, əxlaqdan uzaq olan, qızlarını torpağa gömən, büt qarşısında səcdə edən, bir-birinə zülm edən və qətllər törədən kafir Qüreyşin haqqı haradadır?! Bu, mütləq batildir; Peyğəmbərin mütləq haqq olduğu kimi. Buna əsasən, haqq və batildə nisbilik nəzəriyyəsini qəbul etmirəm. Lakin reallıqda bizdə mütləq haqqın, yaxud mütləq batilin olması başqa bir sözdür. Bəli, mən də belə düşünürəm ki, haqq tərəfdarı olan bir insanda, yaxud toplumda yanlış, batil və səhv məqamlar ola bilər. Bunun əksi də mümkündür.

Ümidvaram bu suala cavab verə bildim. Əgər bu sualı yazan əziz qardaş və ya bacıda yenə qaranlıq qaldısa, yazsın. Mən sonra macal tapsam, ya özüm bunlara cavab verəcəyəm, ya da bir qrupa tapşıracağam.

**Dini ekspertlər**

**Sual:** Lütfən, Dini Ekspertlət Məclisinə seçkilər barədə yayılan müxtəlif fikirlərə münasibət bildirin.

**Cavab:** Mən məqsədi başa düşmürəm və "müxtəlif münasibətlər" dedikdə nəyin nəzərdə tutulduğunu bilmirəm. Məncə, dini ekspertlərin seçilməsi çox mühüm bir işdir. Prezidentin və İslami Şura Məclisinin əksinə olaraq, dini ekspertlər məclisinin tənqidçilik işi yoxdur. Onlar bir an üçün otururlar, lakin o bir an - yəni rəhbərin seçim anı olduqca əhəmiyyətlidir. Mən də Allah-Taaladan heç bir sənəd almamışam ki, on günə, bir aya, altı aya, yaxud bir ilə qədər sağ qalım. Buna heç bir zəmanətim yoxdur. Ola bilsin, bir saatdan sonra mən olmayım. Tamamilə mümkündür, sözgəlişi demirəm. Buna görə, dini ekspertlər olmalıdır ki, bu şəxs yıxılan kimi başqa birisini qaldırsınlar. Necə ki, imamın vəfatından sonra bu iş sürətlə yerinə yetirildi. İndi onların seçim növü ilə işim yoxdur. Mən özümü layiq bilmirəm. Lakin bu işin özü və sürətliliyi çox səmərəli və həlledici oldu. Bu baxımdan, dini ekspertlərin işi olduqca əhəmiyyətlidir. Gərək əmanətdar, düzgün və dəqiq insanlar seçilib gözləsinlər. Əlbəttə, onlar ildə bir dəfə iclas keçirir, bir yerə toplaşıb bəzi məsələləri müzakirə edirlər. Bu iclas onlar üçün lazım və faydalıdır. Ola bilsin, uzun illər ötsün, amma söylədiyim əsaslı seçkiyə ehtiyac olmasın. Amma seçdikləri bir anda bu məclisin əhəmiyyəti olduqca böyüyür. Mənim münasibətim budur. Amma başqa bir fikir varsa, xəbərim yoxdur.

**Mətləblərin əks olunması**

**Sual:** Siz buyurduğunuz kimi, böyük və aparıcı insanların azğınlığı digərlərinin, ümumi kütlənin də azğınlığına səbəb olur. Bəzi cənablar sizin bilavasitə, yaxud vasitəli idarəçiliyiniz altında qanun pozuntularına yol verirlər. Bunları sizə necə çatdırmaq olar?

**Cavab:** İndi mənə bir sözü çatdırmaq ölkənin hər hansı məmuruna çatdırmaqdan asandır. Hansısa sözü çatdırmalı olan adam bunu etməsə, öz təqsiridir. Mənim xalqla çoxlu görüşlərim olur. Qabaqcadan təyin edilməklə bazar ertəsi günləri müxtəlif bölgə və təbəqələrdən olan insanlarla görüşürəm. Bəzən tələbələr gəlirlər, bəzən başqaları. Görüşlərim çox olur. Bundan əlavə, bizim dəftərxanada xalqla əlaqə müavinliyi var. Sayı dəqiq yadımda deyil, amma hər gün yüzlərlə məktub alıb xülasələşdirir və gündəlik bülleten formasında mənə verirlər. Mən də vaxt tapdığım qədər onlara baxıram. Bu baxımdan, sözü çatdırmaq olar.

**Ağıllı tədbir**

**Sual:** Cəmiyyətdə yayılan şayiələrin qarşısını kim almalıdır?

**Cavab:** Mən bilmirəm ki, şayiələri mütləq şəkildə aradan qaldırmaq mümkündür, yoxsa yox. Cəmiyyətdə həmişə şayiə var. Lakin bir tərəfdən, şayiənin hədəfi olan insanlar ağıllı tədbir görsələr və digər tərəfdən informasiya vasitələri düzgün xəbərləri yayımlasalar, məncə, şayiə şəraiti öz-özünə aradan qalxar.

**Dostluq**

**Sual:** 23 may prezident seçkiləri günü "Mənim üçün heç kəs Haşimi kimi deyildir" deyərkən məqsədiniz nə idi?

**Cavab:** Səbəbi budur ki, cənab Haşimi 1957-ci ildən yəni 41 il bundan öncədən mənimlə həmkar və dostdur. 41 illik dostluq çoxdur. Yəni sizin ömrünüzdən iki dəfə artıq. Təsadüfən, maraqlı bir məqam var. Mən bunu deyən gün cənab Xatəmi seçilmişdi. Maraqlıdır ki, cənab Xatəmi ilə tanışlığımızın da bu qədər keçmişi var. Biz onunla 1958-ci ildən tanışıq. Əlbəttə, o zaman kiçik idi. 1958-ci ildə mən Quma gəlmək istəyirdim. Onun olduqca əziz və böyük insan olan atası mərhum Ayətullah Xatəmi Məşhəddə idi və biz orada onunla tanış olmuşduq. Onun və qardaşlarının 15-16 yaşları var idi. Mən yaşca onlardan çox da böyük deyildim, 5-6 yaş böyük idim, lakin belə yaş dövründə 5-6 il aydın görünür. Onunla tanışlığımız da qədimdir. Hər halda, indi vəziyyət yaxşıdır. Allaha şükür olsun ki, prezidentimiz bizə çox yaxındır, münasibətlərimiz çox yaxşı və səmimidir.

**Döyüşçülər**

**Sual:** Döyüşçülərin və Bəsic üzvlərinin universitetlərə və yüksək pillələrə daxil olmasını prioritet seçməkdə məqsədiniz nədir? İnqilabın fədakar qüvvələri üçün nəzərdə tutulan bu imtiyaz indi də icra olunmalıdırmı?

**Cavab:** Nə eybi var?! Mənim fikrimcə, heç bir eybi yoxdur. Əmirəlmöminin buyurub: "Yaxşı və pis iş görənlər sənin yanında bərabər olmamalıdırlar". İnqilaba və ölkəyə həqiqətən, xidmət göstərmiş, bizim yatdığımız zaman sərhədlərin sonuna qədər gedib vuruşmuş insanlara imtiyaz verilməsinin nə eybi var?! Düzdür, bu imtiyazlar elmi meyarlara kölgə salmamalıdır, onlar elmi baxımdan yaxşı olmalıdırlar. Savadsız insan universitetə gələ də bilməz. Xoşbəxtlikdən, belədir. 2-3 il bundan əvvəl mənə xəbər verdilər ki, bu imtiyazlarla universitetə girmiş bəzi uşaqlar çox yüksək

elmi nailiyyətlər əldə etmişlər. Belə də olmalıdır. Hər halda, məncə, bu imtiyaz yaxşı bir şeydir, pis deyil və fədakarlıqlarına görə minnətdarlıqdır.

**Siyasi təhlil qabiliyyəti**

**Sual:** Lütfən, tələbələrin siyasi fəaliyyətlərinin gələcəyi və istiqaməti barədə fikrinizi bildirin.

**Cavab:** Mən bu barədə sözümü demişəm. Mən 3-4 il öncə dedim ki, tələbələr siyasi olmalıdırlar. Sonra da universitetləri siyasətdən uzaq salanlar haqda sərt ifadə işlətdim. Ondan bir il sonra, yaxud elə həmin ildə bir tələbə toplantısında dedim ki, səhv etməyin, mən "siyasi fəaliyyət" dedikdə dövlət, quruluş və onun yüksək məmurları əleyhinə çıxmağı nəzərdə tutmuram. Bəzi bədxahlar siyasi fəaliyyəti belə tərif edirlər. Elə bilirlər ki, siyasi fəaliyyət siyasi hoqqabazlıqdır. Bu, bir fırıldaq və təhrifdir ki, insan universitetdəki siyasi fəaliyyəti yalnız onu-bunu təhqir etməklə, nə gəldi deməklə izah etsin. Xeyr, siyasi fəaliyyət tələbədə təhlil qabiliyyətinin yaranması üçündür. Tələbənin siyasi təhlil qüvvəsi olmasa, aldanar. Tələbənin aldanması da çox pis haldır. Hər halda, tələbələr təhlil qabiliyyəti əldə etmək istəyirlərsə, siyasəti oxumalı, yazmalı, deməli və müzakirə etməlidirlər. Bu iş baş tutmasa, tələbələr təcrübə qazana bilməzlər. Mənim fikrim indi də belədir.

**İslam universitetinin xüsusiyyətləri**

**Sual:** Lütfən, təsəvvürünüzdə olan İslam universitetinin xüsusiyyətlərini bəyan edin.

**Cavab:** Mən bu haqda bir neçə çıxış etmişəm. İndi bunu iki kəlmədə demək mümkün deyil. Xülasə olaraq, mən İslama uyğun universiteti elə universitet bilirəm ki, orada elm həqiqi dəyərdir və insan elmi çörək qazanmaq üçün öyrənmir. Əziz Peyğəmbərimiz buyurur ki, hətta Çində olsa belə, gedib elmi öyrənin. Yəni o günün şəraiti ilə Hicazdan Çinə qədər getmək lazım olsa da, elm öyrənmək üçün gedin. O gün nə qədər pul və nə qədər qazanc üçün bir nəfər dəvəyə, yaxud gəmiyə minib Çinə gedərdi?! Maddi qazancdan ötrü belə çətin səfərə çıxmazdılar. Bu, elmin dəyərini göstərir. İslamın universiteti də də belə olmalıdır.

Siz elmi sevməli, dəyər bilməli, onu Allah üçün və pak niyyətlə öyrənməlisiniz. Mənim əzizlərim! Siz həm də nəfsinizi saflaşdırmağa çalışın, özünüzdə əxlaq təməllərini gücləndirin. Alim, tədqiqatçı insanlar ölkə üçün çox böyük sərvətdirlər, amma bu şərtlə ki, əxlaq bünövrələri möhkəm, vicdanları ayıq olsun. Əks təqdirdə, elmin faydası olmaz.

Siz bilirsiniz ki, keçmiş rejim dövründə bizim universitetlərimizdə çoxlu uşaqlar təhsil aldılar. Yaxşı istedadları da vardı. Amma sonra buraxıb xarici ölkələrə getdilər, xalqlarının əleyhinə işləyən xarici ölkələrin nökərinə çevrildilər. Bu xalqın çörəyini yedilər, bu xalqın universitetində dərs oxudular, amma gedib onların nökəri oldular və ömürlərinin sonuna qədər orada qaldılar. Bu, əxlaqi vicdanın ayıq olmamasına görədir.

**Sual:** 1997-ci ildə cənab Əbuturabi ilə birgə Məkkəyə getdik. Allah evinin ziyarəti məndə bir inqilab yaratdı. Məncə, fiqhi məsələlərdə texnologiya müəllimlərindən, mühəndislərdən də istifadə edilsə, bu, xüsusən allahşünaslıq məsələlərində yeni baxışlar yarada bilər. Bununla yanaşı, həcc ziyarəti məqsədilə Məkkəyə getməyi çox arzulayan müəllimlər də bu imkandan bəhrələnərlər.

**Cavab:** Siz deyirsiniz ki, Məkkəyə getmisiniz. Yolunu da tapmısınız; yəni cənab Əbuturabi var, daha məni neyləyirsiniz? Məlum olur ki, bu işin açarı cənab Əbuturabinin əlindədir. Kaş məni də Məkkəyə apara biləydi! Mən ömrümdə bircə dəfə Məkkəyə getmişəm, o da ongünlük. Gedib gələnə qədər on gün çəkdi. Allaha şükür olsun ki, siz gedib bir ay orada qalmısınız. Şübhəsiz, bizdən daha artıq bəhrələnmisiniz.

Fiqhi məsələlərdə müxtəlif müəllimlərdən və müxtəlif elmlərdən istifadəyə gəlincə isə, allahşünaslıq məsələsi kəlam elminə aiddir, fiqhə yox. Amma hər halda, bunlardan istifadə düzgün və çox yaxşı fikirdir. Mənası da mövzuları tanımaq üçün elmi ixtisaslardan istifadə etməkdir.

**Fiqhin əsas çatışmazlıqı**

Bizim fiqhimizin əsas çatışmazlıqlarından biri mövzuları tanımaqda zəiflikdir. Çünki fiqhdə hökm bir mövzuya aid olur. Əgər fəqih mövzunu tanımasa, hökmü bilməkdə və tətbiq etməkdə səhvə yol verər. Məsələn, maliyyə məsələləri sahəsində bəziləri pulu tanımır, bank sistemini bilmir, nəticədə Quranda deyilən ribanın hökmündə yanlışlığa yol verirlər. Bu, bir misaldır. Buna dair çoxlu nümunələr var.

Mövzunu təyin etmək çox yaxşıdır. Mən bunu yaxşı qarşılayıram. Bu, çox yaxşı işdir. Bunun yolu Qum hövzəsi ilə əlaqə saxlamaqdır. Yaxşı olar ki, cənab Əbuturabi bu zəhməti də çəksin və bu işə həvəsi olan qardaşları Qum Elm Hövzəsi və onun müdiriyyəti ilə tanış etsin.

**Siyasi araşdırmalar**

**Sual:** Lütfən, deyin ki, universitetlərdə siyasi və mədəni prioritetlər hansılardır, inqilabçı və müsəlman tələbələr hansı düzgün yollarla onlara nail ola bilərlər?

**Cavab:** Məncə, siyasi məsələni dedim. Belə düşünürəm ki, bugünkü siyasi prioritetlər mövzuları müəyyənləşdirməməlidir, metodları təyin etməlidir. Mövzular çox da fərqlənmir. Məncə, tələbələrin siyasi müzakirələri yaxşıdır, bunu etsinlər. Lakin tapşırılan şəkildə yox, özləri axtarıb-araşdırsınlar. Biz hər işi fərmanla görən məmurlara, yüksək vəzifəli şəxslərə etiraz edirik, amma sonra bir də görürük ki, bir tələbə bir konfransda, kiçik, yaxud böyük toplantıda fərman verir. Əgər fərman pisdirsə, hər yerdə pisdir. Tələbə müzakirəsi gərək açıq, elastik, dartılıb-uzanan azalıb-çoxalan olsun ki, nəticədə tələbənin siyasi təhlil qabiliyyəti inkişaf etsin. Tələbənin siyasi müzakirələrində məqsəd bu olmalıdır. Tələbə siyasi təhlil qüvvəsi əldə etməlidir. Mədəni məsələlərdə də belədir. İndi bu haqda danışsaq, uzun çəkər. Bunlar geniş mövzulardır.

**Pis rəftar**

**Sual:** Univerisitetlərin İslam birlikləri və həmçinin mədəni orqanlar ümumi şəkildə bir-birlərinə qarşı çalışırlar. Bu əzizlərin əksər vaxtı bir-birinə siyasi cavab verməyə sərf olunur. Əksər hallarda da əsas mədəni mövzunu və cəmiyyətin köklü dərdlərini kənara qoyub bir-biri ilə məşğul olurlar. Bu növ "Allaha yaxınlaşmaq" yolunda bəzən ən böyük günahlardan da çəkinmirlər. Əgər lazım görsəniz, bu barədə fikrinizi bildirin.

**Cavab:** Məncə, bu sözlərdə cavablar da bəyan olunub. Bu deyilənlərin, qardaşların ürək ağrısı ilə yazdıqlarının məncə, hamısı dərddir, hamısı pisdir. Onlar bir-birinin canına düşməməli, bir-birinə qarşı çalışmamalı, bir-birinə hücum çəkib intiqam almamalı, əxlaqsız hərəkətlərə yol verməməlidirlər. Müsəlman üşaqlar belə rəftar etməməlidirlər.

**Aktiv tələbə**

**Sual:** Belə nəzərə çarpır ki, bizim cəmiyyətimizdə bəzi mədəni, ictimai və iqtisadi işlərin elmi əsası yoxdur. Bəzi məsələlərdə tələbələrin iştirakı ilə çox asanlıqla bəzi problemlərin və israfçılıqların qarşısını almaq olar. Ümumiyyətlə, milli və ictimai əməkdaşlıq baxımından tələbələrin rolunu necə dəyərləndirirsiniz?

**Cavab:** Tələbə ayıq və aktiv təbəqələrdən biridir. Tələbələr ictimai-siyasi məsələlərdə də aktiv iştirak etməlidirlər. Yaxşı olar ki, tələbə müxtəlif məsələlərdə, cəmiyyətin siyasi işlərində, seçkilərdə, nümayişlərdə

aksiyalarda, xüsusən çox əhəmiyyətli olan beynəlxalq məsələlərdə fəal olsun. Elmi əsasın olmamasına gəlincə isə, bunun olması yaxşıdır. İndi mən bu barədə bir söz deyə bilmərəm.

**Allahla mənəvi əlaqə**

**Sual:** Hizbullahçı və inqilabçı cavanların ən ümdə vəzifəsi nədir?

**Cavab:** Universitetin inqilabçı gəncləri yaxşı dərs oxumağa çalışmalı, düşüncələrini inkişaf etdirmək, öz çevrələrində təsirli və fəal olmaq üçün səy göstərməlidirlər. Onlar öz çevrələrində elmi və mənəvi təsir buraxmalıdırlar. Bu, mümkündür. Bəzən bir gənc ətrafındakı mühiti, sinfi, müəllimi, hətta universiteti öz mənəvi təsiri altına sala bilər. Əlbəttə, bu iş siyasətbazlıqla əldə edilmir, mənəviyyatla, səmimiyyətlə, Allahla mənəvi əlaqəni möhkəmləndirməklə hasil olur.

Mənim əzizlərim! Allahla mənəvi əlaqəyə ciddi yanaşın. Siz gəncsiniz. Allahla danışın, Allahdan istəyin. Münacat, namaz, diqqətli namaz sizə çox lazımdır. Bunları ikinci dərəcəli hesab etməyin.

**Sual:** Universitetin ikinci kurs tələbəsiyəm. İslam elmlərinə çox böyük marağım var, gələcəkdə islamşünas və təbliğatçı olmaq istəyirəm. Bəziləri deyirlər ki, əvvəl bakalavrı bitir, sonra hövzəyə get. Sizin tövsiyəniz nədir? Bakalavrı bitirib gedimmi? Yoxsa magistraturanı da oxuyum? Yoxsa doktoranturanı da bitirsəm, yaxşıdır? Bəlkə ümumiyyətlə, hövzəyə getməyim, yoxsa elə indi gedim?

**Cavab:** Tələbə qardaşların bəzisi gedib hövzə təhsili aldılar və böyük məqamlara çatdılar. Bu, çox yaxşı oldu. Məncə, onların bəzisi bakalavr pilləsinin sonunda getdilər, bəzisi də magistraturada. Bəziləri indi həm hövzədə, həm də universitetdə təhsillərini davam etdirirlər. Çox da yaxşıdırlar. Əlbəttə bu, bir qədər də çətindir.

Məndən soruşan və özünün həvəsi olduğunu deyən bu qardaş isə məncə, həvəsinə və istedadına baxmalıdır. Belə bir söz demək çətindir. Mən yəqin ki, nə sizi görmüşəm, nə də istedadlarınızdan xəbərim var. Buna görə, bu barədə fikir bildirmək səlahiyyətim olmaya bilər. Siz baxın, görün doğrudan da çoxlu həvəsiniz varsa, indiki ixtisasınız da ürəyinizcə deyilsə, indidən buraxıb gedə bilərsiniz. Əlbəttə, indi siz konkursda iştirak etmisiniz, universitetə qəbul olunmusunuz, yəqin ki, bir neçə semestr də oxumusunuz. Bitirməsəniz, heyfdir. Məncə, dərsinizi bitirib ən azı bakalavr diplomu alsanız, pis olmaz.

Allahın salamı və rəhməti olsun sizə!

## Ziyalılıq və İslam İnqilabı[2]

Bismillahir-Rəhmanir-Rəhim.

Mən öncə bugünkü görüş barədə qısa bir məqamı xatırladım. Mən təxminən bir həftə öncədən buraya gəlməyə qərar verdim, amma heç kimə demədim. Hətta dəftərxanada da 1-2 nəfər bilirdilər, başqa heç kim bilmirdi. Dünən axşam xəbərdar oldum ki, bu gün bir neçə tələbə birliyi iclas keçirmək istəyir. Dedim onlardan xahiş etsinlər ki, iclaslarını təxirə salsınlar və biz görüşümüzü keçirək. Xəbər verdilər və onlar da razılaşdılar.

**Eyni vaxtda keçirilən toplantılar**

Bu münasibətlə bir məqamı xatırlatmaq istəyirəm. Əziz tələbələr! Çıxışın və toplantının eybi yoxdur, amma heç vaxt bir universitetdə iki qrup eyni zamanda toplantı keçirməsin. Bu mənim sizə ata kimi tövsiyəmdir. Siz bir qrupsunuz, toplantı keçirmək istəyirsiniz. Öz fikrnizcə, lazım olan sözləriniz var, çıxış etmək istəyirsiniz. Amma bu sözlər başqasına lazımlı görünməyə də bilər. Çox yaxşı. Bir də toplanın. Amma o biri qrup sizin iclas keçirmək istədiyinizi gördükdə öz iclasını təxirə salsın. Beləsi düzgündür. Mənim əzizlərim! Mənim bu sözüm ehtimal deyil, informasiyadır: Tələbələri bir-birinin canına salıb dərsdən uzaqlaşdırmaq istəyirlər. İstəyirlər onları lazımsız işlərlə məşğul etsinlər. Onlara təslim olmayın və tələbə heysiyyəti ilə oynamalarına imkan yaratmayın.

**Tələbə heysiyyəti**

Mən əvvəllər də tələbələrə tövsiyə etmişəm ki, tələbə bu mühitə aid bir zümrədir. Siz buradan bayıra çıxdıqda daha tələbə deyilsiniz. Başqa birisi gəlir və bu xüsusiyyətlər ona şamil olur. Tələbə adı bu mühitə məxsusdur.

Tələbəlik dövrü yaxşı bir şeydir, müqəddəs və şirindir. Xüsusən də ömrünü yaşamış bizlər üçün çox gözəldir. Qoymayın sizi bir-birinizlə vuruşdurmaqla tələbə hesiyyətini və tələbə təbəqəsini gözdən salsınlar. Diqqətli olun.

Mövzu ziyalılıq və ölkəmizdəki ziyalılar barədədir. Bu, elə bir məsələdir ki, mən ona ad qoymaq istəsəm, məsələn, belə deməliyəm: ziyalıların mürtəceliyi, yaxud ziyalılıq irticası. Bildiyiniz kimi, ziyalılıq və ziya irticanın əksidir. Ziyalılıq və aydınlıq irəliyə, gələcəyə baxan bir

---

[2] Tehran universitetinin tələbələri ilə görüşdə çıxışı: 12 may 1998.

fenomendir, fransız sözü olan “intellectual”ın tərcüməsini ifadə edir. Əlbəttə, dilçilər deyirlər ki, bu tərcümə dəqiq deyil. Amma nə də olsa, məqsəd bəllidir. Mən sonra bu barədə bir qədər danışacağam. İnkişaf edən və gələcəyə baxan bu amil gələcəyə doğru gedir. Onda geriyə qayıdış ola bilməz. Amma mən elə bir vəziyyət müşahidə etmişəm və edirəm ki, ona ziyalılıq irticaçılığı, yəni ziyalıların geriləməsindən başqa bir ad qoya bilmirəm.

**Xəstə ziyalılar**

Mən dəfələrlə demişəm ki, ziyalılıq İranda xəstə doğuldu. Ziyalılığın malik olduğu xüsusiyyətlər - elmi düşüncə, gələcəyə baxış, aydınlıq, ağıllılıq, ictimai məsələlərdə ağrı duymaq, xüsusən də mədəniyyətə dair məsuliyyət hiss etmək bizim ölkəmizdə xəstə, qeyri-sağlam və eyibli doğuldu. Niyə? Çünki bizim tarixin ilk ziyalıları xəstə insanlar idilər. Mən belə şəxsiyyətlərdən və İranda ziyalılığın aparıcı insanlarından bir neçəsinin adını çəkirəm: Mirzə Mülküm xan Erməni, Mirzə Fətəli Axundzadə, Hacı Səyyah Məhəllati.

On doqquzuncu əsr Avropasının ziyalılıq nümunələrini İrana daxil edən ilk şəxslər etimadlı insanlar deyildilər. Məsələn, ziyalılıq iddiasında olan və Nasirəddin şahın totalitar rejiminə qarşı çıxan Mirzə Mülküm xanın özü Röyterin çox ziyanlı istismarçı planlarının dəllalı idi.

**İnhisarlar**

Bildiyiniz kimi, Nasirəddin şahın ömrünün son 20 ilində xarici inhisarçılıq ölkəyə çox böyük zərbə vurdu. İngilislər gömrükdə, tütün məmulatlarında, dəmir yolunda və sair sahələrdə inhisarçılıq edirdilər. Sonra ruslar gəlib deyirdilər ki, siz filan sahəni, filan ticarəti bizim rəqiblərmizə vermisiniz, gərək bizə də verəsiniz. Ona da bir şey verirdilər. Sonra bunun adını müsbət balanslaşdırma qoyurdular: xarixi siyasətdə və iqtisadi əlaqələrdə Rusiya və İngiltərə arasında müvazinət yaratmaq, lakin yarış formasında. Yəni bir gücə bir şey versinlər, sabah o birisi desin ki, niyə mənə vermədiniz, bunlar da desinlər al, bu da sənin. Sonra o desin ki, mənimki az oldu, desinlər bu da sənin. Beləliklə, İranı bir ailənin, yəni Nasirəddin şahın, saray adamlarının və bu süfrədən bir tikə oğurlaya biləcək hər kəsin mənafeyinə görə çapıb-talayırdılar.

**Ziyalılıq carçısı**

İranda ziyalılığın və aydınlığın ən məşhur carçısı sayılan Mirzə Mülküm xanın özü Röyterin dəllalı idi. Məşhur tənbəki monopoliyasında, yəni zamanın təqlid müctəhidi olan Mirzə Şirazinin boykot etdiyi və bu ziyanlı alış-verişin qarşısını aldığı zaman Mirzə Mülküm xan Röyterin dəllalı idi. Mirzə Mülküm xan Erməninin əsas dəllallıqlarından biri də parad məsələsində idi. Saray da onu qəbul etdi. Bu adam İranda ziyalılığın carçısı olmaq, xalqı gələcəyə, yeniliyə dəvət etmək istəyirdi. Görün bu zaman xalq hansı vəziyyətə düşər!

**Müasir siyasi tarix**

Mən bilmirəm sizin müasir tarixdən nə qədər məlumatınız var, onu nə qədər oxumusunuz. Yaxşı olar ki, boş vaxtınız olan yay fəslində proqramlı şəkildə bir qədər müasir tarixi, o cümlədən tənbəki məsələsini mütaliə edəsiniz. Bu mövzuda kitablar da yazılıb, onları oxuya bilərsiniz. Sözsüz ki, qərəzsiz yazılmız kitabları deyirəm. Çünki ortada din və ruhaniliyin adının olduğuna və bəzi yazıçılar dinlə düşmən olduqlarına görə belə böyük bir uğuru etiraf və bəyan etmək istəməmişlər.

**Çarların süfrəsində**

Başqa bir cəhətdən, Mirzə Fətəli Axundzadə də Mirzə Mülküm xana oxşayır. Axundzadə Xamenedəndir. Mən qədim xamenelilərdən və bəzi qohumlarımdan onun haqqında eşitmişəm. O, Oktyabr inqilabından əvvəl Qafqaza getdi, Rusiya çarlarının süfrəsində oturdu, onların köməyi ilə və onların sayəsində İran istibdadı əleyhinə mübarizə apardığını xəyal etdi. Bu mübarizə etimadlı və məqbul mübarizə deyildi. Bunların məqsəd seçdiyi birinci məsələ avtoritorizmə qarşı siyasi mübarizə yox, xalqın dininə, etiqadlarına və yerli prinsipial ənənələrə qarşı çıxmaq idi. Mən bu barədə sonra danışacağam.

Hacı Səyyah üçüncü nümunədir. O öz həyatını qələmə alıb. Bu kitabı oxuyan adam orada azad və böyük ruhanilərə qarşı sifarişli qərəzliliyin olmasına şübhə etməz. Müəllif orada ruhanilərin adını çəkməməyə və onlarla bağlı olan hadisələrin üstündən keçməyə səy göstərib. İranda ziyalılıq belə doğuldu.

**Aristokrat ziyalılar**

İranda ziyalılığın sonrakı təbəqələri də etimadlı insanlar deyildilər, daha çox şahzadələr, zadəgan övladları idilər. Abdullah Müstövfinin özünün yazdığı üçcildlik tərcümeyi-halına baxın. Onun özü də həmin ziyalılardan,

həm də Qacar sarayının zadəgan övladlarındandır. Əlbəttə, o, ortabab şəxsiyyətdir, mənfi olduğu nəzərə çarpmır. Siz o kitaba baxsanız, ilk ziyalılıq mesajlarının sahiblərinin kimlər olduğunu bilərsiniz. Qacarlar dövrü belə keçdi. İranın bütün ziyalıları arasında vətənpərvər, qərəzsiz və xeyirxah ziyalılar az idi.

**Rzaxanın ideoloqları**

Sonra Rza xanın dövrü başladı. Bu dövrdə ölkənin universitet müəllimlərdən, yazıçılardan və aydın mütəfəkkirlərdən olan birinci dərəcəli ziyalıları Rza xana çalışırdılar. Rza xan mədəniyyət və elmdən çox-çox uzaq olduğundan, onların Rza xanı müdafiə etməsini heç nə ilə izah etmək olmur. Rza xan nə savadlı idi, nə mədəniyyətli idi, nə də millətçi. Hamı onun ingilislərin siyasətini icra etdiyini bilirdi. Ziyalıların özləri görürdülər ki, Rza xanı ingilislər hakimiyyətə gətirdilər, şah kimi gücləndirdilər və maneələrini aradan qaldırıb yolunu açdılar. O zaman ziyalılar Rza xan xuntasının texnoloqları idilər; görmək istədiyi hər bir işin ideoloji və mental əsaslarını hazırlayır, hüquqi şərait yaradırdılar.

**Ölkənin elmi-mədəni mühiti**

Mən vəzifəli şəxs kimi yox, bir ruhani, hövzə tələbəsi, təqribən bütün gəncliyini dövrünün ziyalıları arasında keçirən və İran ziyalılarının tanınmış simalarının çoxu ilə ya yaxından, yaxud əsərləri vasitəsi ilə tanış olan, şair, yazıçı və ya mədəniyyət xadimi olan bu insanları yaxından və yaxşı tanıyan bir tələbə kimi sizinlə danışmaq istəyirəm. Mən istəyirəm bu dövrün cavanları olan sizlər bir qədər ölkənizin mədəni mühiti ilə tanış olasınız. Siz də ziyalı təbəqənin nümayəndələri sayılırsınız. Görün yolun harasındasınız? Əvvəl nə olmusunuz? İndiyədək nə baş verib və nə baş verə bilər? Sizin bunlara diqqət yetirmənizi istəyirəm.

**Kommunist ziyalılar**

Rza xan gedəndən və qəribə hökumət təşkil olunandan sonra ozamankı ziyalıların bir qismi kommunist partiyasına qoşuldular. Sovetə bağlı olsalar da, onlar ən sədaqətli ziyalılardan idilər. O zaman onların özləri də Sovetə bağlı olduqlarını qəbul və bəzən etiraf edirdilər. Onları Sovet yaratmışdı və dəstəkləyirdi. Onlar İranda SSRİ-nin beşinci kolonu funksiyasını yerinə yetirirdilər. Siz bu Kiyanvərinin və İslam Respublikası dövründə tutulan başqa kommunist rəhbərlərin xatirələrinə baxın. Onların xatirəsi çap olunub. Onlar 50-60 il bundan qabaqkı hadisələri yazıblar. Onlar bəlkə də bütün

həqiqətləri yazmayıblar, amma sözlərinin məcmusundan o zaman Kommunist partiyasının necə olduğunu başa düşmək olar. Buna baxmayaraq, ən sədaqətli və ən səmimi ziyalıların orada toplaşmışdılar. Onların biri Cəlal Ali-Əhmədin özü idi. Mən burada onun bəzi sözlərini söyləyəcəyəm.

Mərhum Cəlal Ali-Əhməd Kommunist partiyasında idi. Xəlil Məliki və digərləri də əvvəl bu partiyada olmuşdular. Mənim yadımda deyil ki, bu sözü onun özündən eşitmişəm, yoxsa bir dostum danışıb. Cəlal Ali-Əhməd 1968-ci ildə Məşhədə gəlmişdi. O mərhumla iştirak etdiyimiz bir məclisdə bu sözlərdən çox danışıldı. Buna görə güman edirəm ki, özündən eşitmişəm, yaxud ola bilər kimsə eşidib və mənə danışıb. O deyirdi ki, biz Kommunist partiyasının otaqlarında daim bir otaqdan o birinə keçirdik. Məqsədi bu idi ki, partiyada müəyyən mərhələləri keçirdik. Deyir nəhayət, divarın arxasından səs gələn bir yerə çatdıq. Dedik ora haradır? Dedilər bura Moskvadır. Dedik ki, onda biz yoxuq və qayıtdıq. Yəni partiyanın xaricə bağlı olduğunu duyan kimi kənara çəkilib, ondan xaric oldular. O, Xəlil Məliki və başqaları ilə birgə üçüncü qüvvəni yaratdı. Səmimilər orada idilər. Bu dövr təqribən Doktor Müsəddiqin dövrünə və 1953-cü ilin 19 avqustuna qədər davam etdi.

**Ziyalıların sükutu və Cəlal Ali-Əhmədin mövqeyi**

19 Avqustdan sonra zalım rejimə etiraz məsələsində ziyalılar arasında çox dərin sükut yarandı. Qırxıncı illərdə hakimiyyətin qəzəbinə gələnlərin çoxu əllinci illərdə onun itaətkar əməkdaşlarına çevrildilər. Ali-Əhməd "Ziyalıların xidməti və xəyanəti" kitabında əllinci illərin ziyalılarından danışır. O bu kitabı 1964-cü ildə yazmağa başlayıb, 1968-ci ildə bitirmişdir. 1968-ci ildə Ali-Əhməd Məşhədə gələndə biz onunla görüşdük. O, söhbət əsnasında dedi ki, uzun müddətdir bir işə başlamışam. Sonra bildik ki, 1964-cü ildən bu kitabı yazmağa başlayıbmış. O, bəzi məsələlərə dair bizdən məlumat istəyirdi; elə bilirdi bizim xəbərimiz var. Bundan bildik ki, belə bir kitab yazır. Bu kitab onun ölümündən sonra çap edildi, keçmiş rejim tərəfindən çapına icazə veriləsi bir kitab deyildi; qəti qadağan olunan kitablardan sayılırdı və yayılması imkansız idi.

Əlbəttə, burada Ali-Əhməd çox yaxşı mövqe seçir. Lakin yenə də görürsünüz ki, dinə etiqad bəsləyən, iranlı və yerli ənənələri sevən, onlara sadiq qalan, fars dilini və ədəbiyyatını sevən, Qərbə yad və qərbpərəstliyə düşmən olan bu adam bəzi məsələlərdə Qərb ziyalıları kimi düşünür, fikirləşir, danışır və mühakimə yürüdür. Mən ziyalılığın İranda xəstə

doğulduğunu deyəndə bunu nəzərdə tuturam. Nə qədər davam edirsə, xəstəlik də davam edir.

**Avam ziyalılığı**

Görək bu xəstəlik nə idi və harada özünü göstərirdi. Bunu sizə Ali-Əhmədin dilindən deyirəm. Ali-Əhməd ziyalılığın xüsusiyyətləri haqda deyir ki, bir qisim xüsusiyyətlər ziyalının avamcasına xüsusiyyətləridir. O deyir "avamcasına" sözünün mənası bu deyil ki, adi insanlar ziyalını belə təsəvvür edirlər. Xeyr! Hətta ziyalının özü də bəzən belə düşünür. Bunlar üç xüsusiyyətdən ibarətdir:

1. Din və məzhəbə müxaliflik - yəni ziyalı gərək dinə qarşı çıxsın;
2. Qərb ənənələrinə və Avropaya rəğbət;
3. Təhsil.

Bu, ziyalılığa dair avam təsəvvürlərdir. Ziyalının xüsusiyyətləri budur. Yəni dindar bir şəxs dövrün əllaməsi, ən böyük filosof, yaxud incəsənət xadimi olsa da, ziyalı sayıla bilməz. Sonra deyir ki, avam təfəkkürün məhsulu olan bu xüsusiyyətlər əslində alim və ziyalı dili ilə deyilməsi mümkün olan iki xüsusiyyətin sadələşdirilmiş formasıdır. Bu iki xüsusiyyətin biri yerli mədəniyyət və ənənələrə etinasızlıq prinsipidir - bu daha avam söhbəti deyil, qətidir; digəri isə elmi dünyagörüşə, elmi əlaqəyə və qəza və qədərin yalanlığına etiqaddır. O buna misallar da vurur. Onlar ziyalılığı Qərbdən öyrənmişdilər. Lakin Qərbdə olan ziyalılıqda belə bir xətt və istiqamət yoxdur. Axı nə üçün bir ziyalı mütləq yerli ənənələrinə etinasız yanaşmalıdır? Səbəb nədir?

**Ziyalı kimdir?**

Ziyalı düşüncə fəaliyyəti ilə məşğul olan adamdır, daha çox beyni ilə işləyir. Ziyalı əzələlərindən daha çox sinirləri ilə fəaliyyət göstərir. Ziyalı budur. Ali-Əhməd kitabının sonrakı fəsillərində müxtəlif ziyalı təbəqələrini - şairdən, yazıçıdan, mütəfəkkirdən başlayaraq universitet müəllliminə, tələbəyə, orta məktəb müəllliminə və jurnalistə qədər hamısını sayır. Onların sonuncusu müxbir və jurnalistlərdir.

**Orta Əsrlər**

Öz beyni ilə, təfəkkürü ilə işləyən adam nə üçün mütləq öz tarixinə, vətəninin və ölkəsinin ənənələrinə yad və hətta düşmən olmalı, dinə qarşı çıxmalıdır? Bu sualın cavabını o mərhumun öz sözlərində, yaxud bu barədə deyilmiş digər sözlərdə tapmaq olar. Səbəb budur ki, ziyalılıq – yəni

intellektuallıq məsələsinin ilk dəfə Fransada yarandığı dövr Fransa və Avropa xalqının Orta əsrlər dövründən çıxdığı zaman idi. Onlar qara, kobud və xurafatçı kilsə məsihiliyini kənara qoyub, rədd etmişdilər. Bu məsihilik alimi öldürür, ixtiraçını və kəşf edəni sürgünə yollayır, özünü və kitabını məhv edirdi. Belə bir şəraitdə aydın insanların meydana çıxıb bu xüsusiyyətlərə malik olan və heç bir ağıllı adamın qəbul etmədiyi söz və xurafatlarla dolu bir dini kənara qoyması, yeni işlərə başlaması, Fransanın yeni ensiklopediyasını yazması və digər böyük işlər görməsi təbii idi.

Təbii ki, bu insanlar həmin dinə arxa çevirməli idilər. Təqlidçi İran ziyalısı da Qacarlar dövründə ilk dəfə intellektuallığı ölkəyə daxil edib ona "münəvvirülfikr" adnı qoydu, sonra isə eyni antidin xüsusiyyətli ziyalıya çevrilib, İslama qarşı çıxdı: ən məntiqli təfəkkürlərə, ən aydın təlimlərə, ən möhkəm dəlillərə və ən təmiz əxlaqi dəyərlərə söykənən, o zaman İranda, ziyalılığın Qərbdə görmək istədiyi işi görən İslama. Çünki müstəmləkə dövrünün bir dönəmində qərbli ziyalılar Qərbin istismarına məruz qalmış bölgələrin xalqlarını himayə etdilər. Məsələn, İspaniya Kubanı müstəmləkəyə çevirib onun şəkər sərvətini ələ keçirəndə, fransalı Jan Pol Sartr Kuba xalqını, Fransa müstəmləkəsi əleyhinə mübarizə aparan Fidel Kastronu və Çe Gevaranı müdafiə edib, "Kubada şəkər müharibəsi" adlı kitab yazırdı.

**Xurafatçı məsihilik**

Başqa sözlə desək, Qərb ziyalıları müəyyən bir zaman kəsiyində zəif xalqların mənafeyindən ötrü öz dövlət və hökumətləri ilə mübarizə aparırdılar. İranda bu iş kimin tərəfindən görülürdü? Mirzə Şirazinin, Tehranda Mirzə Aştiyaninin, Fars vilayətində Seyid Əbdülhüseyn Larinin. Bunlar müstəmləkəyə qarşı mübarizə aparırdılar. Bəs müstəmləkə müqaviləsinin bağlanmasına və müstəmləkəçilərin müdaxiləsinə kim kömək göstərirdi? Mirzə Mülküm xan və onun kimilər, həmçinin Qacarların ziyalı sayılan kadrları. Yerlər tamamilə dəyişmiş və eyni zamanda xurafatçı məsihiliklə mübarizə İran ziyalılarında öz yerini İslamla mübarizəyə vermişdi. Deməli, ziyalılaın xüsusiyyətlərindən biri İslamla düşmənlik və ona qarşı çıxmaq idi.

**Çar rejimi ilə kommunizmin ortaq cəhəti**

Əlbəttə, indinin özündə də Pəhləvi dövrü ziyalılarının yazıçı, şair, tədqiqatçı, şərhçi və bioqrafiklərdən ibarət davamçıları bəzən uyğun xətti aydın şəkildə davam etdirir və Mirzə Fətəli Axundzadə kimiləri peyğəmbər kimi tərifləyirlər. Mirzə Fətəli dinə qarşı çıxdığına və İslamla mübarizə

apardığına görə həm gedib çarların süfrəsində oturdu, onların çörəklərini yedi və yardımlarını qəbul etdi, həm də sonradan bolşevik və kommunistlər bizim Xameneyə gələndə, Mirzə Fətəli Axundzadənin şərəfinə konsert verdilər.

Mən özüm uşaqlıq çağımı orada keçirmədiyimdən, bu hadisəni uşaqlığını orada keçirənlər illər sonra mənə danışıblar. 1945-1946-cı illərdə Pişəvərinin zamanında, Təbriz və Azərbaycanın bir hissəsi Sovet silahlı qüvvələrinin ixtiyarına keçib, işğal ediləndə və sonralar tar-mar edilən dırnaqarası yerli hökumət qurulanda bolşeviklər Mirzə Fətəli Axundzadənin şərəfinə Xameneyə gedib konsert verdilər. Yəni bu adamın həm çar hakimiyyətində tərəfdarı vardı, həm də bu hakimiyyəti devirən bolşeviklərin arasında. Şəxsiyyətin necə şübhəli olduğunu görürsünüzmü?! Çar rejiminin və kommunist quruluşunun ortaq cəhəti nədir: dinlə, İslamla düşmənlik. Bu adam da İslamla düşmənlik carçısı olmuşdur.

**Həqiqi ziyalılıq**

Əlbəttə, məncə həqiqi ziyalılıqda nə dinlə ziddiyyət var, nə ibadətlə. Bir insan həm gələcəyə baxan, düşüncə işi ilə məşğul olan, inkişaf uğrunda çalışan mənada ziyalı, həm də mərhum Doktor Behişti, Şəhid Mütəhhəri və bizim gördüyümüz həqiqətən mömin ziyalı şəxsiyyətlərin çoxu kimi dindar ola bilər. Dinə qarşı çıxmağa əsla lüzum yoxdur.

Dinsizliyi ziyalılığın mütləq şərti kimi göstərəndə nəticə belə olur: Dövrümüzün ən böyük filosofu olan, Fransadan Henri Korbin kimi filosofların və böyük şəxsiyyətlərin gəlib neçə il yanında qalan və elmindən bəhrələr götürən Əllamə Təbatəbai ziyalı deyil, amma məsələn, dinin təməllərinə, klassik təməllərə və irançılıq prinsiplərinə sadiq olmayan, bir neçə gün Avropada, yaxud Amerikada qalan filan cırtdan şair ziyalıdır və kim Avropada daha çox qalmışdırsa, daha ziyalı sayılır. Görün İranda ziyalı adına necə yanlış tərif verilmiş, necə çirkin cərəyan yaradılmışdır.

**19 Avqust hadisəsi**

Ölkənin çox əhəmiyyətli məsələlərində ziyalılar belə çıxış etdilər və kənarda dayandılar. 19 Avqust hadisəsində ziyalılar tərəfindən həqiqi mübarizə görünmədi. Düzdür, 19 avqust bizdən çox qabaq olub, lakin bu hadisədə Pəhləvi rejiminin sərt tədbirləri Doktor Müsəddiqə və milli hərəkata meylli ziyalıları elə vəziyyətə saldı ki, birdəfəlik kənara çəkildilər və onlarda heç bir həqiqi mübarizə müşahidə olunmadı. Əslində ziyalılıq missiyası onların xalqın xeyrinə və onun gələcəyi naminə ortaya çıxıb şeir

demələrini, yazmalarını, danışmalarını, xalqı maarifləndirmələrini tələb edirdi, amma bu işlər baş tutmadı.

**5 İyun hadisəi**

Sonra 5 iyun hadisələri baş verdi. Bu, indiki əsrdə xalqla hakim rejim arasında baş verən ən böyük hadisə idi. 5 İyunda, Aşura günü İmam Xomeyninin Qum şəhərindəki çıxışı ertəsi və daha sonrakı gün Tehranda konkret təşkilatçılıq olmadan xalqın izdihamlı etirazı ilə nəticələndi. Çap olunmuş sənədlər də həmin günlərdə bu hadisənin qarşısını almaq üçün Dövlət Şurasında aparılan müzakirələri əks etdirir. Siz görün o çıxış və xalqın bu izdihamı necə böyük rezonans yaratmışdı. İmamın hərəkəti ən güclü şəkildə baş tutmuş və xalqı hərəkətə gətirmişdi. Sonra isə rejimin əsgərləri küçələrə dolub xalqı atəşə tutdular. Biz dəqiq sayını öyrənə bilməsək də, bu hadisədə bir neçə min nəfər öldürüldü, qanlar töküldü.

**Ziyalıların xəyanəti**

Ali-Əhməd "Ziyalıların xidməti və xəyanəti" kitabında məncə bu ifadələrlə yazır ki, bizim ziyalılarımız öz əllərini 5 iyun qanı ilə yudular; yəni dodaqlarını da tərpətmədilər. Bu tanınmış ziyalılar - yəni şeir deyənlər, hekayə, məqalə yazanlar, siyasi təhlillər edənlər, xalqa rəhbərlik iddiasında olanlar, hən hansı bir ictimai məsələdə bir məqalə vasitəsi ilə bildirdikləri fikirlərin hamı tərəfindən qəbul olunmasını gözləyənlər sükut etdilər. Onlar xalqdan bu qədər uzaq idilər və bu uzaqlıq beləcə davam etdi.

Bəzən onlardan çox zəif tərpənişlər görünürdü, lakin rejim bir dəfə çığıran kimi qayıdıb gedirdilər. Belə nümunələrdən biri tanınmış bir adam idi. O, bir neçə il bundan əvvəl dünyasını dəyişdi. Adını çəkmək istəmirəm, kitabını deyəcəyəm; kim anlasa, anlayıb. Bu şəxs inqilabdan əvvəl "Ay papaqlı, ay papaqsız!" adlı pyes yazmışdı. Biz o zaman bu pyesi oxuduq. O, bu pyesdə ziyalının rolunu müəyyənləşdirmişdi. Bu simvolik ifadədə "papaqsız" sözündə məqsəd ingilislər, "papaqlı" sözündə isə amerikalılar idilər. Pyesin birinci pərdəsində ingiltərəlilərin, ikinci pərdəsində isə amerikalıların nüfuz dövrü əks olunurdu. Hər iki dövrdə xalqın müxtəlif təbəqələri öz mövqelərinə görə hərəkət edir, çalışırdılar. Bu pyesdə "eyvandakı kişi" adlanan ziyalı isə ümumiyyətlə, kənarda qalırdı. O görür, bəzən bir söz də deyir, amma özünü təhlükəyə atmır və meydana daxil olmur. Bu pyesi o cənab yazdı. Mən o zaman, Məşhəddə namazdan sonra tələbə və cavanlar üçün söhbət edən ərəfədə bu kitab mənim əlimə düşdü.

Mən dedim ki, kitabın müəllifi olan bu cənabın özü də eyvandakı kişidir. O əslində özünü təsvir edib: tamamilə kənarda.

**Ziyalıların ən pis işi**

İranda ziyalı təbəqəsinin görə biləcəyi ən pis işi bizim ziyalılarımız onbeşillik İslam hərəkatı dövründə gördülər: ümumiyyətlə, kənarda qaldılar. Nəticədə xalq onlardan uzaqlaşdı. Düzdür, onların kiçik bir qismi müəyyən həddə meydanda qaldılar. Onların biri mərhum Ali-Əhmədin özü idi. Hətta onun şagirdləri, dostları və onu sevənlər də bu hərəkətə qoşulmadılar, çox uzaqdan hərəkət etdilər.

**Məhbusların çoxu**

Həbsxanalar xalqla, ruhanilərlə, tələbələrlə, adi insanlarla, fəhlə və tacirlərlə dolu idi. Bu uzun illər ərzində ən çox dustaq imamın xəttinə aid idi. Onların hərəkatı rejimi bezdirmişdi. Sizin hamınızın tanıdığı bu məşhur şəxsiyyətlər həbsə düşdülər, saatlarla işgəncə altında fəryad etdilər, onlar isə yox.

**Etimadı itirmiş təbəqə**

Bəzən xırda bir şey üstündə bunlardan da həbsə düşən olurdu, amma demək olar ki, dərhal tövbənamə yazırdılar. Bu gün bizim zamanımızda ziyalılığı irticaya çəkmək istəyən, sonra haqlarında danışacağım bəzi tanınmış şəxsiyyətlər arasında həbsdə məktub yazan, yalvaran və ağlayanlar da vardı. Biz bunları çox yaxından tanıyırıq. Özləri də bilirlər ki, biz onları tanıyırıq, amma cavanlar tanımırlar. O dövrün ziyalıları inqilaba qədər göstərdilər ki, xalqın düşüncə rəhbərliyi üçün etimadlı təbəqə deyillər.

**İnqilabın bərəkəti**

Əlbəttə, inqilaba 1-2 il qalmış bir tendensiya müşahidə olundu, hərəkat dalğası öz əqidə və düşüncələri ilə birgə müxtəlif çevrələrə yol tapdı. İslama etiqad bəsləməyənlərin çoxu hərəkatın hesabına ona inandılar. Hicaba heç bir inamı olmayan çoxlu qızlar vardı. Hərəkat dövründə heç kim onlara bir kəlmə də söz demədən, özləri hicaba gəldilər. Yəni imamın İslam hərəkatı genişləndiyindən, zirvəyə çatdığından, Kərbəla rəngi aldığından, nə qədər çox tələfat verirdisə, nə qədər çox şəhid və fədai verirdisə, bir o qədər də tərəfdar toplayır və dairəsini genişləndirirdi. İnqilabın əhatə dairəsi genişləndikcə hərəkatın dindən - İslam prinsiplərinə və təlimlərinə etiqaddan ibarət mesajı da yayılırdı. Bu, bir qrupa da şamil oldu. Adlarını çəkmək

istəmədiyim müəyyən şəxslər meydana atıldılar və nəhayət, inqilab qələbə çaldı.

**Yeni ziyalılıq**

İnqilabın qələbəsindən sonra İranda ziyalılıq məhv olmadı, qaldı, amma əslində yeni bir ziyalılıq yaranmışdı. İnqilab dövründə şairlər, yazıçılar, tənqidçilər, tədqiqatçılar, rejissorlar, kinematoqraflar, aktyorlar, ssenaristlər və rəssamlar iki qrupa bölündülər: biri inqilabın yaratdıqları, biri isə qabaqkı dövrdən qalan, lakin inqilabın nəticəsində mahiyyət etibarilə dəyişənlər. İranda ziyalılığın meydana çıxdığı zamandan təxminən 100 il ötəndən sonra o, ilk dəfə olaraq yerliləşdi. Ziyalılıq məsələlərində fəal olanlar, ziyalı dairələrində çalışanlar, yəni yazıçılar, şairlər, rəssamlar, müxtəlif incəsənət xadimləri və digər ziyalılar ilk dəfə olaraq bu ölkədə bir iranlı kimi düşündülər, bir müsəlman kimi danışdılar, incəsənət və ədəbiyyat məhsulları istehsal etdilər. Bu, yeni bir dövr idi.

**Yerli ziyalı dalğası**

Düzdür, bəzən müqavimət göstərilirdi, amma hər şey inqilab üçün hazırlıq idi və bu möhtəşəm inqilab ölkəyə ən böyük xeyri gətirdi. Bunu bilin ki, hər bir düşüncə, hər bir qələm, hər bir iş buna hazırlıq idi. Buna görə də, ölkədə yerli və dini ziyalılıq hərəkatı özünün müxtəlif sahələrində hər şeyi öz təsiri altına saldı, bəstəkardan tutmuş musiqiçiyə, ədəbiyyatçıya, şairə, incəsənət xadimlərinə qədər hamısı dini düşündülər, dini işlədilər, ən azı buna çalışdılar. Bu, çox yeni və səmərəli hal idi və davam etdi.

**Müharibənin faydası**

Müharibə bu sahədə istedadların çiçəklənməsinə zəmin yaratdı. Bildiyiniz kimi, hər bir ölkədə ədəbiyyat və incəsənəti çiçəkləndirən amillərdən biri ağır hadisələr, o cümlədən müharibələrdir. Ən gözəl romanlar, ən yaxşı filmlər, bəlkə də ən dəyərli şeirlər müharibələrdə və müharibə ilə bağlı yazılıb, deyilib, istehsal olunub və yaradılıb. Bizim müharibədə də belə oldu.

**İnqilabın mahiyyəti**

Biz müharibədə məzlum idik. Biz müharibədə tamamilə məzlum bir xalq idik. Biz heç kəsə təcavüz etməmişdik, heç kimə heç bir bəhanə verməmişdik. Biz İraq sərhədlərinə sarı bir güllə də atmamışdıq. Amma inqilabın təbiəti belədir: bizə hərbi hücum edəcəkdilər.

Afrikanın milli rəhbərlərindən olan Əhməd Seku Ture Qvineya Respublikasının prezidenti idi. Mən prezident olanda o bir neçə dəfə İrana gəldi. Bu səfərlərin biri müharibə dövrünə təsadüf edirdi. O deyirdi ki, məcburən qatıldığınız bu müharibəyə görə təəccüblənməyin. Beynəlxalq müstəmləkəçi və hegemonların, qlobal güclərin əleyhinə baş verən hər bir inqilaba qarşı görülən ilk işlərdən biri qonşularından birini onun üstünə qaldırmaqdır. Bu ümumi qayda sizə də şamil oldu, təəccüb etməyin. O mənə dedi ki, sizə bir sərhəddən hücuma keçiblər, amma mənə beş sərhəddən, beş qonşu ölkədən hücum ediblər. Kiçik ölkə olduğundan, ətrafında çoxlu ölkələr var idi. O da inqilabçı olduğundan, inqilab yolu ilə hakimiyyətə gəldiyindən, oxşar hücuma məruz qalmışdı.

**Xalq, rəhbər və müharibə**

Müharibədə hamı iştirak edirdi. Müharibə zamanı rəhbərin rolu birinci dərəcəlidir. Bizim rəhbərimiz bütün xalqın iştirakını təmin etdi. Bu səfərbərlik, könüllülər, Mühafizəçilər korpusunun yaradılması, ordunun əzəmətli hərəkəti, xalqın köməyi, iştirakı, görülən çoxlu işlər - bütün bunlar ziyalıların inkişafına lazım olan əlverişli şəraiti düzgün istiqamətdə gücləndirirdi.

Bu dediklərim əksəriyyətə aiddir, bunda istisnalar da var. Elə müharibə dövründə bir yazıçı müharibə haqda bir hekayə yazdı. O bu hekayədə müharibədən ötrü İranı günahkar çıxardı. Baxın, nəyin bahasına olursa-olsun, öz yanlış mövqeyindən çəkinmək istəməyən şəxs belə olur. Əhvaz, Abadan və Xürrəmşəhr şəhərləri düşmənin hərbi hücumuna məruz qalan, rəhbəri, hökuməti və silahlı qüvvələri daxil bütün xalqı döyüşə atılan İslam Respublikasında hansı iradı tutmaq olar?! Bu roman əvvəldən axıra qədər xalqa və onun iqtidarına iradla, məsxərə və təhqirlə doludur. Bunlar bəzi köhnələrdən baş verdi, ümumi vəziyyət isə belə deyildi. Döyüşdən sonralara və çox sonralara qədər gedən ümumi proses düzgün istiqamətdə idi.

**Ziyalılığın mahiyyəti**

Ziyalı aləmində bu, bir inkişaf, tərəqqi və ziyalı təbiətinə uyğun iş idi. Ziyalının təbiəti inkişaf etməkdir və doğrusu bu idi ki, həmin səhvdən və xəstəlikdən qurtulsun. Bu, inqilabdan öncəki şəraitdə mümkün deyildi. İnqilab bu şəraiti təmin etdi.

**İrticaçılığa səy**

Bir söz qaldı. Bütün bu söhbətlərdə məqsədim həmin bir söz idi. O bir söz budur ki, müharibədən sonrakı dövrdən İran ziyalılarını inqilabdan öncəki xəstəliyə salmaq üçün ciddi səylər başlanıb: mürtəcelik, keçmişə qayıdış, dindən, yerli ənənələrdən küsmək, Qərbə üz tutmaq, ona qeyd-şərtsiz sevgi və asılılıq, Avropa və Amerikadan gələn hər bir şeyi qəbul etmək, əcnəbiyə məxsus hər bir şeyə hörmətlə yanaşmaq, özümüzə aid olanları isə aşağılamaq. Bu əslində, həm İran xalqına, həm də onun təməl prinsiplərinə qarşı təhqirdir. Mən bunu müşahidə edirəm.

**Yalançı ziyalılar**

Bunlar kimlərdir? Təbii ki, təxminən bilmək olar; mən burada dəqiq söz deyə bilmərəm. Nə İslama, nə də İrana heç zaman iman gətirməyən bir qrup insan var. Bu ilahi, dini, həqiqi, yerli - adını nə qoyursunuzsa-qoyun - ziyalılığın İranda mövcud olduğu bir neçə ildə bunlar baş qaldıra bilmədilər; ya bir kənara çəkildilər, ya ölkədən xaricə getdilər və öz tanrılarını, qiblələrini, məşuqlarını orada tapdılar. Bu xalq, bu ənənələr, bu tarix və bu mədəniyyət onlar üçün heç bir əhəmiyyət kəsb etmədi. Təbii ki, bu xalqın gələcəyi də onlar üçün əhəmiyyətsizdir. Danışıb iddia edə bilərlər, amma keçmiş göstərir ki, onlar səmimi deyillər, xalqın qayğısına qalmır və özlərini düşünürlər.

Bəzi qüvvələr də bunların təsiri altına düşənlərdir. Təmtəraqlı adlar insanları çaşdırır. Dəqiq deyə bilmərəm, amma güman ki, bəziləri muzdurdurlar. Pula xidmət edən sahələrdən biri də ədəbiyyat, incəsənət, qələm və şeirdir. Bu, təəccüblü deyil. Biz əslində lənətə və nifrətə layiq olan bəzi şahlara şeir deyib onları tərifləyən böyük şairlər görmüşük. Bizdə pula, dünyaya və ehtiraslara görə mənfur və çirkin əsasları himayə edən adamlar çox olub; halbuki onlardan uzaqlaşmalı idilər. Bu, başadüşüləndir. Əlbəttə, dedim ki, bu fikir dəqiq deyil, gümandır. Güman edirəm ki, onlar prosesi geriyə qaytarmaq istəyirlər. Bizim müsəlman ziyalılarımız buna imkan verməməlidirlər. "Buna imkan verməməlidirlər" sözündə məqsədim bu deyil ki, qalxıb dalaşmalıdırlar. Xeyr! Ziyalının işi yumruqlaşmaq və dalaşmaq deyil. Mədəniyyət xadimlərinin və ziyalıların işi elə mədəni işlərdir. Onun vasitələri mədəni vasitələrdir. Uyğun sahələrdə çalışan cavanlar gərək fəal olsunlar.

Gənclər! Özünüzü islah edin. Bir xalq inkişaf və təkamül yolunu keçmək üçün düşüncə baxımından möhkəm bir yerə arxalanmalıdır. Məzhəbsiz, imansız, əxlaqi, dini və mənəvi təməllərə etiqadı olmayan bir topluma bağlanmaq və onların sözü ilə irəliləmək istəyən bir xalqın, bir

nəslin, bir cavanın ayağının altı boşalar, gənc nəsil Pəhləvi dövrünün gənc nəsli kimi olar: ümidsiz, faydasız, fəsada meylli, sapqınlığa hazır. O zaman kiminsə onları yenidən düzgün yola yönəltməsi üçün çoxlu imkanlar, İslam inqilabı kimi bir hərəkət lazım olacaq, amma o, bir ölkədə bir əsrdə, yaxud bir neçə əsrdə asanlıqla meydana gəlmir.

**Xalqa xidmətin meyarı**

Bütün vücudumuzla mövcud vəziyyəti qorumalıyıq. Uzun illər ziyalılıqla və mədəni fəaliyyətlərlə bu xalqa heç bir xidmət göstərməyənlər, ən azı heç bir mühüm problem zamanı xalqın yanında olmayanlar, xalqa çatmayanlar, yəni onun rəhbəri və öncülü olmaq istəyən, lakin həmişə ondan geri qalan və kənara çəkilən bir qrupun yenidən ölkəyə qayıdıb öz fikir və mədəniyyətlərini hakim etməsinə icazə verməyin. Bu gün bəzi mətbu orqanlarında, jurnallarda və mədəniyyət sahələrində keçmişə, xəstə ziyalılığa qayıdışı izləyən məqamlar görünür. Bu, günün problemidir. Bu, çox əsaslı və mühüm məsələdir.

**Tarixi səhv**

Əlbəttə, ziyalı təbəqəsi bu barədə özündən nəsə deyə bilər. Deyər ki, mümkün deyil, ziyalılıq dinlə uyğunlaşmır, bir ölkəyə din gəldikdə, hər bir şeyi öz təsiri altına salır və sair. Təəssüf ki, mərhum Ali-Əhməd də kitabında bir məqamın izahında belə bir cümlə işlədib. Məncə, bu onun tarixi səhvidir.

**Səfəvilər dövrü**

Deyir ki, Səfəvilər dövründə din, ədəbiyyat və katiblik hakim aparatın yanında idi, məsələn, Mir Damad gedib Şah Abbasın yanında oturmuşdu. Buna görə də, o dövrdə mədəniyyət, ədəbiyyat, fəlsəfə və incəsənət tənəzzülə uğradı. Bu, səhvdir. Ədəbiyyat tarixində Səfəvilər dövrü kimi bir dövr yoxdur. Mərhum Ali-Əhməd şeir adamı deyildi, məncə, o, məlumatsızlığından belə deyib. Hind üslublarına qarşı çıxan şairlər yanlış bir söz yaymışdılar. Hind üslubu Səfəvilər dövründə yayıldı və Zəndilər dövrünə, eləcə də Qacarların əvvəllərinə qədər davam etdi. Sonra modernistlər və İsfahan Ədəbi Məclisi adlanan bir qrup meydana çıxdı. Bunlar Hind üslubunun kəskin əleyhdarı idilər. Əlbəttə, onların şeirləri heç zaman Hind üslubu şairlərinin şeirlərinə çatmır, fərq olduqca böyükdür. Lakin ona qarşı çıxırdılar. O zamandan belə yayıldı ki, guya Səfəvilər dövrü şeirin tənəzzül etdiyi dövrdür. Xeyr, Saib kimi böyük şair bu dövrə aiddir. Kəlim Ürfi, Talib Amiri kimi şairlər Səfəvilər dövrünə məxsusdurlar. Şeir

tarixi boyu bu misiliz şairlər Səfəvilər dövrünün yetirmələridir. Nəsrabadi "Nəsrabadi təzkirəsi" kitabında öz dövründə İsfahanda yaşayan minə yaxın şairin bioqrafiyasını yazıb. İsfahan kimi şəhərdə min şair! Əlbəttə, cəfəngiyyat deyən şairlər yox, yaxşı şairlər. Onların şeirləri qalır. "Nəsrabadi təzkirəsi" də mövcuddur. Bizim nə zaman və harada belə vəziyyətimiz olub?!

**Səfəvilər dövrü - ədəbiyyat və incəsənətin zirvəsi**

Bütün İslam fəlsəfəsi tarixinin ən böyük filosofu olan Molla Sədra Səfəvilər dövrünə məxsusdur. Mir Damad Səfəvilər dövründə yaşayıb. Məşhur arif Feyz Kaşani Səfəvilər dövrünə məxsusdur. Məşhur mütəkəllim və filosof Lahici bu dövrə aiddir. Bu nə sözdür ki, Səfəvilər dövrü şeirin tənəzzül dövrüdür?! Xeyr, əslində, Səfəvilər dövrü ədəbiyyat və incəsənətin zirvə çağıdır. Əlbəttə, şeir mənasında olan ədəbiyyatı nəzərdə tuturam, nəsri yox. Nəsr də yaxşıdır, amma çox da zirvədə deyil.

Ən yaxşı kafelçilik və ən yaxşı memarlıq da Səfəvilər dövründə olub. Siz tarix boyu Şeyx Lütfullah məscidi kimi bir məscid, İsfahanın Nəqşi-cahan meydanı kimi bir meydan, o binalar kimi bir bina tapa bilməzsiniz, çox az taparsınız. Bunlar Səfəvilər dövrünə aiddir.

**Xilafət və Vilayət – padşahlığın əksi**

Səfəvilər şairləri saraya aparmırdılar ki, onlara pul versinlər. Mən Səfəviləri müdafiə etmək istəmirəm. Biz bütün şahların əleyhinəyik. Şah pisdir. Ümumiyyətlə, şah yaxşı ola bilməz. Şahlıq, krallıq pisdir. Özünü məlik, kral və padşah adlandıran insan, özünü xalqın, necə deyərlər, öz rəiyyətinin ağası hesab edir. İslamda bu məsələ kökündən rədd olunub. O gün cümə namazında da dedim ki, xilafət və vilayət bu növ şahlığın əksidir. Səfəvi padşahları da şah idilər. Biz onları müdafiə edə bilmərik. Lakin bu, tarixi baxımdan yanlış sözdür ki, deyək Səfəvilər dövründə şeir və ədəbiyyat tənəzzülə uğrayıb. Mən görürəm ki, hələ də o dövrü yamsılayaraq orada-burada, televiziya və radioda bəzən həmin sözü deyirlər. Xeyr, Səfəvilər dövrü tənəzzül dövrü deyil. Hafizdən sonra Saib kimi böyük qəzəl şairi gəlməyib. Rudəkidən sonra heç bir şair Saibin şeirləri qədər şeir deməyib. İki yüz min şeiri var. Sözsüz ki, sanballı şairi nəzərdə tuturam. Əks təqdirdə, cəfəngiyyatçı şairlər nə qədər istəsəniz, şeir deyirlər. Heç bir şəhər İsfahan qədər şair, filosof, fəqih və incəsənət xadimi görməyib. Bu nə sözdür?!

**Ziyalılığın irticası**

Hər halda, ziyalılığın irticası budur: dərd-qəmsiz xəstə ziyalılıq dövrünə qayıtmaq, əsl ziyalılığın bütün prinsipial ənənələrinə, bu xalqın bütün köklü və yerli ənənələrinə, tarix və mədəniyyətinə etinasızlıq dövrünə qayıtmaq. Bu gün buna dəvət edən hər bir şəxs mürtəcedir. Adı ziyalı, şair, yazıçı, tədqiqatçı və tənqidçi olsa belə, inqilabdan qabaqkı xüsusiyyətlərinə, dinə və ənənələrə zidd istiqamətli ziyalılığa qayıtmaq istəyən mürtəcedir. Bunun adı ziyalılığın irticaçılığıdır.

Siz tələbələr ziyalı təbəqəsinin nümayəndələrisiniz. Bu məsələ üzərində düşünməli və çalışmalısınız. Əlbəttə, mən bu barədə söhbət etmək istəsəm, bir saat kifayət etməz. Bunun çoxlu misal və nümunələri, bu sahədə çoxlu sözlər, müxtəlif tənqidlər var. Mən bunların hamısına toxunsam, çox uzanar. Söhbətin davamı növbəti görüşlərə qalsın.

Allahın salamı və rəhməti olsun sizə!

## Amallar və İnqilabın davam etdirilməsi[3]

Bismillahir-Rəhmanir-Rəhim.

Allah-Taala Öz kitabında buyurur: “Allah möminlərə lütf edib, onların öz içərisindən onlara (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi”[4].

Bu görüşə çox sevinirəm. Mən gözləyirdim ki, səhər tezdən, sübh azanından sonra siz əzizləri ziyarət edim, namazı Mühafizəçilər korpusunun siz əziz gənclərinin isti nəfəsi ilə ətirlənmiş bir mühitdə qılaq. Hava şəraitinə görə dedidlər ki, olmaz və biz bundan məhrum olduq.

Mən buraya daxil olanda və ondan öncədən ümumi və fərdi rəftarlara diqqətlə baxırdım. Hiss edirəm ki, universitet Allahın lütfü ilə müxtəlif cəhətlərdən inkişaf etməkdə və çiçəklənməkdədir həqiqətən, elmi, hərbi, dini və inqilabçı bir qurumdur. Elm mərkəzidir; sizin elmi nailiyyətləriniz hətta işlərdə, mətnlərdə və meydanlarda da müşahidə olunur. Hərbi təşkilatdır; bayraqdarların göstərdiyi bu gözəl manevr çox yaxşı idi. Həm də dini və inqilabçı qurumdur; bünövrədən Quranın bu şərafətli ayəsində bəyan olunan məzmuna bənzəyir: “İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir”.[5] Bura ilk gündən din, iman, ixlas və səmimiyyət üzərində qurulub. Ümidvarıq ki, günbəgün inkişaf edə, daha yaxşı töhfələr verə, ölkənin inqilabi həyatında daha gözəl rol oynaya, parlaq və çiçəkli gələcəyə sizin kimi gənclərdən gözlənilən böyük xidmətlər göstərəsiniz. Mən bu gün inqilabla bağlı bəzi məsələləri sizə söyləmək istəyirəm. Çünki inqilab öz örnəyini oxuduğum bu ayədən götürüb. Bu ayə Peyğəmbərimizin peyğəmbərliyi barədədir. Əməldə də məqsəd və maraqlar eynidir, lakin yenidir, zamanla, bəşərin və elmin inkişafı ilə uyğundur.

### Ədalət amalı

İnsanın ehtiyaclarının ardınca gələn yüksək məqsəd və amalları tarixin əvvəlindən sonuna qədər dəyişməzdir. İnsan tarixin əvvəlindən başlayaraq, hər zaman ədalətə ehtiyaclı olub. Ədalət daimi bir amaldır, zamanla dəyişmir. Bəli, ədalətin təmini, formaları, ədalətə çatmaq vasitələri zamana görə dəyişə bilər, lakin ədalət amalı həmişə yaşayır.

---

[3] İmam Hüseyn (ə) universitetində çıxışı: 14 may 1998.

[4] Ali-İmran/164.

[5] Tövbə/108.

**Rifah amalı**

Məişətdə rifah amalı əvvəldən bəşəriyyətin arzusu olmuşdur. Bəziləri tamahkarlıq etdilər, ifrata yol verdilər, bəziləri səhlənkarlıq etdilər, bəziləri ac qaldılar, bəziləri tox. Dünyanın sonuna qədər bütün bəşəriyyət üçün ideal rifah təmin olunmayınca, bugünkü kimi beynəlxalq statistikalar, yanlış qidalanmadan əziyyət çəkən uşaqlar, aclıqdan məhv olan insanlar olacaqsa, bəşəriyyətin amallarından biri də rifah olacaq.

**Mənəviyyat amalı**

Rifah bir gün filan qədər mülkə sahib olmaqdır, bir gün də başqa bir şey, amma amal hər zaman öz yerində qalır. Digər amallar da belədir; mənəviyyat istəyi, eşq istəyi, Allah istəyi və bu tip digər amallar. Amallar zamana görə dəyişmir, onların üsul və vasitələri dəyişir. İnsanın ürəyi amallara eşqlə döyünür və onlara nail olmağa çalışır.

İslam dini bundan ötrü bütün zaman və şəraitlərə uyğun sistemli proqramlar təqdim etmişdir. Bizim inqilabımız həmin amallarla qələbə çaldı. Təəssüf ki, inqilabın dəqiq və düzgün tarixi yazılmayıb, ancaq hələ gec deyil. Belə fundamental işlər üçün 19 il uzun müddət deyil, inşallah, sizlər bu işi görməlisiniz. Əgər bu tarix yazılsa, o zaman məlum olacaq ki, bu inqilab, bu böyük partlayış başqa təməllər üzərində, başqa amallar əsasında da formalaşa bilərdi.

Bu xalqın imanı, Böyük İmamın şəxsiyyəti və bu ölkədə olan din faktoru bu böyük hərəkəti və böyük hadisəni bu istiqamətə sövq etdi. İndiki vəziyyətdə müşahidə etdiklərimiz bizim üçün çox yaxşı araşdırılıb təhlil edilməlidir. Mən indi qısa şəkildə demək istəyirəm ki, Quranın ən böyük surəsi olan Bəqərə kimi surələrin çoxu, əsasən, yeni İslam dövlətinin problemlərinə həsr olunub. Siz Bəqərə surəsini diqqətlə oxusanız, Peyğəmbərin problemlərinin nə olduğunu, eləcə də onunla bağlı münaqişələrin, ona qarşı yönələn hərəkətlərin haradan qaynaqlandığını görərsiniz. Bəzi yerlər istisna olmaqla, Bəqərə surəsinin əvvəlindən sonuna qədər hamısı bu problemlərlə əlaqədardır. Bu ayələr problemləri söyləyir, izah edir və çıxış yolunu göstərir.

Bəli, mən əvvəldə inqilab anlayışının özü barədə bir cümlə dedim. Təəssüf ki, ən aydın anlayışlardan olan inqilab anlayışı bu gün bəzi xəstə, nöqsanlı, yaxud qərəzli qüvvələr tərəfindən təhrif edilir.

**İnqilab anlayışı**

Mənim əzizlərim! Hazırkı inqilablar əsrində və son bir-iki əsrdə tərif edilən və erkən İslam çağının əsaslarına uyğun olan İnqilab - cəmiyyətin və fərdin həyatının əsas təməllərinin dəyişilməsindən ibarətdir. İnqilabın mənası budur: yerdəyişmə.

Sizin yadınıza gəlməyən və bizim yaşadığımız, bütün vücudumuzla hiss etdiyimiz keçmiş dövrdə İran kimi bir ölkə və cəmiyyət xüsusi ictimai rəftarlarla, siyasi quruluşla, məsələn, sülalə monarxiyası və diktatura sistemilə, nə sənayeyə, nə də əkinçiliyə söykənən montaj iqtisadiyyatı ilə, xüsusi ictimai əlaqələrlə, elmi və ideoloji xətlərlə yaşayırdı. İnqilab bu cəmiyyətdə yaşayışın ən əsas təməllərini daha yaxşı istiqamətə sövq edən bir hadisə oldu.

**Geriyə hərəkət**

İnqilabın şərti budur. Əgər daha pis vəziyyətə sarı getsə, bu, inqilab deyil, geriyə hərəkətdir, irticadır. İnqilab irəliyə doğru hərəkətdir. Deməli, cəmiyyətdə həyatın ən mühüm təməlləri daha yaxşılaşmağa, nöqsansız olmağa və dəyişilməyə sarı getməlidir. İnqilabın mənası budur.

Yaxşı, indi deyin görək, məsələn, on milyon əhalisi, qədim tarixi və mədəniyyəti olan bir cəmiyyətdə bu böyük hərəkətin bir gündə, bir ayda, bir ildə baş verməsi mümkündürmü?! Bəllidir ki, yox. İnqilab - belə əsaslı məsələlərdə bu böyük dəyişiklik bir gündə baş tutmur.

**Davamlı hərəkət**

Bundan nəticə alırıq ki, inqilab bir proses və davamlı hərəkətdir. O, bir nöqtədən başlayıb irəliləyir. Düzgün irəliləməsi üçün onu yönəltmək, dayanmaması üçün ona kömək etmək lazımdır.

Bu, aydın məsələdir. İzah etdiyim bu məsələ mənim sözüm deyil, dövrün siyasi kitablarında mövcuddur, heç kimin şübhə etmədiyi qəti məsələlərdəndir. Siz bir diqqətli baxışla anlayırsınız ki, belədir. Əlbəttə, bunun üçün bir partlayış nöqtəsi lazımdır. Bu, mütləq cəmiyyətin siyasi orqanında baş verməlidir. Yəni məsələn, asılı və fəsadçı Pəhləvi rejiminin hakimiyyətdə olduğu zaman ölkənin əxlaqi, iqtisadi və siyasi təməllərinin dəyişilməsi mümkün idimi?! Aydındır ki, mümkün deyildi.

**Partlayış nöqtəsi**

Buna əsasən, inqilabın bir partlayış nöqtəsinə ehtiyacı var. Bu partlayış nöqtəsi ilə hərəkətin əsas maneəsi aradan qaldırılır və bu davamlı dəyişikliyi

idarə etmək üçün bir siyasi qurum yaranır. Bu partlayış nöqtəsi haradır? İnqilabın qələbə günü - 11 fevral.

**16 illik mübarizə**

Əlbəttə, bu 11 fevralın özü də öz növbəsində bir çox işlərə ehtiyaclı məsələdir. Bizim dövrümüzdə bir qrup tərəfindən 15 illik davamlı, çətin və məşəqqətli mübarizə və onun son 2 ilində bütün İran xalqı tərəfindən aparılan davamlı mübarizə 11 fevral qələbəsini təmin etdi. Yəni 1963-cı ildə bizim əziz imamımız Qumda dini və ruhani hərəkatını başladandan 1979-cu ilin 11 fevralına qədər təqribən 16 il çəkdi. Düzdür, bu 16 il asan yerdən başlandı və çətin yerlərə çatdı. Əvvəl böyük kütlə vardı, çətinlik başlayanda isə azaldılar. Sonra hərəkat ruhanilər, tələbələr, tacirlər və xalqın müxtəlif təbəqələri arasında yavaş-yavaş inkişaf etdi.

Bəziləri çalışdılar, bəziləri əziyyət çəkdilər, bəziləri bu yolda şəhidliyə qovuşdular. Tanıdığınız Şəhid Səidi və digərləri bu yolun şəhidləridir. Çoxları döyüldülər, çoxları əziyyət çəkdilər və bu fəryad nəhayət, 1978-1979-cu illərdə imamın çox ilahi, hikmətli və davamlı rəhbərliyi altında xalq səviyyəsinə çıxdı. Sonra inqilab xalqın çiynində dayandı. Xalq ümumi şəkildə hərəkəti davam etdirdi. Partlayış məqamı çatdı və inqilab qalib gəldi.

**Siyasi əsasların dəyişməsi**

İnqilab qələbə çaldıqdan sonra baş tutan ilk iş nə idi? İlk olaraq cəmiyyətin siyasi əsası dəyişildi. Yəni o yanlış, qüsurlu piramida, bəyənilməz, faydasız və ölkənin siyasi quruluşuna hakim iyerarxiya dağıldı, yaxşılığa doğru istiqamət götürən başqa bir sistem quruldu.

**Rza xan - dinsizliyin və savadsızlığın təzahürü**

O zaman bu cəmiyyətin idarəsi və rəhbərliyi dinsiz və savadsız şəxslərin əlində idi. Rza xan və onun oğlu savadsızlığın, əxlaqsızlığın və fəsadın təcəssümü idilər. Bunu təkcə biz demirik. Bəli, biz bilirik, amma siz onların öz kitablarına və bioqrafiyalarına baxın; nə dinləri var, nə savadları, nə milli qeyrətləri, nə xalqla ən azacıq əlaqələri, nə cəsarətləri və nə fəaliyyətləri.

**Nadir şah**

İndi təsəvvür edin, bir gün bu ölkədə bir Nadir şah da sultanlıq edib. O da padşah idi, o da zülm edirdi, amma hər halda, mərdliklə bu ölkənin sərhədlərini qoruyub. Onlarda isə bu da yox idi.

**İki saatdan az müqavimət**

1941-ci ildə müttəfiqlər müxtəlif sərhədlərdən - qərbdən, şərqdən, şimaldan və cənubdan ölkəyə soxuldular. Çünki İran Orta Şərqin dörd yolayrıcı və İkinci dünya müharibəsində müttəfiq ölkələrin müxtəlif cəbhələrini birləşdirən mərkəz idi. İranda ozamankı hakim Pəhləvi rejimi öz hərbi qüvvəsi ilə iki saat müqavimət göstərə bilmədi. Siz bunu İslam Respublikası dövründə 8 illik mərdanə müqavimətlə müqayisə edin. Bu, iranlının qələbəsi və başucalığı ilə sonuclandı. İranlılar o zaman rus, ingilis, amerikalı və digər silahlıların Tehranda gəzməsindən çox, silahlı qüvvələrinin iki saat müqavimət göstərə bilmədiyinə görə xəcalət çəkirdilər. Bütün zabit və əsgərlər qaçdılar, qarnizonlar boşaldıldı, silahlar qarət edildi.

**Pəhləvi rejimi**

İnqilabdan öncə hakim rejimin dini, əxlaqı yox idi, əvəzində fəsadı və asılılığı vardı. Milli qeyrəti, addım atmaq cəsarəti yox idi. Əslində, heç bir şeyi yox idi. Bir şeyləri var idi: mal-dövlət. Şahın özünün, Baş nazirin, nazir və əmirlərin çoxlu pul, sərvət və mülkləri vardı.

İnsan xalqı düşünməyib onun sərvətlərini qarət edəndə mal-dövlət toplamaq çox da çətin olmur. Bu, öncəki rejim idi. O, dağıdıldı və əvəzində bütün bu cəhətlərdən onun əksi olan bir dövlət quruldu. Onun dini yox idi, bunun başında isə bir təqlid müctəhidi durur. İmam dinin və bəndəliyin tərənnümü idi. Onun savadı yox idi, bu quruluşda isə dəyərli elmi şəxsiyyətlər var. İmamın özü fiqh, fəlsəfə, irfan və üsul elmlərində zirvədə idi. O zaman inqilab şurasında olanlar - mərhum Şəhid Mütəhhəri, mərhum Şəhid Behişti və başqaları hamılıqla alim, təhsilli və elmi tədqiqatlara sahib idilər. Quruluşun başında bunlar dururdu. Onlar mənəviyyat və əxlaq baxımından yoxsul idilər, bunlar isə əxlaq və mənəviyyatın timsalı.

Mən dəfələrlə demişəm: Bizim əziz imamımız hakimiyyətə gələndə 80 yaşlı kişi idi. 80 yaş təqaüd zamanıdır; insanın işləməyə taqəti qalmır. İmam o zamanda və o yaşda işləməyə başladı. O, yalnız rəhbərliyə aid işlər görmədi, həm də öz üzərində işlədi. Təsəvvür edin.

Mənim əzizlərim! Bunlar sizin üçün dərsdir. O qoca əxlaqi və mənəvi baxımdan öz üzərində işləyirdi. Mən bunu dəfələrlə xatırlatmışam ki, ramazan ayı gələndə imam adətən, ümumi görüşlərini tətil edirdi, tək qalmaq istəyirdi. Ramazan ayı qurtarandan sonra, fitr bayramında imamla görüşə gedəndə nurlandığını aydın surətdə müşahidə etmək olurdu. İnsan bu kişidə mənəviyyatın, gözəlliyin və nuraniliyin tərənnümünü görürdü.

**Nur mənbəyinə birləşmək**

İnsan təvəssüllə, dua ilə, münacatla, gecə ibadəti ilə, əzəmət və nur mənbəyi ilə əlaqlə yaratmaqla nurlanır. Bir misalda deyilir ki, dəmirin rəngi alovun rəngində itir. Tünd qara dəmiri alova tutduqda bir qədər sonra alov rəngində olur. Dəmirdir, amma rəngi, xüsusiyyəti, yandırması, istiliyi, parlaqlığı alov kimi olur. Bəli, onu bir qədər alovdan uzaqda saxlasanız, yenidən qara dəmir halına düşəcək. Mənim əzizlərim! Həqiqi eşqin mərkəzi də varlıq aləminin bütün gözəlliklərinin mənbəyi, yəni Pərvərdigarın müqəddəs zatıdır. Kaş insan bu məhəbbəti dadsın! O zaman dünyanın bütün məhəbbət və ləzzətləri dadsız görünəcək. İmam həm əxlaq və mənəviyyat baxımından, həm də yaşayış, geyim, rəftar, insanlara məhəbbət və xalq adamı olmaq baxımından ən yüksək həddə idi.

Müharibə dövrü idi. Bir cümə günü namaza getmişdim. Kiçik uşaqlar həvəslə gözəl bir səhnə nümayiş etdirdilər. Cümə imamının səccadəsinin qarşısında daxıllarını sındırıb pulları tökdülər. Maraqlı mənzərə yarandı. Çəkiliş də aparılırdı. Mən ertəsi, ya da həmin gün imamın yanına getdim. O, söhbətin ortasında dedi: "O daxıllar..." Mən gördüm ki, həyəcandan və həmin uşaqlara eşqdən imamın gözləri yaşarıb.

Bu barədə çoxlu xatirələr var. İndi bunlarla vaxtı tutmaq istəmirəm. O, imam idi, digərləri də imamın arxasında. Hər halda, o gün bu yolla hərəkət edən hər bir insan öz istedadı həddində, dərəcə və məqamına uyğun olaraq imamın rəngindən bir qədər götürmüşdü və özündə ona bənzər rəftar müşahidə edirdi.

İnqilabın əvvəllərində casus yuvası hadisəsində ABŞ İrandan neft almayacağını və İranın neft borularını bağlayacağını elan etdi. İmam dedi ki, çox yaxşı, kaş bu iş daha tez baş tutaydı. Bunu müsbət qarşıladı. İndi bir ölkə başçısı bir neft ölkəsinə “Mən səndən neft almayacağam” – desə, adətən, bədənləri əsər, ürəkləri döyünər. Baxın, milli qeyrət, milli sərvətlərə, ölkəyə və xalqa arxalanmaq budur.

**İslam quruluşunun cəsarəti**

Cəsarət baxımından da məsələ bəllidir. Ümumiyyətlə, İslam quruluşunun və onun başında imamın cəsarəti dünya müsəlmanlarının cəsarətinə səbəb oldu. Bu da mənim çox təkrar etdiyim sözlərdəndir. Dinsiz və laqeydlə işim yoxdur, amma dindar müsəlman ümumi yerlərdə namazının qəza olduğunu gördükdə namaz qılmağa utanırdı. O zaman bizə bu sualı çox verirdilər ki, bəzən namazımız qəza olur, amma camaat bizə

baxır; məsələn, hansısa xarici ölkədə hava limanında namazı qılmayıb, başqa vaxt qıla bilərikmi? Yəni namaz qılmağa cəsarət tapmırdılar, "biz müsəlmanıq" deyə bilmirdilər. Böyük beynəlxalq nitqlərdə və hətta ölkə daxilində "Bismillah" demək eyib sayılırdı. Deyəcəkdilər ki, bu, molladır, mürtəcedir, şeyxdir. Amma inqilabdan sonra elə oldu ki, beynəlxalq toplantılarda, - İslam ölkələrini və İslam Konfransı Təşkilatını demirəm - Qoşulmayanlar hərəkatında, dövlət başçılarının İslamla əlaqəsi olmayan bəzi ölkələrdə "Bismillahir-Rəhmanir-Rəhim" deyib nitqlərini Allahın adı ilə başladılar. İslam Respublikası quruluşunun, İran rəsmilərinin, onun siyasi sisteminin və İran xalqının cəsarəti bütün dünya xalqlarına və rəhbərlərinə cəsarət verdi.

Hökumətin, parlamentin və Ali Məhkəmənin yaranması birinci mərhələyə - inqilabın qələbəsi adlanan partlayış zamanına aiddir. Lakin dəyişikliklərin qalanı nə zaman baş tutmalıdır? Gələcəkdə, zaman boyu. Siz görürsünüz ki, biz 19 il ötdükdən sonra müxtəlif siyasi və iqtisadi sahələrdəki bütün dəyişikliklərə rəğmən, hələ də yalnız neft üzərində qurulmuş iqtisadiyyatı dəyişə bilməmişik.

**OPEK iqtisadiyyatı**

Mən dəfələrlə şikayətlənmiş və gileylənmişəm ki, hələ də bizim iqtisadiyyatımızın taleyi OPEK-dən asılıdır. OPEK-də neftə qiymət qoyulması bizim əlimizdə deyil. Yəni bu qədər böyük ölkə, məişət səviyyəsini və ölkəsinin infrastrukturunu belə möhkəmlətmiş bir xalq əsla öz əlində olmayan bir amildən asılıdır. Kifayətdir ki, bir neft istehlakçısı pərdə arxasında bir boynuyoğun istehsalçı ilə sövdələşib desin ki, məsələn, ABŞ bazarı sənin, Yaponiya bazarı sənin. Bunları bölsünlər və istehsalı artırmağa vadar etsinlər, nəticədə, indiki kimi qiymət düşsün və neft ucuzlaşsın. Bu, bizim əlimizdə deyil.

**Əsaslı dəyişiklik**

Bilirsiniz ki, ictimai əsaslar, iqtisadiyyat və ondan da çətini, mədəniyyət məsələləri bir günə dəyişilən deyil. Bunun davamı var və bunların hamısı inqilabdır.

Bəli, bir nəfər durub deyir ki, yeni dövlət quruldu, artıq inqilab bitmişdir. Məncə, bu, savadsızlıqdır. İndi konkret şəxslərlə işim yoxdur. Mən bu düşüncəni tənqid və korrektə etmək istəyirəm. Məgər inqilab bitə bilərmi?! İnqilabın bitməsi bu prosesin dayanması deməkdir.

**İnqilab amallarının davamlılığı**

Başqa birisi peyda olub deyir ki, bəli, inqilab bitdi. Yəni inqilab hərəkəti tamamlandı, amma inqilabın amalları yaşayır. Halbuki inqilab amalları inqilabdan öncə də vardı. Onların yaşaması kifayət etmir. İnqilabi proses, yəni inqilabın özü yaşamalıdır. Düşmənin bu prosesi dayandırdığı gün inqilab məğlub olacaq. Düşmən bu çətin və səmərəli hərəkəti, yəni inqilabın işi olan tədrici dəyişikliyi, cəmiyyətin əsaslı məsələlərində dəyişikliyi dayandırsa, inqilabı məğlub etmişdir. Əgər onun sürətini azaltsa, inqilabı məğlub etməsə də, geri salmış olacaq.

**İslam inqilabının məqsədlərinin Peyğəmbərin risaləti ilə eyniliyi**

İnqilab davam edir. Məgər inqilab bitə bilərmi?! İnqilabın bitdiyini deyən adam sadəlövh ola bilər. Mənim ümumiyyətlə, fərdlərlə işim yoxdur. Bütün bu sözləri deyənlər və deməyənlər bizim ümmətimizdəndirlər, hamısı mənim övladlarım sayılırlar. Ola bilsin, onlardan kimsə yanlış anlayır və kimsə düz. Mənim də heç kəslə düşmənçiliyim yoxdur. Lakin səhv söz qarşısında sükut edə bilmərəm.

“İnqilab bitdi” sözü bu günün sözü deyil. 1979-cu ildə İnqilab şurası hökumətini quranlar dedilər ki, inqilab bitdi. 1979-cu ildə, hələ inqilabın bir yaşı tamam olmamış dedilər ki, inqilab bitdi. Dedilər imam getsin Quma. Təsadüfən, imam o zaman Quma getmişdi. Dedilər ki, imam daha öz işləri ilə məşğul olsun, bizim işimizə nə üçün qarışır; imam inqilabın rəhbəri idi, inqilab da bitdi. Bu fikrin üstündən illər sonra yenidən birisi peyda olub deyir ki, inqilab bitdi. İnqilabın bitməsinin ilk nəticəsi budur ki, daha Mühafizəçilər korpusu nəyə lazımdır. Yəni mən və siz burada boş-boşunayıq. Mühafizəçi nədir?! Olmayan inqilabın mühafizəçisi?! İndi anlayırıq ki, inqilaba hücum inqilabın mühafizəçisinə hücumla necə birləşir. Bu məsələlər təsadüfi deyil.

Güman ki, alət olanlar nə etdiklərini bilmirlər, amma pərdə arxasında rejissorlar var. Mən dünən oxuyurdum ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi İran barədə hesabat yayıb. Orada İslam quruluşu əleyhinə İsrail radiosunun müsbət və çox dəyərli rolu xüsusi qeyd olunub. Sonra deyir: "İsrail radiosu İrandakı qrupları bir-birinə qarşı qoymaqda çox əhəmiyyətli rola malikdir".

Məqsəd bunlardır. Bu yazıqlar elə bilirlər ki, bacaracaqlar. Mən inqilabın əvvəllərində Rza xan və Məhəmmədrza xan dövrünün təhlillərinə baxaraq ABŞ-ın və onun muzdurlarının İran xalqını tanımaqda yol verdikləri səhvlərə heyrətlənirdim. Öz-özümə deyirdim: Əgər səhv başa düşməsəydilər, belə biabırçı şəkildə məğlub olmazdılar. İndi də həmin

səhvləri buraxır, İran xalqını tanımır, gənclərdə olan güclü din amilini və dini duyğuları görmür, başa düşmürlər. Bilmirlər ki, yaxınlaşsalar, necə zərbə alacaqlar.

Baxın, inqilabın mənası budur. Bu, xüsusi bir çıxışın mövzusudur. Bu barədə ayrı söhbətlər də var. Mən indi bu barədə danışmaq istəmirəm, vaxt da yoxdur. Deməli, biz inqilabın məqsədlərinə sarı hərəkət etməliyik.

"(Yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən, onlara (Allahın) ayələrini oxuyan, onları təmizləyən, onlara Kitabı və hikməti öyrədən peyğəmbər göndərən Odur"[6]. Bu ayə Cümə surəsinin əvvəlində gəlib. Qabaqca oxuduğum ayə Ali-İmran surəsindəndir. Bunlar, Peyğəmbərin risalətinin məqsədləridir. İslam inqilabının məqsədləri də məhz bunlardır. Yeri gəlmişkən, baxın, Cümə surəsi də maraqlı surədir. Bu məqsədləri deyir və sonra da vurğulayır ki, bu təkcə peyğəmbər dövrünə aid deyil, həmişə davam edir: "Hələ onlara qoşulmamış başqalarına da. O, yenilməz qüvvət, hikmət sahibidir!"[7] Yəni Allah-Taala peyğəmbəri bu məqsədlərlə insanların arasından seçdi və göndərdi; bunların və sonradan gələcək insanların arasından. Ola bilər kimsə fikirləşsin ki, bunun icrasına kim zəmanət verir. Bu axar çayı gələcək nəsillərin ürəyinə yönəltmək necə mümkündür? Cavabı budur: "O, yenilməz qüvvət sahibi (Əziz), hikmət sahibi (Həkim)dir!"[8] O, Əzizdir. Əziz - yəni işlərinə hakim olan, iradə etdiyini həyata keçirməyi bacaran. O, Həkimdir - yəni hər bir işi hikmət əsasında görür və bu da məqsədlərə çatmaqla sonuclanır.

Biz hər cümə günü bu ayələri diqqətlə oxumalıyıq. Maraqlıdır ki, cümə günü namazın ilk rəkətində Cümə surəsini oxumaq müstəhəbdir. Cümə surəsində də bu dediyim sözlər var. Orada Bəni-İsrailin tarixi ibrətinə də toxunulub. İndi mən burada sizə Peyğəmbər zamanının, yəni erkən İslam dövrünün tarixi ibrətindən danışmaq istəyirəm. Allah-Taala erkən İslam dövrünün insanlarına isə Bəni-İsrailin tarixindən ibrət göstərir. Yəni bir zaman onlar üçün də kitab və peyğəmbər gəldi. Öz quranlarını, yəni Tövratı və səma kitabını onlara verdilər. Onlar isə bunu daşıya bilmədilər. Fiziki əşya kimi götürdülər, amma ruhunu əxz etmədilər.

Sonrakı ayələr, "Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər…"[9] tarixi ibrət barədədir; Tövrat verilən, amma onu özləri ilə aparmayan şəxslər. Tövratın zahiri vardı, ruhu isə yox idi. Onlar kitablar

---

[6] Cümə/2.

[7] Cümə/3.

[8] Cümə/3.

[9] Cümə/5.

yüklənən, belinə kitab yığılan, amma kitabın məzmunundan heç bir şey anlamayan uzunqulağa bənzədilirlər.[10]

**Sionizm**

Bu, Bəni-İsrailin zillətlə sonuclanan[11] ağır ibrətidir. Xar oldular, didərgin düşdülər, dərbədər qaldılar, üstündən əsrlər keçməsinə baxmayaraq, bu gün də yarımçıq və yarımcan bir dövlətləri var. Sionist yəhudilər onun uğrunda nə qədər cinayət törədib, nə qədər qan töküblər. O da zəif bir dövlətdir, düşmənləri üzük halqası kimi ətrafını mühasirəyə almışlar. Və mən bu gün sizə deyirəm: İşğal edilmiş Fələstin torpaqlarında qurulan yəhudi dövləti və sionist hakimiyyəti mütləq bir gün məhv olacaq. Quran bunu müsəlmanlara xatırladır ki, belə vəziyyətə düşməsinlər. Deyir hər cümə günü bu surəni cümə namazının birinci rəkətində, Münafiqun surəsini isə ikinci rəkətində oxuyun. Bunun çox dərin mənası var. Münafiqlər qəlblərində bu dəyərlərlə heç bir bağlılığı olmayanlardır. Lakin zahirdə bu dəyərlərə inanan insanların sırasına qoşulmuşlar.

**İslam cəmiyyəti**

Bunlar məqsədlərdir.[12] Allahın ayələrini onlara oxuyun və onları qeybə calayın, əxlaqi baxımdan paklayın; yəni bir-birinə qarşı paxıllıq, xəsislik, namərdlik, cinayət, tamahkarlıq, bədbinlik, xəyanət və bədgümanlığın olmadığı cəmiyyət, əslində, yer üzünün cənnəti. Cənnət – mənən paklanmış İslam cəmiyyətidir.

**İnsanın əsas silahı**

Sonra buyurur ki, onlara elm öyrətsin. Elm təkamülə yetişmək üçün insanın əsas silahıdır. Elmsiz mümkün deyil. ABŞ-da, Avropada və digər Qərb cəmiyyətlərində mövcud olan fəsad onları yerli-dibli məhv etmək üçün kifayət idi. Amma bu gün bu şəxslər bütün fəsadları ilə dünyanı ələ keçirmiş və qalmışlar. Bu onların bəzi müsbət xüsusiyyətlərinə, o cümlədən elmlərinə görədir. Onlar elmə önəm verdilər.

**Arif alim**

Siz tələbələrə tövsiyə edirəm ki, heç nəyin bahasına elmdən vaz keçməyin, elmin qədrini bilin. Elm çox əhəmiyyətli amildir. Harada olsanız,

[10] Cümə/5.
[11] Bəqərə/61.
[12] Cümə/2.

yalnız alim olduqda ən yaxşı işi görə bilərsiniz. Əgər alim olmasanız, arif də olsanız, yolunuzu azacaqsınız. Alim olmayan arif Allah yolunu keçmiş, bu yolla hərəkət etmiş olsa belə, hər an yolunu aza bilər. Qalıb onun bəxtinə. Əgər təhlükəli şərait yaransa, mütləq yolunu azacaq. Amma arif insan həm də alim olsa, imam kimi olar, dünya işlərinin yandırıcı alovunun ortasında, inqilab, dövlət quruculuğu və ağır hökumət işləri arasında İbrahim Xəlil (ə) sayağı alovda hərəkət edər, dünya onu qərarsız edə bilməz. Bu, elmə görədir.

**Elmlə hərəkət**

Əgər hərbçi və korpus mühafizəçisi də olsanız, sizə elm lazımdır. Elmlə hərəkət etməlisiniz. Əvvəldən Mühafizəçilər korpusunun əsas kadrları alim gənclər idilər: təhsilli, savadlı insanlar, bəzisi universitet, bəzisi də hövzə tələbələri, ən yaxşı və ən parlaq gənclər. Əlbəttə, korpusa ümumi rəğbət müxtəlif təbəqələrin ona üz tutmasına səbəb oldu. Amma inqilab və İslam təməllərinə möhkəm bağlı olan bu hizbullahçı korpus ölkənin ən savadlı, ən ixtisaslı və ən təchizatlı qurumlarından biridir.

**Korpusun möhkəmliyi**

Bu gün də biz müxtəlif işlərdən ötrü elmi və əxlaqi qabiliyyətlərə malik adam axtarsaq, korpusda tapmaq olar. Əlbəttə, mənim fikrimcə, korpusa əl vurmaq lazım deyil. Korpus gərək belə möhkəm qalsın. Bu korpusun çoxlu qabiliyyətləri, böyük inkişafı və yaxşı yenilikləri var. Bunlar səbəbsiz deyil. Bu, korpusda yüksək elmi olmayanlara hörmətsizlik kimi çıxmasın. Xeyr. Bəziləri heç bir elmi dərəcəsi olmadan korpusa qoşuldular və oradan mələk kimi çıxdılar. Mənim kimilər onların ayağının tozudur.

Mən korpusda elələrini tanıyıram ki, bəziləri şəhid oldular, bəziləri sağdırlar. Onların elmləri az idi, lakin cəbhəyə gedib o biri amildən, yəni ixlas və səmimiyyətdən elə bəhrələndilər ki, mənim kimilər doğrudan da nə qədər hoppansalar, onlara çatmazlar. Mən doğrudan deyirəm ki, onların ayağının tozuyam. Korpus bütün bu dəyərlərə malik idi, bu gün də elədir.

Siz indi elm öyrənməklə məşğulsunuz. Bu elmin, bu təhsilin qədrini bilin. Peğyəmbərin insanlar üçün gətirdiyi elm - kitab və hikmətdir. Kitab hər bir şeyi, həyat bilgilərini, ilahi bilgilərdən tutmuş insana öyrədilməsi mümkün olan bütün bilgiləri ona örətdi. Hikmət isə bizim adi elmimizdən yüksəkdir. Hikmət həyatın çarxını fırladan böyük bilgilərdir. Əgər insanın elmi olsa, lakin özünün, yaxud digərinin hikmətindən bəhrələnməsə, həyatı maşınlaşmış, quru, cansız, mənasız, istiqamətsiz və davamsız olar.

**Hikmət**

Hikmətdə əxlaq, diqqət, dərinlik və uzaqgörənlik var; mənəvviyat, Allahla əlaqə və məsələləri düzgün anlama var; varlıq aləminin təbiəti və həqiqəti ilə tanışlıq, təcrübi baxışla deyil, uca insani baxışla tanışlıq var. Əlbəttə, təcrübi baxış da lazımdır, lakin hikmət ondan üstündür. Hikmətin mənasında bunların hamısı yatır.

Məsələn, Quranda buyurur: "Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara, nə də yüksəlib dağlara çata bilərsən".[13] Axmaqcasına qürur edən insan rədd edilir. Əlbəttə, ümumi qürur yaxşı bir şeydir. Ümumi qürurun mənası budur ki, bir xalq öz dini, şərəfi və tarixi ilə fəxr etsin. Bu, ümumi qürurdur və yaxşıdır. Fərdi qürur isə budur ki, insan öz zəif nöqsanlarını görməyib, müsbət cəhətlərini bir neçə dəfə artıq sansın. Hətta bəzən özündə olmayan müsbət bir cəhətə malik olduğunu düşünür və bu, fərdi qürur yaradır. Bunun nəticəsində isə lovğalanır və təkəbbür edir. Bu ayə deyir ki, Yer üzündə təkəbbürlə gəzib dolanma.[14] Yer üzündə belə hərəkət etmə, məgər sən kimsən?! Öz zəif cəhətlərinə bax, zahirdə gördüyün bu məqam çox kiçikdir. Sonra buyurur ki, bu, hikmətin bir nümunəsidir.

**Eqoizm**

Siz cəmiyyətdə bu bir sözə əməl etsəniz, bütün cəmiyyət dəyişər. Həyatda bir çox problemlər xudpəsəndlikdən və eqoizmdən qaynaqlanır. Din insanın əlinə bir çəkic verir ki, tüğyan etmiş nəfsinin başına vurub ram etsin. Bu, adi həyata və müsəlman mühitinə aiddir. Lakin döyüşdə ram etmək yoxdur. Bədxah düşmən qarşısında daha ram etmək yoxdur. Bunlar hikmətdir, bunları öyrədirlər.

Bəli, bütün bu məqsədlər eynilə İslam inqilabında da mövcuddur. Bu inqilab və bu hərəkət davam edir. Bu dəyərlər üçün səy göstərmək lazımdır və bu səy ümumi olmalıdır. İlk gündən bu səyin qarşısını almaq istəyirdilər. Bu gün də buna çalışırlar. İndi bunun qabaqkından artıq olduğunu qətiyyətlə deyə bilmərəm. Bəzən bir formada olur, belə pis niyyəti olanlardan kimsə səhv edir, misal üçün, hansısa bir sözü açıq söyləyir və hamı başa düşür. Bəzən də səhvə yol vermir, danışmırlar və heç kim də anlamır. Amma bunlar həmişə olub, təkcə bu günə aid deyil.

**Düşmənin məqsədi**

---

[13] İsra/37.

[14] İsra/37.

Düşmənlərin bütün planları bu inqilab prosesinin qarşısını almaq üçündür. Onlar inkişafın qarşısını almaq və əslində, inqilabı təsirsiz və məhv etmək istəyirlər. İnqilab dayandıqdan sonra geriləyəcək, olduğu yerdə qalmayacaq. Düşmənlərin məqsədi budur.

Bunu kim istəyir? Bu inqilabdan ziyan çəkənlər. Birinci dərəcədə kim? Nəhəng transmilli kompaniyaların mənafeyinə xidmət edən siyasi rejim, yəni hegemon ABŞ rejimi. O, ən böyük düşməndir. Nə qədər desələr də, hətta yalandan dost olduqlarını bildirəndə də sözlərində qəzəb, kin və düşmənçilik aşkar görünür.

Onlar kimlə düşməndirlər? İnqilabı edənlərlə, yəni İran xalqı ilə. Onlar bu inqilabı ərsəyə gətirən nəsillə və onlarla razılaşan sonrakı nəsillərlə düşməndirlər. Nə üçün? Çünki burada onların mənafeyi tapdanıb. İran süfrəsində ABŞ dövlətinin mənafeyinin, onun şirkətlərinin və siyasi şəxsiyyətlərinin nüfuz və sui-istifadəsinin geniş macərası var. Belə düşünürəm ki, bu haqda bir cild yox, onlarla cild kitab yazılmalıdır. Onda hamı görəcək ki, buradan necə sui-istifadə edirmişlər. Düşmən narahatdır. 20 il ötüb, İslam quruluşu möhkəmlənib, böyük işlər görülüb, bu xalqa və bu ölkəyə toxunmaq daha asan deyil, amma onlar ümidlərini itirməyiblər. Deyirlər ki, bəlkə mədəni, siyasi yollarla, xalqın və gənclərin zövqünü dəyişdirməklə bacararıq. Bilirlər ki, ölkəmizin əhalisinin əksəriyyəti gənclərdir.

**İnqilabçı şəxsiyyətlər**

Mənim əzizlərim! Mömin gənclər! Qəlbləri İslam, İslam dəyərləri, İslam rəhbərləri, ölkənin başucalığı və xalqın iqtidarı üçün döyünənlər! Müstəqillik, paklıq və saflıq yolunu seçmiş gənclər! Bacardığınız qədər özünüzü islah edin. Bacardığınız qədər özünüzü hazırlayın. Bilin ki, bu yolun davam etməsi üçün dəyərli, möhkəm, imanlı və güclü şəxsiyyətlərə ehtiyac var. Zəiflər çoxdur. Onlar xoşagəlməz sözlər danışa bilərlər, amma zaman ötdükcə sıradan çıxırlar.

Bu sözlərin bəzisi tez yıxılanlara aiddir. Onlar həvəslə cəbhəyə gedirdilər, amma qulaqlarına bir-iki top, qumbara səsi dəyən kimi geri qayıdırdılar. Bəziləri də irəliləyirdilər. Buralarda məlum olur.[15] Çətin anlarda məlum olur. Rahatlıqda gəzib dolanırlar. Hərə istədiyi kimi danışa bilər. Amma ildırım və gurultu qopduqda, şərait çətinləşdikdə kimlik məlum olur.

---

[15] "Bihar əl-ənvar", c. 74, səh. 163.

Siz möhkəmlərdən, dəyərli və uca olun, özünüzü islah edin və güclü qollarınız inqilab çarxını fırlada, bu prosesi davam etdirə bilsin.

Mənim əzizlərim! İnqilab keşikçiliyi belədir və belə insanlar tarixdə qalırlar. Malik Əjdər tarixdə qalır. Malik Əjdər Siffeyn döyüşündə cəsarətlə düşmən sərkərdəsinin xeyməsinə yaxınlaşanda çoxları atlarının, xeymələrinin arxasında gizlənmişdilər. Döyüşə gəlməyənlər bir kənara, mən hələ döyüşdə olanları deyirəm. Onlar da ölüb getdilər. Zahiri ölüm hamı üçündür, amma onlar həqiqətən, öldülər. Yəni dünyada heç bir izləri qalmadı, maliklər isə tarixdə yaşadılar, ona rəng və hörmət bağışladılar; Rəşid Hicri, Hücr ibn Ədi, Haşim Mirqal, Əmirəlmömininin və İmam Həsənin (ə) ətrafında olan digər böyük şəxsiyyətlər kimi. Belə insanların adı bu gün tarixdə bayraqdır. Sanki bir səhrada gedərkən birdən bir yol nişanı ilə rastlaşırsınız. Orada yazılıb ki, məsələn, filan yerə bu tərəfdən gedin. Bu böyük həyat səhrasında və tarixin çöllərində minlərlə namsız-nişansız nöqtə var. Lakin bircə işarələri bəşəriyyətə yol və istiqamət göstərənlər dövrün nəhəngləridir, ruh, mənəviyyat, düşüncə və ən əsası, iman baxımından güclülərdir. Mənim əzizlərim! Özünüzü belə islah edin ki, bu prosesi davam etdirə biləsiniz. Bizim ölkəmizin buna ehtiyacı var.

**İstedadlı ölkə**

Bu ölkə çox istedadlı ölkədir. Təbii baxımdan çox sərvətlidir, halbuki əhali sərvətli deyil. Uzun illər əcnəbilər bu ölkənin sərvətlərindən istifadə edib varlanıblar. Bəli, ölkə daxilində də bəziləri varlanıblar: Pəhləvi sülaləsi, onların ətrafındakılar, sui-istifadə edənlər, mülkədar nökərləri. Ümumi xalq isə məhrum qalıb.

**Ən həssas məqam**

Bu ölkəni düzəltmək olar. Bu ölkədə 200-300 milyon böyük, savadlı və cəsarətli insan ərsəyə gətirmək olar. Əgər siz gənclər bu əziz və faydalı inqilab xəttində ciddi hərəkətə başlasanız, bir neçə nəsil sonra dünyanın mərkəzində və böyük bir məntəqədə yerləşən bu ölkə ilə əlaqəyə bütün dünyanın ehtiyacı olacaq. Siz xəritəyə baxsanız, görərsiniz ki, bura planetin ən həssas nöqtələrindən biridir.

Sərvət, tarix və mədəniyyət baxımından belədir. Hamının etiraf etdiyi kimi, İran xalqı adi səviyyədən yüksək istedada malikdir. Bu ölkənin özünə layiq məqama çatması üçün inqilabın bu gedişlə, hətta daha sürətlə illərlə hərəkət etməsinə ehtiyac var. Bu, siz gənclərin, ali təhsillilərin və siz

mühafizəçilərin işidir. Bu, universitet tələbələrinin, ruhanilərin və müxtəlif təbəqələrin işidir. Bu iş görülməlidir.

Düşmən buna mane olmaq, bu prosesi durdurmaq istəyir. Çünki o zaman buradan heç bir xeyir götürməyəcək. Siz baxın, görün bu gün ABŞ, məsələn, Yaponiya kimi bir ölkədən iqtisadi mənfəət götürürmü? Təəssüf ki, onlardan siyasi istifadə edir, amma iqtisadi cəhətdən bəhrələnə bilmir. Lakin Səudiyyə Ərəbistanı necə? Görün nə qədər istifadə edirlər.

**Qabaqcıl ölkə**

Əgər elmi, mənəvi, əxlaqi və hərbi baxımdan ABŞ-dan qabaqcıl bir ölkə meydana çıxsa və bütün cəhətlərdən üstünlük əldə etsə, savadlı, cəsarətli, mömin və bütün sahələrdə qabaqcıl əhalisi olan bir ölkəyə çevrilsə, təbii ki, onun düşməni də olacaq. Amma hər hansı bir düşmən ona yaxınlaşmağa, ondan sui-istifadə etməyə cürət edə bilərmi?! Onu talaya bilərmi?! Məgər bunu bacararlar?! İslam düşmənləri bunu istəmir. Yolumuza diyirlətdikləri daşlar buna mane olmaqdan ötrüdür. Lakin İran xalqı, xüsusən gənclər bu prosesi israrla axıracan davam etdirməlidirlər.

Mən mühafizəçilərlə görüşəndə adətən, söhbətin vaxtını itirirəm. Adətən, 30-35 dəqiqədən artıq söhbət etmək istəmirəm. Bu bəlkə mənim üçün yaxşı da deyil, amma korpus uşaqları olanda bir saat çəkir. İndi saata baxıb gördüm ki, zaman ötüb, siz də yorulmusunuz, mən də. Sizə Allahdan uğur diləyirəm. Mən bir neçə dua edəcəyəm, pak və nurlu olan siz gənclər də "amin" deyin. Mən sizin "amin"inizə çox ümidvaram. Bunu ürəkdən deyin.

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, bizi müsəlman və mömin yaşat, dünyadan müsəlman və mömin apar!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, təqdir qələmin bizim təbiət aləmindən getməyimizi nə vaxta yazmışsa, ölümümüzü Öz yolunda şəhadətdən başqa cür ölüm etmə!

Ey Rəbbim! Bizi bizdən razı olduğun halda öldür! Bizi elə bir halda öldür ki, imamımız və rəhbərimiz həzrət Bəqiyyətullah Əzəm (İmam Mehdi) (ə) bizdən razı olsun! Bizi elə bir halda öldür ki, gözlərimiz onun camalında olsun!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bizi inqilaba, xalqa və İslama borclu halda öldürmə!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bizi son anımıza qədər inqilabın, İslamın, bu torpağın və İslam ölkəsinin əsgərlərindən et!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bizim şəhidlərimizi Sənə yaxın olan uca məqamlarda yerləşdir! Ölkəmizdə və tariximizdə şəhadət karvanının hərəkət başçısı olan əziz imamımıza ən yüksək məqamlarda yer ver!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, bu xalqın və bu ölkənin düşmənlərini, İslam və inqilab düşmənlərini məğlub və xar et!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, bu inqilabın və bu xalqın bütün sahələrdə son və qətiyyətli qələbəsini bu nəslə, bu xalqa və bu gənclərə göstər!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, İmam Mehdinin (ə) və mərhum imamımızın dualarını qəbul etməklə bizim qəlblərimizi şad et!

Ey Rəbbim! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, öz yolunda hərəkət səadətini bizə günbəgün daha artıq bəxş et! Qeybdə olan imamımızın müqəddəs qəlbini bizdən razı et! Xalqın və ölkənin düşmənlərini məhv et! Öz rəhmət, lütf və köməyini əziz əlillərimizə, əsirlikdən azad olanlara, itkinlərə, əsirlərə və onların ailələrinin hamısına şamil et!

Allahın salamı və rəhməti olsun sizə!

## İnqilab və milli özünəinam[16]

Bismillahir-Rəhmanir-Rəhim.

Bu gün mənim üçün çox gözəl bir gündür. Düzdür, prezident olarkən bu universitetə dəfələrlə gəlmişəm. Lakin məncə, bu toplantının özəl bir xüsusiyyəti var və bu xüsusiyyət bu görüşü mənim üçün çox yaddaqalan və gözəl edir. Təxminən 2-3 ay əvvəl mənə xəbər verdilər ki, sizin belə bir toplantınız olacaq. Zənnimcə, universitetin möhtərəm rektoru məndən müraciət göndərməmi, yaxud bəzi dostlarla görüşməmi istəmişdi. Mən o zamandan qərara gəldim ki, bu toplantıya gəlim və universitetin bir neçə illik səmərəsini öz gözlərimlə görüm.

**Pedaqoji unversitet**

Bu universitet böyük ümidlə təsis olunub. Əlbəttə, ölkənin bütün univesitetlərinin inqilab, quruluş və elmi tərəqqi üzərində böyük haqqı var. Amma bu universitet inqilabın universitetidir, ölkə universitetləri üçün inqilabçı kadr və müəllimlər yetişdirmək məqsədilə təsis olunub. Bu gün Allahın lütfü ilə ölkə universitetlərində mömin gənclər və inqilabçı məzunlar çox olduğundan, bu söz çoxlarına anlaşılmaz görünə bilər. Lakin səksəninci illərin əvvəllərində bu sözün çox mənası vardı. O zaman bəzi müəllimlər unversitetlərə gəlmir, inqilaba kömək etmək istəmirdilər. Bəziləri xarici ölkələrə gedirdilər, bəzilərindən tələbələr şikayət edirdilər. Dəfələrlə bizə müraciət edib deyirdilər ki, müəllimlər qayğıkeş deyillər. Əlbəttə, bəziləri də iman və ixlasla xidmət göstərirdilər. Lakin ölkədə universitetlərin artırılması belə bir universiteti qaçılmaz edirdi. Allahın lütfü ilə bu gün bu universitetin bir neçə min məzunu var. Bu, çox gözəl və yaddaqalan hadisədir.

Əziz qardaş və bacılar! Mən sizə yalnız bir cümlə demək istəyirəm: Bu gün universitetin ziyalı nəslinin üzərinə xüsusi məsuliyyət düşür. Bu gün sizin ölkəniz, inqilabınız, şərəfli İslam quruluşunuz elə bir dövrü yaşayır ki, hər bir elm və düşüncə adamı onu idarə edənləri daha da gücləndirməyə çalışmalı, onlarla əməkdaşlıq etməlidir. Biz çətin dövrlər yaşamışıq: müharibə və ondan sonrakı böyük problemlər dövrü.

---

[16] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışı: 3 sentyabr 1998.

**Geriliyi aradan qaldırmaq**

Bu gün elm sahəsində yorulmadan çalışmalı, uzun diktatura dövrünün mənfi təsirlərini aradan qaldırmalıyıq. O dövrdə istedadları çiçəklənməyə qoymadılar, xalqın əsl və həqiqi kimliyini göstərməsinə imkan vermədilər. Qərbin elm və sənaye inkişafının nəticəsi olan məhsulların idxal edilməsinin ardınca, onun hər bir şeyini Qərbdən asılı etdilər, elm və mədəniyyət məhsullarını da ölkəyə idxal etdilər. Gördükləri birinci iş ölkənin təhsilli təbəqəsini özünə inamsız etmək idi. Onları öz mədəniyyətlərinə, adət-ənənələrinə, elmlərinə, parlaq istedadlarına inamsız etdilər. Bu inamsızlıq uzun illər öz təsirini buraxdı. Bu düşüncə - iranlını təhqir düşüncəsi həqarət hissinin ölkənin aparıcı təbəqələrinin beyninin dərinliklərinə qədər işləməsinə səbəb oldu. Qərbin bu vəziyyətin məhsulunu biçməsi, təbii ki, uzun illər çəkdi. Amma nəhayət, müvəffəq oldular və nəticəsi indi ölkəmizdə müşahidə etdiyimiz gerilikdir. Bütün bu humanitar baza və maddi mənbələrlə, malik olduğumuz xüsusi coğrafi mövqe ilə, parlaq elmi və mədəni keçmişlə və malik olduğumuz zəngin elmi irslə yanaşı, bu gün elm, sənaye və müxtəlif elmi inkişaf göstəricilərində vəziyyətimiz çox aşağıdır.

**Özünəinamın möcüzəsi**

Bizim tarix, coğrafiya və ədəbiyyatımızda da başqaları daha çox tədqiqat aparmış, işləmişlər. İranlıda olan parlaq istedad hələ bu geriliyin yerini tuta bilməyib. Əlbəttə, inqilab dövründən bu yana bir möcüzə baş verib və o, özünəinamdır. Ovaxtkı həqarət hissi bu gün daha yoxdur, amma yenə işləmək lazımdır.

**İşlərin məqsədi**

İnqilabın ilk illərində, xüsusən də səkkizillik müharibə dövründə çoxlu problemlər vardı. Bu gün sizin vəzifəniz çalışmaqdır. Bu çalışmağın məqsədi də İslamı ucaltmaq, müsəlman ölkəmizə istiqlaliyyət bağışlamaqdır. Ölkənizi hər cəhətdən müstəqil edin. Müstəqil olmaq o demək deyil ki, sərhədlər xaricindən hər bir istifadənin qapısını bağlayaq. Bu, absurddur. Heç kəs buna dəvət etmir. Tarix boyu insanlar hamıdan istifadə etmişlər. Lakin iki eyni, bərabər mövcud arasında fikir, düşüncə və məhsul mübadiləsi ilə birinin o birinə yalvararaq dilənməsi və onun da təhqirlə bir şey verməsi arasında fərq var.

**Gənc nəslin məsuliyyəti**

Ölkəni lazımi səviyyəyə qaldırmaq ali təhsilli və ziyalı gənc nəslin böyük məsuliyyətidir. Məncə, bu universitetdə təhsil almış siz qardaş və bacıların üzərinə bu sahədə daha ağır vəzifə düşür. İnşallah, daha çox nailiyyətləriniz olsun.

Bu gün mənim əsas məqsədim sizin aranızda olmaq idi, nəsə demək, danışmaq fikrim yox idi. Düşünürdüm ki, suallarınızı dinləyib cavablamaq üçün 1 saat sizin aranızda olum. Bu, mənim üçün çox şirin və ürəkaçandır. Amma düşündüm ki, ölkənin bugünkü vəziyyətində faydalı olan bir məsələ haqda söhbət edim. Bəzi qeydlərimi qısa şəkildə nəzərinizə çatdıracağam.

**Mətbuat və məzmun**

Azadlıq haqda iki məqama diqqət yetirmək lazımdır. Bu gün ölkə mətbuatında və mütəfəkkirlər arasında azadlıq məsələsi aktual mövzudur. Bu, yaxşı əlamətdir. İnqilabın təməl məsələlərinin müzakirə obyektinə çevrilməsi, bəzi şəxslərin bu haqda düşünüb, fikir bildirməsi həmişə gözlədiyimiz və az-çox baş tutmuş məsələdir. Bu mövzu bu gün də gündəmdədir; mən də yazılanlara və deyilənlərə az-çox baxır, oxuyur və bəzən onlardan öyrənirəm. Fikirlər müxtəlifdir; yəni hamı eyni formada yazmır, bir-birinə zidd görüşlər var. Bu zidd görüşlərin hər iki tərəfində doğru və düzgün sözlər müşahidə olunur. Bu müzakirələri davam etdirmək yaxşı haldır. Kaş bizim nəzər sahiblərimiz mətbuatda köklü məsələlərin müzakirəsinə meyl göstərəydilər, mətbuatı məzmunsuz haldan çıxarıb, xalqı düşündürücü və istiqamətləndirici mövzulara yönəldəydilər. Biz həmişə tövsiyə edirik ki, inqilab mədəniyyətini gücləndirsinlər. Gücləndirmək üçün də belə işlər görmək lazımdır.

**Azadlıq məfhumu**

Toxunmaq istədiyim iki məqamdan biri budur ki, Azadlıq məfhumu üçün bizim şüarlarımızdan olan istiqlaliyyətdən istifadə etməliyik; yəni müstəqil düşünək, düşüncədə təqlidçi olmayaq. Əgər çoxlu məsələlərimizin və inkişafımızın bünövrəsi olan bu amili nəzərdən qaçırıb başqalarını yamsılasaq, gözlərimizi təkcə Qərb təfəkkürünü göstərən bacaya açsaq, böyük səhv etmiş olacaq və acı nəticələrlə üzləşəcəyik.

**İctimai azadlıq**

Azadlıq məsələsi Qurani-kərimdə və imamların sözlərində dəfələrlə, özü də ciddi surətdə təkid olunan məsələlərdən biridir. Əlbəttə, burada məqsədimiz dünyada heç bir tərəfdarı olmayan mütləq azadlıq deyil.

Düşünmürəm ki, dünyada kimsə mütləq azadlığa dəvət etsin. Məqsədimiz İslam dinində, xüsusən də İslam maarifinin yüksək səviyyələrində nəzərdə tutulan mənəvi azadlıq da deyil. Mənəvi azadlıq məsələsi mənəviyyata inanan bütün insanların qəbul etdiyi məsələdir, amma söhbətimizin mövzusu bu deyil. Burada söhbət açdığımız azadlıq ictimai azadlıqdır: düşünmək, danışmaq, seçmək və bu tip işlər üçün insani haqq olan azadlıq. Bu məsələ Quran və sünnədə yüksək dəyərləndirilmişdir.

Əraf surəsinin 157-ci ayəsi buyurur: “O kəslər ki, əllərindəki Tövratda və İncildə yazılmış gördükləri rəsula - ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, natəmiz və iyrənc şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üzərlərindəki buxovları açar”. Allah insanların boynundan zəncirləri götürməyi Peyğəmbərin xüsusiyyətlərindən biri kimi göstərir. Peyğəmbər "isr"i, yəni insanlara məcbur edilən boyunduruqları onlardan götürür. Çox maraqlı və geniş anlayışdır. Əgər o dövrün dini və qeyri-dini cəmiyyətlərinə nəzərə salsanız, bilərsiniz ki, bu boyunduruqlar və insanların zorla məcbur edildiyi əhdnamələr batil inam və xurafatların, istibdad, təhrif, yaxud təhqir əllərinin insanlar üçün zorla yaratdığı yanlış ictimai şərtlərin çoxuna şamil olur. “Əğlal” sözünün "zəncirlər" demək olduğu da aydın məsələdir.

Məşhur “Ədalətin səsi” kitabının müəllifi cənab Corc Cordaq Əmirəlmömininin və ikinci xəlifə cənab Ömərin sözlərini müqayisə edir. Bir dəfə dövrünün valilərindən bir neçəsi cənab Ömərin yanına gəlmişdilər. Xəlifəyə onların pis əməllərinə dair xəbər çatmış və onu qəzəbləndirmişdi. Xəlifə onlara müraciətlə ölməz bir cümlə deyib: "Siz nə vaxtdan insanları özünüzə kölə etmisiniz?! Halbuki Allah onları azad yaratmışdır". Digər cümlə isə Əmirəlmömininin Nəhcül-bəlağədə yer alan cümləsidir: "Başqasının qulu olma, Allah səni azad yaratmışdır!" Corc Cordaq bu iki cümləni müqayisə edib deyir ki, Əmirəlmömininin cümləsi Ömərin cümləsindən qat-qat üstündür. Ömər azadlıq və hürriyyətə heç bir zəmanət verməyən şəxslərə müraciət edir. Çünki Ömərin ifadəsinə əsasən, insanları özlərinə qul edənlər onların özləridir. Yəni ey xalqı özünə qul hesab edənlər, xalqa azadlıq verin. Bu, bir növ danışmaqdır. Əmirəlmömininin isə insanların özünə müraciət edir və icra zəmanətini kəlamının özündə göstərir: "Başqasının qulu olma, Allah səni azad yaratmışdır!"

**Hürriyyət**

Hər iki kəlamda azadlıq üçün iki xüsusiyyət var. Əlbəttə, Əmirəlmömininin kəlamı daha üstündür. Çünki o, icra zəmanətini də ehtiva edir. Sözügedən iki xüsusiyyətdən biri budur ki, azadlıq hissi insanın fitrətində var: "Allah səni azad yaradıb". Mən İslam təfəkkürü ilə Qərb təfəkkürü arasında müqayisə apararkən buna toxunacağam.

Mən bu gün söhbəti uzatmaq istəmirəm. Əgər Allah uğur versə, başqa bir yerdə çoxlu deyiləsi sözləri söyləyəcəyəm. İndi bu iki məqamı xatırlatmaq istəyirəm. Onların biri azadlıq məsələsində müstəqil düşünməkdir.

Baxın, bu gün dünyanın siyasi lüğətlərində tərcümə edilən ictimai azadlığın Qurana əsaslanan belə bir kökü var. 18-ci əsr Avropasının liberalizminə müraciət etməyə və Kantın, Con Stüart Milin və digərlərinin nə dediyinə baxmağa heç bir lüzum yoxdur. Bizim öz sözümüz, öz məntiqimiz var. Deyəcəyəm ki, onların sözləri hansı dəlillərə görə bizi qane etmir.

### Azadlıq və Din

Azadlıq məsələsini islami məsələ bilin. Məncə azadlıq məsələsinin qeyri-islami və qeyri-lokal edilməsində iki qrup əlbir olmuşdur. Bu qrupların biri azadlıq məsələsinə dair son iki-üç əsrin Qərb filosoflarının deyimlərindən sitat gətirirlər: filankəs belə deyib, flankəs elə deyib. Əlbəttə, bunlar həmin filosofların adlarını çəkdikləri üçün hörmətə layiqdirlər. Çünki bəzi fəlsəfəpərdazlar Con Stüart Millin, yaxud başqa fransalı, almaniyalı və ya amerikalı filosofun sözünü deyir, amma adını çəkmir, öz adlarına yazır və saxtakarlıq edirlər. Hər halda, bu qrup azadlıq təfəkkürünün və ictimai azadlıq məfhumunun Qərb tərəfindən bizə hədiyyə verilmiş düşüncə olması haqda fikir formalaşmasına kömək edirlər.

Bir qrup da bilmədən bunlara kömək edir. Bunlar azadlığın adı çəkilən kimi qorxuya düşən, fəryad qoparıb “ay aman, din əldən getdi” deyənlərdir. Xeyr! Din azadlığın ən böyük carçısıdır, nə üçün əldən getməlidir?! Düzgün və məntiqli azadlıq dinin bir xalqa və bir cəmiyyətə ən böyük hədiyyəsidir. Azadlığa görə düşüncələr inkişaf edir və istedadlar çiçəklənir. İstibdad istedadın düşmənidir. İstibdad olan yerdə istedad çiçəklənə bilməz. İslam insanların çiçəklənməsini istəyir. Təbii mənbələr kimi möhtəşəm insani mənbələr də çıxarılmalıdır ki, dünyanı abadlaşdırsınlar. Məgər bu, azadlıq olmadan mümkündür?! Məgər əmr və qadağalarla mümkündür?! Kimlərinsə belə düşünməsi yanlışdır. Qərbpərəstlər və ehtiyatlananlar azadlıq anlayışını İslamdan tamamilə uzaqlaşdırmaqda özləri də bilmədən əməkdaşlıq edirlər. Halbuki belə bir şey yoxdur və azadlıq İslamın təsdiqlədiyi bir anlayışdır.

Mən sizə bir söz də deyim: İslamda ictimai azadlığa Qərb məktəblərindən daha çox yer verilmişdir. Əlbəttə, liberalizmin izahları olduqca çoxdur. Yəni renessansdan etibarən Fransada, Avropada və sonra bütün dünyada liberalizm təfəkkürünün inkişaf etməsindən, sonra Fransa inqilabı ilə nəticələnməsindən, daha sonra Amerika istiqlaliyyət vuruşmalarında təhrif olunmuş şəkildə işlədilməsindən və bəlli Amerika xartiyasının yaranmasından - bütün bunlar xüsusi söhbətlərin mövzusudur - bu günədək, xüsusən də son illərdə liberalizmə onlarla tərif və izah verilmişdir. Son zamanlar Amerika nəzəriyyəçiləri və ideoloqları müntəzəm olaraq bu sahədə yazırlar.

Bunu da deyim ki, bu mütəfəkkirlər arasında hətta amerikalı olmayan çoxları ABŞ rejiminin sifarişi ilə bu sahədə, xüsusən liberalizm mövzusunda yazırlar. Kitablar bəzən Avstriyada, Almaniyada, yaxud Fransada yazılır, amma Nyu-Yorkda çap olunur. Sifariş Amerikadan gəlir. Bunda məqsəd ABŞ-ın maraqlarıdır. Bunun özü geniş mövzudur. Hər halda, bu barədə müxtəlif izahların olmasına baxmayaraq, İslamın baxışı onların hamısından üstündür.

Onlar azadlığa fəlsəfə düzəltməkdə problemə düşüblər. Azadlığın fəlsəfəsi nədir? Bəşər nə üçün azad olmalıdır? Buna fəlsəfi əsas tapılmalıdır. Bu barədə müxtəlif sözlər deyilib: fayda, ümumi maraq, ictimai həzz, şəxsi həzz və uzaqbaşı, sivil hüquqlardan biri. Bunların hamısına irad bildirmək olar. Onların özləri də irad bildiriblər.

Əgər son illərdə liberalizm haqqında yazılanlara baxsanız, azadlıq haqda nə qədər puç, əbəs, faydasız və Orta əsrlər dövrünə bənzər sözlər deyildiyini görərsiniz. Biri bir söz deyib, o birisi cavab verib, sonra daha birisi gəlib cavaba cavab verib. Doğrudan da üçüncü dünya ziyalıları üçün pis əyləncə deyil ki, biri bu nəzəriyyənin tərəfdarı olsun, biri o nəzəriyyənin; biri bunun arqumentlərini qəbul etsin, biri onun dəlillərini izah etsin, başqa biri də nəzəriyyəni öz adı ilə başqalarına sırısın.

**Azadlığın fəlsəfəsi**

Uzaqbaşı, azadlığın fəlsəfə və qaynağının bir insani haqq olduğunu deyirlər, İslam isə bundan da artığını deyib. İslam azadlığı insanın fitri hissi bilir. Azadlıq bir haqdır, lakin yaşamaq və həyat haqqı kimi olub, digər haqlardan yüksəkdə durur. Yaşamaq haqqını, istədiyi yerdə yaşamaq haqqı, seçim haqqı və digər hüquqlarla bir sıraya qoymaq olmaz. Azadlıq da belədir, bunların hamısının fövqündə durur. Bu, İslamın baxışıdır.

Düzdür, burada bəzi istisnalar da var. Konkret hallarda insan yaşamaq hüququ kimi azadlıqlardan da məhrum edilə bilər. Bir nəfər kimisə öldürürsə, qisas alırlar; fəsad yayırsa, cəzalandırırlar. Lakin bunlar müstəsna hallardır. Bu, İslamın yanaşmasıdır.

Deyilənlərə əsasən, ictimai azadlıq düşüncəsinin Qərbin bizə hədiyyə verdiyini düşünmək yanlışdır. Yəni biz bu sahədə əsaslı və cəlbedici bir söz demək üçün mütləq filankəsin kitabına istinad etməyə, Qərbdə özü üçün oturub fikirləşən və yazan birisinin adını çəkməyə məcbur deyilik. Xeyr! Müstəqil düşünmək, öz mənbələrimizə və İslam qaynaqlarına müraciət etmək lazımdır. İnsan digərlərinin təfəkküründən zehnin açılması və qaranlıq məqamların aydınlaşması üçün istifadə etməlidir, təqlid etmək üçün yox. Əgər təqlid məqsədilə olsa, böyük zərər edəcəyik.

Mən bu gün bu mətbuat və düşüncə dartışmalarında - dedim ki, bu, yaxşı haldır - çoxlarının bu məqama diqqət yetirmədiyini müşahidə edirəm. Mən burada İslam məntiqindəki azadlığın Qərb məntiqindəki azadlıqla iki-üç ümdə fərqini deyəcəyəm. Qeyd etdim ki, bu məktəbdə mövcud olan bütün nəzəriyyələrin və müxtəlif cərəyanların ortaq adı liberalizmdir. Bu nəzəriyyə və cərəyanlar bəzi sahələrdə digərləri ilə müəyyən ziddiyyətlər təşkil etsə də, ümumilikdə aşağıdakılardan ibarətdir:

**Liberalizm azadlığı**

Qərb liberalizmində insan azadlığı din və tanrı adlı amillərdən uzaqdır. Onlar azadlığın Allah tərəfindən verildiyini düşünmürlər. Heç biri demir ki, azadlığı insana Allah verib. Onlar bunun üçün fəlsəfi qaynaq axtarırlar. Bu haqda bəzi əsaslar göstərilmiş və müxtəlif izahlar verilmişdir.

İslama görə isə, azadlıq ilahi əsasa malikdir. Bunun özü başlıca fərqdir və digər fərqlərin çoxu məhz buna qayıdır. İslam məntiqinə görə, azadlığa qarşı çıxmaq bir ilahi hökmə qarşı çıxmaqdır; yəni insanın qarşısında dini vəzifə qoyur. Qərbdə isə belə deyil. Qərbin liberalist təfəkkürünə görə, dünyada azadlıq üçün aparılan ictimai mübarizələrin heç bir məntiqi yoxdur. Məsələn, deyilən sözlərdən biri "ümumi mənafe", yaxud "əksəriyyətin marağı" məsələsidir. İctimai azadlığın əsası budur. Sual oluna bilər: "Mən nə üçün əksəriyyətin mənafeyi üçün döyüşə gedib ölməli, məhv olmalıyam?!" Bu, məntiqsizdir. Düzdür, ötəri və ani emosiyalar çoxlarını döyüşə çəkir, amma belə təfəkkürlər əsasında mübarizəyə qalxmış insanların hər biri - əgər mübarizə doğrudan da bu təfəkkürlərə əsasən baş veribsə - mübarizə həyəcanından çıxan kimi tərəddüd edəcəklər: Nə üçün gedib ölməliyəm?!

**Azadlıq uğrunda mübarizə**

İslam təfəkküründə isə belə deyil. İslama görə, azadlıq uğrunda mübarizə bir şəriət vəzifəsidir; çünki Allah əmri üçün mübarizədir. Məsələn, siz bir insanın öldürüldüyünü gördükdə, ona kömək etməyə borclusunuz. Bu, dini borcdur; bunu etməsəniz, günah işlətmiş olursunuz. Azadlıq məsələsində də belədir. Getməlisiniz; bu, bir şəriət vəzifəsidir.

**Hüdudsuz azadlıq**

Bu əsaslı fərqdən digər fərqlər də doğur. Biri budur ki, Qərb liberalizmində əxlaqi amil və dəyərlər nisbi olduğundan, azadlıq da hüdudsuzdur. Nə üçün? Çünki siz bir sıra əxlaqi dəyərlərə etiqad bəsləyirsinizsə, bu dəyərlərə hörmətsizlik edəni qınaya bilməzsiniz; ola bilsin, onun bu dəyərlərə inamı yoxdur. Buna əsasən, azadlıq üçün heç bir hədd tanınmır, sərhədsizdir, mənəvi və əxlaqi məhdudiyyəti yoxdur. Nə üçün? Çünki sabit həqiqət yoxdur və onlara görə, əxlaqi dəyərlər nisbi xarakter daşıyır.

**Məhdud azadlıq**

İslamda azadlıq məsələsinə baxış belə deyil. İslamda qəti və dəyişməz dəyərlər var, həqiqət var, dəyər və kamillik olan, dəyər yaradan həqiqət uğrunda hərəkət var. Elə buna görə də, azadlıq bu dəyərlərlə məhdudlaşdırılır. Bu dəyərləri necə anlamaq və öyrənmək başqa məsələdir, onları yanlış və ya düzgün anlamaq mümkündür. Bu, söhbətin mövzusundan xaricdir. Hər halda, azadlıq həqiqətlə və dəyərlərlə məhdudlaşır.

İslamda bu qədər dəyərli hesab edilən ictimai azadlıqdan bir xalqın dəyərli mənəvi və ya maddi sərvətlərini məhv etmək üçün istifadə olunsa, zərərlidir. Bir insanın həyatı da belədir: "Kim, bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur". Qurana görə, bir insanı öldürmək bütün insaniyyəti öldürmək kimidir. Bu, çox möhtəşəm sözdür. Bir insanın qətlinə səbəb olan şəxs bütün insaniyyəti məhv etmiş kimidir; çünki insaniyyət məqamına əl uzatmışdır. Lakin burada da istisna var: "bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi". Yəni bu adamın özü başqasının canına qəsd etmişsə, yaxud fəsad törətmişsə, məsələ ayrı cürdür. Baxın, sabit, qəti dəyər və həqiqətlər bəzən həyat haqqını məhdudlaşdırdığı kimi, bu azadlığı da məhdudlaşdırır.

**Qərb azadlığının hüdudları**

Başqa bir fərq budur ki, Qərbdə azadlığın hüdudlarını maddi maraqlar təşkil edir. Onlar əvvəlcə ictimai və fərdi azadlıqlar üçün məhdudiyyətlər müəyyən etdilər. Onların biri budur: maddi maraqlar təhlükəyə düşdükdə azadlıq məhdudlaşır. Maddi maraqlara misal kimi bu ölkələrin inkişafını və elmi üstünlüyünü göstərmək olar. Təlim-təhsil azadlığı insanların əsla danılmaz hüquqlarından sayılır. İnsanların öyrənmək hüququ var. Lakin Qərb dünyasının böyük universitetlərində bu azadlıq məhdudlaşdırılır. Yüksək elm və texnologiyanı, onların sözü ilə desək, HIGH TEC-i öyrətmək olmaz. Niyə? Çünki bu elm öyrədilsə, həmin supergücün inhisarından çıxacaq və o öz vəziyyətində qalmayacaq. Deməli, azadlığa sərhəd qoyulur; yəni müəllimin üçüncü dünya ölkələrindən, məsələn, İrandan, yaxud Çindən olan tələbəyə bəzi elmi sirləri öyrətmək haqqı yoxdur.

**Azadlıq və senzura**

Xəbər ötürmə azadlığı da belədir. Bu gün dünyanın bütün davası informasiya azadlığı üstündədir: "Qoyun xalq hadisələrdən xəbərdar olsun! Qoyun xalq bilsin!" Qərbdə azadlığa dair təbliğatın əsas hissələrindən biri budur. Buşun prezidentliyi zamanı ABŞ İraqa hücum edəndə isə təxminən bir həftə bütün xəbərlərə senzura qoyuldu. Bununla fəxr edib dedilər ki, heç bir jurnalist ABŞ-ın İraqa hücumundan bir şəkil, bir xəbər dərc edə bilməz. Hamı bilirdi ki, hücum olunub, amerikalılar özləri də xəbər vermişdilər, amma məsələnin təfərrüatından heç kimin xəbəri yox idi. Onlar iddia edirdilər ki, bu iş hərbi təhlükəsizliyə ziyan vura bilər. Deməli, hərbi təhlükəsizlik amili azadlığı məhdudlaşdırdı, önünə maddi bir sərhəd və hasar çəkdi.

**Amerika azadlığı**

Başqa bir hədd dövləti möhkəmlətməkdir. Təxminən 4-5 il əvvəl Amerikada bir qrup meydana çıxdı. Mətbuatı izləyənlər bu haqda oxuyublar. Mən o zaman bu hadisə haqda geniş məlumat topladım, bizim qəzetlər də yazdılar. Onlar Klintonun dövründə xüsusi bir məzhəb kimi ABŞ hökuməti əleyhinə fəaliyyətə başladılar. Onlara qarşı hərbi və təhlükəsizlik tədbirləri gördülər, lakin xeyri olmadı. Sonra onların toplaşdığı evi mühasirəyə alıb od vurdular, təxminən 80 nəfəri yandırdılar. Şəkillərini dərc etdilər, bütün dünya da gördü. Bu 80 nəfərin arasında qadın da var idi, uşaq da. Onların bəlkə bir nəfəri də hərbçi deyildi. Baxın, yaşamaq, əqidə və siyasi mübarizə

azadlıqları bu həddə məhdudlaşdırılır. Bu baxımdan, Qərb dünyasında da azadlığın hüdud və sərhədləri var və bunlar maddi sərhədlərdir.

**Azadlıq və əxlaqi dəyərlər**

Qərbdə əxlaqi dəyərlər azadlığa heç bir maneə yaratmır. Məsələn, Amerikada homoseksualizm geniş yayılmışdır. Bununla fəxr edir, küçələrdə mitinqlər keçirir, jurnallarda şəkillərini vururlar. Fəxrlə deyirlər ki, filan iş adamı və filan siyasətçi də bu qrupdandır. Heç kim xəcalət çəkmir və inkar eləmir. Daha acınacaqlı olan budur ki, bu hərəkata etiraz edən bəzi insanlar mətbuatın kəskin hücumuna məruz qalırlar. Deyirlər ki, bunlar homoseksualizm hərəkatına qarşı çıxırlar. Yəni əxlaqi dəyər azadlıq üçün heç bir hədd təyin etmir.

**Mənəvi sərhədlər**

Başqa bir misal Avropa ölkələrinə aiddir. Orada məsələn, söz azadlığı faşizmin xeyrinə təbliğat zamanı məhdudlaşdırılır. Bu da maddi və siyasi məsələdir. Digər tərəfdən, çılpaqlığın təbliğatı məhdudlaşdırılmır. Yəni bəlli fəlsəfəyə, fəlsəfi əsas və baxışlara malik olan Qərb liberalizmində azadlığa maddi amillərlə hədd qoyulur, əxlaqi amillərlə deyil. İslamda isə əxlaqi hədlər var. İslamda azadlığın maddi hüdudlardan əlavə, mənəvi hədləri də var. Düzdür, kimsə ölkənin mənafeyinə qarşı hərəkət etsə, azadlığı məhdudlaşdırılır – bu, məntiqlidir, amma mənəvi hədlər də mövcuddur.

**Etiqad azadlığının sərhədi**

Kiminsə azğın etiqadı varsa, eybi yoxdur. "Eybi yoxdur" deyəndə, əslində, Allaha və mömin insanlara görə, eybi var, lakin bu zaman dövlətin üzərinə heç bir vəzifə düşmür. Müsəlman cəmiyyətində yəhudi, məsihi və digər dinlərə inananlar var. Bu gün bizim ölkəmizdə belələri var, İslamın erkən çağında da olub. Bunun heç bir eybi yoxdur. Lakin yanlış əqidəsi olan bir şəxs özlərini müdafiə edə bilməyən insanların canına düşüb onları da yoldan çıxarmaq istəsə, bu, yolverilməzdir. Bu zaman azadlıq məhdudlaşdırılır. İslam baxımından belədir. Yaxud siyasi, cinsi və elmi fəsadlar yaymaq istəsələr, yaxud bəzi fəlsəfəpərdazlar kimi ali təhsilin gənclərə xeyirli olmaması haqda məqalə yazsalar, bunun eyiblərini söyləməyə başlasalar, buna yol verilmir. Əlbəttə, böyük ehtimala görə, bunların 90 faizi təsirsiz olur, amma 10 faizi tənbəl gənclərə təsir edə bilər. Kimlərinsə yalan və kələklə insanları təhsildən uzaqlaşdırmasına icazə vermək olmaz.

**Azadlığın sərhədləri**

İslamda aldatmaq, şayiə yaymaq və cəmiyyətdə xof yaratmaq azadlıqları yoxdur. Mənim gileyim budur ki, nə üçün azadlıq məsələlərinə dair İslamın əsaslarına və İslam ədəbiyyatına müraciət olunmur. Quranda Əhzab surəsinin 60-cı ayəsində belə buyurulur: “Əgər münafiqlər, qəlblərində (ruhlarında) xəstəlik olanlar və (mürciflər, yəni) Mədinədə qəsdən yalan şayiələr yayanlar (bu əməllərinə) son qoymasalar, şübhəsiz ki, səni onların üstünə qaldırarıq”.

Burada "mürciflər" münafiqlərin və qəlbi xəstə olanların yanında qeyd edilir. Münafiqlər bir qrupdur, qəlbi xəstə olanlar başqa bir qrup. “Mürcif”lərin adı da onların yanında çəkilir. “Mürcif”lər müntəzəm olaraq xalqı qorxudanlardır. Yeni qurulmuş və çoxlu düşməni olan İslam cəmiyyətində Quran və Peyğəmbər uğrunda könüllülər var. Ölkəni və bu böyük xalq quruluşunu müdafiə etmək üçün onların hamısı psixoloji cəhətdən hazır olmalıdırlar. Bu arada bir qrup insan xora kimi xalqın canına düşüb ruh düşkünlüyü yaradır. Bunlar “mürcif”lərdir. Quran deyir ki, daim xalqda xof yaradanlar, insanları ümidsiz edənlər, ruhdan salanlar bu işlərindən əl çəkməsələr, səni onların üstünə qaldırarıq. Bu, azadlığın sərhədidir. Deməli, İslam məntiqində azadlığın başqa bir fərqi mənəvi dəyərlərdən ibarət hədlərə malik olmasıdır.

**Azadlıq və şəriət vəzifəsi**

Daha bir fərq budur ki, Qərbin liberalist təfəkküründə olan azadlıq şəriət vəzifələrinə ziddir. Azadlıq – şəriətdən də azad olmaqdır. İslamda isə azadlıq və şəriət pulun iki üzüdür. Ümumiyyətlə, insanlar şəriət hökmlərinə vəzifəli olduqları üçün azaddırlar. Belə olmasaydı, azadlığa ehtiyac qalmazdı, insanlar da mələk kimi olardılar. Mövləvi deyir ki, bir hədisə əsasən, Böyük Yaradan məxluqatı üç cür yaradıb. Onların birində ağıl, elm və səxavət cəm olub. Bu, daim Allaha itaətdə olan mələkdir.

**Bəndəlik azadlığı**

Bəşərin xüsusiyyəti belədir ki, onda bir-birinə zidd duyğu və istəklər var. O, bu müxtəlif istəklər arasında təkamül yolunu seçməlidir. Ona məhz bundan ötrü azadlıq verilib. Bu dəyərli azadlıq təkamül üçündür; necə ki, insan həyatının özü də təkamüldən ötrüdür: “Mən cinləri və insanları yalnız

Mənə ibadət etmək üçün yaratdım!"[17] Allah cin və insanı çox uca məqam olan bəndəliyə nail olmaq üçün yaradıb. Həyat haqqı kimi azadlıq da bəndə olmaq üçündür.

**Azadlıq və Qərb**

Qərbdə vəzifəni inkar etməkdə o qədər ifrata varıblar ki, təkcə dini yox, hətta qeyri-dini təfəkkürləri, praktik vəzifələrə, vacib və haramlara, əmr və qadağalara toxunan bütün ideologiyaları inkar edirlər. İndi bu amerikalı və amerikalıya bənzər liberalistlərin və onların peyğəmbərlərinin - onların başqa ölkələrdə, o cümlədən, təəssüf ki, bizim ölkəmizdə ümmətləri də var - son əsərlərindən görünür ki, azad Qərb təfəkkürünün əmr və qadağalarla və ideologi prinsiplərlə zidd olduğunu düşünürlər. İslam isə tam əksinədir. İslam azadlığı insana praktik vəzifə ilə birgə verir ki, onunla vəzifələrini düzgün yerinə yetirsin, böyük işlər görsün, böyük seçimlər etsin və təkamülə çatsın.

**Azadlıq anlayışında müstəqillik**

Buna əsasən, yazıb müzakirə edən bu şəxslərə birinci tövsiyəm budur ki, azadlıq anlayışını dərk etməkdə müstəqil olaq, müstəqil düşünək, asılı olmayaq. İkinci tövsiyəm budur ki, azadlıqdan sui-istifadə edilməsin. Bəzi şəxslər bu sözü tez-tez işlədirlər: "yeni əldə edilmiş mətbuat azadlıqları". Məncə, bu, həqiqətdən kənar sözdür və mənbəyi xarici radiolardır. Düzdür, indi qəzet və jurnallar da bəzi sözlər yazır, hücumlar edirlər. Belə insanların bəziləri keçmişdə belə işlər görmürdülər, bəziləri isə görürdülər. Biz ötən illərdə mətbuatda prezident, müxtəlif məmurlar, hətta inqilabın bəzi təməl prinsipləri əleyhinə yazılan çoxlu məqalələr görmüşük. Heç kim onlara bir söz deməyib. Bu nümunələr yadımdadır, söhbət uzanmasaydı, deyərdim.

Mən 6-7 il bundan öncə mədəni-ideoloji hücüm haqqında danışdım. Həmin çıxış müzakirəyə səbəb oldu və bəzi adamlar ona etiraz etdilər. Bəlkə də bəzilərinizin yadındadır. O zaman İslam Respublikası televiziyasında üç-dörd nəfərin iştirakı ilə bu barədə bir dəyirmi masa təşkil edildi. Onların biri mənim fikrimlə müvafiq idi, onu müdafiə edirdi, digərləri isə bütünlüklə rədd edirdilər ki, xeyr, bunlar yalnız xəyaldır. Deməli, görürsünüz ki, azadlıq var və heç kim müxaliflərə toxunmur.

Bəli, bəzilərinin qovluğu təmiz deyildi, əlləri bulaşmışdı, səhnəyə çıxmağa və bir söz deməyə qorxurdular. Nəsə desəydilər də, heç kimin

---

[17] Zariyat/56.

onlarla işi olmazdı. Bu gün dediklərini o zaman da desəydilər, heç kim onlara heç nə etməzdi. Amma keçmişləri yaxşı olmadığına görə özləri qorxurdular. Onların inqilaba, imama və imamın İslam təfəkkürünə qarşı kinləri çoxdan bəllidir. O zaman onların özləri səhnəyə çıxmağa cürət etmirdilər. Son prezident seçkilərindən sonra isə yanlış təhlillərinə görə cəsarətləndilər. Onların yanlış təhlili bu idi: elə bilirdilər ki, otuz milyon insan quruluşun əleyhinə səs verib. Buna görə sevinirdilər. Halbuki otuz milyon insan quruluşun möhkəmlənməsinə səs vermişdi. İslam quruluşunun fəxrlərindən biri budur ki, inqilabın qələbəsindən 18 il ötdükdən sonra səsvermə hüququ olan 32 milyon insanın 30 milyonu, yəni təxminən 90 faizi seçkilərdə iştirak edir. Onlar quruluşun müsbət cəhətini, mənfi cəhət kimi başa düşürdülər.

**Azadlığın sərhədini aşmaq**

Öncə xarici radiolar seçkilərin ilk günlərindən müntəzəm fəryadlara başlayıb, bu azğınlığa və səhvə hazır olanlara xətt verirdilər ki, bəli, 30 milyon insan quruluşa qarşı narazılığını ifadə edib. Quruluşun müsbət cəhətini mənfi cəhəti kimi təqdim etmək istəyirdilər. Bu yazıqlar da ya inandılar, ya da özlərini aldatdılar; 30 milyon əleyhdarı olan bir ölkədə özlərinin də durub danışmalı olduqlarını düşündülər. İndi də cəsarət tapıb danışırlar. Halbuki heç bir fərq yoxdur. O zaman da qanunları pozur, məntiqi hədləri aşır və qanuna uyğun şəkildə təqib olunurdular, bu gün də elədir; heç bir şey dəyişməyib. Bu gün də kimlərisə yoldan azdırsalar, fəsada çəksələr, xof yaratsalar, yenə elə olacaq, heç bir fərq olmayacaq.

Buna görə, "yeni əldə edilmiş azadlıq" sözünü təkrarlamaq lazım deyil. Bəzi məmurlar da mətbuata müraciətlə dönə-dönə deyirlər ki, azadlıqlardan çox istifadə eləməyin, azadlığın özü təhlükəyə düşə bilər. Bu nə sözdür?! Azadlıqdan nə qədər çox isifadə etsələr, bir o qədər yaxşıdır, lakin sərhəddən çıxmamaq şərtilə. İnsanlar Allahın verdiyi haqdan nə qədər çox istfadə etsələr, İslam quruluşu öz məqsədlərinə daha yaxınlaşar. Biz həmişə yazıçılardan gileylənmişik ki, niyə yazmırlar, niyə araşdırmırlar, niyə təhlil etmirlər.

**Ədalətin əsası**

Düzgün sərhədlərə riayət etmək lazımdır. Bu sərhədlər bir dövlətin və ya quruluşun öz maraqlarına əsasən təyin etdiyi sərhədlər deyil. Bəzi dövlətlərdə belədir, İslam Respublikasında isə belə deyil. İslam Respublikası quruluşunun əsası ədalətdir. Rəhbər də ədalətdən uzaqlaşsa, başqa bir amilə ehtiyac qalmadan avtomatik olaraq rəhbərlik məqamından enir.

**Azadlıq və İslam**

Belə bir quruluşda hər hansı bir qrupun, təbəqənin, yaxud hakim düşüncənin xeyrinə sərhəd müəyyənləşdirməyin mənası yoxdur. Burada sərhəd İslamın sərhədləridir, Quranda, hədisdə və düzgün din təlimlərində göstərilənlərdir. Bunlar mötəbərdir, bunlara əməl olunmalıdır. Əməl olunmasa, bütün məmurlar – məhkəmə məmurları, icraçı məmurlar, Mədəniyyət nazirliyi və digərləri məsuliyyət daşıyırlar. Əgər vəzifələrinə əməl etməsələr, günah etmiş və qanunu pozmuşlar. Bu sərhədlərə riayət etmək onların vəzifəsidir. Bu müstəsna sərhədlər daxilində gözəl və parlaq azadlıq prinsipi var. Ondan istifadə olunmalıdır. Mən bu məsuliyyətsiz çıxışların təkrar edilməsinə razı deyiləm.

**Azadlıq - İslam məsələsi**

Azadlıq İslam məsələsidir. Onun barəsində islami düşünməli, nəticələrinə hamılıqla bir İslam və şəriət vəzifəsi kimi inanmalıyıq. Allahın lütfü ilə cəmiyyətdə olanların qədrini bilək və bu imkandan maksimum bəhrələnək. Fikir və düşüncə sahibləri çalışmalıdırlar. Əlbəttə, bəzi sözlər ixtisaslı mərkəzlərdə, məktəblərdə, universitetlərdə, xüsusi mətbuatda və xüsusi çevrələrdə bəyan olunmalıdır. Bəzi sözlər isə, hamıya aiddir. Bunlar da deyilməlidir ki, hamı istifadə etsin.

Ümidvaram Allah-Taala bizə ölkəmizdə bu quruluşun çiçəklənməsinə səbəb olan məsələləri və bu böyük, yaxşı və əziz xalqın daha artıq uğurlarını görməyi nəsib etsin! Ümid bəslənən və gələcəyin sahibi olacaq siz əziz tələbələrin, gənclərin bu çiçəklənmə və nailiyyətdə böyük rolunuz olacaq.

Allahın salamı və rəhməti olsun sizə!

## SUALLARA CAVAB[18]

**Sual:** Öncə univesitetimizə təşrif buyurmağınızdan ötrü sevinir və sizə təşəkkürümü bildirirəm. Bilirsiniz ki, bu universitet həm də müəllim yetişdirir. Mən magistratura pilləsinin məzunu və doktorantura pilləsinin tələbəsi kimi sizdən istəyirəm ki, təbərrük məqsədilə universitetin idman zalının xərclərini qəbul edəsiniz.

**Cavab:** Həqiqət budur ki, universitetə vermək üçün mənim öz pulum yoxdur. Dövlətin imkanları var, mən də tapşıra bilərəm. Eybi yox, əgər mümkün olsa, tapşıraram kömək olunsun.

**Mənəvi dayaq**

**Sual:** Bildiyiniz kimi, cəmiyyətin islahı onun məhkəmə sisteminin islahına və güclənməsinə bağlıdır. Bu sistemin müxtəlif rütbəli məmurlarının ötən bir neçə ildəki mənfi işləri və sizin onları müdafiə etməyiniz hüquq fakültəsinin məzunlarının bu sistemin islah olunmasına dair ümidsizliyinə səbəb olmuşdur. Mən bir vətəndaş, eyni zamanda hüquqi məsələlərə və məhkəmə sisteminin xalqın quruluşa inamı üzərində mənfi təsirlərindən nisbətən məlumatlı adam kimi, buna əsaslı şəkildə baxılmasını istəyirəm.

**Cavab:** Əlbəttə, mən məhkəmə sisteminin zəif məqamlarını inkar edə bilmərəm. Amma bu əziz bacının, yaxud qardaşın yazdığı və kökündən mənfi hesab etdiyi kimi olduğunu da düşünmürəm. Məhkəmədə yaxşı, dəyərli işlər, insaflı və namuslu hakimlər həqiqətən, çoxdur. Düzdür, nöqsanlar da var. Bunu bilin ki, mən bu üç hakimiyyət orqanını həmişə müdafiə etmişəm və edəcəyəm. Bu, mənim vəzifəmdir. Bu orqanların başında kimlər olsalar, nə qədər ki, iş başındadırlar, mən onları müdafiə edəcəyəm. Bu o demək deyil ki, onların bütün işlərini qəbul edirəm. Xeyr! İcraçı və qanunverici hakimiyyətdə də elə işlər baş verə bilər ki, mən onların bəzisini qəbul etməyim. Amma bu, mənim müdafiə etməməyimə səbəb olmur. Məhkəmə hakimiyyəti də belədir. Siz məndən gileylənməyin ki, niyə müdafiə edirəm. Mən hakimiyyət məmurlarını müdafiə etməliyəm. Bu müdafiə ümumi səhnədədir. Görüşlərdə, fərmanlarda və digər yazışmalarda tənqid və etirazlar var, bəzi məsələlər barədə göstəriş var. Əgər bəzi yerlərdə islahat lazım olsa və mən onu edə bilsəm, yəni həmin orqanın işinə müdaxilə sayılmasa və onun qayda-qanunlarını pozmasa, bu müdaxiləni də edərəm. Bəzən xüsusi iclaslarda bəzilərinin üstünə çığırırıq da. Lakin hər üç

[18] Pedaqoji universitetdə sual-cavab toplantısında söhbətlərdən: 3 sentyabr 1998.

hakimiyyəti ümumi olaraq, mənəvi müdafiə etməyi lazım bilirəm. İnşallah, yenə də müdafiə edəcəyəm.

**Yaxşı və bacarıqlı insanlar**

**Sual:** Əvvəla salam. İslama, əziz müsəlmanlara və xüsusən sizə və İslamın digər xadimlərinə qələbə və başucalığı arzulayıram. Bir İslam cəmiyyətində prinsip etibarilə, ən yaxşı və ən dəyərli möminlər vəzifədə və iş başında olmalıdırlar. Bu girişlə sual vermək istəyirəm ki, nə üçün sizin tərəfinizdən vəzifəyə elə adamlar seçilir ki, nə mənəvi paklıqları, nə idarəçilik bacarıqları var, nə də xidmət göstərməyə can atırlar. Xahiş edirəm ki, əziz İslamı və vilayət cəbhəsini gücləndirmək üçün bitərəf, müstəqil və bacarıqlı insanlara vəzifə verin.

**Cavab:** Bilin ki, mənim qəsdim ən yaxşı insanları iş başında görmək və vəzifəyə təyin etməkdir. Buna heç bir şübhəniz olmasın. Siz burada bəzi insanların adlarını çəkmisiniz. Mən onların ad və vəzifələrini oxumadım. Bu yerlərdə də ən yaxşılarını seçməyə çalışmışam. Əlbəttə, seçim çətindir. Kənarda oturan adam eyibləri görmür. Hərdən bəzi amillərə görə, insan bir eybi olduğundan böyük görür. Yaxşılıqları görmür və müxtəlif insanlar arasında paralel aparmaq mümkün olmur. Bu, çox çətin işdir. Biz yaxşı və bacarıqlı insanlardan istifadə etməyə çalışırıq. Bəzilərini bir işə təyin edirik, amma bir müddətdən sonra görürük ki, o işə münasib deyil. Təbii ki, onları dəyişirik. Bunu da bacarırıq. Belə deyil ki, həmişə orada qalsınlar. Bəzən vəzifədən kənarlaşdırırıq. Lakin kənarlaşdırmaq da iki növdür: Bəzən qəzəb və narahatlıqdandır, bəzən də məsləhətdən. Bunlar da var.

**Sual:** İnqilab rəhbəri kimi sizdən xahiş edirəm ki, Əfqanıstan bataqlığına daxil olmamaq üçün tədbir düşünəsiniz.

**Cavab:** Əgər məqsədiniz Əfqanıstan müharibəsidirsə, inşallah, belə bir şey olmayacaq. Mən bu məsələyə ciddə nəzarət edirəm və edəcəyəm.

**Müxtəlif cinahlar**

**Sual:** Xahiş edirəm cəmiyyətin problemlərini həll etmək məqsədilə inqilab qüvvələrini birləşdirin ki, bir-birindən ayrılmasınlar. Çünki bizim quruluşumuz düşüncə və əməl sahəsində hamını əhatə etməlidir.

**Cavab:** Bəli, doğru deyirsiniz. Mən çalışıram ki, müxalif cinahları imkan daxilində əməldə bir-birinə yaxınlaşdırım, birləşdirmək isə istəmirəm. Bunu nə lazım bilirəm, nə mümkün. Bəlkə heç faydalı da deyil. Amma əməldə bir-birinə yaxınlaşdırmağa çalışıram. Lakin bilin ki, bu, asan iş deyil.

Çoxlu amillər var. Əgər bu amillər hər yerdə ixlaslı və ilahi olsa, işlər çox asan olar. İstəklər ixlaslı olmadıqda, ən azı, bir yerdə və bir cinahda ixlaslı olmadıqda iş çox çətinləşir. Dua edin ki, bunu bacaraq. İnşallah, yenə çalışacağıq.

**Sual:** Salam. Sizə müvəffəqiyyət və sağlamlıq arzusu ilə. Universitetin nizamnaməsində Elmi Şura üzvlərinin yerlərinin dəyişdirilməsi nəzərdə tutulmayıb. Bu, bəzilərinin uzun illər sevmədiyi qərib bir şəhərdə məcburən yaşamasına bais olur. Bu da onun duyğularına böyük təsir göstərir. İmkan daxilində bir tədbir düşünülsün ki, staj, yaxud digər amillər kadr yerdəyişməsində təsirli olsun.

**Cavab:** Bu məsələ dövlət məmurlarının diqqətindədir. Bunu kənara qoyuram ki, sonra cənablar baxsınlar və inşallah, bir tədbir düşünsünlər.

**Sual:** Nə üçün Pedaqoji universitetin məzunlarını işə götürməkdən ötrü heç bir prioritet nəzərə alınmır. Bəzi universitetlər bu işdə qərəzli davranırlar. Başqa bir sual budur ki, Mədəniyyət və ali təhsil nazirliyinin hərbi xidmət layihəsində Elmi Şuraların məişət vəziyyəti yaxşı deyil. Onların vəziyyətini yaxşılaşdırmaq məqsədilə nə üçün bir iş görülmür?

**Cavab:** Mən sizin birinci sualınızın mövzusundan xəbərdar deyildim. Bu universitetin məzunlarının digər universitetlərə işə götürülməsinə qərəzli rəftarı ilk dəfə eşidirəm. Əgər belə bir hal varsa, doğrudan da təəssüflüdür. Mən bunu və sizin ikinci sualınızı da kənara qoyuram ki, cənab Doktor Müin onlara baxsın, səbəbini öyrənsin və nə etmək lazım olduğunu düşünsün.

**Hökumətin işinə əngəl törətmək**

**Sual:** Cənab Xatəminin möhtərəm kabineti xalq tərəfindən seçilib və tərəfinizdən təsdiqlənib. Siz inqilab rəhbəri olaraq nə üçün bəzi qrupların hökumətin mütərəqqi hərəkətlərinə əngəl törətmələrinə mane olmur və onların qarşısını almırsınız?

**Cavab:** Mən kiminsə həqiqətən, hökumətin işinə əngəl törətmək istədiyini görsəm və bilsəm, qətiyyətlə qarşısını alacağam. Bunda heç bir şeyi nəzərə almıram. Fikrim budur ki, bu gün hamı hökumətə kömək etməlidir, hamı kömək etməsə, müvəffəqiyyət qazana bilməyəcək. Dövlət məsələləri çox həssas məsələlərdir. Mənim həmişə hamıya tövsiyəm bu olub və indi də budur. Həm cənab prezidentin, həm də digər kabinet üzvlərinin məndən istədiyi dəstək və köməyi imkanım daxilində əsirgəməmişəm, yenə də əsirgəməyəcəyəm. Əgər kimlərsə doğrudan da incitmək istəsələr, mən qarşısını alacağam. Əlbəttə, bəzi işlər müxalifət ola bilər, lakin əngəl sayılmır.

Hökumətin müxalifi həmişə var. Əgər bir nəfər hansısa məsələdə müxalif olsa və bu barədə tənqidi fikir bildirsə, əngəl törətməyənə və maneə yaratmayana qədər eybi yoxdur. Amma əgər o nöqtəyə çatsa, şübhəsiz, qarşısı alınacaq.

**Sual:** Öncə sizi salamlayır və gəlişinizdən ötrü təşəkkürümü bildirirəm. Məzunların əxlaqi və elmi sınaq, həmçinin öhdəlik və ixtisas mərhələlərini keçmələrinə rəğmən, təəssüf ki, bu əzizlərin işə götürülməsində bəzi problemlərlə rastlaşırıq. Xahiş edirəm bu işi asanlaşdırmaq məqsədilə tövsiyələrinizi buyurasınız.

**Cavab:** Mən idari prosedurlara qarışmaq istəmirəm. Tövsiyəm budur ki, bu universitetin məzunlarından ən azı, istifadə olunmalıdır. Ən çoxu da budur ki, bunlar üçün xüsusi imtiyazlar verilsin. Qabaqcadan deyildiyi kimi, bu universitet bir ümidlə yaradılıb və onun məzunlarına imtiyaz da verilə bilər. Lakin ən azı budur ki, bunlara maneə yaratmasınlar. Mənim ümumi sözüm budur. Amma bu barədə nigaranlıqlar təkrar olunursa, məncə, qardaşlarımız bu sahədə daha artıq fikirləşməlidirlər.

**Sual:** Cənab Lacəvərdinin şəhidliyi üzücü idi. O, inqilaba çox xidmət göstərmişdi. O öz vəzifəsindən uzaqlaşdırıldıqdan sonra bir hicab mağazasında cəlladlar tərəfindən şəhid edildi. İslam dövləti müqəddəs quruluşa xidmət göstərmiş insanları müdafiə edib qorumalı deyilmi?! Cənab Xalxalinin taleyi də belə olacaqmı?

**Cavab:** Kaş terrorçulara bu yolu göstərməyəydiniz! İndi mənim xəbərim yoxdur ki, onun mühafizəçisi var idi, yoxsa yox. Bu yaxınlarda qəzetdə oxudum ki, onun özü mühafizəçi götürməyi xoşlamırdı. Doğrusu da budur ki, insan bazarda azad bir peşə seçsə, özü ilə mühafizəçi aparıb-gətirmək çətin olur. İndi mən bilmirəm ki, dövlət nə etməli idi. Məsələn, onun azad peşə seçməsinə mane olaydı? Yaxud ona başqa bir peşə verəydilər? Doğrudan da bu barədə düşünməmişəm. Bəlkə də məntiqi olar ki, rəsmi vəzifələrindən uzaqlaşdıqda belə insanların hər bir peşəni seçmələrinə icazə verilməsin. Hər halda, o, çox dəyərli şəxsiyyət idi. Mən onu inqilabdan öncədən, 60-cı illərdən tanıyırdım. O həmin dövrdə mənim və mübarizə xəttində olanların çoxunun gözündə polad kimi bir insan sayılırdı. Onun şəhadəti münasibətilə verdiyim bəyanatda da yazdığım kimi, o həmişə çətin işlərə hazır olan və ağır işlərə girişməkdən qorxmayan bir insan idi. Allah onun məqamını ucaltsın! Sözsüz ki, onun taleyi bizim qibtə etdiyimiz taledir. Xoş onun halına! Lacəvərdinin şəhadət xəbərini mənə verəndə dedim:

Bu qədər xidmətdən sonra onun ölməsi heyf idi. O, şəhid olmalı idi. Xoş onun halına!

**Sual:** Bilirsiniz ki, qarşıdan Dini Ekspertlər Məclisinin seçkiləri gəlir. Təəssüf ki, möhtərəm Nəzarət Şurasının namizədlərin araşdırılmasına dair şübhə və tərəddüdü, hər hansı səbəbdən olsa belə, inkaredilməz məsələdir. Həzrət imamın vaxtında olduğu kimi, bu işə müdaxilə etməyi uyğun görmürsünüzmü? Hər halda, namizədlərin Nəzarət Şurası tərəfindən araşdırılması tənqidçilərin az-çox toxunduğu problemlərdəndir. Yaxşı olmazmı sizin tövsiyənizlə Nəzarət Şurası bu işi Müdərrislər cəmiyyəti tərəfindən təqdim olunmuş orqanlara həvalə etsin və bu şübhə də aradan qaldırılsın?

**Cavab:** Nəzarət Şurası özü sınaqdan keçirmir. Sınaqdan keçirən başqasıdır. Nəzarət Şurası bu prosesi idarə edir. Nəzarət Şurasının o qədər vaxtı da yoxdur ki, oturub imtahan alsın. Amma buna səlahiyyəti çatır. Mənim dövrümdə təyin edilən bir nəfər istisna olmaqla, bü gün şurada çalışanların hamısı həzrət imamın təyin etdiyi adamlardır. Yəni bunların müctəhidliyini, ədalətliliyini imam təsdiqləyib. Bu baxımdan, şübhəyə yer yoxdur. Bu cənablar özləri sınaq keçirmirlər. Qum müəllimlərindən layiqli və bitərəf adamları gətirirlər, onlar imtahan alırlar. İmtahan da elan olunduğu kimi, yazılıdır; adsız-nişansız vərəqlərdir. Buna görə də, heç bir şübhə yeri qalmır.

**Nəzarət Şurası və əbəs dairə**

Qeyd olunan əbəs dairə şübhəsi də yanlış sözdür. Çünki Nəzarət Şurasını indiki rəhbər təyin etməyib, qabaqkı rəhbər təyin edib. İndi seçilən dini ekspertlər də indiki rəhbəri seçmirlər, sonrakı rəhbəri seçəcəklər. Burada heç bir dövredicilik yaranmır. Əgər bu rəhbər vəfat etsə, yaxud hər hansı bir səbəbdən vəzifəsindən kənarlaşsa, o zaman sonrakı rəhbəri onlar seçəcəklər. Yəni indiki rəhbəri seçmək istəmirlər. Buna görə də dövredicilik yaranmır.

Siz Allahın lütfü ilə, təhsilli və imanlı insanlar olduğunuzdan, məsələlər üzərində diqqətlə düşünməlisiniz. Hər halda, hər bir işin və hər bir imtahanın bir mərkəzi olmalıdır. Ola bilsin, bir qrup insan bunu qəbul etməsin. Mühüm olan budur ki, biz bəlli şərtlərin namizəddə olduğunu bilək. Həm imtahan alanlar layiqli insanlardır, həm də imtahanın idarəçi və nəzarətçiləri. İnşallah, heç bir problem yaranmayacaq.

**Dini ekspertlər**

Söhbət dini ekspertlərdən düşmüşkən deyim ki, bu seçkilər çox əhəmiyyətli və lazımlı seçkilərdir. Xalqın ümumi iştirak etmək çox yaxşı və müxtəlif cəhətlərdən lazımdır. Bu ən azı, xarici düşmənlər qarşısında bir milli manevrdir. Elmi şəxsiyyətlər və fəal gənclər olan sizlər çalışmalı və xalqı seçkilərdə iştiraka sövq etməlisiniz. Əlbəttə, xalq özü iştirak edib, inşallah, hər bir şəhərdə və hər bir vilayətdə layiqli namizədi seçəcək. Bu seçkilər Allahın lütfü ilə möhtəşəm və yaxşı keçirilməlidir.

**Sual: U**niversitetə təşrif buyurduğunuz üçün sizə təşəkkür edirəm. Dini Ekspertlər Məclisinin əhəmiyyətindən və bu ərəfədə cəmiyyətdə müşahidə olunan gözlənilməz sükutdan irəli gələrək, soruşmaq istəyirəm ki, xalqın ümumi iştirakı, cəmiyyətdə həvəs yaratmaq və bu mühüm işə hazırlıq baxımından, xüsusən Nəzarət Şurasına lazımi göstərişləri verməniz yaxşı olmazmı?

**Cavab:** Bəli, lazım bilirəm. Mənim burada dediyim sözlər inşallah, yayımlansın. Sonra da harada lazım olsa, tövsiyə edərəm. Həm Nəzarət Şurası buna şərait yaratmalıdır, həm teleradio verilişləri şirkəti. Həm də dediyim kimi, siz gənclərin rolu var. Bu sahədə çalışın ki, inşallah, yaxşı bir şey alınsın.

**Sual:** Öncə sizi salamlayır və Fatimiyyə (ə) günləri münasibətilə başsağlığı verirəm. Heç bir fikir bildirmədən xahiş edirəm ki, ... universitetindəki nümayəndəliyinizin hörmətini qorumaq məqsədilə həmin universitetə təhqiqat qurupu göndərəsiniz.

**Cavab:** Eybi yoxdur. Mən bu kağızı cibimə qoyuram ki, inşallah, işlər görülsün.

**Sual:** Sizdən istəyirik ki, fəqih rəhbərin universitetlərdə numayəndəliyin zərurətinə dair ciddi və hərtərəfli bir araşdırılma aparılsın. Hətta dini elmlərdə də aşağı səviyyədə olan bir neçə hövzə tələbəsini ezam etməklə düşünmürsünüzmü unviersitet tələbələrində hövzələrin elmi səviyyəsinin aşağı olmasına dair fikir formalaşa bilər? Düşünmürsünüzmü bu nümayəndəliklər univiersitet tələbələri qarşısına güclü arqumentlər qoya bilmədiklərindən sizi həddən artıq çox xərcləyirlər?

**Cavab:** Mən universitetlərdə çalışan qardaşların ən aşağı elmi səviyyədə olduqlarını düşünmürəm. Bilirəm ki, onların bəzisi çox yaxşıdır. Əlbəttə, mən hamını tanımıram. Çünki onları mən təyin etmirəm. Mən bir neçə il bundan əvvəl komissiya təyin etdim və onlara inanıram, layiqli insanlardır. Universitetlərdə olan bu insanların bəzilərini tanıyıram, çox yaxşıdırlar. Bir neçə il bundan əvvəl bir qədər giley var idi. Amma 3-4 ildir

başlayan bu yeni formada yaxşı və dəyərli gənclər çalışırlar. Bəziləri həm universitet, həm hövzə təhsili almış insanlardır, bəziləri dəyərli hövzə tələbələridir, bəziləri savadlı müəllimlərdir. Bu qardaşımızın, yaxud bacımızın yazdığı kimi ən aşağı səviyyədə deyillər. Yenə əgər bu məqamı xatırladan tələbə başqa bir məktubda xüsusi formada mənə kimin ən aşağı səviyyədə olduğunu desə, mütləq etimadlı vasitələrlə araşdıraram. Əgər belə olsa, bu işə məsul qardaşlara xəbərdarlıq edəcəyəm. Lakin məncə, belə deyil.

Bu nümayəndəliklərin lazımlığına gəlincə isə, biz bu işə başlayanda hamı onun lazım olduğunu düşünürdü. Çoxlu müraciət etmişdilər. İndi də belədir. Düzdür, bəziləri də müraciət edib deyirlər ki, bu nümayəndəliklər lazım deyil. Əgər universitetlərdə bu nümayəndəliklərin yaradılmasının əsas məqsədi, yəni dini tərbiyə və dini müraciət üçün etimadlı bir mərkəz olsaydı, mən bu işi görməzdim. Lakin olmadığından bu qardaşlara ehtiyac var. Bu qardaşlar universitetlərdə çox səmərəli işlər görə bilərlər. Gənclərin dini sualları və ehtiyacları var. Özləri kimi gənc bir mömin ruhaninin onların yanında olması çox dəyərli imkandır. Mən belə düşünürəm.

**Sual:** Ümumi təhlilə əsasən, cənab Xatəminin seçilməsi islahatçılığa dəstək idi və quruluşun gücləndirilməsi üçün qızıl fürsət yaradıb, İslam inqilabını bir neçə il üçün sığortaladı. Belə olan halda, sizin təyin etdiklərinizin bu prosesin müxalif cinahından seçilməsinin səbəbi nədir? İkinci sualım budur ki, siz də dini ekspertlərə fəqih rəhbərə nəzarət vəzifələrini xatırlatmağı təhqiramiz və zəiflətmə hesab edirsinizmi?

**Cavab:** Bu qardaşmızın, yaxud bacımızın islahatçılığa dəstək fikri onun təhlilidir. Bu məsələdə mənim təhlilim belə deyil. Hər halda, 20 milyon insan hər hansı səbəbdən prezidentə səs verib. Siz haradan bilirsiniz ki, bu 20 milyonun hamısı islahatçılığa səs verib? Bunun müxtəlif səbəbləri var. Bu müxtəlif amillərə səs veriblər. Danılmaz olan budur ki, bu prezident 20 milyon insanın seçdiyi prezidentdir. Bu, dəyərli bir haldır. Amma siz bu 20 milyon nəfər arasında sorğu keçirmisiniz və sizə deyiblər ki, biz islahatçılığa səs vermişik?! Xeyr, mən bunu qəbul edə bilmirəm. Əlbəttə, hamı islahat istəyir. İslahatı istəməyən yoxdur. Heç kim də bu iqtidardan qabaqkı dövrdə hər bir şeyin ən yüksək həddə olduğunu düşünmür. Xeyr! Heç şübhəsiz, çoxlu problemlər olub. Siz bir prezidenti seçirsiniz ki, o problemləri aradan qaldırsın. Buna da şəkk yoxdur. Hamı belə düşünür, bunu istəyir. Əgər gələcək dövrlərdə də seçkilər olsa, yenə belə olacaq. Bir qrup bəzi şeyləri qəbul edir, başqa bir qrup isə onları qəbul etmir.

Müxtəlif sahələrdə mənim təyin etdiyim insanların da bu prosesin əleyhdarları olduğunu qəbul etmirəm. Xeyr, onlar da islahat tərəfdarıdırlar.

Burada adları çəkilən və mənim oxumadığım insanların hamısı islahatı sevirlər. Onların çoxu iqtidarı, cənab Xatəminin özünü sevir və onunla əməkdaşlıq edirlər. Məncə, belə mühakimələr bir qədər qeybdən xəbər verməkdir və düzgün deyil.

**Dini ekspertlərin vəzifəsi**

Dini ekspertlərə fəqih rəhbərə nəzarət vəzifələrini xatırlatmağın təhqiredici olmasına gəldikdə isə, xeyr, nə təhqir! Dini Ekspertlər Məclisində konstitusiyaya uyğun olaraq, Təhqiqat komissiyası var. Onun vəzifəsi dini ekspertlərin bir gün uyğun gördükləri rəhbərin yenə də uyğun olub-olmamasını araşdırmaqdan ibarətdir. Onların işi budur, indi də bu işlə məşğuldurlar. Onların işi araşdırmaqdır. Görsünlər ki, o zaman müctəhid bildikləri bu şəxsin elmi yerindədir, yoxsa yox. O zaman bu şəxsin ədalətli olduğunu hesab edirdilər, yenə də ədalətində qalırmı? Əgər Allah eləməmiş, ondan bir günah baş versə, ədalətini itirər. O zaman hesab edirdilər ki, təşkilatçılıq qabiliyyəti var. İndi baxmalıdırlar ki, bu bacarıq yerindədir, yoxsa yox. Bəlkə o zaman səhvə yol veriblər. Yaxud o zaman bacarıqlı idisə, indi bacarığını əldən verib. Xeyr, mən bunu nə zəiflətmək, nə də təhqir kimi başa düşürəm. Bu, konstitusiyanın bir hissəsidir. İmamın dövründə mən də Dini Ekspertlər Məclisinin üzvlərindən idim. O dövrdə də bizim Təhqiqat komissiyamız vardı. Bunun heç bir eybi yoxdur. Bu, rəhbərə qarşı nə təhqirdir, nə də onu zəiflətmək. Əgər onlar bu komissiyanı yaratmasalar, bunun üçün cavab vermələri lazımdır.

**Müxalif fikirlərə qarşı dözümlülük**

**Sual:** Təlim, tərbiyə və tədqiqat universitetin üç əsas vəzifələrindəndir. Tərbiyənin rolu digərlərindən üstündür. Bu, rəhbərin unversitetlərdəki nümayəndəlik orqanı ilə də sıx bağlıdır. Lakin təəssüf ki, bu orqanda və şuralarda elə insanlar var ki, çox nadir hallarda müxalif sözü eşitməyə dözürlər. Onlar hətta müəyyən bir cinahdandırlar. Bəzi universitetlərdə Tədqiqat şuralarının demək olar ki, bütün üzvləri - təhsil, araşdırma və mədəni işlərlə məşğul olanların hamısı eyni cinahdandır və qarşı fikirdə olanlara yer verilmir. Belə olan halda, qanun və şəriət baxımından bizim vəzifəmizi müəyyən edin.

**Cavab:** Əgər müxalif sözü eşitməyə dözümləri yoxdursa, Allah onlara səbir versin və bu işi bacarsınlar. Sözsüz ki, bu, çətindir. Mənim özüm 8 il prezident olmuşam, 8-9 ildir ki, indiki vəzifədə çalışıram. Ümumi təsəvvür belədir ki, bizim yanımıza gələnlərin hamısı mədhiyyələr söyləyir, bizi

tərifləyirlər. Xeyr, belə deyil. Bizim yanımıza gələnlərin çoxu iradları deyirlər. Yaxud şəxsən mənim iradlarımı və ya mənə bağlı olanların, məsələn, sizin yazdığınız kimi, bəzi orqanların nöqsanlarını, yaxud hökumətin nöqsanlarını deyirlər. Onların fikrincə, bu da mənim nöqsanlarımdan sayılır. Yaxud onlar mövcud vəziyyətin qüsurlarını söyləyirlər. Bu da mənim iradlarımdan hesab olunur. Deyirlər ki, filan yerdə yoxsulluq var, filan yerdə qüsur var, filan yer abadlaşdırılmayıb. Mən daim bunları eşidirəm və bilirəm ki, çox çətindir. Bunu bilin. Siz uzaqdan baxırsınız və işin nə qədər çətin olduğunu bilmirsiniz. Müxalif fikri dinləmək və ona qarşı dözüm göstərmək asan iş deyil.

Sözsüz ki, bir vəzifəni qəbul edən şəxs bunu bacarmalıdır. Universitetdə nümayəndəliyə rəhbərlik edən qardaşımız da mütləq bu dözümə malik olmalı, onu özündə yaratmalıdır. Əlbəttə, mənim qədər dözümlü olmalarını gözləmirəm, amma öz vəzifələri qədər dözümlü olmalıdırlar. Bunda heç bir şəkk yoxdur.

Bir də mən onların müəyyən bir cinaha mənsub olduqlarını bilmirəm. Təəssüf ki, cinah və xətt sözləri həddən artıq yayılıb. Bir qədəri pis deyil, quruluşun idarəsində duz kimidir. Özləri demiş, sağ cinah, sol cinah; bununla fəxr də edirlər. Mənim bu sözlərdən heç xoşum gəlmir. Bu, həyatın bütün sahələrini əhatə etdikdə daha yorucu və ziyanlı olur. Cinah kimi məsələlər üzərində çox dayanmaq lazım deyil.

**Sual:** Cənab Xatəmi seçiləndən sonra universitetlərin elmi və siyasi mühiti İslama uyğunlaşmaya doğru gedir, ümid qığılcımları daha artıq parlayır. Lakin universitetlərdə uca İslam məqsədlərinə çatmaq üçün hələ çox yol var. Gözləyirik ki, bütün elm və tədqiqat sahələri, universitetlər, Elmi Şura üzvləri, tələbələr, yüksək təhsil pillələri və digər uyğun qurumlar indikindən daha artıq himayə olunsunlar. Lakin nazirliklərin məhdud imkanları buna əl vermir. Bu istiqamətdə sizin fikriniz və göstərişiniz nədir?

**Cavab:** Mən Tibb Universitetinin Elmi Şurasının bu sözləri yazan və cənab Xatəminin seçilməsindən sonra universitetlərdə belə yaxşı halların baş verməsini bildirən tələbəsinə təşəkkür edirəm və buna çox sevinirəm. Bizə belə sevindirici sözlər az deyilir. Bizə hansısa yaxşı hadisənin baş verdiyini deyən insan həqiqətən, savab edir. Çünki bizi ürəkdən sevindirir. Allaha şükür olsun! Ümidvarıq ki, bu çiçəklənmə günbəgün daha da yaxşılaşsın, daha da artsın. Nöqsanlara və məhdud imkanlara gəlincə isə, cavabım bundan qabaqkı bir qeydə verdiyim cavabdır. Bu, hökumət orqanlarının

əlindədir. Əlbəttə, mən lazımi tövsiyəni verəcəyəm. Bu məktubu da kənara qoyuram ki, cənab Doktor Fərhadiyə verim.

**Sual:** Nə üçün problemlərin həll edilməsində öz elmi imkanlarımızdan lazımi həddə istifadə olunmur? Daxildəki mömin və mütəxəssis beyinlərə arxalanmaq əvəzinə, nə üçün xaricilərə və xarici kapitallara üz tuturuq. Məgər inqilabın və müharibənin qələbəsində daxili qüvvələrə etimad etməkdə hansı zərəri gördük ki, quruculuqda görək?! Tutalım, əcnəbilərə güvənməklə quruculuq işləri baş tutsa da, bunun nəyi bizə fəxrdir?! Sabah onlar iddia edəcəklər ki, biz kömək etdik. Məgər bizim inqilabımız "nə şərqçi, nə qərbçi!" şüarının köməyilə qələbə çalmadı?!

**Cavab:** Mən bilmirəm ki, xaricilərə arxalanmaq dedikdə bu qardaşımızın, yaxud bacımızın məqsədi nədir. Biz heç vaxt xaricilərə arxalanmaq istəməmişik. İndi quruculuq işlərində, memarlıq sahəsində və digər infrastruktur layihərində - bəndlərin, yolların, dəmir yollarının, böyük zavod və stansiyaların qurulmasında ölkə daxilində və öz mütəxəssislərimizin əli ilə elə işlər görülür ki, keçmişdə bunu təsəvvür belə etmirdik.

İnqilabın əvvəllərində, mənim prezidentlik dövrümdə bəndlərin tikilişini öz mühəndislərimizə tapşırmaq məsələsi qarşıya çıxdı. Bəziləri fəryad qopardılar ki, belə bir şey olmaz. Sonra mən təsadüfən, bir iş üçün Xuzistan vilayətinə getdim. Quruculuq cihadından olan qardaşlar məni özlərinin düzəltdikləri 40-50 min tonluq nəhəng bir elevatora apardılar. Mənim eşitdiyim qədər elevator memarlıq sahəsində nisbətən mürəkkəb işlərdəndir. Keçmişdə İranın elevatorlarını ruslar düzəldirdilər. Rejim buğdanı amerikalılardan alırdı, anbarları da ruslar düzəldirdilər. İranlı mühəndis belə işlərə qoşulmağı ümumiyyətlə, düşünmürdü. Mən gördüm ki, Quruculuq cihadının uşaqları, namsız-nişansız gənclər, adlarının qabağına uca titullar düzməyən cavanlar belə möhtəşəm bir iş görmüşlər. Doğrudan da ürəkləndim. Gəlib bu işlə maraqlandım. İndi də ölkəmizdə bəndlər, yollar, nəhəng infrastruktur işləri, zavod və stansiyalar tikilir. Biz bu mənada əsla xaricə güvənmirik.

**Xarici investisiya**

Əgər məqsəd qanunda qəbul edilən və hökumətin də izlədiyi xarici investisiyadırsa, məncə, müəyyən edilmiş şərtlər daxilində bunun eybi yoxdur. Bu, ölkənin xeyrinədir. Qanuna uyğun olduğu təqdirdə xarici investisiya pis bir şey deyil və müstəqilliklə ziddiyyəti yoxdur. Bəzi ehtiyaclar hərdən bunu zəruri edir. Əlbəttə, biz hələ bu sahədə çox nailiyyət

əldə etməmişik. Bunu da bilin. Hökumət kapital cəlb etməyə çox çalışır, amma bu hələ lazımi həddə gerçəkləşməyib. Hər halda, pis bir şey deyil. Belə düşünürəm ki, bu baxımdan nigaranlığa əsas yoxdur. Biz fəxrlə daxili mömin və mütəxəssis beyinlərə önəm veririk.

Bacı və qardaşlarımızın suallarının böyük bir hissəsi qaldı, vaxt isə bitdi. Mən doğrudan yodulmuşam. Bu sualları özümlə aparıram. Lakin onların hər birinə cavab verməyim təqribən qeyri-mümkündür. Çünki belə vaxtım və imkanım yoxdur. Amma ümidvaram inşallah, qardaşlarımızın bir neçəsindən xahiş edim bunlara baxsınlar. Onlar mənim nəzarətimi bilirlər. Bəlkə də onları cavablandırıb universitetə göndərə bildilər. Çünki bu sualların imzası yoxdur. Bilmirəm ki, bunları necə yaymaq və soruşanların əlinə çatdırmaq olar. Hər halda, bu haqda da düşünərik.

Bugünkü görüşümüz yaxşı bir görüş idi. Mən yorulmasaydım, yenə də davam edərdik. Lakin razılaşın ki, bir saat qırx beş dəqiqədir ki, sizinlə danışıram. Allah qəbul etsin və bu görüşümüzdən razı qalsın! Dediklərimizi, eşitdiklərimizi və niyyətimizdə olanları Özü üçün və Öz yolunda saysın, lütf və kərəmilə qəbul etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Qlobal hegemonizm[19]

Bismillahir-Rəhmanir-Rəhim.

Bu elmi və mədəni toplantınız həm sizin üçün və təhsil aldığınız mühitlər üçün, həm də işıqlı qəlblərinizdən ucalan bu pak duyğular İslam, ölkə və tələbə mühiti üçün mübarək və çox səmərəli olsun!

Mən sizə bir cümlə demək istəyirəm. Mənim əzizlərim! Sizin ölkəniz və xalqınız bu gün bütün dünyada bir güc imperatorluğu ilə üz-üzə dayanıb; yəni ən mühüm beynəlxalq güc mərkəzlərinə hakim olan bir siyasi, iqtisadi və mədəni təşkilatla. Biz İslam inqilabının terminologiyasında buna Qlobal hegemonizm deyirik.

Qlobal hegemonizm yalnız bir dövlət deyil, güc mərkəzidir. Bu güc mərkəzində ciddi nizam-intizam olmaya da bilər. Onun içərisində də çoxlu ixtilaflar, qarşıdurmalar var, lakin aralarında əsaslı bir ortaq məqam var. O da budur ki, sizin xalqınız bu mərkəzin mənafeyinə qarşı çıxsa və bu həssas regionda bu böyük ölkəni onun təsiri altından çıxarsa, hamısı xalqınıza qarşı birləşəcəklər. Qlobal hegemonizm budur.

### Hegemonizmin məqsədi

Bu ölkəyə  qarşı heç bir müharibə elan olunmasa və əleyhinə hərbi əməliyyatlar keçirilməsə də, əslində, onun əleyhinə, maraqlarının və müstəqilliyinin əleyhinə çox ciddi və qətiyyətli işlər görürlər. Hərtərəfli bir qarşıdurma gedir. Lakin bu gün dünya bütün bəşəri imkanlardan istifadə dünyasıdır. Bugünkü dünya bu sahələrdə hətta 50 il qabaqkı dünya da deyil. Bu xalq çox sayıq olmalı və öz möhkəm mövqeyini, maraqlarını, mədəniyyətini, istiqlaliyyətini, başucalığını və azadlığını qorumalıdır. Çünki bu güc mərkəzinin məqsədi buranı hegemonizmlə əlaqə baxımından indiki Türkiyə kimi bir ölkəyə, hətta ondan çox aşağı, dünyanın üçüncü dərəcəli bir ölkəsinə çevirmək və inqilabdan əvvəlki vəziyyətinə qaytarmaqdır. Onların məqsədi budur. Bu gün şahidi olduğunuz təbliğatlar, dünyada İslam Respublikası əleyhinə aparılan çox kəskin informasiya müharibəsi bu məqsədi izləyir.

### Hegemonizmin acizliyi

[19] Məşhəddə ölkə tələbələrindən bir qrupu ilə görüşdə çıxışı: 11 avqust 1998.

Sizə deyim ki, hegemonizm, yəni sözügedən güc imperatorluğu xalqımızın qarşısında aciz qalıb. Kommunizmin süquta uğradığı dövrdə onların Şərqi Avropada, indiki Rusiyada və keçmiş SSRİ-də işlətdikləri üsul təsirli idi. Lakin bu indiyədək İranda təsir buraxa bilməyib. Bu, xalqın, siz gənclərin imanına, İslamın və inqilabın bəxş etdiyi sayıqlığa görədir.

Bəli, mən indi yalnız bir cümlə demək istəyirəm. Siz gənclər belə bir şəraitdə öz vəzifənizi daha artıq bilin. Oğlan və qız olmanızdan asılı olmayaraq, hansı universitetdə, ölkənin harasında olursanız-olun, qurucu, islahedici olmağa çalışın, ətrafınızı islah edin. Əlbəttə, siz bu mədəni və elmi toplantınızda, bu 2-3 həftəlik ekskursiyanızda çox şeylər öyrənmisiniz. Eşitdiyim qədər, böyük və yaxşı müəllimlər faydalı mövzular haqda danışıblar. Sizin özünüz də fikir, diqqət, daxili və zehni çalışmalarınızla öyrəndiklərinizi daha şəffaf və daha aydın etməli, daha dərinləşdirməlisiniz. Hər ötən gündə malik olduğunuz imkanlardan istifadə edin. Və beləliklə, təhsil və tələbə mühitində digərləri üçün aydınlıq mənbəyinə çevrilin. Yəni özünüz təyin etdiyiniz sahələrdə düzgün fikirlərinizi və yaxşı aydınlıqlarınızı yaymaqla mühiti düzəldin. Yerlər müxtəlifdir. Bir yerdə etiqad məsələləri danışılmalıdır, başqa bir yerdə isə siyasi məsələlər.

Mənim əzizlərim! Siz bu xalqın seçilmişlərisiniz. Mən 3-4 il bundan əvvəl aparıcı insanlar və ümumi kütlə barədə danışdım, hər birinin rolunu açıqladım. Tarixdə, istiqamətlərdə, cəmiyyətdə baş verən bütün yaxşı və pis hadisələrdə aparıcı insanların rolu önəmlidir. Əgər bir cəmiyyət cənnətə, Allahın razılığına və həqiqi səadətə sarı getsə, o cəmiyyətin aparıcı və seçilmiş insanlarının Allah yanında çox böyük savabı olar.

**Aparıcı insanların məsuliyyəti**

Əgər Allah eləməmiş, cəmiyyət azğınlığa, geriliyə və zəlalətə düçar olsa, - "zəlalət" Quranın çox düzgün ifadəsidir - Allah aparıcı insanlardan hesab sorar. Siz istəsəniz də, istəməsəniz də, bu gənclik dövründən aparıcı və seçilmişlərsiniz. Çalışın öz çevrələrinizdə təsirli olun.

**Allahla mənəvi əlaqə**

Mənim əzizlərim! Hər bir nuraniliyin əsas səbəbi Allah-Taala ilə əlaqəni möhkəmlətməkdir. Öz fərdi əlaqələrinizi möhkəmləndirin ki, ictimai mühitdə İslamın sizdən istədiyi işi yaxşı yerinə yetirə biləsiniz. Harada olursunuzsa-olun, Allah-Taalaya diqqət yetirməklə, diqqətli namazla, Quran oxumaqla, Quran üzərində diqqətli təfəkkürlə və imamlara təvəssüllə öz mənəvi və şəxsi əlaqənizi gücləndirin. Sizlər gəncsiniz, qəlbləriniz nurlu,

əməlləriniz pakdır. Sizin vücudunuzda olan gənclik adlı bu parlaq ulduzun qədrini bilin, ondan maksimum yararlanın. Mən sizin üçün dua edəcəyəm. Siz də mənim üçün dua edin.

Allahın salamı və rəhməti olsun sizə!

## Universitetlərdə rəhbərlik orqanının fəlsəfəsi[20]

Bismillahir-Rəhmanir-Rəhim.

Mən buaxşamkı görüşü başqa cür gözləyirdim. Cənabların lütf göstərib təşrif buyuracaqlarını və bizim onlar üçün söhbət edəcəyimizi bilmirdim. Düşünürdüm ki, onlar nəsə demək istəyirlər və mən daha çox çox dinləyəcəyəm. Hər halda, onları ziyarət etmək bizə xoşdur. Biz də bir neçə cümlə deyərik.

**Hövzənin elm və mənəviyyatı universitetlərdə**

Universitetlərdə ruhani nümayəndəliklərinin adı rəhbərin nümayəndəliyi olsa da, bu, əslində, hövzənin nümayəndəlik orqanıdır. Bu, çox yaxşı fikirdir, hövzənin elm və mənəviyyatının universitetdə iştirakıdır. Bu həm universitet mühitinə, həm tələbəyə və həm müəllimə faydalıdır.

Bəli, eşitmişəm ki, bəziləri buna qarşı çıxırlar. Hər kəs hansısa cəhətdən onu tənqid edir, etirazını bildirir. Bu iradların bəzisi doğru ola bilər. Bunu inkar etmək olmaz. Amma hər halda, eyibsiz heç bir iş yoxdur. Onun eybini də görən, duyan olacaq və səsləndirəcək. Eyibləri aradan qaldırmaq lazımdır, əldə bayraq edib hövzənin universitetdə iştirakını sual altına aparmaq yox. Bunun çox faydaları var.

**İlahi məqsəd**

Biz düşünürük ki, əgər burada qürbət qəsdi etsəniz, - inşallah, bunu edirsiniz – bu, ən üstün və ən səmərəli işlərdən olar. Bu işin çox güclü təsirləri ola bilər. Doğrudan da qürbət qəsdi edin. Şübhəsiz, bu var, çünki sizin başqa niyyətiniz yoxdur. Bu işlərdə adətən, başqa niyyət olmur. Başqa nə niyyət ola bilər?! Bu növ işlərdə çox zaman maddi səbəb rol oynamır. Bu, ilahi təbliğ işidir. Bu niyyəti özünüzdə möhkəmləndirin və işi ən gözəl üsulla davam etdirin.

İkinci məqam budur ki, cənab Sədrin[21] bəyan etdiyi işləri iki hissəyə bölmək olar. Onların ən mühümü sizin himayənizə aid işlərdir. Əlbəttə, bəzi işlərin öz-özlüyündə dəyəri var, mən də onları qəbul edirəm. Silahlı qüvvələrin müxtəlif sahələri, bəzilərinin zavodları da var. Lakin bu işlərin hamısı bir məqsədə görədir. O məqsəd döyüşən qüvvələrdən ibarətdir. Bu işlər o zaman düzgündür ki, bu qüvvələrə xidmət üçün olsun.

---

[20] Fəqih rəhbərin universitetlərdəki nümayəndələri ilə görüşdə çıxışı: 9 sentyabr 1998.

[21] Fəqih rəhbərin universitetlərdəki nümayəndəliyinin ozamankı rəhbəri.

Nümayəndəliyin əsas fəaliyyətini təşkil edən işlərin bir qismi, ən azı, bu məsələyə çox da birbaşa bağlı olmayan işlərdir. Onlar da öz yerində dəyərlidir, lakin işlərin 80-90 faizini təşkil edən ümdə məsələlərə diqqətlə baxmalıyıq. Görək hansı iş tələbənin güclənməsinə yönəlib, onu elm, yaxud əməl cəhətindən hidayət və təkmil edir? Yəni nöqsanları aradan qaldırır və onu günə uyğunlaşdırır.

Bəzən gedib bir mərkəzdə otururuq, başlanğıc yaxşı olur, amma davamı yaxşı olmur və tədricən daşa dönürük. Çünki özümüzdə lazımi inkişafı yaratmamışıq, yaxud yaratmayıblar. Bütün işlərdə belədir, təkcə sizin işinizdə yox. Harada missiya varsa, insan bu haqda düşünməlidir. Əlbəttə, düşünmək də kifayət etmir. İnsan bəzən düşünür, amma bacarmır.

Bu hal sizin işinizdə tamamilə mümkündür. Bu mərkəz bu gün işlərin hansı ox ətrafında fırlandığını bilməli və onu sizin üçün təmin etməlidir. Məsələn, müharibədə topumuz var. Topun lafetə, lüləyə və mərmiyə ehtiyacı var. Biz də 4-5 zavod açıb sürəkli maliyyələşdiririk. Lakin bilmirik ki, düşmənin bizim toplarımızın yerini təyin edən cihazı var. Çünki topların yeri bilinməməlidir, yoxsa dərhal düşmən tərəfindən vurular. Buna görə də, biz dördüncü amil, yəni düşmənin radarını yayındırmaq barədə də düşünməliyik.

Yaxud fərz edin, siz düşmən cəbhəsini, onun raket atdığını görürsünüz. Raket meydana çıxanda top rolu çox da mühüm olmur. Bu zaman burada top lafeti, top lüləsi istehsal edən zavodların birini raket zavoduna çevirməlisiniz. Tədqiqatlarınızı bu istiqamətə yönəldin ki, geri qalmayasınız. Yoxsa düşmən sizi məhv edər.

**Rəhbərlik orqanının fəlsəfəsi**

Düşmən kimdir? Mühüm məsələlərdən biri də budur. Düşməni düzgün tanımasaq, düzgün qərar seçə bilmərik. Kimsə universitetdə bir kəlmə müxalif söz danışan adamı düşmən hesab etməsin. Yaxud Allah eləməmiş, kimsə elə bilməsin ki, bir qədər qaşqabaq tökən tələbə düşməndir. Xeyr, onlar düşmən deyillər, sizin hədəfinizdirlər. Siz ümumiyyətlə, onlar üçün gəlmisiniz. Siz təkcə dostları saxlamaq üçün deyilsiniz. Baxamayaraq ki, dostları saxlamaq da çox mühüm işlərdən biridir. Amma digərlərini də dosta çevirməlisiniz.

**Düşmənin mövqeyi**

Bunlar düşmən deyillər. Düşmən məqsədlərin düşünüldüyü yerdədir. Görün indi necə atırlar; oxun ucunu neftə bulayaraq, çadırların üstünə atıb

yandırdıqları köhnə üsullar kimi. Düşmənin yerini öyrənin. Siz gəlib alovu söndürdünüz. İndi diqqətli olun, başqa birisi də atır. Onu söndürüncə daha birisi atacaq. İnsan düşmənin mövqeyini tanımasa, səhvə düşər.

**Uğurun əsas şərti**

Siz gedib bir univeristetdə yerləşmisiniz ondan ötrü ki, bu gənc, bu tələbə geri qalmasın. Lazım olan bütün vasitələr hazırlanmalıdır. Onun özü də bilmir. Meydanda olan insanın özü çox zaman kompleks, dəqiq taktika və strategiyalı düşünə bilmir. Real və kompelks düşünmək uğurun əsas şərtidir. Əgər bir məsələ üzərində belə düşünülsə, onda uyğunluq da yaranar.

**Ruhaninin elm və təqvası**

Növbəti məqam da mənim çox təkrar etdiyim bir məsələdir. Prinsipcə, sizin də fikriniz belədir. Biz elm və təqva gücü ilə işləyə bilərik. Biz ruhanilər harada olsaq, əgər elm və təqvamız axsasa, heç bir iş alınmayacaq.

**Elm və təqva quruluşu**

Bizim quruluşumuz elm və təqva quruluşudur. Bizim bu dövlətə sevgimizin səbəbi də budur. Əgər bu quruluş dünyanın digər quruluşları kimi maddi quruluş olsa, biz nə üçün hakimiyyətdə olmalıyıq?! Biz burada özümüzə bazar açmamışıq, bu işi sevmirik, buna həvəsimiz yoxdur. Əgər elm və təqva quruluşu olmasa, ayrıları gəlsinlər. Yəni elm və təqvadan ibarət dini quruluş yuxarıdan aşağıya hər yerdə diqqət mərkəzində olmalıdır.

Universitetlər daxilində bu işin hədəf və dinləyiciləri gənclərdir. Gənclər istedadlı və həssasdırlar. Ümumiyyətlə, gəncdirlər. Gəncliyin özü xüsusi bir amildir. Müxtəlif xüsusiyyətlər birləşərək həqiqətən, parlaq və misilsiz amil olan gəncliyi yaradır. Gənclə işləmək zarafat deyil. Bu, çox əhəmiyyətli məsələdir. Bunu dəyərləndirmək və uğrunda çalışmaq lazımdır.

**Elmin xüsusiyyəti**

Əgər cavanların imanını, düşüncəsini və hərəkətini özünüz olduğunuz istiqamətə yönəltmək istəyirsinizsə, bunun yolu elm və təqvadır. Çünki elmin qarşısında hər bir beyin kiçilir və təzim edir; istəsə də, istəməsə də. Elmin xüsusiyyəti budur, insanları öz qarşısında təvazökar edir, əyir. Əgər zahirdə təkəbbürlülük və inad göstərsə də, daxildə öz kiçikliyini duyur.

**Təqva**

Təqva da elə böyük və qəribə silahdır ki, kəsərliliyinin həddi-hüdüdu yoxdur. O, yolları açır, mühiti işıqlandırır, inadı aradan qaldırır, düşmənlikləri azaldır və dostların işini düzəldir. Təqva çox qəribə amildir. O, bütün yaranmışların hər bir halda irəlilədiyi zirvələrə doğru hərəkəti rövnəqləndirir, cazibəli və gözəl edir.

**Şübhə yaymaq**

Bu günlərdə şübhə yaymaq çox dəb olub. Bu da bizim dövrümüzün xüsusiyyətlərindəndir. Nə etsəniz, bu var. Əlbəttə, bu hal həmişə qalmayacaq, lakin 10-15 il sürəcək. Ölkənin əksəriyyəti gənclərdir. Bu hal nə əvvəllər belə olub, nə də sonra belə olacaq. Bu isə çox mühüm amildir. Hər bir yerdə və hər bir dövlətdə çox mühümdür. Dostlar üçün də çox mühümdür.

**Əlverişli fürsət**

Quruluşun tərəfdarları, aşiq və əsgərləri bundan çox istifadə etməlidirlər. Bu, çox dəyərli fürsətdir. Bu qədər gənc var. Bildiyiniz kimi, insan qocaldıqda zəif və taqətsiz olur; sözsüz ki, bütün qocalar yox. Bəzi qocalar gənclərdən də gümrah, aktiv və müasirdirlər. Məsələn, İmam Xomeyni doğrudan da belə idi. Lakin prinsip etibarilə və əksər hallarda zəif olurlar. Gənc isə hərəkət üçün heç bir şeyi gözləmir, maddi və ya mənəvi xeyrin olduğunu düşündüyü yolla hərəkət edir. Bu, quruluş üçün çox əlverişli fürsətdir.

Zarafata deyirdilər ki, Nəcəfdə bir məscid imamı var idi. Namaz onun üçün təkcə ibadət yox, həm də idman idi. O, şam və işa namazlarını evin damında qıldığına görə, müridlərini aşağıdan belinə mindirib yuxarıya aparırdı, namaz qurtarandan sonra da belində aşağı endirirdi. Çünki, ona iqtida edənlər taqətsiz qocalar idilər.

Bəzən insan daim deməli, təkid etməli və çığırmalıdır ki, hərəkət etsinlər. Lakin gəncdə belə bir şey yoxdur. Əgər bir işə hazır olsaq, gənc də hazırdır. Biz Allah yolunda məsuliyyəti çiynimizə götürmək, bu gedişi özümüz və digərləri üçün asanlaşdırmaq istəyirik. Bu, çox əlverişli fürsətdir.

**Fürsət gözləyən düşmən**

Düşmən üçün də belədir. Düşmən baxıb deyir ki, çox gözəl fürsətdir, hamı gəncdir. Əgər onları yoldan azdırmaq, həqiqətdən sapdırmaq mümkün olsa, mənəviyyatdan ayırıb maddi işlərə sövq edə bilsək, bu quruluşun

əsasına inamlarını sarsıtmağı bacarsaq, çox şey əldə edəcəyik. Bunu düşmən deyir və doğru da deyir.

Deməli, inqilab ordusu olan sizlərlə inqilab düşmənləri arasında mədəni, siyasi və elmi sahədə həqiqi bir müharibə gedir. Əlbəttə, bu, müxtəlif formalarda olub, yeni bir şey deyil. Mən özüm son 20 ilə baxdıqda görürəm ki, bu məsələlər həmişə olub. Mən bu illərin hamısında var idim. Bu illərdə görülən işlərin hamısını yaxından-uzaqdan, işin içindən, yaxud pərdə arxasından görürdüm. Demək olmaz ki, bu, indi yaranmış müstəsna bir haldır. Xeyr. Bir zaman bundan çox pis vəziyyətdə olub. Sizin yadınızdadır, inqilab yeni qələbə çalmışdı; birinci ilinin sonları, yaxud ikinci ilinin əvvəlləri idi. Bu böyük hərəkat hələ nəfəsini dərməmişdi. O zaman bizim qəzetimizdə "Nəleyn diktatorluğu" məsələsini yazdılar. Bunu başqası yazmadı, əcnəbi radio demədi. "Nəleyn diktatorluğu" dedikdə İmam Xomeynini nəzərdə tuturdular.

**İmam - mərhəmət tərənnümü**

Siz təsəvvür edin, imam ruhi və mənəvi incəliklərin tərənnümü idi: arif, şair, mənəvi, ruhani, yumşaq və kövrək insan. O, təkcə ibadət zamanı deyil, həm də cari hadisələr qarşısında yumşaq insan idi. Bir şəhid anası, bir zərif söz, bir şəhid uşağı, bir gənc onu dəyişdirirdi. Bunlar şişirtmə deyil. Bu dediklərim gözümlə gördüklərimdir, eşitdiyim də deyil, hamısı öz gördüklərimdir. Mən bunları imamda müşahidə etmişəm. O, uşaqların cümə namazında daxıllarını sındırmalarına televizorda baxmışdı. Mən güman ki, ertəsi gün onun yanına getdim. Uşaqlar namaza gəlib öz daxıllarını sındırır və pullarını mənə verirdilər. Mən mehrabda oturmuşdum. O, bu səhnəni mənə danışanda gözləri yaşla doldu və bədəni əsdi. Dedi ki, gördün? Mən özüm orada idim, o isə televizorda baxmışdı. O, belə lətafətli insan idi.

Bir dəfə bir şəhid anasının sözünü ona çatdırdım. O birdən-birə doğrudan da diksindi. Bir şəhərdən olan şəhid anası mənim vasitəmlə ona xoş bir söz yollamışdı. Siz baxın, onun mənəviyyatı, onun ruh aləmi, irfanı, təqvası və ruhi incəlikləri... İmam hər bir halda çox zərif insan idi. Və belə bir insana diktator deyirlər; özü də nifrət doğuran çirkin ifadə ilə: Nəleyn diktatorluğu.

Elə bilməyin ki, bu sözləri indi danışırlar. O zaman da imama deyirdilər. İmama elə deyiblərsə, bizim kimilər üçün düşmənin xəcalət çəkməsini gözləmək yersizdir. Buna görə də, indi heç kim çox qəribə və qeyri-adi bir halın baş verdiyini düşünməsin.

**Quruculuq dövrünün xüsusiyyəti**

Mühüm bir məqam da var. Düşmən də bu məqama diqqət yetirir. Təəssüf ki, quruculuq dövrünün xüsusiyyəti belədir. Hər bir şeyi - acı və şirinliyi bir yerdədir. O məqam budur ki, quruculuq dövründə lazımi diqqət ayrılmasa, maddiyyata, pula, yaşayışa və bu kimi amillərə meyl yaransa, təhlükəli maddi boyunduruq və vurğunluqlar ürəkləri başqa istiqamətə yönəltsə, mənəvi mühitdə boşluq yaranacaq.

**Mənəvi boşluqlar**

Düşmənlər boşluqdan xəbərdardırlar. Bu, mühüm məsələdir. İndiki şəraitin o zamanla fərqi də budur. Onlar bəzi yerlərdə boşluqların yarandığını görür və onlardan istifadə edib zəlzələ yaratmaq istəyirlər.

Bəli, bunun qarşısını almaq olar. Bunun qarşısını asanlıqla və tam almaq mümkündür. Gərək diqqətli olasınız. Gərək bu işin və bütün işlərin həssas olduğunu biləsiniz. Bu da mühüm sahə olan universitetə aid işlərdən biridir. Universitet üçün çoxlu yuxular görüblər, çoxlu xəyallar ediblər; çoxlu daşlar da atıblar ki, görsünlər kimə və haraya dəyəcək.

Siz ortada dayanmış qüvvələrsiniz. Allah-Taalaya təvəkkül edin, Ondan kömək istəyin, Ona ümidvar olun, Ondan hidayət diləyin. Allah-Taala sizə kömək edəcək, sizi hidayət və himayə edəcək, irəliyə aparacaq, sizə uğur bəxş edəcək. Heç şübhəsiz, Allahın istəyilə, bunun təsirlərini görəcəksiniz. Mənim həmişə gözlərim önündə gördüyüm və dəfələrlə dediyim aydın üfüqlər bu sahədə də tamamilə görünür. Allaha şükür olsun ki, hər şey Allahın düzgün yolunda və Haqq-Taalaya hərəkət istiqamətindədir.

Şərafətli ayədə Kövsər ifadəsi həzrət Zəhraya (ə) təvil edilir. Sözün əsl mənasında, hər hansı bir tərəfdən baxsaq, bu həzrət kövsərdir. Kövsər - yəni daim artan, çoxalan xeyir-bərəkət. Siz də o kövsərin budaqlarısınız. O sözü və o mənəviyyatı hər hansı bir yolla yayan hər bir insan kövsərdəndir, yəni xalqın başına səpilən o kövsərin bir damlasıdır. O bu günə qədər davam edib, yenə də davam edəcək.[22] Əbtər (sonsuz, davamsız) - tarixdə əbtər olmaları görünən və sübut olunanlardır. Onlar və onların bənzərləri bizim dövrümüzdə də var. Bunlar da əbtərdirlər. Bunların da davamı yoxdur. Allahın istəyi ilə müvəffəq olasınız.

Allahın salamı və rəhməti olsun sizə!

---

[22] Kövsər/3.

## Tələbə nəşrlərinə tövsiyələr[23]

Bismillahir-Rəhmanir-Rəhim.

**Tələbə nəşrləri**

Əvvəla, tələbə nəşrlərinin özü çox yaxşıdır. Ola bilsin, bəzi hallarda keyfiyyət çox da yüksək olmasın. Bu gün bir qədərini mənə gətirdilər. Bəzilərindən görünürdü ki, işin başlanğıcıdır. Lakin gənclərin tələbəlik dövründən yazmaları, müzakirə etmələri, düşünüb-düşündürmələri çox yaxşı haldır. Əlbəttə, sizin özünüz üçün və universitet mühiti üçün də yaxşıdır. Bu baxımdan, mən tələbə nəşrlərinin olmasını, mümkün və münasib həddə qədər artırılmasını dəstəkləyirəm.

Məzmuna gəldikdə isə, bunlar haqqında iki növ məzmun təsəvvür etmək olar: Bir qismi nəşrin yazarlarının, yaxud idarə edənlərinin zehnində olan elmi, mədəni, ədəbi, dini və ya başqa mövzulardır. Hər halda, onlar bir şey yazırlar və yayılır. Təbii ki, bu qisim mövzularda məhdudiyyət yoxdur. Ola bilsin, bir tələbə sizə bir məqalə versin və siz də onu yaxşı bilib çap edəsiniz. Yaxud özünüz redaksiya heyətinin üzvü kimi bir şeylər çap edəsiniz və rəngarəng də olsun. Bu nəşrləriniz üçün mövzuların başqa bir qismi isə tələbə mühitinin xüsusi ehtiyac duyduğu məsələlərdir.

Birinci qisim mövzular təkcə sizin nəşrlərə məxsus deyil, başqa nəşrlərdə də var. Ölkədə elmi, siyasi, mədəni və dini nəşrlər var. Sizin burada nəşr etdirdiyiniz məqalərlərdən onlar da nəşr etdirirlər.

**Tələbə nəşrinin məzmunu**

Lakin ikinci qisim mövzular prinsipcə, sizin daha çox yer verməli olduğunuz mövzulardır. Siz universitetin daxilində olduğunuzdan bu mühiti bütün vücudunuzla hiss edirsiniz. Siz tələbələrin düşüncə ehtiyaclarını, çatışmazlıqlarını və universitet ətrafında baş verən işləri duyursunuz. Ola bilsin, siz bu nəşrin məsulu olaraq vəzifə hiss edəsiniz və bu sahədə hər hansı bir yazının yazılmasını lazım biləsiniz. Bu, universitetə və tələbəyə məxsus yazı olacaq. Məsələn, nazirlik, cəmiyyətin elmi-mədəni məsələləri, yaxud universitetin vəziyyəti barədə bir şey yazmaq və tələbələrə yol göstərmək istəyirsiniz.

Mənim fikrimcə, bu ikinci qisim çox əhəmiyyətlidir. Çünki universitet elm və düşüncə köməyinə həmişə ehtiyaclı mühitdir. Universitetin xisləti bir

---

[23] Tələbə nəşrlərinin rəhbərlərilə görüşdə çıxışı: 31 oktyabr 1998.

gənc xislətidir. Gənc təbəqə düşüncə cəhətindən həmişə köməyə ehtiyaclıdır. Bu o demək deyil ki, qocaların düşüncə yardımına ehtiyacları yoxdur. Xeyr, bütün insanlar buna ehtiyaclıdırlar. Gənclərin düşüncə fəaliyyəti və yenilikçiliyi daha artıq olduğundan bu köməyə də daha ehtiyaclıdırlar. Təkcə qocalardan yox, gənclərin öz aralarında da fikir mübadiləsi olmalı və məsələlər haqda düşünməlidirlər. Çünki gənc təbiətcə, hərəkətli və aktivdir.

**Gənc mühitləri**

Bəzən bu aktivliyin kənarında daha artıq mütaliə və araşdırmaya ehtiyac yarana bilər. Bu, gənc mühitlərini xüsusi şəkildə, öz aralarında olsa belə, daimi məsləhətləşməyə ehtiyaclı edir. Daha yaxşısı da budur ki, bu onların öz aralarında baş tutsun.

**Tələbə nəşrlərinə lazım olanlar**

Siz görün jurnal rəhbəri olaraq oğlan və qız tələbələr qarşısında üzərinizə hansı vəzifə düşür. Universitetlərdə bəziləri dindar və dini əsaslara sıx bağlıdırlar, dini normaları qoruyurlar. Sizin onlara dair xatırlatmalarınız ola bilər. Bəziləri də dini məsələlərə qarşı laqeyddirlər, yaxud buna az əhəmiyyət verirlər. Onlara da tövsiyəniz ola bilər, onlara da yol göstərməniz lazımdır. Bəziləri də dini məsələlərə qarşıdırlar. Əlbəttə, universitetlərdə belələrinin sayı çox deyil, azdır. Amma hər halda, olmaları mümkündür və onlara dair də üzərinizə vəzifə düşür.

**Təhlil qüvvəsi**

Ölkənin cari siyasətləri və dünyanın mühüm hadisələri barədə də belədir. Bir gənc bunlardan xəbərdar olmalı, bunları təhlil etməyi bacarmalıdır.

**Materialların rəngarəngliyi**

Bu sizin nəşrlərdə yerləşdirdiyiniz materialların ikinci qismidir. Düşünürəm ki, bu qisim ümumi olaraq, birinci qisimdən daha əhəmiyyətlidir; baxmayaraq ki, birinci qisim də lazımdır. Hər halda, düşüncə, baxış, zövq və təkliflərdə rəngarənglik yaxşı şeydir. Nəşrlərdə də qəngarəngliyin qarşısını almaq olmaz. Bu, mütləq olmalıdır. Lakin nəşrlərinizə tövsiyə, istiqamət, islah və hidayət də mütləq yerləşdirməlisiniz. Sözlərimin xülasəsi budur ki, sizin nəşrləriniz hidayətedici olmalıdır. Görün gəncin düşüncəsini, dinini, bəzən də siyasi baxışını hidayət etmək və düzgün istiqamətə yönəltmək baxımından haralarda nöqsan var.

Bu, tələbə mətbuatı kimi sizin çiyninizdə olan bir yükdür. Cəmiyyətdə mətbuatın məsuliyyət və rolunu siz xüsusi şəkildə çiyinlərinizdə duymalısınız. Məncə, bu, mühümdür.

**Təhlükəli cərəyanlar**

Başqa bir məqamı mən bir neçə il bundan qabaq hiss etmişəm. İndi də başqa bir formada var. Bəzən universitet xaricindəki bəzi siyasi və mədəni problemlər universitetlərə sırınır. Universitetin təbii olaraq xarici mühitdən ayrı olmayan bir qurum kimi özünə aid məsələləri var. Bəzən xüsusi bir fikir, istiqamət və nəzər müəyyən bir qurum və toplum tərəfindən universitetlərə idxal edilir. Bu, həmişə təhlükəsiz bir şey deyil. Bəzən doğrudan da təhlükəli olur. Mən bu gün bunu hiss edirəm.

Təxminən 10-12 il bundan qabaq imamın dövründə tələbə mühitində belə məsələlər var idi. O zaman mənim daha artıq vaxt və imkanlarım var idi. Tələbələrin yanına gedirdim, onlarla söhbət edirdim, canlı ünsiyyət qururdum. Tələbələrin düşüncə məsələləri haqda indikindən çox məlumatlı idim. Qeyd etdiyim bu amil o zaman da hiss olunurdu, indi də belədir.

Bəzilərinin ölkədəki inqilabi cərəyanla problemləri var. Siz bu məsələni diqqətdə saxlamalısınız. İnqilabla problemləri var. İnqilabın əvvəllərindən bu fikirdə olublar ki, hər bir mümkün vasitə ilə, xüsusən də mədəni, siyasi və digər vasitələrlə - çünki ixtiyarlarında başqa imkanlar olmayıb - inqilabla vuruşsunlar və onun cari məsələlərinə problem yaratsınlar. Mən indi də hiss edirəm ki, onlar ciddi şəkildə universitetin başında hərlənirlər. İnqilabın əvvəlində sizin heç biriniz tələbə mühitində işləmirdiniz. Çox kiçik idiniz. Onda bu, baş verdi: əks-inqilabçı siyasi qruplaşmalar rəsmi və açıq şəkildə universiteti fəaliyyət mərkəzlərinə çevirdilər, Tehran universitetinin qərbindəki xiyabanlardan, 16 Azər xiyabanının qərbindəki binalardan, universitetin korpuslarından və onun ətrafındakı binalardan istifadə etdilər. Onların döyüş əməliyyatları, komitələri vardı. Sonradan oradan çoxlu silah tapıldı.

Onlar universiteti quruluş, İslam Respublikası və dövlət əleyhinə fəaliyyətlərin mərkəzinə çevirmişdilər. Təəssüf ki, əvvəllərdə bir müddət uğur da qazandılar. Dövlət orqanlarının içində olan bəzi inqilabçıların onlarla əlaqəsi vardı. Düzdür, onların hamısı ilə yox, amma bəziləri ilə əlaqələri vardı; onları müdafiə edirdilər, onlara kömək göstərirdilər. Başqa bir qrupun da düşüncə tərzi belə idi ki, biz onların fəaliyyətlərinə mane olmamalıyıq. Halbuki onlar universitetdə inqilab və quruluş əleyhinə çox təhlükəli, zəhərli hərəkətə keçmişdilər, bu işləri universitet səngərində

görmək istəyirdilər. Bəli, onlara qarşı tədbir görüldü. Əsasən də xalqın özü və inqilabçı gənclər tədbir gördülər. Dövlət də işə qoşuldu və bu məsələlər bitdi. Sonra uzun müddət universitetə belə yaxınlaşa bilmirdilər. Amma sonralar inqilabla arası olmayan bəzi siyasi cərəyanlar tədricən universitetə yol tapdılar.

**Universitet mühitinin sağlamlığı**

Siz mömin və öhdəçi gənclərin çox diqqət göstərməsini vacib saydığım bir məsələ də budur. Buna ciddi yanaşın. Elə bu nəşrlərdən istifadə edib öz dillərilə oxucularınıza təhlil qabiliyyəti aşılayın ki, hadisələri düzgün analiz edə bilsinlər. Qoymayın kimsə universitetin xaricindən tələbə mühitinə yanlış istiqamət və hədəf göstərsin.

**Dindarlıq**

Universitetdə dindarlığı bacardığınız qədər gücləndirməyə çalışın. Bu, tələbənin özü, ölkənin gələcəyi və tərəqqisi və universitetin elmi inkişafı üçün yaxşı və faydalıdır. Universitet dini baxımdan nə qədər sağlam olsa, tələbə üçün, təhsil üçün, düzgün düşünmək və hər hansı bir sağlam siyasi və mədəni fəaliyyət üçün daha təhlükəsiz olar. Uşaqları dindar yetişdirin; şübhəsiz ki, əlinizdən gələn həddə.

**Nəşrlərdə güclü dini məzmun**

Tələbə nəşrlərindən artıq şey gözləmirik. Lakin tələbə idealist olmalıdır. Ən mühüm ideallardan biri də dini, mənəvi, irfani və ruhi ideallardır. Tələbələrin mənəvi lətafətlərindən bəhrələnmək lazımdır. Onları bacardığınız qədər dini həqiqət və əməllərə sövq edin. Nəşrlərə tamamilə dini rəng verin. Nəzər sahibi olan və bu sahədə rolu ola biləcək insanlardan güclü dini məzmunlar alın və nəşrlərinizdə dərc edin.

İnşallah, öz vəzifələrinizə əməl edə biləsiniz. Allah yanında bunların hamısından sorğu-sual olunacaq. Nəşriniz olmasaydı, bu baxımdan rahat olardınız. Amma nəşr varsa, ilahi sual da var. Ona cavab vermək lazımdır. Məsuliyyətin, yəni veriləcək sualların öhdəsindən gəlin. Beləliklə, bu iş həyata keçəcək, inşallah.

Allahın salamı və rəhməti olsun sizə!

## Qərb, İslam və İran mədəniyyəti[24]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, sizin dediyiniz sözlər iki cəhətdən mənim üçün gözəl və ürəkaçandır: Biri budur ki, Allahın lütfü ilə gənclərimizin yaxşı məqamlara diqqət yetirdiklərini və cəmiyyətin qayğıkeş insanlarının diqqətini çəkən məsələlər üzərində dayandıqlarını görürəm. Allaha şükür olsun ki, bizim gənclərimiz, ən azı onların sizin kimi bir hissəsi universitetlərdə bu məsələlərlə maraqlanırlar.

İkinci məqam budur ki, gənc təbəqənin haqqı, yaxşı və lazım olan üçün çalışdığı hiss olunur. Bunun üçün iclaslar keçirir, bir yerə toplaşır, müzakirə aparır, məsələn, məndən, yaxud başqa birisindən israrla görüş istəyir. Bunlar çox yaxşıdır.

**Siyasi məsələlərə etinasızlıq**

Mən buna görə 2-3 il əvvəl həqiqətən, dərddən dedim ki, universiteti siyasi məsələlərə qarşı etinasız edənlərə Allah lənət eləsin. Siz tələbələri laqeyd olan bir universitet təsəvvür edin. İndi sizin ortaya qoyduğunuz məsələlərdən birini misal çəkim. Siz deyirsiniz ki, İslam hərəkatı, böyük İslam birliyi və İslam ümməti kimi beynəlxalq şüarlar azalıb. Siz bir universitet təsəvvür edin ki, orada bu məsələ müzakirə olunur ki, kimsə İslam hərəkatı haqda düşünür, yoxsa yox. Təsəvvür edin, gənclər deyirlər ki, bizdən əl çəkin, bu, əhəmiyyətsiz məsələdir. Bu, sözügedən laqeydlik halıdır və gənc nəsil üçün təhlükəlidir. Ümumiyyətlə, tələbə olub-olmamasından asılı olmayaraq, gənc insan öz həssaslığını, həvəs və marağını əldən verdikdə daha ölkənin gələcəyi üçün ümid bəsləməli gənc olmur. Allaha şükür olsun ki, sizin kimi yaxşı gənclərimizdə bu müsbət keyfiyyət var. Sizdə deməyə söz və həvəs var. Bunu yaxşı dəyərləndirir və bundan ötrü Allaha şükür edirəm.

**Universitetin özülü**

Təbii ki, bütün universitetlər belə deyil. Siz tələbə, universitet uşaqlarısınız, universitetdə yaşayırsınız. Mən də təxminən 30 ildir sizin kimi gənclərlə əlaqədəyəm. Buna görə də, indi universitet işlərindən müəyyən qədər məlumatlıyam. Təəssüf ki, bütün tələbə qrupları belə deyil. Təəssüf ki, "bizdən əl çəkin!", "bizə nə?!", "əhəmiyyəti yoxdur" deyənlər də az deyil. Bu

[24] Tələbə hərəkatlarının üzvləri ilə görüşdə çıxışı: 8 dekabr 1998.

indi belə olmayıb. İnqilabdan sonrakı bütün illər boyunca, hətta müharibənin ortalarında tələbələrin dəstə-dəstə döyüşə gedib canlarını qurban verdikləri zaman da ölkənin mühüm məsələlərinə laqeyd yanaşan tələbələr olub; əlbəttə, hər bir yerdə, o cümlədən universitetdə həyəcanın hakim olduğu xüsusi bir dövrdən başqa. Təsəvvür edin ki, evin bir tərəfində qəfildən yanğın baş verir. Hərə bir işlə məşğuldur: biri kitab oxuyur, biri xörək bişirir, biri ev süpürür. Hamısı işini buraxıb alovu söndürməyə gedirlər. Bu, təbii bir haldır. Ölkədə elə bir yanğının başladığı və bütün qüvvələri çağırdığı, köməyə səslədiyi bir zamanda bəzi tələbələr bu fikirdə deyildilər, heç bir əhəmiyyət vermirdilər. Bu işdə tələbədən də çox çalışan müəllimlər vardı. Tibb institutlarımızın bəzi müəllimləri ön cəbhənin səkkiz kilometrliyində əməliyyat otağı düzəldirdilər. Mənim özüm o otaqları görmüşdüm. Belələri də vardı, elələri də.

Əzizlərim! Bəzən "universitet qərbpərəstdir" dedikdə bunun sizə aidiyyəti yoxdur. Burada söhbət sizdən, tələbədən və hansısa müəllimdən getmir. Bu, universitetin sisteminə aiddir. Siz bu haqda düşünməli, bunu islah və həll etməlisiniz.

**Qərb amili**

Yaşadığımız dövrdə Qərb, Qərb mədəniyyəti, Qərb sivilizasiyası, Qərb elmi, Qərb xüsusiyyəti, Qərb istismarı adlı məsələlər var. Biz şərqlilər üçün, dünyanın bu tərəfindəki ölkələr, yaxud üçüncü dünya ölkələri üçün bunun adı Qərbdir. Dünyada yaşayan insan Qərb adlı bu böyük amilə biganə yanaşa bilməz. Buna dair mövqe seçmək lazımdır. İstəsəniz də, istəməsəniz də bu məsələ qarşınıza çıxacaq və siz ona dair mövqe seçməyə məcbur olacaqsınız. Deməli, bu, lazımdır. Bəzi hallarda baş verən səhvlər bunun gərəyini bilməməkdən baş verir.

Əgər macal, hövsələ olsa və sizin kimi bir qrup qarşısında, universitetdə, yaxud başqa bir yerdə çıxış etməli olsam, bunu təfsilatı ilə bəyan edəcəyəm. Biz heç bir işdə ifrat və ya təfritə yol verməməliyik. Bu məsələdə də gərək səhvə yol verməyək. Sizin işarə vurduğunuz universitetdə 3 gənc Niksonun gəlişinə etiraz edərkən şəhid oldular. Sizcə, o dövrdə universitetin neçə faizi Niksonun və onun gəlişinin əleyhinə idi?! Müəllimlərin və kafedra müdirlərinin neçəsi onun gəlişinə qarşı çıxırdı?! Əvvəldə düşünüblərmi, ölkənin universitetlərinin əsasını necə qoyaq, kərpicləri bir-birinin üstünə necə düzək ki, bizim İslam təfəkkürümüzlə, milli təfəkkürümüzlə, iranlı düşüncəsi ilə, keçmişimiz və mədəniyyətimizlə üst-üstə düşsün?! Düşünməyiblər. İnqilabdan sonra bu işlə məşğul olunub.

Əsasən də gənclər bununla məşğul olublar. Əlbəttə, mərhum imam bu məsələyə diqqət yetirirdi. Onun universitet barədə çox sözü var, çoxlu faydalı tövsiyələr verib. Onlar doğrudan da çıxış yollarını göstərir. O, gənclərin özləri ilə də söhbət edib.

**İslam İranı**

Siz mömin, fəal, qayğıkeş və dindar gənclər universiteti tamamilə özününküləşdirməlisiniz. Meydandan qaçmayın. Bilin ki, bu gün ölkəmizi özününküləşdirmək, öz dininə, mədəniyyətinə və xalqına aid etmək istəyən adam böyük beynəlxalq güclərlə qarşı-qarşıya dayanacaq. Əlbəttə, xalqın öz arasında da mübahisə və münaqişələr ola bilər. Çünki hər halda, din və inanclar barədə də hamının fikri bir deyil. Amma ortaq cəhətləri də var.

İnqilabın mənası bu idi ki, ölkə xalqın özünə, onun dini olan İslama aid olsun. Əlbəttə, biz İslama zidd İranı istəmirik. Bunu sizə açıq deyirəm, heç kimdən də çəkinmirəm. Əgər haradasa irançılıq və islamçılıq arasında ziddiyyət yaransa, biz islamçılığı seçəcəyik. Amma ziddiyyətin olduğunu düşünmürük. İnanırıq ki, bizim ölkəmiz və xalqımız əvvəldən İslamı şirin can kimi bilmiş və bu günə qədər onun ən yaxşı bayraqdarı olmuşdur. Buna əsasən, İslam İranı deyəndə mənası bu deyil ki, düzgün və qeyri-iranlı bir İslam da var. Biz bunu qəbul etmirik. İrançılıq təəssübünə görə heç vaxt bu səhvə yol vermək lazım deyil.

**Sayıqlıq və mübarizə**

Hər halda, inqilab istəyirdi ölkə özünün, öz xalqının və öz dininin olsun. Öz mədəniyyəti də dini ilə idarə olunsun, xalqın mənafeyini nəzərə alsın. Bu 20 il ərzində bu məqsədlə çoxlu işlər görülüb, bundan sonra da görüləcək. Düşmənin təzyiqi bitməyəcək, lakin biz sayıqlıqla, müqavimətlə və öz gücümüzü artırmaqla onu zəiflədə bilərik.

**Ajiotaj qarşısında müqavimət**

Siz mömin gənclər düşmənin bir şey barədə ajiotaj yaratdığına, nəyinsə üzərinə bir ad qoyduğuna, parlaq bir həqiqətə pis ad verdiyinə görə meydandan qaçmamalısınız. Məncə, bu gün Qərb kimliyinin və Qərb mədəniyyətinin ən qabarıq və güclü cəhətlərindən biri təbliğatdır. Onlar təbliğatda çox güclüdürlər. Onlar təbliğatlarında bizim böyük imamımızı, yəni filosof, zövqlü şair, fəqih, hüquqşünas, zahid və pak bir insanı elə təsvir edirlər ki, həqiqətdən xəbəri olmayan adi bir insan ondan qorxar. Bu qədər gözəl cəhətləri olan imamı Qərbdə, yəni ABŞ-da və Avropa ölkələrində belə

təsvir edirlərsə, sizin dindarlığınızı da bir formada təsvir edib özünüzə göstərmələri təbiidir.

**Mətbuat məsələsinin həssaslığı**

Qəzetlərin əhəmiyyəti belə yerdə görünür. Əziz qardaş və bacılar, diqqətli olun. Mətbuat inanc məsələlərindən deyil, lakin səhvi təsirlidir. Mətbuat daimi olaraq cəmiyyəti haqq, yaxud batil istiqamətə çəkə bilər. Buna görə də mətbuat üzərində ehtiyatla dayanmaq lazımdır. Bəli, insan bir qəzetə görə bütün dəyərlərə təhlükə hiss edə bilməz. Bir-iki qəzetin böyük əhəmiyyəti yoxdur. Lakin mətbuat məsələsi ölkədə mühüm məsələdir. Mətbuat xalqın fikrini yönəldir, bəzən saxta bir təsvir yaradır. Bəzən mövcud olmayan bir şəraiti təsvir etməklə onun yaranmasına zəmin yaradırlar. Mən səksəninci illərin ortalarında gördüm ki, keçmiş rejimdə Pəhləvi hakimiyyətinin xeyrinə fəaliyyət göstərən bəzi ünsürlər mətbuat vasitəsilə təxribata başlayıblar. İndi də bu işlə məşğuldurlar. Bir neçə ildir bu işi görürlər. Əlbəttə, bir vaxt uğurları məhdud olur, bir vaxt da geniş olur və xalqın, daha böyük ziyalı qruplarının, tələbələrin və digər təbəqələrin arasına girirlər. Bunlara diqqətli yanaşmaq lazımdır. Siz gənclər mətbuat və düzgün təbliğat işində bacardığınız qədər təsirli olun, varlığınızı bildirin, istedadınızı, bacarığınızı, niyyət və düşüncələrinizi ortaya qoyun. Bu, İslamın və müsəlmanların xeyrinədir. Kənarda oturmaq məsləhət deyil. Mədəniyyət və düşüncə sahəsində hazır olmaq lazımdır. Bu sahələrdə sizə uğurlar arzulayıram. Təbliğat, yazmaq, danışmaq, çıxış etmək və bu kimi işlər çox əhəmiyyətli işlərdir. Məncə, bütün yaxşı gənclər bu haqda düşünməlidirlər.

**Tələbə mühiti**

Hər halda, mənim tələbə məsələləri barədə qısa şəkildə demək istədiyim bunlardır. Tələbə mühitini fəal saxlamaq lazımdır. Tələbə mühiti rasional olmalıdır, sırf duyğusal və bir növ özbaşına, veyil olmamalıdır. Bilirsiniz ki, veyilliklə düyğuların sintezi ən pis haldır. Duyğular məqsədlərin və yaxşı şüarların xidmətində olanda çox yaxşıdır. Amma bəzən duyğular olur, məqsəddən, şüardan və düzgün sözdən isə əsər-əlamət olmur. Bu, çox pis və zərərli haldır. Buna əsasən, həm məsuliyyət hissi, duyğusu olmalıdır, həm də rasionallıq, məntiqi düşünmə və düşündürmə. Bu da ikinci məsələ.

**Universitet və din**

Üçüncü məsələ dindarlıqdır. Mənim əzizlərim! Dindarlığa əhəmiyyətsiz yanaşmayın. Dindarlıq çox mühümdür. Məqsədim quru

dindarlıq deyil. Mənim özüm də heç zaman belə olmamışam. Lakin təqvaya, dinə, Allaha, Onun əmr və qadağalarına qarşı diqqətli olmaq çox mühüm məsələdir. Bu hansı mühitdə olmasa, orada fəsad mikrobları inkişaf edər; hansı mühitdə olsa, fəsad ya olmaz, ya da azalar və orada düzgün söz və mənəvi yüksəliş başlayar. Məqsədim mənəvi və əqli tərəqqidir. Tələbələrin gördüyü bu işlər – namaz, dua, etikaf, təvəssül, camaat namazı və digər bu kimi işlər çox yaxşıdır. Kimsə bunları özünü göstərmək kimi başa düşüb deməsin ki, mən özümü göstərmək istəmirəm. Bəzi işlər zahirdə göstərmədən mümkün olmur. Ümumiyyətlə, dini şüarlar insanın zahirdə göstərdiyi əməllərdən ibarətdir. Dini hərəkət, dini iş, dini təfəkkür və digər bu tip məsələlər aşkarda reallaşır. Məncə, siz buna, yəni universiteti dindarlaşdırmağa çalışmalısınız.

**İnqilabın əsas şüarları**

Dördüncü məsələ inqilabın əsas şüarlarına diqqət yetirməkdir. Onların bir neçəsinin adını çəkdiniz. Xırda məsələlərdə, cinah söhbətlərində, birinin o biri ilə mübahisələrində həll olmaq lazım deyil. Mənim fikrimcə, bunlar kiçik və azdırıcı şeylərdir. Siz inqilabın mühüm, əsaslı və ümumi şüarlarını yadda saxlayın, fəaliyyətlərinizdə onlara diqqət yetirin. Onların ən yaxşılarından bir neçəsini siz dediniz.

**Allaha şükür**

Mən Allaha şükür edirəm ki, bu məsələlər siz gəncləri maraqlandırır: məhrum və məzlumları müdafiə, beynəlxalq müstəmləkəyə qarşı mübarizə, İslam hərəkatını genişləndirmək, İslam ümmətinin qardaşlığı, İslam hakimiyyəti, dəyərlərin hakimiyyəti, qardaşlıq və mehribanlıq, bütün ümmətin həmrəyliyi, cinah və qrup oyunlarından çəkinmək və s. Bu cinahbazlıq və qrupbazlıqlar doğrudan da pis və kiçik şeylərdir. İnqilabçı bir xalqın bunların əsiri olması heyfdir. Belə mühüm şüarlar üzərində təkid göstərin. Allah-Taala da sizə kömək edəcək.

**Gəncliyin nuraniliyi**

Allaha şükür olsun ki, siz nurlusunuz. Gəncliyin qədrini bilin. Gənclikdə mövcud olan böyük imkanlardan biri nurluluqdur. Gənc fitrətə daha yaxındır. Onda olan nuranilik intrinsik bir məsələdir. İnsanın özü bəzən nəfsi istəklərinə bulandığından, dünyaya və puç sifətlərə üz tutduğundan, bu nuraniliyi azaldır. Bunu dəyərləndirin. Mənim buna inam və ümidim çoxdur.

İnanıram ki, bizim gənclərimizin paklığı, mənəviyyatı və nuraniliyi gənc mühiti, xüsusən də univerersitetlər üçün cızılan çoxlu planlara qalib gələcək.

**Gəncləri cəlb etmək**

Universitetdə laqeyd gənclər də çoxdur. Həmişə belə olub. Dinsizlər azdır, laqeydlər isə çoxdur. Dinsizlikdə, inamsızlıqda və dəyərlərdən uzaqlaşmaqda israrlı olanlar çox azdır. Bir qrup da dəyərlərin davamına israr edirlər. Bir qrup da var ki, onlar üçün çox fərqi yoxdur. Laqeyd halında olan və hansısa bir tərəfə israrı olmayan bu orta qrupu əldən çıxarmayın, onlarla işləyin, ürəklərini cəlb və beyinlərini hidayət edin. Bu, hamımızın vəzifəsidir. Heç kəs Allah-Taala yanında öhdəsinə düşən vəzifəni yerinə yetirmədiyinə görə üzr göstərə bilməyəcək. Əgər biz bu axirət və Allah məsuliyyətini dərk etsək, düşünürəm ki, çoxlu məsələlər həll olunacaq. İşimizdə olan problemlərin biri budur ki, bu dünyadan köçdükdən sonrakı məsuliyyətimizi yada salmırıq: “Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"[25] Bizi saxlayıb sual verəcəklər. Bunu yaddan çıxarırıq. Həmişə ötəri məsələləri düşünürük. Fikirləşirik ki, sabah nə olacaq, filankəsə nə cavab verəcəyəm, filankəslə necə mübarizə aparacağam. Əksər hallarda bu fikirlərdir. O tərəf barədə düşünmürlər ki, Allah-Taala gəlib bizim bütün üzr və bəhanələrdən uzaq batinimiz qarşısında dayanır. Buna cavab olmalıdır. Əgər bu haqda düşünsək, məncə, xırda məsələlərin çoxu həll olunar.

Allahın köməyilə müvəffəq olasınız!

---

[25] Saffat/24.

## Müsəlman gənc və inqilab[26]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox xoş gəlmisiniz. Allah-Taaladan istəyirəm ki, sizin nurlu və pak qəlblərinizi Özünün mənəvi lütf və hidayətilə daha nurlu etsin! Allah-Taala gözəllik baxımından zahiri insani məsələlər arasında bəlkə də gənclik kimisini yaratmayıb.

**Gənclikdən soruşmaq**

İnsan həyatının maddi xüsusiyyətlərində həyat nemətindən sonra gənclik xüsusiyyəti böyük əhəmiyyətə malikdir. Buna görə hədislərimizdə təkrar-təkrar göstərilir ki, Allah-Taala qiyamət günü dörd suala cavab vermədən heç bir insanın bir addım belə atmasına izn verməyəcək. Onların biri gənclikdir: "Gəncliyi necə və harada keçirdin?"

**Özünüislah**

Gənclik adlı möhtəşəm enerji və güc mənbəyi ömrün bir hissəsində bütün insanlara verilir, hamı həyatın bu qızıl dövrünü yaşayır. Allah-Taala bu dövrü xoşbəxt həyata ehtiyat toplamaqdan ötrü ayırıb. Bu dövrü adladıqdan sonra insanda böyük işlərə iradə azalır; taqəti də azalır, insan əsaslı işlər görə bilmir, şəxsiyyətini düzəltmək və özünü islah etmək çətinləşir. Əlbəttə, Allah-Taala bəşərə böyük qüdrət vermiş, onun üçün heç nəyi qeyri-mümkün etməmişdir. Hər halda, hər kəs ömrünün sonuna qədər müxtəlif böyük işlər görə bilər. Amma gənclikdə belə işlərin daha rahat və asan olması mühüm bir məsələdir.

**Tükənməz kapital**

Dünya xalqlarının çoxu bu dövrdə ziyana uğrayırlar: tükənməz kapital olan gəncliyi xərcləyir, gələcəkləri üçün mühüm işlər görmürlər. Bəziləri qəflət, bəziləri şəhvət, bəziləri isə bir sıra faydalı işlər üzündən mənəvi və ruhi maraqlarına riayət etmədən onu xərcləyirlər.

**İnqilabın ən böyük zəfəri**

İnqilabın imam tərəfindən ən böyük zəfər adlandırılan məharəti maddiyyata bulaşmış, əxlaqi baxımdan bataqlıq içində olan dünyada pak,

---

[26] Bəsic üzvü olan tələbələrlə görüşdə çıxışı: 16 dekabr 1998.

möhkəm və qərarlı gənclər yetişdirmək idi. Onlar ağıllı və ayıq şəkildə bəşəri səadət yolunu seçdilər.

Hələ tezdir. Hələ o qədər zaman ötməyib ki, insan bu ölkənin gənclərinin nurlu simalarını bütün parlaqlığı ilə görsün. Amma uzaqdan görürlər. Uzaqdan və coğrafi məsafələrdən bizim gənclərimizin parıltısı İslam dünyasında həvəs oyadıb. Adı müsəlman olan, amma İslamdan heç bir əsər-əlamət görünməyən ölkələrin qız və oğlanları İranı, iranlını və imamı görmədən bizim gənclərimizin saçdığı işıqla dəyişilmişlər.

Mənim özüm fəsad dolu Qərb mədəniyyətinin güclü təsiri altına düşmüş bir ərəb ölkəsində gördüm. Səksəninci illərin ortalarında baş tutan səfərimdə gördüm ki, qız və oğlanların geyim tərzi bizim hizbullahçı gənclərimiz kimidir. Halbuki onlar İrana gəlməmişdilər, televiziyalardan və bəzi xəbərlərdən iranlı gənci uzaqdan görmüş və onun təsiri altına düşmüşdülər.

**Həqiqi gözəlliklər**

İranlı gənc inqilab sayəsində həqiqi gözəllikləri özü üçün qorudu və daha da artırdı; məsələn, ayıqlığı, zirəkliyi, fəallığı, cəldliyi, qorxmazlığı və s. O, bir əsr və daha artıq müddətdə müxtəlif iqtisadi, siyasi yollarla və müstəmləkə vasitəsilə sırınan şeyləri özündən uzaqlaşdıra bildi. Yanlış mod və adətlər, öldürücü vərdişlər və olduqca zərərli üsullardan ibarət bu amillər əsl gözəllikləri kölgədə saxlamaqdan ötrü idi.

**Müsəlman gəncin şəxsiyyəti**

Bir zaman İslam dünyasında gənclər ictimai yerlərdə namaz qılmağa utanırdılar. İranlı gənc elə bir iş gördü ki, indi namaz vaxtı dünyanın ən izdihamlı aeroportlarında, fəsad və pozğunluq mərkəzlərində bir neçə hizbullahçı gənc azan deyirlər. Demirlər ki, qəza olmadan Tehrana çatıb namazımızı qılarıq, elə orada, aeroportda ilk vaxtda namaza qalxır və hamı bunu hörmətlə qarşılayır. Mən bunların bəzisini öz gözümlə də görmüşəm. Müsəlman gənc belə şəxsiyyət qazandı.

**İnqilab iksiri**

1982-83-cü illərə qədər tələbə, fəhlə və tacir gənclərin çoxu müqəddəs müdafiə üçün cəbhəyə gedir və şəhadətə qovuşurdular. Onların nurani simaları şəkillərdən görünür. Mən bir dəfə mədəni-ideoloji inqilab və universitetlər barədə söhbət düşərkən dostlara dedim ki, hizbullahçı şəhidlərin evlərinə gedin, deyin şəkil albomlarını sizə göstərsinlər. Onların 4-

5 il qabaqkı şəkillərinə baxın. Mən özüm bəzilərində bu işi görmüşəm; qəribə simalar, müxtəlif saç düzümləri...

Bu gün din, təqva və mənəviyyat nümunəsi olan gənc həmin şəkildəkidir; 4-5 il qabaq saç düzümü, baxışı və modası azğın Qərb mədəniyyətini yamsılayan məqsədsiz bir gənc kimi idi, insani parıltılardan heç bir əlamət yox idi. Zəhmətlə olsa da, hər halda, baş tutan bu inqilab bəzi filizlərə, məsələn, misə vurulduqda onu qızıla çevirən bir iksir kimidir; misləri qızıl edir, filizləri dəyişdirir. İnqilab gənci belə idi.

Peyğəmbərimizin erkən İslam çağında gördüyü iş baş verdi. Müsəb ibn Ümeyr Ühüd döyüşündə şəhid olanda Peyğəmbər onun başı üzərinə gəldi və ağladı. Hədisdə və tarixdə belə göstərilir. O, səhabələrinə dedi ki, bu gənc müsəlman olmazdan əvvəl Məkkədə ən yaxşı, ən gözəl, ən bahalı paltarları geyinirdi. Cahiliyyət dəyərlərinə uyan, bütün fikri-zikri gözəl paltar geyinməkdən və cəlbedici görünməkdən ibarət bir gənc idi. İslam bu gənci dəyişdirib bir qəhrəmana və məqsədli insana çevirdi. Peyğəmbər Məkkədən Mədinəyə təşrif buyurmazdan uzun müddət öncə bu gənci yəsriblilərə (mədinəlilərə) Quran öyrətməyə göndərdi. Peyğəmbərin ətrafında yaşlılar da vardı, amma bu gənci göndərdi. O, yəsriblilərin Quran müəllimi oldu və Ühüd döyüşündə şəhid edildi. İsti qumlar üzərinə düşmüşdü. Peyğəmbər dayanıb onun pak cəsədinə baxdı və ağlamağa başladı.

**Dəyərlərin inqilabı**

İnqilab budur. Dəyərlər inqilabı budur: bir gənc üçün mühüm olanları dəyişdirir. Bir gənc üçün mühüm olan bu idi ki, filan ətri vursun, filan növ ayaqqabı geyinsin, saçını filan tərzdə bəzəsin və bir saat, iki saat filan xiyabanda yol yerisin. Nə ölkənin abadlığını və tərəqqisini düşünürdü, nə yoxsulların qarnını doyurmağı, nə ölkənin vəziyyətini bir qədər yaxşılaşdırmağı, nə də öz qəlbini islah etməyi və ya bir qədər işıqlandırmağı. O, maddi məsələlərə qərq olmuşdu. Bunun zirvə nöqtəsi də, məsələn, cinsi işlərdə, yaxud yeməkdə şəhvətpərəstlik idi.

Mənim əzizlərim! Gənclik belə keçirdi. İnqilab onu dəyişdirdi. Sanki qiymətli bir cəvahirat bir qrup nadan uşağın əlinə düşür, küçədə onunla oynayırlar. Sonra birisi gəlib ona qiymət qoyur və öz yerində işlədir. Gənclik keçmiş rejimin əlində qiymətli cəvahirat kimi idi. O zamanın siyasətçilərinin marağında deyildi ki, gənclər düşünsünlər, bir şey anlasınlar, həqiqət yolunda, Allah yolunda və özlərini islah etmək üçün çalışsınlar. Bu onlar üçün başağrısı idi. Buna görə də, Qərb mədəniyyətini kor-koranə şəkildə yamsılayaraq gənclərin fəsada üz tutmalarına yaxşı yanaşırdılar.

**Hegemonizmin ən böyük fəthi**

İnqilab bu cəvahiratı gənclərə tanıtdırdı. Məcburi müdafiə dövrü də gənclərin vücudunda bu parlaq gövhərin cilvələnməsinə meydan açdı. Allaha şükür olsun ki, bu, müharibədən sonra da davam etmişdir. Mən sizi əmin edirəm ki, düşmən bu məqamı hədəf seçib. Əgər gəncləri nurlandırmaq və gəncliyi uca dəyərlərə sərf etməyin əhəmiyyətinə yönəltmək inqilabın ən böyük zəfəridirsə, hegemonizmin ən böyük zəfəri və əks-hücumu da onu gənclərdən almaqdır. Gəncləri yenə də fəsada, aludəliyə, yanlış düşüncəyə, arxasında heç bir həqiqət dayanmayan puç və əbəs fəlsəfəpərdazlığa qurşatsın. Onlar gəncləri yalnız danışmağa, mübahisə etməyə, heç bir xeyir götürmədən vaxt ötürməyə sövq edir, həqiqətdən, həyatdan, inqilab amallarından, xalqın və inqilabın gözləntilərindən uzaqlaşdırmağa çalışırlar. Hegemonizm bunu bacarmayacaq. Amma əgər bacarsa, heç şübhəsiz, ölkəmizdə çox olan pak qəlblərin və güclü iradələrin düşmənə qalib gəlməsinə imkan verməyəcəklər. Bəzilərini əxlaqi aludəliklərə, bəzilərini zehni şübhələrə düçar edəcək, bəzilərini depressiya və ümidsizliyə uğradacaq, hər kəsi bir yolla məhv edəcək. Onlar inqilabın ərsəyə gətirdiyi bu fəal gənc nəsli səhnədən çıxarmaq istəyirlər.

**Tələbə Bəsicinin mahiyyəti**

Siz tələbə və mömin gənclər! Tələbə Bəsicinin üzvləri! Mən dəfələrlə demişəm. O müraciətdə də dedim ki, Tələbə Bəsici gənc tələbə nəslinin mömin və inqilabçı hərəkəti deməkdir. Bu gün müharibə olmadığına görə bu Bəsic və səfərbərlik də hərbi mahiyyət daşımır.

**İnqilabın davam etdirilməsi və gücləndirilməsi**

İnqilab yolunu davam etdirmək, inqilab düşüncəsini, bu böyük və uca təfəkkürü gücləndirmək üçün səfərbər olun. İnqilabın fəlsəfəsi möhkəm bir fikir binasıdır. Bu fikir binası o qədər möhkəmdir ki, dünyanın ən böyük güclərinin müdafiə etdiyi rejimi dağıdıb alt-üst etdi və yeni bir quruluş yaratdı. Elə bir iş gördü ki, dünyada həmin dağıdılmış rejimə bənzəyən rejimlərin hamısı qorxudan əsməyə başladılar. Məhz buna görə, bu gün də "inqilabın ixracının qarşısını alın" deyirlər. Deyirlər ki, biz inqilabın ixracından çox qorxuruq.

Bu nə deməkdir? Yəni İslamın, Allahın və Quranın bu möhkəm, güclü və dərin köklü fəlsəfəsi, bu fəlsəfənin dağıtdığı rejimlə çoxlu ortaq cəhətləri olanları lərzəyə gətirir. Bu, belə bir şeydir.

**Səmərəli ağac**

Bunu yaxşı dərk edin, özünüzdə və digərlərində ona inamı gücləndirin, bilin ki, bu ölkənin və bu əsrin gələcəyi İslama və Qurana məxsusdur. Düşmənlər bir neçə ildir əziyyətə düşürlər. Onlar elə bilməsinlər ki, bu inqilabın əl-qolunu bağlaya biləcəklər. Xeyr, belə deyil. Bu, çox səmərəli bünövrə və səmərəli ağacdır: "Xoş bir söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir".[27]

Mən siz əziz gəncləri, oğlan və qızları sevirəm. Siz tələbələr bu məsələlər üzərində fikirləşin. Allaha şükür olsun ki, bu imkanınız var. Dostların çəkdiyi bu zəhmətin, cənab Misbahın - bu dəyərli şəxsiyyət dövrümüzün həqiqətən, fəxrlərindən və Allahın bizim xalqımıza, hövzələrimizə və gənclərimizə verdiyi nemətlərdəndir - rəhbərliyi və təlimi altında görülən bu işlərin qədrini bilin, özünüzdə bu fikirləri dərinləşdirin, Allahla əlaqələrinizi günbəgün gücləndirin, dini qaynaqlara diqqət yetirin, düşünün, işləyin. Allah da kömək edəcək.

Mənim əzizlərim! Bu ölkənin gələcəyi sizin çiyninizdədir. Həlledici amil siz olacaqsınız, dayanmadan təbliğat aparan və öz xam xəyalı ilə buranı istədiyi kimi görmək istəyən ABŞ, hegemonizm və Qərb mədəniyyəti yox. Onlar keçmişdə səhvə yol verib bu xalqı tanımadıqları və möhkəm zərbə aldıqları kimi, bu zaman və bu mərhələdə də xalqı tanımırlar. Yenə səhvə yol verirlər və inşallah, yenə də bu xalqın möhkəm zərbəsini görəcəklər.

Allahın salamı və rəhməti olsun sizə!

---

[27] İbrahim/24.

## Gənc və təqva[28]

Bismillahir-Rəhmanir-Rəhim.

**Mühüm sual**

Hikmətli Allah Öz kitabında belə buyurur: "Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və dözümlü olsa, (bilsin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz!"[29]

Bəzən öz-özümə fikirləşirəm ki, ömrünün ən gözəl çağını yaşayan cavan özünün dünya və axirət uğuruna zəmanət verən bir amilə nail olmaq üçün nə etməlidir? Çox əhəmiyyətli sualdır. Əvvəla, söhbətin mövzusu dünya və axirət uğurudur: can və bədən, ürək və düşüncə. İkinci tərəfdən, bu sual cavanların xüsusi bir qrupuna aid deyil.

Mənim zehnimə gələn cavab da cavanların xüsusi bir qrupuna aid cavab deyil. Yəni bu cavab tam dindar cavanlara məxsus deyil. Xeyr. İbadət və dindarlıq baxımından çox da yuxarı dərəcədə olmayan bir cavana da aiddir. Hətta etiqadlarında problemi olan bir cavana da aid ola bilər.

**Ən böyük kapital**

Mənim gəldiyim qənaət bir sözdür: təqva! Əgər insan cavanlıq dövründə çalışıb Quranda və dini ədəbiyyatda deyilən təqvanı əldə edə bilsə, həm dərsi, həm islahedici fəaliyyətləri, həm dünyəvi ucalığı, həm maddi nailiyyətlər və əgər mənəviyyat adamı olsa, həm də mənəviyyat üçün böyük bir kapital toplamış olar. Təqva, hətta adətən, orta səviyyəli adamların da çox uzaq olduğu yüksək amallara, böyük ariflərin, mənəvi eşq adamlarının işarə vurduqları irfani və mənəvi üfüqlərə çatmaq üçün də vasitədir.

**Təqva anlayışı**

Təqva nə deməkdir? Təqvanın mənası çoxlu ibadət etmək deyil. Bu, təqvanın nəticələrindən ola bilər, amma təqva bu deyil. Təqvanın mənası odur ki, insan hər bir işinə, qərarına nəzarət etsin, nə etmək istədiyini, ayağını hara qoyduğunu diqqətlə düşünsün.

Bəzən insan məst halda nə etdiyinə diqqət yetirmədən hərəkət edir, addım atır, qərar qəbul edir, hansısa bir işi görür, yaxud görmür. Bəzən də bütün bu işləri nə etdiyini bilərək yerinə yetirir. Bu, təqvadır.

---

[28] Tehran şəhərinin universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışı: 14 yanvar 1999.

[29] Yusuf/90.

Bizim keçmiş alimlərimizin sözlərində çox təkrar olunub ki, birindən "Təqva nədir?" – deyə soruşdular. Cavab verdi ki, indiyədək tikanlı yerdə yol getmisən? Bəziləri bunun hədis olduğunu düşünür, bəziləri isə böyük alimlərin birinə mənsub olduğunu deyirlər.

Siz bəzən asfalt üzərində yol gedirsiniz. Bu, bir növ yol getməkdir. Amma bəzən tikan kolları ilə dolu bir yerdə addımlayırsınız. Bu zaman elə addım atırsınız ki, tikan paltarınıza yapışmasın, ayağınızı yaralamasın. Təqva budur: diqqətlə addım atmaq.

Bu baxımdan, insan təqvalı olsa, imana nail olar; təqvasız olsa, nail olmaz.

**Düşüncə və təqva**

Təqvasız adama "gəl yaranış haqda, varlığın məqsədi barədə düşün" dedikdə, cavab verir ki, get işinlə məşqul ol. Bu, təqvasızlıqdır. Təqvalı insan odur ki, varlıq aləminin məqsədindən, Allah və qiyamətdən söhbət düşdükdə fikrə dalır, düşünür və nəhayət, doğru yolu tapır. Bu barədə düşünmək təqvadır.

Mömin bəzən hərəkət və rəftarını imanı ilə tənzimləmir. Bu, təqvasızlıqdır. Bəzən isə tənzimləyir. Bu, təqvadır.

**Yusifin təqvası**

Quranda təqva haqda çox söhbət açılıb. Siz gənclərə uyğun misal həzrət Yusifdir. O, gənclik təqvasının təcəssümüdür. Yusifin əhvalatı Quranda bir surənin təxminən hamısını əhatə edib və ən yaxşı əhvalat, macəra adlandırılıb.[30]

**Gənc məstliyi**

Səbəb budur ki, siz həzrət Yusifin əhvalatında ideal bir təqva nümunəsi görürsünüz. Bir ömür yaşayıb həyatda müəyyən təcrübələr əldə etmiş insanın təqvası daha təbii görünür, nəinki gənclik məstliyində olan bir gəncin təqvası. Gəncliyin özündə məstlik var. Gənclərin hamısı bir növ məstdirlər. Əlbəttə, bu məstliyin özü də bir nemətdir. Bu nemətdən yaxşı istifadə etmək olar. Belə bir məstlik halətində adı təqva olan sayıqlıq və diqqət böyük

---

[30] Yusuf/3.

əhəmiyyətə malikdir. Buna görə də Yusifin hekayəsi Quran hekayələrinin hamısından yaxşıdır.

**İlahi imtahandan uğurlu çıxış**

Yüsif peyğəmbərin hünəri təkcə bir cinsi ləzzətdən imtina etmək deyil, daha böyükdür. Siz tam kübar bir ailədə, evin xanımının xüsusi diqqət mərkəzində olan və evin kişisinin etimad etdiyi gözəl və ləyaqətli bir cavanı təsəvvür edin. Misir əzizinin evində hər cür insan mövcuddur: nökər, xidmətçi, işçi və sair. Şəxsiyyətli, ağıllı, gözüaçıq, nəcabətli, pak və olduqca gözəl olan bu cavan evin kişi və qadını tərəfindən sevilir. Bu evin bütün üzvləri bu cavana hörmət edir və əmrlərini yerinə yetirirlər.

İndi bu gənc bir imtahanla üz-üzə qalıb. Bu imtahanın təfərrüatını, qadının dəvətini və bu cavanın imtahandan necə uğurla çıxdığını hamınız eşitmisiniz, bilirsiniz. Öz ehtirasına üstün gəlmək məsələnin kiçik tərəfidir. Görün Quran nə qədər zəngindir! Bu hələ məsələnin kiçik tərəfidir.

Mən Qərb mədəniyyətinin çirkinliklərini ona görə təkrarlayıram ki, müqayisə məqamında aydınlıq və zülmət, təmizlik və çirkinlik qarşı-qarşıya dayanır.

Tanınmış yazıçı Stendalın "Qırmızı və Qara" adlı məşhur hekayəsi yüz ildir bütün dillərə tərcümə olunub. Bu hekayə bir neçə il əvvəl fars dilinə də çevrilmişdir. Burada da oxşar vəziyyət var: Bir gənc evə daxil olur. Əlbəttə, ev nisbətən kübardır, amma Misir əzizinin evi kimi deyil. Cavan da Yusif kimi deyil, amma həmin hadisə baş verir. Yəni evin xanımı bu oğlana aşiq olur.

Qadınla gənc arasında baş verənlər cinsi murdarlığın, xəyanətin, alçaqlığın, vəfasızlığın, şəhvətpərəstliyin və nəfsə qul olmanın bariz nümunəsidir. Stendal Qərb ədəbiyyatının korifeylərindəndir. Bu kitabına görə onun adı Fransanın birinci dərəcəli roman yazıçıları sırasında çəkilir. Bu əsər dünyanın ən yaxşı və ən məşhur on romanından biridir.

Baxın, belədir. O da dərsdir. Romanı təkcə baş qarışdırmaq üçün yazmırlar, onun mesajı var və bir mədəniyyətin göstəricisidir. Roman öz oxucusuna bir növ həyat dərsi verir.

Quran belə bir imtahan qarşısında Yusifi elə təsvir edir ki, insan bu əzəmətə heyran qalır. Həssas bir şəraitdə qadın bu cavanı yaxalayır, amma cavan onun əlindən qaçır və dərhal ittiham olunur. Bu zaman Misir əzizini otağın qarşısında görürlər.[31] Qadın tez bu cavanı ittiham edərək deyir ki,

[31] Yusuf/25.

günahkar budur. Sonra o, günahsız olduğuna görə xilas olur, qadının günahı sübuta yetir.

Bəli, bu, böyük bir imtahandır. Elə bir imtahandır ki, zəif formasında belə minlərlə insandan biri də uğurla çıxmır. Burada Yusif paklıq və təqva simvoluna çevrilir, lakin bundan da üstünü sonra gəlir.

Misirdə söz-söhbət gəzir ki, əzizin xanımı öz xidmətçisinə aşiq olub. O, ittihamları uzaqlaşdırmaq məqsədilə Misirin qadınlarını evinə dəvət edir və meyvə soymaq üçün hər birinin qarşısına bir bıçaq qoyur. Bunlar nağıl deyil, Qurandır, gerçəyin mətnidir. Müxtəlif məsələlərdə lazımsız məqamlardan yan keçən Quran burada məsələni təfərrüatı ilə çatdırır.

Qadın qonaqlarının hər biri üçün bir mütəkkə hazırlayır və sonra Yusifi qadınların gözü qarşısında məclisə daxil edir[32]. O, ittihamı özündən uzaqlaşdırmaq istəyir. Hansı ittihamı? Bu cavana aşiq olmaq ittihamını? Yox, yersiz hərəkət ittihamını. Demək istəyir ki, mən hərəkətini bilməyən qadın deyiləm. Yusif budur; kim belə bir gözəllikdən imtina etmək istəyirsə, buyursun. Yusif məclisə daxil olur. Qonaqlar Yusifin gözəlliyinə elə heyran olurlar ki, hamısı əllərini kəsirlər. "Qəttə`nə"[33] sözü ilə "qətə`nə" sözünün fərqi var. Qətə`nə - yəni kəsdilər. Qəttə`nə isə - yəni ciddi şəkildə yaraladılar. Şoka düşdüklərindən nə etdiklərini bilmirdilər. Onlar əllərini qanatdılar.

Sonra Misir əzizinin xanımı dedi ki, həmin cavan budur. And içdi ki, mənim iradəmə təslim olmasa, onu həbsə salacağam. Yusif məsələnin nədən ibarət olduğunu bilir. Ona deyiblər. Deyir ki, İlahi, həbs mənim üçün bu günahdan, bu həvəsbazlıqdan və bunların məni dəvət etdiklərindən yaxşıdır[34].

### Allaha görə hər şeydən keçmək

Burada artıq məsələ bir cinsi istəkdən imtina etmək məsələsi deyil, hər bir şeydən keçməkdir: ağalıqdan, rahatlıqdan, onu sevən bir ailədə yaşamaqdan. Bu həyat onun üçün çox gözəl idi. Hər yerdə hörmət-ehtiram, təzim, parlaq gələcək, çoxlu pul, geniş imkanlar... Onun üçün hər şey var idi. O, bütün bunlara göz yumur.

### Təqva məhbusu

Təqva budur. Həbsə düşür, həbsi bir ay, iki ay, altı ay, bir il çəkmir, bunun ümumiyyətlə, zamanı yoxdur. O dövrün həbsi belə idi ki, həbsə düşən

---

[32] Yusuf/31.

[33] Yusuf/31.

[34] Yusuf/33.

artıq məhv olmuş sayılırdı. Bəzi hədislərə görə, o, 7 il, bəzilərinə görə isə 14 il həbsdə qaldıqdan sonra azad edilir və Allah-Taala onu mükafatlandırır.

**Artıq mükafat**

Mənim əzizlərim! Mənim qız və oğullarım! Bunu da bilin ki, Allah-Taala sizin heç bir əziyyətinizi yaddan çıxarmayacaq. Çəkdiyiniz hansı əziyyətdə Allahı nəzərə almısınızsa, Allah-Taala mükafatını artıqlaması ilə verəcək. Bəzən insan əziyyət çəkir, amma onda Allahı nəzərə almır, Allah da adama heç bir şey vermir. Bəlkə də bəzi ziyarətnamə və duaların mətnində görmüş, yaxud eşitmisiniz ki, yazılıb: "səbrən və ihtisabən". Məsələn, İmam Hüseynə (ə) müraciətlə deyilir ki, dözdün və hesabladın, nəzərə aldın; yəni işini Allahın hesabına yazdın.

Gördüyün işin nəfsə və günaha görə deyil, Allaha görə, yaxud Allahın narazı olmadığı bir məsələdən ötrü olduğunu bilsən, sənin bir an əziyyətin, ruhi və mənəvi cəhətdən qatlaşdığın bir anlıq təzyiq, bir fiziki təsir, aclıq, susuzluq, ayağa bir daş dəyməsi, qan çıxması, bir böhtan, bir təhqir, bir ədalətsizlik, bir haqsızlıq, qərəzli şəkildə aşağı qiymətin verilməsi belə itib-batmayacaq, Allah yanında əcri olacaq.

**Ey tez hesab çəkən!**

Allah-Taala tez hesab çəkəndir. Mən imamın qırxında helikopterlə məqbərədən evə qayıdırdım. Yuxarıdan böyük izdihamı gördüm. Biz imamın vəfatı günlərində də oraya getmişdik, indi isə qırx gün keçmişdi. Yerdən bitmiş günbəz və minarələr, xatirəsi ilə təxminən bütün dünya müsəlmanlarının ürəklərinin döyündüyü bu bina, bu insan seli, iyul ayının isti havasında piyada gedib-gələnlərin izdihamı, uşaqlar, qocalar... Dedim ki, İlahi, nə tez əvəzini verdin!

**İxlas**

Bu kişinin ixlası, bütün gözəllikləri, mücahidliyi, çalışmağı, fəryadları, müqaviməti, mühüm qərarları, təqaüd dövründə, 80-90 yaş arasında çəkdiyi əziyyətləri... İnqilabdan sonrakı bütün bu işləri imam təxminən 79 yaşından 89 yaşına qədər gördü. Ruhlu bir cismi vardı. O ruh ixlası idi. Əgər ixlas olmasaydı, bu işlərin heç birinin dəyəri olmazdı, təsir də etməzdi. İxlas! Bu insanın ixlası nə tez bəhrəsini verdi! Vəfatından qırx gün keçib, görün necə

əzəmət görünür və bu əzəmət əbədi qalacaq. Mənim əzizlərim! Bu əzəmət bitəsi deyil.

**Mükafat**

"Həqiqətən Allah tez hesab edəndir".[35] Allah tez hesab çəkdi və mükafat verdi. Sonra Misirin əzizi kimi bir məqama çatdı. Şərait elə oldu ki, vəfasız qardaşları ona ehtiyaclı oldular. Yanına gəldilər və çətin imtahanda onu tanıdılar. Sonra söhbətimin əvvəlində oxuduğum bu cümləni dedi: "Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və dözümlü olsa, (bilsin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz!"[36] İmam Səccadın (ə) duasında da oxuyuruq: "Ey yaxşı iş görənlərin mükafatının zamini və ey pis iş görənlərin əməlinin islahını istəyən!"[37]

**Təqva - bütün işlərin başı**

Mənim əzizlərim! Mən tövsiyə edirəm ki, bütün işlərdə təqvalı olun. Fikirləşin, görün nə edirsiniz, nə istəyirsiniz, niyə dərs oxuyursunuz, bu sözü niyə dilinizə gətirirsiniz, niyə sükut edir, yaxud addım atırsınız. Məst halda hərəkət etmək olmaz.

**Aram at**

Əmirəlmöminin təqvanı sakit bir ata bənzədir; insan yüyənindən tutub istədiyi yerə çapır və istədiyi yerdə saxlayır. Təqvanın əksi diqqətsizlik və azğınlıqdır. Əmirəlmömininin hədisində "yanlışlıq" təqvanın antonimi kimi göstərilmişdir: "Xətaya" - yəni düşüncənin, dilin, əlin, ayağın, ürəyin, qərarın və əməlin yanlışlığı nəzarətdən çıxmış dəcəl at kimidir. Onun üstünə bir nəfəri mindiriblər, amma atın ixtiyarı onun əlində deyil. At özü onu aparır. Məlumdur ki, belə bir insan salamat qurtarmayacaq.

**Oruc**

Oruc tutmaq təqvaya girişdir. Bu 26 günü oruc tutmusunuz, bir neçə gündən artıq qalmayıb. Diqqətli olun, işlərdə yaxşı fikirləşin və yaxşı əməl edin. Heç zaman düzgün yollar barədə düşünməyə tənbəllik etməyin. "Get işinlə məşğul ol", "yaxamdan əl çək" fikirləri çox pis hallardır. Bunlar çox təhlükəlidir. Hər bir məsələni diqqətlə izləyin. Gənc nəsil belə olmalıdır.

---

[35] Ali-İmran/199.
[36] Yusuf/90.
[37] "Səhifeyi-Səccadiyyə", 40-cı dua.

Mən siz əzizlərin toplanmasından istifadə edib bir məqama toxunum. Bu gün dünya miqyasında İran əleyhinə işlər aparılır. Burada hansısa yersiz bəyanata, yaxud yanlış sözə işarə vurmaq istəmirəm. Yəni bunlar o qədər deyil ki, insan ittiham etsin və ya barələrində danışsın. Beynəlxalq təxribatların böyük texnoloqlarının oturub düşündükləri, hazırladıqları təxribat və qərarlara toxunmaq istəyirəm. Burada heç bir təsadüf də yoxdur. Hər şey hesablanıb.

**Düşmənin təxribatı**

İndi demək istəmirəm ki, dünyanın bütün təxribatları bizim əleyhimizədir. Xeyr, Allahın bizdən başqa bəndələri də bu xəbis və yaramazların təxribat planlarının hədəfidirlər. Biz də bu planların hədəfiyik. Onların hədəflərindən biri gənclər, xüsusən də tələbə gənclərdir. Bu planın xülasəsi odur ki, onlar bu məmləkətin əksəriyyətini təşkil edən və gələcək sahibləri olacaq gənclərlə din və inqilabın güclü əqli təfəkkürü arasında məsafə yaratmaq istəyirlər. Onlar buna çalışırlar.

**Puç təbliğat**

Onlar qəbul etdirmək istəyirlər ki, bu məmləkətin gənci, tələbəsi və universiteti dindən, möhkəm, məntiqli və gözəl təfəkkürlərdən və imamın düşüncələrindən uzaqlaşıb. Halbuki İslam dünyasında hələ də gənclər və qeyri-gənclər, dünənki, yəni 20 il bundan qabaqkı nəslin ziyalıları və bugünkü ziyalı nəsli bu düşüncələrə vurğundurlar. Onlar demək istəyirlər ki, İran gənci bu düşüncülərdən uzaqlaşır.

**Qəhrəman gənclər**

Sizcə, sizin komandanız Amerikanın qapısına qol vurarkən nə üçün Fələstində, Livanda, Suriyada, İraqda, Afrikada, Misirdə və Mərkəzi Asiyada gənc və qocalar, kişi və qadınlar evlərdən, çayxanalardan küçələrə çıxıb şənlik edirlər? Sizcə, bunun səbəbi nədir? Heç indiyə qədər Milanın, yaxud hansısa xarici milli komandanın qələbəsi üçün bu qədər seviniblərmi?! Belə bir hal baş verirmi?! Bu məqam doğrudan da diqqətəlayiqdir.

Mənim əzizlərim! Bu məqama diqqət yetirin. Səbəb nədir? Səbəb budur ki, o şüarlar, o mənlik və İran xalqının son iyirmi ildə qazandığı qəhrəman siması elə parlayır ki, bütün dünya xalqları, müsəlman və üçüncü dünya ölkələri hələ də onu sevirlər. Bu, dünya hegemonları üçün çox böyük problemdir. Siz özünüzü cənab Klintonun, yaxud sionistlərin siyasi strateqlərinin yerinə qoyun. Onlar İranla, İslam Respublikası ilə, onun

rəhbəri, prezidenti, hökuməti, xalqı, gəncləri, universiteti, milli komandası və hər bir şeyilə düşməndirlər. Buna heç bir şübhə yoxdur. Sonra görürlər ki, dünyanın bütün ölkələrində bunların xeyrinə şüar verirlər. Buna dözmək onlar üçün çoxmu asandır?! Buna çarə qılmaq istəyirlər.

**Zirvə nöqtəsi**

İndi düşmən hiylələrinin əsas hədəflərindən biri ölkənin gəncləri və universitetləridir. Bu təbəqəni dindən ayırmaq istəyirlər. Əlbəttə, mən bu təbliğatla aldanan adam deyiləm. Mən ölkəmizin gənclərini və universitet mühitini tanıyıram, universitetdə nə baş verdiyini bilirəm. Bu gün İslam Respublikasının iyirmiilliyində imamın məqsəd və şüarları hələ də zirvədə və hamıya xoşdur. Biz öz vəzifəmizi unutmasaq, Allahın lütfü ilə belə də olacaq.

**Gənclik təbiəti**

Gənc təbiətcə zülmə və şiddətə qarşı mübarizdir. Gəncin xisləti belədir ki, varlığı zülmdən ibarət olan - sionizm rejimi belədir - bir dövlət görsə, ona qarşı çıxır.

**Fələstin məsələsi**

Fələstinin tarixini oxumanız yaxşıdır. Bu barədə yazılmış "Fələstin sərgüzəşti" kitabını və digər kitabları oxuyun, görün sionistlər Orta Şərqin çox mühüm olan bu bölgəsini hansı hiylələrlə zəbt etmişlər. Əvvəl gedib fələstinlilərin torpaqlarını aldılar. Əlbəttə, orada bir qədər yəhudi vardı və ingilislər də qəyyumluq edirdilər. Məqsəd oranı tutmaq idi. 19-cu əsrdə keçirilmiş Sionizm Konqresində qərara gəldilər ki, Fələstin torpaqları tutulmalıdır. O zaman hələ ABŞ ortalarda deyildi. Bu yeri tutmaq ingilislər üçün də əhəmiyyətli idi.

Yada salın ki, o zaman hələ Osmanlı dövləti vardı və ingiltərəlilərin bu bölgəyə ayaqları açılmamışdı. Birinci dünya müharibəsindən sonra Osmanlı dövləti dağıldı, İordaniya, İraq, Misir, Hicaz və başqa yerlər ingilislərin himayəsi altına düşdü. Livan, Suriya və digər bölgələr də Fransanın ixtiyarına keçdi. Dünya müharibəsinin qalibləri belə böldülər. Lakin Fələstin topraqlarının tutulması, yəhudi və sionistlərin oraya yerləşdirilməsi planı qəbul olunanda hələ bu xəbərlər yox idi.

19-cu əsrin sonlarında - 1870-ci illərdə yavaş-yavaş başladılar. Son işləri bu idi. İngilislərə də burada bir ayaq yeri lazım idi. Birinci dünya müharibəsindən sonra İranda Pəhləvi hakimiyyəti başlandı. Onlar bu

müddətdə fələstinlilərin torpaqlarının bir hissəsini alıb, sionistləri oraya daxil etdilər. Sionistlərlə, yəni yəhudilərlə müsəlmanlar arasında konfliktlər yaranmağa başladı. İngiltərə əsgərləri gizlicə yəhudilərə silah ötürüb daxili müharibə başlatdılar. Sonra 1948-ci ildə Fələstinin bir hissəsində rəsmi şəkildə Sionist dövləti yaratdılar. Daha sonra 1956-cı və 1979-cu illərdə baş verən müxtəlif müharibələr əsnasında Fələstinin digər yerlərini də tutdular və Fələstini İsrail dövlətinə çevirdilər. Yəni birinci mərhələdə ingilislərin birbaşa köməyi ilə ev sahibi olan müsəlmanları zorla qovub bir dövlət qurdular. Sonda da amerikalılar meydana çıxıb aktivlik göstərdilər. Bölgə onların, digər Avropa ölkələrinin və ozamankı SSRİ-nin ixtiyarına keçdi.

**Qərbin təbliğatı**

Təbiidir ki, dünyanın hər hansı bir yerində öz gənclik fitrətinə uyğun yaşamaq istəyən bir gənc bunlara qarşı çıxacaq. Ancaq bu evin sahiblərinə qarşı təbliğatın həcmi həddən o qədər artıq olub həqiqəti tərsinə göstərsə, istədiklərinə çatacaqlar. Məsələn, bu gün ABŞ mətbuatında belədir. Mən hərdən ABŞ-ın bəzi mətbu orqanlarına baxıram. Haradasa 3-4 cinayətkar sionist öldürülsə, insanlarda onlara qarşı mərhəmət hissi oyadırlar, uşağının, həyat yoldaşının, qoca anasının ağlamasının, tabuta qoyulmasının və dəfn edilməsinin şəkillərini çap edirlər.

**Qərbli gənc**

Müsəlmanlara qarşı qətliam zamanı isə Qərbdə buna bənzər işlər görülmür. Deyr Yasində bir saatda bir neçə yüz nəfər kişi, qadın, uşaq, böyük və kiçiyi öldürdülər, məhv etdilər. Amma bu, Qərb mətbuatında əks olunmadı. Buna görə də, siz Fransada, İngiltərədə, yaxud ABŞ-da bir gəncin fələstinli ərəbin deyil, əksinə, işğalçı sionistin dərdinə şərik olduğunu görürsünüzsə, bu, təbliğatın təsiridir. Əgər həqiqəti olduğu kimi hər hansı bir gəncə göstərsələr, düzgün mövqe seçər.

**Amerikaya qarşı çıxmaq**

Gəncin xisləti belədir. Gənc zülmə qarşıdır, quldurluğa, haqsızlığa, zülm və zorakılığa müxalifdir. Bizim gənclərimizə heç bir təbliğat aparılmasa da, ABŞ-ın ölkəmizə, Orta Şərq ölkələrinə, inqilaba nə etdiyini bilmələri ona qarşı çıxmaları üçün yetər. Yəni ABŞ və sionizmə, təcavüzkar və zalıma qarşı mövqe seçmək üçün kiminsə tövsiyəsinə ehtiyacları yoxdur. Gəncin xisləti belədir.

**Tələbə hərəkatı**

Tələbə hərəkatı və tələbə oyanışı belə olsa, həqiqi hərəkatdır. Harada belə olmasa, bilin ki, tələbə hərəkatı deyil, sifarişlə yaradılmış bir şeydir.

**Sadə hesab etmək**

Siz gənclərin yadında deyil, inqilabın əvvəllərində biz səhnədə idik, onların hər birini yaxından tanıyırdıq və tanıyırıq. O zaman bu ölkədə bəzilərinin fikri bu idi ki, indi şah gedib və başqa bir dövlət qurulub, daha inqilabın şüarlarını yığışdırmaq lazımdır. Daha bəsdir, ABŞ-la və digərlərilə əlaqə və münasibətlərimiz əvvəlki kimi olsun. Amerikalıların özləri də bunu istəyridilər.

İnqilabın əvvəllərində bu fikirdə olan cənablar məncə, xain deyildilər, çox sadəlövh idilər, bunun arxasınca nə gələcəyini bilmirdilər. Elə bilirdilər, 30 il bu ölkədə kök salmış, ən həssas sahələri tutmuş, 50 il Pəhləvi rejimini hakimiyyətdə saxlamış ABŞ kimi bir güc İranı əldən verməmək üçün indi inqilabın və inqilabçıların başına gül səpəcək, hakimiyyətdə olanlara deyəcək ki, bağışlayın, daha sizinlə işimiz yoxdur, indi iki dost kimi bərabər olaq, normal əlaqələrimiz olsun.

Kiminsə bunu qəbul etməsi sadəlövhlükdür. Bizim qonşuluğumuzda Türkiyə var, ölkəmizin bir tərəfi Pakistandır. Bu iki ölkənin heç biri İran qədər ABŞ-ın nüfuzu altında olmayıb. Siz baxın, ABŞ bu iki ölkədə və digər ölkələrdə sadə və qarşılıqlı əlaqələrlə qane olurmu?! Mütləq hakimiyyətdən başqa bir şeyə razıdırmı?!

Mənim yadımdan çıxmır, inqilabın əvvəllərində Ali Müdafiə Şurasının iclası keçirilirdi. O zamanın Baş naziri və yüksək rütbəli şəxslərdən bir neçəsi iştirak edirdi. Mən və mərhum Çəmran imamın iki nümayəndəsi kimi orada idik. Orada aşağı səviyyəli bəzi hərbi məsələlər müzakirə olundu. Əlbəttə, o zaman Mühafizəçilər korpusu yaradılmışdı, amma onu oyuna almır, ciddi saymır, olmasını çox da istəmirdilər də. Onlar korpusu buraxmaq istəyirdilər.

**Ordu inqilabın əvvəllərində**

Orada əsasən, ordudan söhbət gedirdi. Ordunun komandanları da köhnə zabitlər idilər. Əlbəttə, əsas komandanlar ya qaçmışdılar, ya tutulmuşdular, ya da istintaq altında idilər. Bunlar onların müavinləri olmuşdular. Məsələn, biri şah rejiminin Hərbi Hava Qüvvələri komandanının müavini olmuşdu, onda komandanı əvəz edirdi. Komandan deyildi, amma hər şey onun əlində idi, komandan olmağa çalışırdı. İmkansız deyildi, onlara qalsaydı, komandan qoyacaqdılar. Necə ki, Hərbi Dəniz Qüvvələri üçün belə

bir şəxsi seçmişdilər. İlk günlərdə biz Rifah mədrəsəsində idik. Gördük ki, bir nəfər toppuzla-zadla gəldi. Biz o zaman belə simalar görməmişdik. Soruşduq ki, bu kimdir? Dedilər ki, Baş nazir tərəfindən Hərbi Dəniz Qüvvələrinin komandanı təyin olunub. Bir neçə gündən sonra bəzi keçmiş işləri məlum oldu. İnqilab Komitəsi onu həbs etdi, mühakimədən sonra isə edam etdilər. Onların vəziyyəti belə idi; belələrini komandan qoyurdular. O zamanın ordu komandanları bugünkü kimi ləyaqətli, mömin və inqilabçı deyildilər. Bu gün ordunun komandanları, doğrudan da, hamılıqla inqilabçı, mömin və sağlamdırlar.

**Orduda ABŞ nümayəndəlikləri**

Dediyim iclasda ordu nümayəndələrindən də bir neçə nəfər var idi. Mən gördüm Hərbi Hava Qüvvələrindəki ABŞ nümayəndəliklərinin adlarının dəyişilməsini təsdiqləmək istəyirlər. İndi adını çəkmək istəmirəm, o zaman iclası aparan şəxs dedi: "Razı olanlar əllərini qaldırsınlar". 7-8 nəfərin hamısı əllərini qaldırdılar. Biz dedik nə məsələdir, ABŞ nümayəndəlikləri nədir, düzgün başa salın. Dedilər ki, ciddi bir şey deyil. Sonra bir qədər araşdırdıqda məlum oldu ki, keçmiş rejim dövründə amerikalıların ordu daxilində - həm müştərək komitədə, həm də ayrı-ayrı qüvvələrdə, xüsusən də Hərbi Hava Qüvvələrində şöbələri vardı. Deyəsən adı belə idi: ABŞ Hərbi Müstəşarlığı Şöbəsi. İnqilabçı qüvvələrin, mömin zabitlərin və gənclərin gəlişi ilə bu şöbələr tam tətil olunmuşdu. İndi onları yenidən açmaq istəyirdilər. İnqilabdan yalnız 5-6 ay keçmişdi. O zamanın Müdafiə Şurasından icazə almaq istəyirdilər ki, onlar yenidən orduda qalsınlar. Siz görün nə qədər böyük məsələdir. Onlar bu qədər əhəmiyyətli işin üstündən sadəliklə keçmək istəyirdilər. Hansı ad altında? Etirazlardan qorxduqlarından onların qalmasını deyə bilmirdilər. Deyirdilər ki, adını dəyişdirək. Onlar üçün ad da tapmışdılar: Məşvərət Şöbəsi, yaxud Məşvərət Komitəsi; əvvəlkindən də bir qədər hörmətli ad. Onlar inqilabdan əvvəl orduda gördükləri işi yenidən bu adla davam etdirmək istəyirdilər: həmin işlər, həmin casusluqlar, həmin yeyintilər, casus yetişdirmək və nəhayət, çevriliş. Bu işləri davam etdirmək istəyirdilər.

İnqilabın əvvəllərindən onların məqsədləri bu idi. O zaman rəsmi dövlət postlarında çalışanlar bu məqsədləri bilmirdilər. Əgər imamın sayıqlığı olmasaydı, inqilab həqiqətən, əldən çıxmışdı. Onlar ordunu götürəcəkdilər. İmam doğrudan da təqvanın və hər bir məsələyə diqqətin ideal nümunəsi idi.

**Tələbə hərəkatının xisləti**

Gəncin, tələbənin və tələbə hərəkatının xisləti yad təsirlərlə, düşmənin nüfuzu ilə, quldurların, zülmkarların və bir ölkənin daxili məsələlərində beynəlxalq diktaturaların nüfuzu ilə mübarizə aparmaqdır. Həqiqi tələbə hərəkatının və tələbə oyanışının təbiəti budur. Əgər haradasa tələbələr toplaşıb bunun əksinə şüar versələr, bu, tələbə şüarı deyil, sifarişli və avam şüardır. Əlbəttə, avamlıq üzdədir, arxasında isə fərqli məsələləri olan qərəzçiliklər var.

**Gəncin paklığı**

Gəncin təbiəti mənəviyyata və paklığa meyllidir. Universitetin məscidlərində keçirilən etikaflar gəncin təbiətindəndir. Hətta çox da ibadətçi olmayan və ürəyində mənəviyyata meyli olan gənc ömrünü günahda, müxtəlif həvəslərdə keçirən, qəlbi qaralmış və heç bir cəlbediciliyi olmayan bir insandan fərqlənir.

Gənc belə deyil. Gənc təbiətcə paklığa, məhəbbətə, mənəviyyata, aydınlığa və aydınlara meyllidir. Gəncin təbiəti hegemonluğa qarşıdır. Siz dünyanın heç bir yerində gənclər tərəfindən əcnəbi müdaxiləsini dəstəkləyən bir hərəkat yaradıldığını görməzsiniz. Həmişə və dünyanın hansı bir yerində gənclər hərəkatı yaradılmışsa, əcnəbi müdaxiləsinin əleyhinə olmuşdur. Necə ola bilər ki, bir qrup gənc ABŞ-ın müdaxiləsinin, hakimliyinin, nüfuzunun və ağalığının xeyrinə bir yerə toplaşsın. Bu fikri yalnız təhlil bacarığı olmayan, bu nüfuzun necə və hansı yollardan idarə olunduğunu anlamayan bir gəncdə görmək olar.

Bəli, bizim buaxşamkı proqramımız siz əzizlərlə iftar etməkdən ibarət idi. Bunun da simvoluk mənası var. Siz ölkə tələbələrindən seçmələrsiniz. Bizim keçən il də belə toplantımız oldu. 2-3 ildir ki, ramazan ayında bir yerə toplaşırıq. Bu mənim qəlbimdə tələbə təbəqəsinə məhəbbətdən və bu təbəqənin əhəmiyyətindən irəli gəlir. Tələbə təbəqəsi bizim üçün, bu ölkə üçün, gələcək üçün mühüm amildir. Siz bu gün gəncsiniz, tələbəsiniz, universitetdəsiniz. Sabah ölkənin taleyini yazan mərkəzlər sizin əlinizdə olacaq. Böyük idarəçiliklər, iqtisadi və mədəni işlər sizin ixtiyarınızda olacaq. Bu günün gəncinin öz gəncliyini harada keçirməsi, hansı halda və hansı istiqamətə doğru hərəkət etməsi əhəmiyyətlidir.

**Gənc və məmləkətin gələcəyi**

Bu günün gənci dindar, mənəviyyatlı, mərifətli, düşüncəli və qeyd etdiyim mənada təqvalı olsa - yəni diqqətlə, planlı və düşünülmüş şəkildə qərar versə və addım atsa, ölkənin gələcəyi ona məxsus olacaq.

Əksinə, ölkənin gənci avaralıqla, din və inqilabın prinsiplərinə, həqiqi şüarlarına etinasızlıqla, ölkənin və dünyanın müxtəlif məsələlərinə dair təhlildən uzaq inkişaf etsə, əgər dərs oxusa da, bu, ölkənin xeyrinə tamalanmayacaq və ölkənin uğurlu gələcəyi təmin olunmayacaq.

**Özünüislah**

Mən buna görə tələbə təbəqəsinə və tələbələr toplumuna əhəmiyyətli yanaşıram. Mənim əzizlərim! Bacardığınız qədər özünüzü islah edin. Dini və mənəvi özünüislah sizin üçün yaşlıların özünüislahından daha asandır. Bacardığınız qədər günahdan uzaq durun. Bacardığınız qədər xeyir işə, sədaqətə, paklığa, mənəviyyata, məhəbbətə, xeyirxahlığa, köməyə, xeyirli işlərdə həmkarlığa, dərs oxumağa, tədqiqat və mütaliəyə üz tutun. Bu işlərlə məşğul olun, ölkənin gələcəyi üçün özünüzü hazırlayın.

**Parlaq istedadlar**

Ölkəmiz dünyanın həssas bölgəsində yerləşir, zəngin mənbələri, köklü mədəniyyəti, xalqın parlaq istedadı var. Bu ölkə bir gün dünyada həm maddi, mənəvi, üstün sənaye, üstün elm və uca mədəniyyət baxımından, həm də dini cəhətdən parlaya bilər. Bu sizdən asılıdır.

**İnkişaflardan istifadə**

Düzdür, bu gün Yaponiya, Almaniya və bəzi Avropa ölkələri elmi, texnoloji və sənaye inkişafı baxımından, humanitar elmlərin bəzi sahələrində, idarəçilikdə və digər sahələrdə inkişaf baxımından öndədirlər. Bu nailiyyətlərdən hamı istifadə etməlidir. Bizim istifadə etməyimizi istəməyənlərin acığına, biz bütün bunlardan istifadə edəcəyik.

**Bəşər elmindən istifadə**

Bir gün Qərb və Avropa biz müsəlmanların elmindən, bizim elmi inkişaflarımızdan, kitablarımızdan, yazılarımızdan və mədəniyyətimizdən maksimum istifadə edərək inkişaf etdi. Biz azğın hökumətlər, çirkin səltənətlər, xalqa etinasız yanaşan eqoist, tamahkar və diktator hakimlər üzündən 250 il geri qaldıq. İndi Allahın lütfü ilə bəşəriyyətə məxsus olan elmdən istifadə etməyə çalışacağıq. Elm heç bir xalqın inhisarında deyil. Bizim elmimiz də bəşəriyyətə məxsus idi. Hicri tarixi ilə 3-6-cı əsrlərdə bütün

dünya bizim elmimizdən istifadə edib. Bu gün isə Avropanın, Amerikanın və digərlərinin elmi var. Bu da bəşəriyyətindir.

**Qərbdə elmin mərhələləri**

Əlbəttə, onlar gizlədirlər, bunu bilin; bəlkə də xaricə səfər edən bəzi müəllimlərinizdən eşitmisiniz ki, onlar gizlədirlər. Elm mərhələlərə bölünüb. Onlar xarici vətəndaşlara müəyyən bir mərhələdən artığını öyrənməyə qoymurlar. Özləri ondan daha üstününü öyrəndikdən sonra aşağı mərhələlərə icazə verirlər.

**İstedadlı uşaqlar**

Bizim uşaqlarımız istedadlı və zirəkdirlər, inşallah, gedib onlardan öyrənəcəklər. İndi də öyrənirlər. Dünya elmindən istifadə edəcəklər, istedadları da yaxşıdır. Bizim mədəniyyətimiz dərin və köklü mədəniyyətdir. Dinimiz də bizə kömək edəcək ki, daha artıq ümidlə elmdə inkişaf edək.

**Yaxşı gələcək gənc nəslin əlində**

Bu ölkə maddi, elmi və sənaye baxımından qabaqcıl ölkələrlə bir sırada dayana bilər; bu fərqlə ki, onlarda mənəviyyat yoxdur. Onlar ruhi böhrana düçar olmuşlar, cəmiyyətlərində fəsad var, xalqlarının müxtəlif təbəqələri mənəvi böhranda, başçıları mənəviyyatdan uzaqdırlar, tamamilə nəfsi istək və həvəslərə qərq olmuşlar. O gün inşallah, ölkəmiz bu cəhətdən də günəş kimi parlayacaq, həm mənəviyyatı, həm maddiyyatı olacaq. Bu gələcək reallaşa bilər. Bu sizin əlinizdə, gənc nəslin əlindədir.

**Xeyrə tövsiyə**

Siz gərək yaxşı dərs oxuya, özünüzü gücləndirə, yaxşı təqvalı ola, ölkə və dünya hadisələrinə əhəmiyyətli yanaşasınız. Hadisələri təhlil etməyi bacarın, müxtəlif səsləri eşidin, barələrində düşünün, fikirləşin və seçin. Bu, mühümdür.

Ümidvaram inşallah, bu gələcək çox uzaq olmasın və bir gün siz əziz gənclər bunları xatırlayıb deyəsiniz ki, bir zamanlar bir nəfər bizə belə deyirdi və biz bu gün onu öz gözlərimizlə müşahidə edirik. İnşallah, o gün sizin xeyir-duanız, rəhmət və bağış istəyiniz bizim ruhumuza şamil olsun!

Allahın salamı və rəhməti olsun sizə!

## Rəhbərlə Tələbə sual-cavabı[38]

Bismillahir-Rəhmanir-Rəhim.

Əziz qardaş və bacılar! Çox xoş gəlmisiniz. Son görüşdən indiyə qədər ötən 2-3 ay ömrün digər hissələri kimi çox tez və sürətlə ötdü. Allaha şükür olsun ki, bir daha sizinlə oturub söhbət etmək bizə nəsib oldu.

**Sual:** Batinlərdən xəbərdar olan Allahın adı ilə. Mən bütün insanlara və digər ölkələrin hökumətlərinə deyirəm ki, bilsinlər: Bu dünyanın heç bir yerində belə bir məmləkət tapılmaz ki, onun xalqı bu asanlıq və səmimiyyətlə öz rəhbərləri, prezidentləri və yüksək rütbəli şəxslərilə vasitəsiz oturub söhbət etsin. Bilsinlər ki, bu, İslam Respublikası quruluşunda icra olunan Quran dərslərinə görədir.

Çəkinmədən sözümün girişinə başlayıram. Bu qısa müddətdə sizi sevindirə bilməyəcəyəm. Lakin istəyirəm bir ata kimi sözlərimi eşitməklə daxilimdəki alova su səpmiş olasınız. Sözümü haradan başlayım? Ürəyimdən fantan vurub püskürən vulkanın alovu kimi sözlərimin deyilməsi üçün bir hərəkət kifayətdir. Yaxşı bilirsiniz ki, vulkan ətrafı xaraba qoyur. Axı möhkəm daş tapılmayanda vəziyyət bundan yaxşı olmur. İndi ki möhkəm və dözümlü daş tapmışam və dərdləşmək üçün fürsət yaranıb, icazə verin müqəddiməni qısaldıb ürəyimi açım.

Xatırladığım zamandan məni yalandan çəkindirib düzgünlüyə və doğruluğa sövq ediblər. Lakin çox keçmədən görmüşəm ki, məni yalandan çəkindirənlər həyatımın ən yalançı insanları imişlər. Məni hiyləgərlikdən və arxadan xəncər vurmaqdan çəkindirənlər indi bunsuz yaşaya bilmirlər: rüşvət vermədən, sizə məktub yazmadan. Bilmirəm bizim vəzifəli şəxslərimizin, tələbələrimizin arasında və cəmiyyətimizdə fərdpərəstlik niyə bu qədər yayılıb: hər bir qrup oturub baxır ki, filankəs nə danışacaq ki, bütün proqramlarını onunla uyğunlaşdırsınlar. Bu arada haqqın yeri məlum deyil. Varlığın dahisi olan Böyük Əli (ə) deyir: "Haqqı və batili insanların qüdrəti həddində tanıma. Haqqı tanı, sonra tərəfdarlarını təyin et; batili tanı, sonra tərəfdarlarını təyin et".[39]

Haqq və batil, tərəfdarlarının qüdrəti ilə tanınmır. Haqqı tanı, haqq əhlini tanıyacaqsan. Batili tanı, batil əhlini tanıyacaqsan. Biri deyir ki, ey

---

[38] Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısında çıxışı: 23 fevral 1999.

[39] "Bihar əl-ənvar", c. 40, səh. 126.

prezidentimiz, səni müdafiə edirik, başqası deyir: “Rəhbəri müdafiə etmək imamı müdafiə etməkdir”. Deyirəm ümmət imamını ki, dərk etmisən. O deyir: "Hünər odur ki, siyasi hay-küy və şeytani özünügöstərmələr olmadan Allah yolunda cihada qalx və özünü məqsədə fəda elə, nəfsə yox". Və bu, Allah adamlarının hünəridir. Sonra başqa birisi deyir: "Filankəs, filankəs! Yolun davam edir!" Başqaları filan qətlin günahını bir-birinin boynuna atırlar. Bilirsiniz ki, İmam Xomeyni bu cümləni nə zaman buyurdu. Bu müraciət Doktor Çəmranın şəhadəti münasibəti ilə idi: "Kaş Çəmran kimi bir neçə Allah adamı mənim kimisinin ürəklənməsinə bais olaydı!” Kaş bizim vəzifəli şəxslərimiz Şəhid Rəcai kimi əldə mal sataydılar, avtobusun qapıları arasında sıxılaydılar və ağrının nə olduğunu həqiqətən, başa düşəydilər! Doğrusu, sizdən acizanə şəkildə istəyirəm ki, bəzi xiyabanlarda iki gündən bir cüt və tək nömrəli maşınların get-gəlişi layihəsinin icra olunmamasına kömək edəsiniz. Çünki xalqa xidmət etmək istəyənlər bu zaman yəqin ki iki maşın almalı olacaqlar. Kaş bir qrup geriqalmış insan dini öz ləyaqətisizliklərinin çomağı etməyəydilər! Kaş xalq və onların problemləri bitəydi ki, görək bir qrup insan özlərinə alət etmək üçün kimisə tapacaq, yoxsa yox. Kaş gənclik yalnız bir dövr olmayaydı! Kaş bir qrup insan həmişə gənc qalaydılar ki, görək gələn hər bir kəs özünə ayaq yeri düzəltmək üçün gəncdən istifadə edəcək, yoxsa yox. Kaş həmişə gecə olaydı ki, ləyaqətsizlər yuxuda olaydılar və ləyaqətlilər oyaq! Kaş həmişə gecə olaydı ki, qüssələrimi onun ətəyinə tökəydim və bu ətək çox böyük olaydı: qüssə, dərd və arzu dolu ətək; öz mədəniyyəti ilə yaşayan və hamının qibtə edəcəyi bir məmləkət arzusu!

Ey böyük seyid! Sizə sevgi bildirən insanları görəndə ürəyim döyünür ki, vay bu dastanın sonuna! Və bilmirəm Seyid Əli bunları nəsihət etməkdən yorulub, yaxud təzyiqlər məsləhət qapısının açılmasına səbəb olub. Kaş kimsə bizim siyasi savaşlarda maddi və mənəvi enerjilərmizin hədər getməsinə cavabdeh olaydı! Çünki mənim kimilər çoxdurlar və onlar bu söhbətlərdən təngə gəliblər.

Bəli, əgər qəzetləri vərəqləsək, görəcəyik ki, onların böyük bir hissəsi digər mətbu orqanlarına cavabdır, ümmət imamının "mətbuat səyyar məktəb olmalıdır" sözünə əməl edərək elmi, mədəni və siyasi cəhətdən xalqı maarifləndirmək məqsədinə xidmət göstərmək əvəzinə belə davalarla məşğuldurlar. Siyasi işlə məşğul olmamaları qərara alınan ən siyasi şəxslər şura üzvlüyünə namizəd olmuşlar; gözəllik, həyat və gənclik şüarları ilə. Və nə gözəl deyib o dost: "Hər bir insanın dəyəri onun istəyi qədərdir". Vay olsun o insana ki, onun istəyi nəfs divarından yuxarıya getmir! Kaş bizim

cəmiyyətdə qərarlar şüar və söz həddində qalmayaydı: iqtisadi qənaət, işdə vicdan, gənclərin ailə qurması və başqa min söz və hədis.

Ürəyimin nalələrini fəryad çəkmək üçün buradan yaxşı bir yer tapmadım. Lakin toplantının vaxtı bundan artığına imkan vermir. Biz nəşriyyat kimi başqalarına tribuna olmalıyıq. Və digərləri də bu imkandan istifadə etmək istədiklərindən, sözümü bitirir və sizin tövsiyələrinizi dinləmək istəyirəm.

**Cavab:** Sizin sözlərinizdə sual olmadığından, təbii ki, cavab da yoxdur. Lakin Əmirəlmömininindən nəql etdiyiniz sözdə çox yaxşı bir ifadə var. Bu "əqdar ər-rical" sözü qüdrətin miqdarı yox, "kişilərin qədərincə" deməkdir. Siz bir insan təsəvvür edin, onun üçün bir ölçü, miqdar da fərz edin və sözünü haqq bilin. Yəni onun haqqında öncədən hökm edir, sonra da deyirsiniz ki, buna görə sözü də haqdır. Başqa bir şəxsi də təsəvvür edin, onun üçün də zehninizdə bir ölçü fərz edin və nə desə, sözünü batil bilin. "Əqdar ər-rical" ifadəsinin mənası budur.

**Yaxşı və pis insanlar**

Sözlərinizdə girişdə bildirdiyiniz qədər yanğı yox idi. Cəmiyyətdə bundan böyük dərdlər var. Hər halda, siz bu qədərini deməyi lazım bildiniz. Bəziləri doğrudan da düz sözlərdir. Mənim sizə deyəcəyim budur ki, bir gənc kimi sizdə bir müsbət və bir mənfi cəhət var. Mənfi cəhət budur ki, bu hadisələri görməmisiniz. Adətən, bu növ hadisələrlə ilk dəfə rastlaşdıqda qəribə, inanılmaz və bəzən dəhşətli görünür, həyəcana, təşvişə səbəb olur. İnşallah, uzun ömür sürəcəksiniz və bir qədər yaşlaşandan, bir neçə il ötəndən sonra bu məsələlərlə qarşılaşdıqda görəcəksiniz ki, xeyr, hər bir cəmiyyətdə yaxşı və pis adamlar var. Vəzifəli şəxslər və adi insanlar arasında hər növ adam var. İnsanlar əxlaqi baxımdan eyni deyillər. Sizin ətrafınızda doğrudan da bəzi insanlar var ki, sizi yalandan çəkindirdikləri kimi özləri də çəkinirlər. Yəni yalan danışmırlar. Onları da görmək lazımdır. Onlar həyatın və cəmiyyətin gözəl cilvələridir. Başqa şeylər də həmçinin.

Bəli, ləyaqətsiz insanlar da var. Lakin belə insanları cəmiyyətdə gördükdə iki iş görmək lazımdır. Bu sizin müsbət cəhətinizə aiddir. İnsanın iradə etdiyi hər bir işin həvəs, qüvvə və bacarığının yeri buradır. Buna görə də siz iki iş görməlisiniz:

**Özünəqayıdış**

Bir iş budur ki, əvvəl özünü göstərmək üçün yox, səmimi surətdə özünüzə qayıdın. Özünüzü dəyərləndirin, görün ki, sizdə eyib var, yoxsa

yox. Əgər varsa, aradan qaldırmaq üçün ciddi qərar verin. Birdəfəyə alınmasa da, tədricən buna çalışın. Başqalarında gördüyünüz və özünüzdə tapdığınız ən pis, ən bəyənilməz xüsusiyyətlərin siyahısını hazırlayın. Təkcə özünüz bilin. Bir müddətdən sonra özünüzdə onların birini yox etməyə çalışın. Siz gənc olduğunuzdan bu işi çox yaxşı və asanlıqla edə bilərsiniz. Mən özünü islah etmiş adamlar tanıyıram ki, onlar doğrudan da bu işi görürdülər. Həm əxlaq və rəftar baxımdan, həm də şəxsiyyətlərinə aid mənfi cəhətləri vardı, onları qeyd edirdilər. Psixologiyada deyirlər ki, insan utancaqlığını aradan qaldırmaq üçün nə etməlidir. Əxlaq da belədir.

İkinci iş budur ki, cəmiyyəti onun əksinə aparmağa çalışın. Sizin özünüz danışmaqdan nə qədər gileylənirsiniz. Bəzi yerlərdə danışmaq lazım gəlir. İnsan qarşı tərəfi maarifləndirmək və kiminsə haqqını bərpa etmək üçün danışmalıdır. Yoxsa diqqət etmədən hey demək, danışmaq bir işi həll etmir. Bu sizin işinizdir. Sizin gənclik məharətiniz burada özünü göstərməlidir. Yəni mənfi bir hal müşahidə edən kimi bu iki iş öz-özlüyündə yerinə yetməlidir: Əvvəl öz mühitini sağlamlaşdırmaq, sonra ətraf mühiti və cəmiyyəti sağlamlaşdırmağa çalışmaq. Hər halda, Allaha şükür olsun ki, sizin qələminiz və zövqünüz də gözəldir. İnşallah, bundan artığını da edəcəksiniz.

**İslam təbliğatı**

**Sual:** Bildiyiniz kimi, bu günlərdə bələdiyyə seçkilərinə namizədlərin təbliğatları gedirdi. Belə nəzərə çarpır ki, bu təbliğatın geniş miqyaslı olması bəzilərində iki nigaranlıq yaratmışdır: Birinci nigaranlıq budur ki, bəzi namizədlər tərəfindən yanlış üslublar seçilir və bu da xalqı onlara inam məsələsində tərəddüdə salır. Düşünürlər ki, olmaya xalqa xidmət adı altında başqa mənafe güdürlər! İkinci nigaranlıq budur ki, seçkilərdə pul həlledici ola bilər, qabiliyyət və bacarıq yox. Yəni təbliğat imkanı olmayanlar, xüsusən gənclər, yaxud universitet mənsubları fikirlərini təqdim edə bilməz və nəticədə seçilməzlər. Siz bu problemi həll etmək və bu nigaranlıqları aradan qaldırmaq üçün nə təklif edirsiniz?

**Cavab:** Sizin dediyiniz mənim ürəyimin sözüdür. Mən də əsla bu vəziyyəti bəyənmirəm. Əlbəttə, təbliğat lazımlı işdir, lakin onun İslama və insaniyyətə uyğun düzgün bir mənası var ki, o da çatdırmaqdır. Hər halda, insan ürəyində olan sözü istədiyi dinləyiciyə çatdırmalıdır. Bunun heç bir eybi yoxdur; yəni adi üsullardan istifadə edib çatdırsın.

**Qərb təbliğatı**

Bu gün dünyada yayılmış başqa bir təbliğat növü isə Qərb təbliğatıdır; Qərbin kapitalist sistemində qəbul olunan məna. Orada təbliğatın mənası bir həqiqəti çatdırmaq deyil, elmi və psixoloji üsullarla ürək və beyinləri təsir altına salmaqdır. Məsələn, 50 eyni şəkli bir-birinin yanına vururlar. İnsan baxdıqda təbii ki, beynində qalır. Bu, fikirləşməyə və düşünməyə mane olur.

Biri var ki, siz mənə bir söz deyir, məni bir məsələyə inandırmaq istəyirsiniz. Çox yaxşı, mən də fikirləşərəm, doğru olduğunu görsəm, qəbul edərəm, doğru olmasa, qəbul etmərəm. Bu mənim necə fikirləşməyimdən asılıdır. Biri də var ki, siz şəkil və sözləri təkrarlamaqla məni elə vəziyyətə salırsınız ki, beynim təhlil qüvvəsini əldən verir. Bəzən insan ümumiyyətlə, ixtiyarsız olaraq belə təbliğatın, Qərb sözü ilə desək, propaqandanın təsiri altına düşür, beyni işləmədən təbliğatçının istədiyini edir. Bu, heç şübhəsiz, İslamın baxışı ilə və düzgün insani məntiqlə ziddir və biz bunu bəyənmirik. Təəssüf ki, bizim ümumi təbliğatlarımızda da bu işlər adi hal alıb və bunları yavaş-yavaş qərblilərdən öyrəniblər. Söz yox ki, onlardakı kimi deyil, Qərb ölkələrində edilənlər əsl dəhşətdir. Misal üçün, bir ətri reklam edəndə deyirlər ki, rəngsiz və qoxusuz ətirdir. Ətrin ətirliyi onun qoxusuna görədir, amma bunu müxtəlif formalarda o qədər təbliğ edirlər ki, insan rəngsiz, qoxusuz ətir adlandırılan bu əşyaya pul verib alır. İndi bu işləri görürlər və mən bunları yanlış hesab edirəm.

**Təbliğat mədəniyyəti**

Bələdiyyə seçkilərində bizim mətbuatın gördüyü bəzi işlər təsirsiz deyil. Şübhəsiz, bu işin günahının bir hissəsi mətbuatın üzərinə düşür. Belə mətbu orqanları heç bir məsuliyyət hiss etmir, İslam və xalq qarşısında məsuliyyətlərini qəbul etmirlər. Özləri üçün bir siyasi məqsəd tərif ediblər və məhz onu güdürlər. Təbii ki, bu məqsəd onları həvəsləndirir. Bu qədər kağız və bu qədər imkanlar asan əldə olunmur. Mat qalmışam ki, bunları haradan gətirib bu qədər təbliğat aparırlar. Ölkənin aidiyyətli orqanları oturub bu məsələ üzərində düşünməlidirlər. Eyni zamanda bu, bizimlə əlaqədə olan şəxslərə həmişəki tövsiyələrimizdəndir. Biz ölkənin təbliğatla məşğul olan rəsmi və qeyri-rəsmi şəxslərinə adətən, tövsiyələr veririk, amma təbii ki, bunun bir mədəniyyəti olmalıdır. Xalqı başa salmaq lazımdır ki, bu iş yaxşı deyil. Həm də bu, açıq-aşkar deyilməlidir. Biz də dedik, inşallah, yenə deyəcəyik. Gərək başa düşsünlər ki, bu hərəkət yanlış bir təqliddir.

Hər halda, mən sizin iradınızı təsdiq edirəm. Bu məni də düşündürür. Şəhərin divarlarındakı şəkillərdən bir qədərini götürüb mənə gətirdilər. Mənim üçün həqiqətən, xoşagələn hal deyildi. Məncə, çox pis bir işdir.

Əlbəttə, qeyd etdiyim kimi, düzgün təbliğatın eybi yoxdur. Məsələn, sözlərini və platformalarını bir qəzetdə yazsınlar, bir yerdə nəşr etdirsinlər. Hətta divarlara vursunlar ki, təbliğ olunsun. Lakin bu üsullar yanlışdır.

**Müəllimlərin işsizliyi**

**Sual:** Bilirik ki, unversitetin ən mühüm vəzifəsi elmi məsələlərlə məşğul olmaqdır. Təəssüf ki, universitetlərin idarəsindəki nöqsanlar, cəmiyyətlə universitetlər arasında düzgün əlaqənin olmaması, xüsusən də zəif təhsil sistemi universitetlərdə çox pis donuqluğun yaranmasına səbəb olub. Ölkədə olan parlaq istedadlara rəğmən, pis təhsil sistemi, təəssüf ki, bu istetdadların əldən çıxmasına zəmin yaradır. Həmçinin bilirik ki, elm İslamda bir dəyərdir, lakin bu, insanların dəyərləndirilməsində meyar seçilmir. Bu barədə sizin fikriniz nədir?

**Cavab:** Mənim fikrim budur ki, universitet elmi cəhətdən gücləndirilməlidir. Əlbəttə, siz universitetlərin elmi vəziyyətinin yaxşı olmadığını deyirsiniz. Lakin bu, rəsmi və qeyri-rəsmi şəxslərin mənə verdikləri məlumatla tam uyğun deyil. Amma əgər tələbələrin hamısı bu sözü təkrarlasalar, bu yeni bir fikir və yeni xəbər ola bilər. Lakin bizim universitet işləri ilə məşğul olanlarımız, nazirlər və digər məsul şəxslər gəlib məlumat verirlər. Ümumi götürsək, nəticə pis deyil, yaxşıdır. Hər halda, yaxşı elmi səylər göstərilməlidir. Mən bu elmi məsələ ilə bağlı indiyədək 2-3 dəfə rektor və müəllimlərə tövsiyələr vermişəm. Demişəm ki, müəllimlərin işini bir az azaldın, çünki həftədə 35-40 saat tədris edən müəllimdə tələbə ilə işləməyə nəfəs qalmır. Mən dedim maaşlarını artırmaqla müəllimlərin artıq dərs saatı götürmələrinin qarşısını alın. Müəllim sinifdə dərs dedikdən sonra gedib otağında otursun və tələbələrin onunla danışmasına, məsləhətləşməsinə imkan yaransın. Belə olsa, universitetlərdə elmi inkişaf artar.

**Rəhbərin vəzifəsi**

**Sual:** Sizdən soruşmaq üçün zehnimdə bir sual var idi. Lakin bir neçə gün qabaq deyəsən, magistratura işi olan bir araşdırmada çox qəribə statistika ilə rastlaşdım. Qərara gəldim ki, bu gün sizdən bunu soruşum. Tehran şəhərinin bahalı və brend avtomobilləri barədə aparılan tədqiqat işində göstərilmişdir ki, təəssüflü də olsa, onların çox böyük bir hissəsi İran İslam Respublikasının yüksək vəzifəli şəxslərinin övladlarına və ailələrinə məxsusdur. Keçmişdə bu ölkədə təbəqələr arasında məsafə vardı. İslam Respublikasından sonra isə xalqın ürəyində ümid qığılcımı yarandı ki, bu

məsafə tam aradan qaldırılmasa da, çox azalacaq. Lakin təəssüf ki, bu gün bunun yerlə-göy qədər olduğunu görürük. Bir qrup insan doğrudan da ən kiçik problem hiss etmədən hər hansı bir qiymətə və hər hansı bir formada olursa-olsun, istədiklərini əldə edirlər. Lakin digər tərəfdən, bəziləri bir kilo ət, yaxud həyatın digər zəruri əşyalarını almaq üçün bir sutka, yaxud daha artıq çarpışmalı, 10 dəfə bir mağazaya girib-çıxmalıdırlar ki, xalqın gözündən uzaq bir şey əldə etsinlər. İndi ölkəmizin yoxsulları qarşılarına bir dilənçi kasası qoyub küçələrdə oturanlar deyillər. Doğrudan da münasib ictimai siması və şəxsiyyəti olanlardır. Biz ölkənin iqtisadi problemlərindən xəbərdarıq və bilirik ki, neftin qiyməti düşüb, illik gəlirlər azalıb. Lakin belə düşünürəm ki, ölkənin bəzi sahələrində çalışan bacarıqsız məmurlar bu problemlərin yaranmasına və bizim mövcud imkanlardan yaxşı istifadə etməməyimizə bais olub. Bilmək istərdim ki, ictimai ədaləti həyata keçirmək və təbəqələr arasında məsafəni azaltmaq üçün sizin siyasətiniz nədir?

**Cavab:** Düzgün və mühüm sualdır. Bizim cəmiyyətimizin mühüm problemi də budur. Baxmayaraq ki, bəziləri ictimai ədalətə aid məsələləri və rifah içində yaşayanlardan ibarət yeni təbəqənin yaranmasını gizlətməyə çalışırlar. Amma əsas problem və təhlükə budur. Bu da son 1-2 ilə aid deyil. Təəssüf ki, bunun kökü uzun illərə və bəzi üsullara qayıdır. Yaxud belə deyək ki, bunun kökü bu məsələyə aid diqqətsizliklərdədir. Bir neçə ildir mən bu məsələni təkrarlayıram. Halbuki rəhbər dövlət proqramları üçün siyasət təyin edir. Proqramı hökumət hazırlayır və icra edir. Mən şikayət olunan yerlərin çoxunda, yaxud bir xəbər aldıqda, kiminsə yoxlayıb mənə xəbər verməsini gözləmirəm, özüm yoxlama göndərirəm. Əgər haqsızlıq olduğunu görsəm, qanuni səlahiyyətlərim daxilində addım atıram. Yəni əvvəldəki siyasət təyinilə kifayətlənmirəm. Lakin əsas işim siyasəti təyin etməkdir. Bu il, yaxud gələn il son ili olacaq ikinci proqramın siyasətini biz əvvəllər demişik: ictimai ədalətin bərpası, sizin toxunduğunuz bu məsələ, yeni təbəqələrin yaranmaması və təbəqələrarası məsafənin azaldılması. Biz bu siyasəti həm hökumətə, həm də parlamentə çatdırmışıq. Əlbəttə, parlamentin vəzifəsi qanun qəbul etməkdir, hökumətin vəzifəsi isə icra etmək.

**Uçurum**

Mən həmişə dünyagirlik məsələsi üzərində təkid göstərirəm və təəssüf ki, insan hər dəfə bu sözü deyəndə bəzilərinə toxunur və narahat olurlar. Dünyagirlik bir uçurumdur, təqvadan, yaxud insanı bəzi məsələlərə riayət etməyə məcbur edən möhkəm nəzarətdən başqa heç bir sərhəd tanımır. Hələ

onlar da qeyri-qanuni və qaçaq yollarla qanunsuz işlər görə bilərlər. Mən 5-6 il bundan əvvəl bir tələbə toplantısına müraciət göndərdim. Bunlar yavaş-yavaş hökumət təşkilatına gedən tələbələr olduqlarından, onlara dedim ki, ehtiyatlı olun, dünyanın şirin və yağlısı sizi özünə cəlb etməsin. Yəni bir tələbə gənc belə bir uçurum ağzında ola bilər. Zəhmətsiz sərvətlər məsələsini biz irəli sürdük. Ali Məhkəmə əvvəldə bəzi işlər gördü, sonra mətbuat əngəl törətməyə və işi nəticəsiz qoymağa çalışdı.

**İctimai ədalət**

Bəli, mənim fikrim budur ki, xalq ictimai ədalət haqda məmurlarla ciddi və məntiqli şəkildə söhbət etsinlər, bunu hökumətlərdən və millət vəkillərindən istəsinlər. İctimai ədalət şüarı verənlərdən tələb etsinlər. Əgər kimsə ictimai ədalət məsələsini beşinci dərəcəli bilir və onun yerinə başqa məsələləri önə çəkirsə, bilsinlər ki, o, cəmiyyətin ən böyük ehtiyacını görməzliyə vurur və nəzərdən qaçırır.

**Orta təbəqə**

Siz dediniz ki, məsafə əvvəlkindən artıqdır. Bu, düzgün deyil. Sizin "keçmiş" dedikdə məqsədiniz on il bundan əvvəl olsa, mümkündür, amma bizim gördüyümüz zamanlar olsa, xeyr, o zaman başqa cür idi. O zaman məsafə bundan çox dərin idi. Tağut rejimi dövründə xalqın əksəriyyəti həddən artıq aşağı səviyyədə yaşayırdılar, azlığın isə, sizin dediyiniz imkanları var idi. Bu gün isə hər cəhətdən vəziyyəti yaxşı olan orta təbəqə var. İndi həmin əfsanəvi sərvətlər olmasa da, çoxlu imkanları olan bir qrup da var.

**Bahalı avtomobillər**

Siz avtomobil məsələsinə toxundunuz. Mən bir dəfə dövlət məmurlarını bir toplantıya dəvət etdim. Onlarla bu barədə danışdım və bəzi sözlər dedim. Düzdür, bir qədər əməl etdilər, bəziləri qiymətli maşınlarını kənara qoydular. Sonra yenə tədricən bu işlər başlandı. Bu işləri görən məmurların idarələri diqqətli olmalıdır. Müdir və rəislər diqqətli olsunlar. Xalq da bunları istəməlidir. Mənim fikrimcə, tələbə mühitində və məsul şəxslərlə rastlaşarkan bunları deməyin özü xəbərdarlıqdır və inşallah, nəticəsi olar. Hər halda, bilin ki, İslam Respublikasında əsas məsələ ictimai ədalətdir.

**Ümumi yoxsulluğun əlacı**

Mən bir dəfə dedim ki, biz "İmam Mehdini (ə) gözləyirik" deyəndə onun üçün nəzərdə tutduğumuz ən böyük xüsusiyyət yer üzünü ədalətlə doldurmasıdır.[40] Demirik ki, Allah-Taala onun vasitəsi ilə dini, namazı və orucu hər yerə yaysın. Bu da var və ədalət din çərçivəsində ən yaxşı və ən ideal şəkildə reallaşır. Lakin məlum olur ki, bu ədalət insan istəklərinin uca misrasıdır. Bu gün bəzi insanlar Qərb həyat tərzini nümunə götürür və yayırlar. Bu hal günbəgün pisləşir. Bunun çarəsi odur ki, biz iqtisadi məsələlərdə Qərb mədəniyyətini yamsılamaqdan tamamilə qurtulaq. Belə deyil ki, bir ölkənin adambaşına gəliri yüksəlsə, bu gəlir hamıya çatacaq.

Siz baxın, bu gün statistikada deyirlər ki, məsələn, dünyanın filan inkişaf etmiş ölkəsində, ABŞ-da, yaxud Kanadada istiliyin dərəcəsi 42-ə çatdı və filan qədər adam öldü. Tehranda 42 dərəcədə kimsə ölürmü? Yaxud məsələn, deyilir ki, filan ölkədə 5 dərəcə, 10 dərəcə şaxta oldu və filan qədər insan dondu. Yüksək istilikdən ölən, yaxud qışda don vuran bu adamlar kimlərdir? İstilik-soyuqluq baxımından təchiz olunmuş binalarda oturanları, sığınacaq yerləri olanları don vurmur, onlar istidən ölmürlər. Bu onu göstərir ki, orada həyatın ağır keçdiyi bəzi təbəqələr var. Braziliya bu gün dünyada iqtisadi cəhətdən 7-8-ci ölkədir. Lakin orada ata-anası və evi olmayan bir neçə milyon uşaq var. Onlar küçələrdə yatırlar, küçələrdə böyüyürlər. Küçələrdə ya öldürülürlər, ya ölürlər. Biz belə həyatı istəmirik, belə iqtisadiyyat arzulamırıq. İqtisadi tərəqqinin mənası bu deyil. İqtisadi tərəqqi odur ki, hökumət yoxsulluğu cəmiyyətdən götürə bilsin. Belə iqtisadiyyat yaxşıdır. Xüsusi bir qrupun yoxsulluğunu yox, biz ümumi yoxsulluğu aradan qaldırmalıyıq. İqtisadiyyat İslam iqtisadiyyatıdır və bu, həyata keçməlidir.

Bəli, biz haqdan keçməməliyik. Mənim bildiyim və tanıdığım bəzi vəzifəli şəxslər bunu istəyirlər. Bu hökumətin əvvəllərində mənə deyildi ki, bank sistemini İslama tam uyğunlaşdırmaq istəyirlər. Sözsüz ki, qanun İslam qanunudur, lakin təəssüf ki, icra üsulları onu İslamdan uzaqlaşdırır. Bu məqam iqtisadi islahatlar layihəsində də göstərilib. Mən də təsdiq etmişəm. Ümidvarıq inşallah, bir iş görə bilsinlər. Əlbəttə, əl boş olanda bu işlər bir qədər çətin icra olunur. Sizin də toxunduğunuz və bu ilə, ötən ilə aid olan gəlir azalmasının da təsiri var. Bilmək lazımdır ki, maddi baxımdan hökumətin imkanı geniş olsa, bu işləri çox asanlıqla görmək olar. İmkan geniş olmasa, bir qədər çətin olur. Ümidvarıq inşallah, bu ideyalar sizdə dirçəlsin. Ehtiyatlı olun, bu istək və arzuları əldən verməyin. İndidən

---

[40] "Kifayə əl-əsər", səh. 89.

yadınızda saxlayın, vəzifə sahibi olduqda, qarşınıza yaxşı yaşayış imkanı çıxdıqda bu sözlər yadınızda olsun.

**Bələdiyyələr**

**Sual:** İslam Respublikası quruluşunun yaranmasından 20 il ötür. Biz indi quruluşun möhkəmləndirilməsi mərhələsindəyik. Qarşıdan bələdiyyə seçkiləri gəlir. Bunun ən böyük faydası xalqın qərar və icra sahəsində ümumi iştirakıdır. Mənim sualım budur ki, sizin fikrinizdə xalqın yeri haradır? Onların öz taleyüklü məsələlərində iştirak etmələri üçün hansı mexanizmi daha işlək və daha uyğun bilirsiniz?

**Cavab:** Çox gözəl və yaxşı sualdır. Bələdiyyələrin adını çəkdiniz. Mən öncə bu barədə bir cümlə deyim. Konstitusiyada müəyyən olunmuş bələdiyyələr düzgün və yaxşı şəkildə həyata keçsə, ölkəyə və xalqa çox faydalı olar. Şərti budur ki, yaxşı icra olunsun. Ümidvarıq ki, belə də olacaq. Xalq öz şəhər və kəndlərinin gündəlik işlərinin idarəsi üçün tanıdıqları bir şəxsi seçməyə adət etsələr, bu həm ölkənin inkişafına, həm də xalqın özünə aid vəzifələrilə tanış olmasına çox kömək edər.

**Bələdiyyə üzvləri**

"Düzgün icra olunsun" dedikdə, bu məsələdə iki mühüm mənaya diqqət yetirmək lazımdır: Biri budur ki, bu barədə qanunlar dəqiq öyrənilsin və qanun pozuntusuna yol verilməsin, zövq, meyl və istiqamətlər bu böyük və ümumi işin icra prosesinə təsir göstərməsin. İkinci məsələ isə vəzifəli şəxslərin öhdəsinə düşür. O da budur ki, xalqın seçimi məsləhəti düzgün təyinetmə əsasında baş tutur. Görün nə üçün bu şəxsi seçmək istəyirlər və bu iş üçün necə insan lazımdır. Elə adamlar seçsinlər ki, işi bacarmaqla yanaşı, həqiqətən, dindar, qayğıkeş və xalqın mənafeyini istəyən olsunlar. Bu işi özlərinə ad-san qazanmaq üçün vasitə edənləri seçməsinlər. Əgər kiminsə belə olduğunu hiss etsələr, yaxud onun haqqında belə şübhə yaransa, onun ardınca getməsinlər, tanıdıqları birisini seçsinlər. Biz özümüzü, övladlarımızı, yaxud qohumlarımızdan birini müalicə elətdirmək istədikdə tanıdığımız həkimin yanına gedirik. Bir-iki nəfərdən soruşub yaxşı həkim tapırıq. Bizim kiməsə tapşırmaq istədiyimiz məsələlərin hamısı həkimə müraciət etmək kimidir. İnsan bu işin öhdəsindən yaxşı gələcək, ən azı, nisbətən yaxşı gələcək bir şəxsin ardınca getməlidir. Gərək bunu meyar seçsinlər. Təqva, qağıkeşlik, riyakar olmamaq, bu işə özü üçün girişməmək və özünə bazar açmamaq meyarları mühümdür. Xalq qabiliyyətli insanları

seçməlidir. Deməli, iki xüsusiyyət var; biri hökumətin üzərinə düşür, biri isə xalqın. Əgər bunlar baş tutsa, seçkilər yaxşı keçəcək.

**Teokratiya və demokratiyanın uyğunlaşması**

Bizim fikrimizcə, xalq əsas amil və son söz sahibidir. İslam təfəkküründə allahçılıq (teokratiya) düşüncəsi ilə xalqçılıq (demokratiya) düşüncəsi arasında ziddiyyət yoxdur. Bunlar birgədirlər. Əvvəla, xalq dindar olmayınca, dinə bağlanmayınca ölkədə dini hökumət, dini cəmiyyət ümumiyyətlə, qurulmur. Buna görə də, bir ölkədə dini hakimiyyətin qurulması xalqın dindar olması deməkdir. Yəni xalq belə hakimiyyət istəyib. İslam Respublikası Allah hökmlərinə əsaslanır. “Dini hakimiyyət” sözünün mənası budur ki, xalqın onda heç bir rolu yoxdur?! Xeyr. Əgər xalq bir hakimlə beyət etməsə, onu istəməsə, hətta Əmirəlmömininin olsa belə, iş başına gəlməz. İslam Respublikasında xalqın rolu aydındır.

**Din hakimiyyətinin əsası**

Din təfəkküründə din hakimiyyəti, dinin nüfuzu və qüdrəti xalqa əsaslanır, xalqa söykənir. Xalq istəməsə, imanı, etiqadı olmasa, bu, baş verərmi?! Əgər Mədinə xalqı Peyğəmbəri istəməsəydilər, onu gözləməsəydilər, dəfələrlə yanına getməsəydilər, o, Mədinəyə gedib cəmiyyət qurardımı?! Peyğəmbər Mədinəni qılıncla almadı. Düzgün İslam fəthləri də belə olub. Fəthlərin hamısı düzgün baş tutmayıb. Bir dövrdə sultanların fəthlərinə bənzəyir. Düzgün İslam fəthlərində döyüşçülər İslamın yolundan bölgənin zalım hökumətindən ibarət maneəni götürürdülər. Xalq döyüşçüləri yaxşı qarşılayırdı. Həm qərbdə, həm şərqdə belə olub. Bu, bizim tarix kitablarımızda mövcuddur. Bu barədə çoxlu şirin və gözəl nümunələr var. Bura onların yeri deyil; kitablarda var, istəsəniz, gedin baxın. Buna əsasən, xalqın istəyi, iradəsi və imanı, hətta bundan da üstünü, onların duyğuları hakimiyyətin əsas şərtidir. Bu, İslamın baxışıdır. Biz də belə düşünürük.

**Hakimiyyətin legitimliyi**

İslam Respublikası konstitusiyasında bu məqam çox məntiqli və qanuni formada təsbit olunub. Bir fikri qanun şəklinə salıb icra mərhələsinə çıxarmaq, təbii ki, çətindir. Lakin bu, bizim konstitusiyamızda mümkün olan ən yaxşı tərzdə həll olunub. Konstitusiyada gücün bölünməsi məntiqli və düzgün şəkildədir. Bütün güc mərkəzləri də birbaşa, yaxud dolayısı ilə xalq tərəfindən seçilir. Təyin edən və qərar verən xalqdır. Xalq bir hakimiyyəti

istəməsə, o əslində, öz legitimliyini əldən vermiş sayılır. Xalq barədə bizim fikrimiz budur.

**Yaxşı hicab**

**Sual:** Mən öncə sizə ən səmimi hisslərimi təqdim etmək istəyirəm. Çoxdan mənə əziyyət verən dərdli bir sualım var. Dedim bəlkə siz ona cavab tapasınız. Bir zamanlar hicab növü haqda soruşurdular ki, yaxşı hicab hansıdır? Amma indi uzun müddətdir hicab növü və pis hicab problemi hicabsızlıq probleminə çevrilib. Məzhəbə zidd olan bəzi yeni düşüncələr çox fərasətlə yavaş-yavaş xalq arasında möhkəmlənir. Təəssüf ki, bunlar xalqın beynində çox dərin izlər buraxır. Mənim kimi bir tələbə, bəlkə də düşdüyüm şəraitdən dolayı şüara bənzəyən bu mədəni hücum sözü ilə daha çox tanış olmuşam. Lakin mənim fikrimcə, adi insanlar faciənin dərinliyini dərk edə bilməzlər. Yəni əslində, bu barədə maarifləndirmə aparılmır. Sizcə, bu məsələ barədə necə ciddi mübarizə aparmaq olar? Nə üçün cəmiyyətdə bu sahədə ciddi işlər görülmür? İllər uzunu böyüklərimizin bizə ötürməyə çalışdığı yaşıl inancları gənclərin ruhiyyəsində rəngarənglik və aktivlik yaratmaq bəhanəsilə sual altına salmaq və düzgün göstərmək olarmı?

**Cavab:** Bizim özümüzün iranlı çadramız həqiqətən, yaxşı hicabdır. Buna heç bir şübhə olmamalıdır. Əlbəttə, mən heç zaman deməmişəm ki, çadranı haradasa məcbur etsinlər. Amma həmişə demişəm ki, çadra iranlı hicabıdır, iranlı qadın bunu seçib və bu, yaxşı hicabdır, tamamilə örtüb qoruya bilir. İndi bəzilərinin iranlı və özümüzünkü olan hər bir şeydən acıqları gəlir, ürəkləri götürmür, özümüzünkü olmayanları istəyirlər. Hər halda, hicaba riayət etsələr, yenə də şəriət baxımından qanun pozuntusuna yol verməyiblər, lakin daha yaxşını əldən vermiş olarlar.

**Hicab mədəniyyətinin yayılması**

Necə mübarizə aparmağa gəldikdə isə, siz təbliğat aparmalısınız. Dediyiniz şəxslərin hicaba inamı sarsıtmaq üçün işlətdikləri vasitə və metoddan istifadə edin. Yəni hicab barədə tədqiqat aparın, fikirləşin, dini müzakirə aparın, yaxud aparılan müzakirələrdən istifadə edin. İctimai baxımdan da hicabın necəliyi barədə fikirləşin, öz baxışınızı yayın, fikrinizə düzgün gələni deyin. Onların gəlib xalqın ürəyində hicaba meyli aradan qaldırmaq istəmələrindən qorxmayın. Hicab məhv olmayacaq. Əlbəttə, əgər başının üstündə Rza xan kimi bir güc olsa, yaxud eşitdiyim qədərincə, Tunis kimi bəzi ölkələrdə heç kimin küçədə hicablı gəzmək hüququ olmasa, - burada ümumiyyətlə, insan hüquqları tapdanır. Onlar insanları hicabsızlığa

məcbur edirlər. Bu məsələlərlə məşğul olanlar da tamaşa edir və bir söz demirlər - onda Rza xan dövründəki hicabsızlıq məsələsi qarşıya çıxar. Lakin məcburiyyət götürülən kimi xalq yenə də hicaba qayıdar.

**Hicab fəlsəfəsi ilə tanışlıq**

Hicab insan təbiəti ilə uyğundur. Çılpaqlıq, ayrı-ayrı cinslərin bir-birinə qarışması və üryan edilməsi qeyri-təbii və insan xislətinə əks bir işdir. Müqəddəs İslam şəriəti də bunun üçün bəzi hədlər müəyyən edib. Etiqadlı və mömin olanlar hicabla belə rəftar edə bilməzlər. Kimlərsə xəbərsiz ola bilərlər; onları hicabla tanış etmək lazımdır. İnqilabın ilk illərində mənə tam aydın oldu ki, hicablı olmayan və hicabın dəyərini lazımınca anlamayan xanımların bəzisinin hicabın hökmündən, fəlsəfəsindən və faydalarından xəbərləri yoxdur. Yəni onlarla az danışılıb. Əlbəttə, bəziləri bir şeylər yazdılar, tövsiyə etdik, bəzi işlər görüldü. İndi də mənim fikrimcə, xüsusən universitet mühitində belədir. Allaha şükür olsun ki, eşitdiyimə görə, sizin universitetiniz yaxşıdır. Universitetin rəhbərləri də etiqadlı və ehtiyatlı insanlardır. Ümidvarıq zaman ötdükcə daha da yaxşılaşsın.

**Hicab, məntiq və qanun**

Öz universitetinizin mühiti və öz nəşriyyələriniz üçün ölkədə mövcud olan bir neçə qadın nəşriyyələri ilə və digər nəşriyyələrlə söhbət edin, bir şeylər yazın, yayımlayın, fikirləri cəmiyyətdə yayın. Lakin bunlar məntiqlə və arqumentlə olsun. Hicabı təmin etməyin ən yaxşı yolu məntiqlə çalışmaqdır. Əlbəttə, əgər bir şey qanunla müəyyən olunsa və kimsə onu pozsa, dövlət tədbir görə bilər. Bu, var. Eyni zamanda, fundamental surətdə lazım olan və hamısından çox əhəmiyyət kəsb edən budur ki, siz gənc qızları, xanımları hicabın əhəmiyyəti ilə tanış edin. Yəni ona başa salın ki, hicab həm şəriət, həm də məntiq baxımından budur. Hicaba riayət etməyin düzgün səbəbini onun zehnində möhkəmləndirin. Ümidvarıq inşallah, günbəgün yaxşılaşsın. Əlbəttə, bu sahədə mənfi amillərdən biri də Qərb həyat tərzini nümayiş etdirən bəzi filmlərdir. Bunlar xalqın hicab inancını sarsıtmaqda təsirsiz deyil. Bu filmlərin yayımına dair də tövsiyələr verilməlidir.

**Fəqih rəhbərin meyarlara əsaslanan vəzifəsi**

**Sual:** Mən öncə sizi salamlayır və bizə vaxt ayırdığınız üçün təşəkkürümü bildirirəm. Bu gün aktual mövzulardan biri sivil cəmiyyətdə və respublika quruluşunda "vilayəti-fəqih" - fəqihin rəhbərliyidir. Biz şahidik ki, bu barədə çoxlu kitablar yazılmışdır. Sizcə, fəqihin rəhbərliyi sivil

respublika cəmiyyəti ilə ziddiyyət təşkil edirmi? İkinci sual budur ki, fəqihin rəhbərliyi məsələsindən və sizin söhbətlərinizdən öz siyasi məqsədləri üçün istifadə edən şəxs və qruplar barədə nə düşünürsünüz?

**Cavab:** Sivil cəmiyyətin tərifi nədir? Sivil və mədəni cəmiyyət dedikdə məqsəd Peyğəmbər şəhərinin cəmiyyətidirsə, təbii ki, Peyğəmbər cəmiyyətində fəqihin rəhbərliyi bütün işlərin başındadır. Çünki Peyğəmbər şəhərində hakimiyyət din hakimiyyətidir. Fərihin rəhbərliyi də bir şəxsin vilayəti və rəhbərliyi deyil, bir sıra meyarların hakimiyyətidir. Bu meyarlar kimdə olsa, o, cəmiyyətdə fəqih rəhbər üçün müəyyən olunmuş işləri görmək səlahiyyəti əldə edir. Məncə, bu məqama diqqət yetirmək və bununla fəxr etmək lazımdır ki, dünyada bütün üsul-idarələrin əksinə olaraq, İslam quruluşunda fəqih rəhbər vəzifəsi meyarlara əsaslanır. O, bu meyarları əldən verdikdən sonra avtomatik olaraq rəhbərlikdən uzaqlaşır. Dini Ekspertlər Məclisinin vəzifəsi bunu təyin etməkdir. Təyin etsələr, bilirlər ki, daha fəqih rəhbərləri yoxdur. Rəhbərdə bu meyarların olmadığını görən kimi, bilirlər ki, daha fəqih rəhbərləri yoxdur, gərək başqa birini seçsinlər. Onu vəzifəsindən uzaqlaşdırmağa ehtiyac yoxdur, öz-özünə uzaqlaşır. Bizim fikrimizcə, bu çox mühüm məqamdır.

**Sivil cəmiyyət**

Sivil cəmiyyət ifadəsinə aydın tərif verilməyib. Bu, Qərbdən gəlmiş bir ifadədir. Bu söz Qərbdə işlənmiş bir ifadənin hərfi tərcüməsidir, bizdə olmayıb. Əlbəttə, onların məqsədləri başqadır və biz ümumiyyətlə, onu qəbul etmirik. Qərblilərin dediyi sivil cəmiyyət bizim meyarlarla əsla uyğun gəlmir, mədəniyyətimizlə də uzlaşmır. Lakin sivil cəmiyyət demokratik cəmiyyət mənasında, qanun və qaydaların hakim olduğu cəmiyyət mənasında olsa, bizdə qəbul olunur. Belə bir cəmiyyətdə fəqihin rəhbərliyinin öz qanuni yeri var. Yəni dolayısı ilə xalq tərəfindən seçilir. Meyarlar qalınca, o da vəzifəsində qalır. Meyarlar sıradan çıxan kimi o da vəzifəsindən kənarlaşır.

Siyasətləri təyin etməkdə fəqih rəhbərin rolu əsaslıdır, icrada isə əsla rolu yoxdur. Digər məsələlər də konstitusiyada müəyyənləşib. Bir də buyurdunuz ki, bizim sözlərimizdən sui-istifadə edirlər. Qurandan da çoxları sui-istifadə edirlər. Deyirsiniz nə edək? Sui-istifadə olunan ayələri pozaq?! İmam da vəsiyyətnaməsində yazıb ki, indi mən ola-ola mənə bəzi sözlər aid edirlər. Yəni onun sözlərindən sui-istifadə edirlər. Deyir ki, mənim ölümümdən sonra bu daha da çoxalacaq. O, vəsiyyətnaməsində bir növ həmin məsələni bəyan edir. Hər cür adam var. Lakin xoşbəxtlikdən, bizim əsas sözlərimiz xalqa dediyimiz sözlərdir, dörd divar arxasında kimlərəsə

dediklərimiz yox, tribunalarda söylədiyimiz və bütün ölkədə yayılan sözlər. Siz bu sözləri eşidirsiniz, xalq bunları eşidir, əgər kimsə sui-istifadə etsə, deyin ki, bu, sui-istifadədir. Bir nəfər bir məsələni yanlış anlasa və yanlış anlatmağa çalışsa, xalq başa düşəcək. Mənim fikrimcə, bunun özü böyük maneədir. Sui-istifadə edənlər həmişə var. Həmişə elələri var ki, hər bir şeydən - hədisdən, ayədən sui-istifadə etmələri mümkündür. Bu bizi çox nigaran etməməlidir. Əlbəttə, əgər kiminsə sui-istifadə etdiyini və necə sui-istifadə etdiyini anlasaq, qanuni yolla qarşısını almaq mümkün olsa, ondan əl çəkmərik. Bunu da bilin. Amma çox fərasətli olub bizə qanuni bəhanə verməsələr, qarışa bilmərik.

**Sual:** Təşəkkür edirəm ki, yenidən sizinlə görüşmək imkanı yarandı. Sizin də təsisçilərindən və idarə heyətinin üzvü olduğunuz Azad İslam Universitetinin təsis edilməsindən 16 il ötür. Özəl universitetlərin və Azad İslam Universitetinin əsasnaməsinə uyğun olaraq, idarə heyətinin, rektorluğun və həmçinin mədəni şuranın ona nəzarət haqqı var. Elə isə, bu universitetin maliyyə, təhsil və mədəni idarəçiliyində olan nöqsanları aradan qaldırmaq üçün nə etmək lazımdır?

Mən qısa şəkildə izah etmək istəirəm ki, ölkənin vahid ali təhsil sisteminə uyğun olmayan xüsusi siyasət və qaydaların icra olunması və bu zaman bəzən hətta universitetin əsasnaməsinin pozulması bu nöqsanların bariz nümunələrindəndir. Bu, digər ali təhsil mərkəzlərinə qarşı təxminən bağlı və toxunulmaz fikir formalaşdırmağa, bunun ardınca tələbələrin cəlb olunması və elmi imkanların yaradılmasında tələbə və universitetlər arasında ayrıseçkiliyə səbəb olur. Əsas özəl təhsil müəssisəsi sizin də təsisçilərindən və yaradıcılarından olduğunuz Azad İslam Universitetidir. Yəni mənim söhbətimin əsas məğzi dövlət və özəl ali təhsil mərkəzləri arasındakı fərqdən ibarətdir. Dediyim bu problem şəxsi problem deyil, digər tələbələrin də fikri belədir. Cənab Hacı Müizzi və digər cənablar da buradadırlar. Mən xahiş edirəm ki, bu məsələ üzərində ciddi araşdırma aparılsın. Bu problem tələbələri doğrudan da narahat edir. Təəssüf ki, etdiyimiz səylərin və dediyimiz sözlərin təxminən heç bir nəticəsi olmayıb. Sizcə, bu vəziyyətdən çıxmaq üçün nə etmək lazımdır?

**Cavab:** Dediyiniz bu çıxılmaz vəziyyətin xülasəsi nədir?

**Sual:** Problemlər var. Bir qədər şəffaflığın olmaması, bir qədər də mühit...

**Cavab:** Məgər qanun yoxdur?

**Sual:** Bəli, var. Mən də ona görə deyirəm.

**Cavab:** İndi rəsmidir...

**Sual:** Rəsmi olması, şübhəsiz ki, rəsmidir. Lakin Azad İslam Universiteti ilə dövlətin nəzdində olan digər universitetlər arasındakı mühit, imkan və şərait fərqləri bəzi xoşagəlməz nəticələrə səbəb olur. Bunun bariz nümunəsi birliklərin fəaliyyətinin, yaxud mədəni və siyasi fəaliyyətlərin növüdür. Bunlar əslində, çox da qanunauyğun deyil. Hətta əgər qanunlar olsa da, təəssüf ki, onlara tam əməl olunmur.

**Cavab:** Baxın, əzizim! Əgər Azad İslam Universiteti olmasaydı, siz gərək indi dərs oxumayaydınız. Bu, bir həqiqətdir. "Siz" deyəndə ümumilikdə hamını nəzərdə tuturam, yəni Azad İslam Universitetində təhsil alan yüz mindən artıq tələbəni. Dövlət universitetlərinin tutumu az idi. Biz möcüzə göstərib birdən-birə onların imkanlarını 200 mindən 400 min nəfərə çatdıra bilməzdik. Azad İslam Universiteti bunun üçün yaradıldı. Siz dediniz ki, mən onun təsisçilərindən və idarə heyətinin üzvüyəm. Xeyr, mən bəlkə 10-12 ildən artıqdır ki, idarə heyətinin bir iclasında da iştirak etməmişəm və indi də orada nə baş verdiyindən xəbərdar deyiləm. Bəli, əvvəldə bizim adımızı da elə-belə idarə heyətinə yazdılar. Mən ümumiyyətlə, xatırlamıram ki, əvvəldən idarə heyətinin bir, yaxud iki iclasında iştirak etmişəm, yoxsa yox. Buna görə də oranın siyasətini təyin etməkdə mənim rolum olmayıb. Əlbəttə, cənab Doktor Casibi həmişə bizimlə əlaqədə olub. İndi də bəzən buraya gəlir. Lakin universitet barədə bizim ona dediklərimiz yalnız tövsiyə xarakteri daşıyır.

Azad İslam Universiteti xalqın hesabına yaranıb. Məsələn, ucqar bir şəhərdə dövlətin universitet açmaq imkanı yox idi. Oranın camaatı özləri pul topladılar, kiçik bir bina tikdilər və universitet təsis olundu. Çox gözəl. Şübhəsiz ki, bu universitetin təhsil mühiti, laboratoriyalar və digər imkanlar baxımından həqiqi bir universitetə xas imkanları yox idi. Lakin heçdən yaxşı idi. Məsələyə belə baxmaq lazımdır. Mən arzu edirəm ki, bir gün bizim universitetlərimiz - istər dövlət, istər özəl universitetlərimiz elə bir həddə çatsın ki, tələbə orada imkanlar içində qərq olsun. Biz bunun üçün doğrudan da çalışmalıyıq. Bu gün bizim dövlət universitetlərimizin tələbələrinin də çox imkanları yoxdur. Bir neçə gün bundan qabaq burada əz-Zəhra universiteti haqqında söhbət gedirdi. Bizim dövlət universitetlərmizin çoxunun, o cümlədən bu universitetin imkan, mühit və digər şəraitlər baxımından nə qədər problemi var. Digər universitetlərin çoxu da belədir. Bu, bir həqiqətdir. Bu problemlər aradan qaldırılmalıdır. Yavaş-yavaş bunları həll etmək lazımdır. Azad Universitet də həmçinin. Onun da imkanları azdır. Əlbəttə, son zamanlar Tehranın qərbində bir yer alıblar. Biz səhərlər idman üçün

bəzən dağa gedirik. Bir dəfə gedib oranı gördük. Çox geniş bir yer hazırlayıblar. Bu imkanlar sizin ixtiyarınızda olacaq. Tehranda dərs oxuyan sizlər bilmirəm o mühitdən istifadə edirsiniz, yoxsa yox. Hər halda, Azad Universitetin günbəgün inkişaf etməsi və genişlənməsi görünür.

Qərəzli yox, qayğıkeş insanlar tərəfindən özəl Azad Universitetlə bağlı ciddi bir müxalifət var. İddia edirlər ki, bizim müəllimlərimiz azdır. Azad Universitet müəllimləri götürür, onların vaxtı dolur və bizim işimizə kömək edə bilmirlər. Bunu belə şəxslər deyirlər. Bunu Azad Universitet açılan zamandan deyirdilər. Əlbəttə, bir neçə ildir bu sözü az eşidirik. Deyəsən, indi müəllim çoxalıb. Lakin hər halda, belə iradlar var. Həqiqət budur ki, bu universitet dövlət universitetləri ilə bərabər tələbə cəlb edə bilib. Bu, çox yaxşı bir şeydir. Əgər bu olmasaydı, siz tam orta məktəb səviyyəsində qalmağa və ona uyğun iş dalınca getməyə məcbur olacaqdınız. Amma indi bir ixtisaslı iş axtarırsınız. Hər halda, sizə faydalı olub. Əlbəttə, eyiblər aradan qaldırılmalıdır. Mən indi sizdən istəyirəm ki, doğrudan da dəqiq, istinadlı və rəqəmlərə dayanan məlumatınız varsa, mənə verin. Mən dəftərxanaya verib deyəcəyəm ki, aidiyyətli şəxslərlə söhbət etsinlər, onlar da ya cavab versinlər, ya da nöqsan varsa, aradan qaldırılsın.

**Tənqidin mənası**

**Sual:** Dostlar mənim üçün təhlükəli sual ayırıblar. Sual ölkənin bütün qurumlarını, quruluşun bütün məmurlarını, o cümlədən rəhbəri tənqid emtək barədədir. İmam Əlidən (ə) nəql olunan bir hədisdə deyilir: "Mənim səhvlərimi deyin. Mən səhv etməyəcək qədər uca deyiləm". Hər halda, bu gün inqilabın qələbəsindən 20 il ötdükdən sonra bu inqilabda, İslam Respublikasında böyüyən və inkişaf edən gənclər elə bir həddə çatıblar ki, sual verə bilir, tənqidi yanaşmağı sevirlər. Çünki gəncin ruhiyyəsi inqilabçı ruhiyyədir. Mütəfəkkirlərin biri deyir: “Əgər gənc öz gənclik dövründə inqilabçı olmasa, ölüdür”. Lakin bəzi mənfi yanaşmalara görə, gənclər İslam Respublikasına və onun vəzifəli şəxslərinə dair sual verməyə qorxurlar. Keçmiş hadisələr və quruluşun arxada qoyduğu 20 il barədə çoxlu suallar var. Onun bir həddini biz gördük, bir həddini daha böyüklər görüb bizə danışıblar. Məsələn, konstitusiyanın prinsiplərindən biri 20 il eləcə qalıb, onun qarşısında sükut olunub və heç bir iş görülməyib. Köməksizlər fondu belə görünür ki, heç kimə cavabdeh deyil və xalq orada görülən işlər barədə heç vaxt məlumatlandırılmır. Teleradio verilişləri şirkəti xəbərləri müəyyən həddə təhrif edir və düzgün xəbərləri xalqa çatdırmır. Təhlükəsizlik nazirliyinin işi elə bir həddə çatıb ki, casusluqdan və ondan-bundan

xəbərçilikdən başqa, bir qrupu da adam öldürməklə məşğuldur. Ali Məhkəmənin də söhbəti öz yerində. Özlərinin elan etdikləri və qəzetlərdə çap olunan statistikaya əsasən, hər beş iranlıdan birinin işi məhkəmədədir. Yəni Ali Məhkəmədə 11 milyondan artıq qovluq var. Bəzi qanunlar insanın əlini-ayağını bağlayır. Son qətllər zamanı bunun nümunəsini gördük. Bu qanunlardan biri odur ki, qatil məhkəmədə öz şəriət vəzifəsinə əməl edərək qətl törətdiyini sübuta yetirsə, ona qisas hökmü icra olunmur.

Mərkəzi Bankın qəbul etdiyi bəzi qərarlar, dostların toxunduğu ictimai ədalət, İqtisadi işlər nazirliyinin parlamentə verdiyi və orada qəbul olunan layihələr, iki büdcə hadisəsi, bu il parlamentdə qəbul olunan qanunlar, Pars neftinin 21 milyard dollara satılması, barəsində qalmaqal çıxan və alimlərin qiyam etdiyi müqaviləyə bənzər bir halın meydana gəlməsi və cəmiyyətdəki sair bu kimi nöqsanları gənclər hiss edirlər. Bu gün İslam cəmiyyətində biz geriyə qayıdışın şahidi oluruq və sanki keçmiş prosesləri keçirik.

"Quruculuq dövrü" deyilən məsələyə dair də çox sözümüz var. Dostumuzun toxunduğu kimi, bu dövrdə universitetlər təxminən qeyri-elmi oldular, təcrid edildilər və siyasətdən uzaqlaşdırıldılar. Digər tərəfdən, ümumiyyətlə, ekspert üsullarına dayanmayan bəndlər tikilib, stansiyalar quraşdırılıb. Bənd bu gün elektrik enerjisi və hətta suvarmaq üçün dünyada sıradan çıxmış bir sənaye texnologiyasıdır. Lakin quruculuq öncülləri çoxlu bənd tikmələri ilə fəxr edirlər. Bizim inqilabımızda xarabalıqlarda yaşayanlar əsas müdafiəçilər idilər. İmam deyirdi ki, bizim inqilabımızı xarabalıqlarda yaşayanlar etdilər. İndi onların İslam Respublikası quruluşunda nə kimi rollarının olduğunu bilmirik, amma bilirik ki, Tehran şəhərinin cənubunda və hətta şimalında, bəzi yerlərdə hələ də bu xarabalıqlardan var, insanlar fəlakət və bədbəxtlik içində yaşayırlar.

Bu mənim və bir çoxlarının beynində olan tənqidlərdir. Biz soruşmaq istəyirik ki, bir nəfər cavabdeh olsun və cavab versin ki, biz niyə belə olduq. Nə üçün 20 ildən sonra hələ də buğda idxal etməkdə dünya üzrə birinciyik? 20 ildən sonra nə üçün bizim 30 milyard dollar xarici borcumuz olmalıdır? Quruluşun möhkəmlik mərhələsinə çatdığı 20 ildən sonra nə üçün müxtəlif ölkələr asanlıqla bizim sərhədlərimizə hücum edə bilməlidirlər: şərqdən Əfqanıstan, qərbdən İraq, cənubdan ABŞ? Bu onu göstərir ki, ölkə sərhədlərində lazımi sabitlik yoxdur.

Xalqı birinci və ikinci dərəcəli vətəndaşa böldükləri kimi, tənqidləri də dağıdıcı və qurucu tənqidlərə bölüblər. Bu, cəmiyyətin böyük bir hissəsinə güclü zərbə vurdu və bizim fikrimizcə, xüsusi bir təbəqənin hakimiyyəti ələ keçirməsinə bais oldu. Burada ortaya çıxan sual budur ki, sizcə, tənqidləri və

xüsusən tənqidçiləri sıradan çıxarmaq, sualları dağıdıcı və qurucu qisimlərinə bölmək quruluşun dağılmasına səbəb olmazmi? Əgər bu təfəkkürə sahib deyilsinizsə və müti yetişdirmək istəmirsinizsə, tənqid mühiti yaratmaq və bu mədəniyyəti inkişaf etdirmək üçün hansı işlər görmüsünüz və görürsünüz?

**Cavab:** Çox gözəl. Baxın, tənqidin mənası nədir? Tənqidin mənası eyib axtarmaqdırsa, bu nə yaxşı bir şeydir, nə böyük məharət, nə də çoxlu məlumat tələb edir. İnsan məlumatı olmadan daha yaxşı tənqid edə bilər. Necə ki, sizin burada dediyiniz sözlərin çoxu ümumiyyətlə, düzgün deyil. Məlumdur ki, məlumatınız zəifdir. Əlbəttə, bu sahədə bizim informasiya nöqsanımız var. Məsələn, Pars neftinə dair dedikləriniz elə deyil. Ölkənin borcu haqda dediyiniz də belə deyil. Bənd məsələsində dedikləriniz, ümumiyyətlə, düzgün deyil. Sizin zehninizdə yanlış məlumatlar var.

Baxın, əziz tələbə. Eyib axtarmaq mənasında olan tənqiddə heç bir yaxşılıq yoxdur. Siz oturun məndən eyib axtarın, mən də oturum sizdən eyib axtarım. Bunun nə faydası var? Tənqid əyarı ölçmək deməkdir. Yəni insan yaxşı bir şeyə baxsın ki, yaxşıdır, yaxud yaxşını yaxşı görsün, pisi pis. Əgər belə olsa, o zaman yaxşı məqamları gördükdə pis məqamlarla müqayisə edəcək. Və sonra baxmaq lazımdır ki, bu müqayisədən nə çıxır.

### Rəhbərdə eyib axatarmaq

Dediniz ki, sizin ölkənin nə hökuməti var, nə iqtisadiyyatı, nə sərhədi, nə təhlükəsizliyi, nə nazirliyi, nə rəhbərliyi; heç bir şeyi yoxdur. Belə deyil. Bu, həqiqətin tam əksinədir. Baxın, bu gün ölkənin idarəsi, gənclərin iştirakı, sizin dediyiniz tənqidi mühit baxımından bizim vəziyyətimiz necədir? İndi qəzetlər çap olunur, hamını da tənqid edirlər. Siz deyirsiniz ki, niyə rəhbəri tənqid etmirlər. Əvvəla, rəhbərdən eyib axtarmağın məgər nəyi yaxşıdır? İslam Respublikası quruluşunda təhlükəli və həssas anda bir işarəsi xalqı ayağa qaldıran bir rəhbəri bir nəfərin öz meylilə nahaq yerə və səbəbsiz pisləməsi uyğundurmu?! Sizcə bu, çox yaxşı işdir?! Bu, pis işdir.

### Rəhbər və orqanlar

Sizin buyurduğunuz Teleradio verilişləri şirkətinə, Ali Məhkəməyə və Köməksizlər fonduna gəlincə isə, qəzetlər həmişə yazırlar. Bunun da eybi yoxdur. Teleradio verilişləri şirkətinin rəisi rəhbər deyil ki. Rəhbər onun rəisini təyin edir. Rəhbərdən soruşulası sual budur ki, siz bu vəzifəyə bundan yaxşı adam tapmadınız, yoxsa yoxunuzdur? Rəhbər də cavab verməlidir. Amma nə üçün filan proqramı var, nə üçün filan xəbəri təhrif edir, yaxud

filan edir - bu, rəhbərdən soruşulmur. Yəni heç bir qanuna, qərara, məntiqə görə rəhbərdən soruşulmamalıdır. Əlbəttə, mən sualı sizə qadağan etmirəm. Çünki mənim özüm danışmaqdan, sual və tənqid eşitməkdən başı ağrıyan adamam. Heç vaxt da narahat olmuram. İndi sizinlə keçirdiyimiz bu toplantıdan çox olur. Düzdür, çox vaxt qeyri-gənclərlə olur, bəzən də gənclərlə. İnsanlar bura gəlib danışırlar, sual verirlər, öz fikirlərini bəyan edirlər, eyib-iradlarını bildirirlər, məktub yazırlar, zəng vururlar. Mənə də xəbərləri çatır. Amma bilin ki, eyib axtarmaq mənasında olan tənqid dəyər deyil ki, cəmiyyətdə olmadığına görə narahat olaq. Əlbəttə, bu var. Təəssüf ki, qeyri-məntiqi formasında da var. Tənqid budur ki, hər bir insan oturub əyar ölçsün, görsün ki, mənfi məqam haradadır, müsbət məqam harada. Sonra səbəbini tapa bilirsə, görsün ki, bu mənfi məqam nədən irəli gəlir. Onun kökünə diqqət yetirsin, əsl səbəbini tapsın. Bu iş düzgündür. İnsanın gəncdən gözlədiyi də budur. Hansı ki siyasi cinahlar bunu etmirlər. Siyasi cinahlar birdəfəyə qəliblənmiş, xətt çəkilmiş şəkildə, araşdırmadan işləyirlər. Mənim sizin hamınıza tövsiyəm budur ki, birinci dərəcədə gənclik paklığınızı, ikinci dərəcədə tələbəlik paklığınızı üç-dörd nəfərin bir yerə toplaşıb özləri üçün bir maraq tərif etdikləri və bəzən ölkənin mənafeyilə heç bir əlaqəsi olmayan məqsəd və xəyallarına qurban verməyin.

**Azad cəmiyyət**

Bu gün cəmiyyət azaddır. Xalq danışa, sözünü deyə bilir. Əsas və təməl prinsip olan fəqihin rəhbərliyi barədə də danışır. Siz görün bu haqda nə qədər yazılıb. Yazanların hamısı müdafiə etməyib. Vilayət prinsipini kökündən inkar edən bir nəfər bir kitab yazdı, icazə aldı, çap etdirdi, hər yerə də yaydı. Lakin yazılan cavablar çox güclü olduğundan geri çəkildi. Yazdı ki, vilayət məsumlarda da yoxdur. Niyə? Çünki vilayət qəyyumluq deməkdir. Kimə qəyyumluqdan söhbət gedir? Uşağa, tərk edilmişə, deməli, xalq atılmış, tərk edilmişdir. Yəni elmsizlikdən, məsələni tam bilməməkdən irəli gələn aydın bir təhrif baş verdi. Amma onu elmi formada ortaya qoydular. Heç kim də onlara mane olmadı. O cənab indi də Tehranda yaşayır. Heç kim soruşmadı ki, niyə yazdın. Bəs bu cəmiyyət azad deyil?! Bu ölkə azad deyil?! Burada söz və fikir azadlığı yoxdur?! Bəs fikir azadlığı nədir?! Mütləq üç-dörd nəfər gəlib heç bir dəlilə, məntiqə istinad etmədən üç-dörd nəfərə söyüş söyməlidir ki, mənası azadlıq olsun?! Bu, çox yaxşı haldır?!

Mən "gənclərin təhlil qüvvəsi olsun" deyəndə bunu nəzərdə tuturam. Ehtiyatlı olun ki, mənasız sözlərin tələsinə düşməyəsiniz. İnsanın bir şeyi öz zehnində bir-birinin arxasınca fırlatması çox da yaxşı hal deyil. Həqiqətən,

ürəyinizi razı və zehninizi qane edəcək düzgün məsələnin arxasınca gedin. Bəli, biz cəmiyyəti azad bilirik. Qızılın xalisliyini ölçmək mənasında olan azadlığı çox yaxşı iş hesab edirik. Mən bununla müvafiqəm. Lakin insanlara qarşı iftira yağdırmaqla əsla razı deyiləm.

**Açıq tənqid**

Bu gün ölkənin yüksək vəzifəli məmurlarının bütün işlərini tam təsdiq etmirəm. Çoxlu iradım var. Xüsusi iclaslarda, məktub şəklində, yaxud sifarişlə onlara bildirirəm. Yəni işlərində olan nöqsanları onlara deyirik. Lakin açıq şəkildə hansısa məmuru tənqid etmək məsləhət və düzgün deyil.

**Məsləhət və həqiqət**

Bəziləri elə düşünürlər ki, məsləhət həqiqətin qarşısındadır. Halbuki məsləhətin özü də bir həqiqətdir; həqiqətin də məsləhət olduğu kimi. Ümumiyyətlə, həqiqət və məsləhət bir-birindən ayrılmırlar. Gümana dayanan və şəxsi məsləhətlər pisdir. Məsləhət şəxsi olmadıqda, xalqın və ölkənin məsləhət və maraqları orataya çıxdıqda, müqəddəs, yaxşı və əziz bir şey olur. Biz nə üçün ondan qaçmalıyıq?! Buna görə də, mən bunu həqiqətən, məsləhət bilmirəm. Söz yox ki, indi bu iş açıq-aşkar şəkildə görülür. Qalxıb deyirlər ki, parlament buraxılmalıdır. Bu söz qanuna zidd və yanlış sözdür. Parlament nə üçün buraxılmalıdır? Necə olub, seçkiləri saxtalaşdırılıbmı? Kimsə zorla parlamentə gəlibmi? Kimsə kiminsə fərmanı iləmi parlamentə gəlib? Parlament nə üçün buraxılmalıdır? Siz bu sözləri tənqid etməlisiniz. Qızılın əyarını ölçmək mənasında olan tənqid budur. Görün bu sözün əyarı nə qədərdir.

**Əməl meydanı**

Bugünkü Ali Məhkəmə 10 il, 15 il bundan qabaqkından pis deyil. Əminəm ki, bəzi cəhətlərdən hətta yaxşıdır da. Sizin bilmədiyiniz, amma mənim xəbərdar olduğum çoxlu nöqsanlar da var. Danışmaq və uzaqdan məsələlər haqqında mühakimə yürütmək asandır. Lakin meydana atılmaq və işə girişmək çətindir. İnsan öz xəyalında dünyanı çox abadlaşdırır, ideal ölkə qurur. Lakin işi əlinə alıb nə qədər çətin olduğunu görəndə vəziyyət dəyişir. İnsanlar elektrik alətləri deyillər ki, bir düyməni vuran kimi 10 aparat işləməyə başlasın. Hər bir insanın iradəsi var. Siz, məsələn, İqtisadiyyat nazirliyinin, Mərkəzi Bankın adını çəkdiniz. Bilirsiniz ki, bir iş görmək istədikdə ən başdakından aşağıya qədər bəlkə də on vasitədən ibarət bir sıra var: siyasəti təyin edən var, nazir var, müavin var, Baş idarə rəisi var, idarə

rəisi var və nəhayət, axırda növbə işi icra etmək istəyən adama çatır. Onların hər birinin iradəsi var. Hər bir iradə də bir təfəkkürə, bir dünyagörüşə, istəklərə, əxlaqa, maraq və zərərlər məcmusuna bağlıdır. Bir müdirin bütün bunları nəzarət altında saxlaması və səhvə mane olması çox çətin işdir. Bəli, bu iş lazımdır. Mən həmişə onlara bunu tövsiyə edirəm. Amma bu heç də asan deyil. İnsan işə başlayıb çətinliyi gördükdə çox nöqsanları üzrlü hesab edir.

**Düzgün mühakimə**

Mən təxminən iyirmi il icra işlərində çalışmışam. İndi rəhbərliyimin qanuni vəzifəsi icra işləri olmasa da, bəzi icra işləri, məsələn, silahlı qüvvələrə aid məsələlər və sair işlər öz-özlüyündə mənə bağlıdır. Buna görə də, mənim icra təcrübəm davam edir. Səkkiz il prezident olmuşam. Ondan əvvəl də İnqilab Şurasında dövlət işlərini yerinə yetirmişəm. İnsan bir məmura irad bildirəndə bütün maneələri nəzərə almalıdır. Baxmaq lazımdır ki, bütün bunları nəzərə aldıqdan sonra səhlənkarlıq edib, yoxsa yox. Əgər səhlənkarlıq edibsə, ona göz yummaq olmaz. Mənim fikrim budur. Mənim birbaşa səlahiyyətimə aid məsələlər də belə olur. Mən kimdənsə səhlənkarlıq görsəm, onun təqsirli olduğunu anlasam, güzəştə getmərəm. Yüksək məmurlara da həmişə sifariş edir və deyirəm ki, belə halda göz yummayın. Dəfələrlə cənab nazirlərə və digər məmurlara demişəm ki, öz tabeliyiniz altında olanları nəzarətdə saxlaya bilməsəniz və nöqsanları görməsəniz, daha gileylənə bilməzsiniz ki, nə üçün dedilər. Təbii ki, deyəcəklər.

İş həqiqətən, çətindir. Mən əminəm ki, siz indi bu mühitdə rahat və arxayın şəkildə dərs oxuyursunuz. Nə öhdənizdə bir məsuliyyət var, nə kimsə sizdən bir iş istəyir. İşiniz yalnız dərs oxumaq, bəzən bir qədər danışmaq, öyrənmək və öyrətməkdir. Bir gün bu meydana atılacaq və onda bu sözlərin doğruluğuna inanacaqsınız. Etiraf edəcəksiniz ki, belə deyil. Tənqid edənlər çoxdur, amma insan onların özlərini bir vəzifəyə təyin edəndə görür ki, onlarda da nöqsan var; o nöqsan yoxdursa, başqa bir nöqsan var. Bu onu göstərir ki, hər halda, qüsurlar var.

**Sərhədlərin təhlükəsizliyi**

Ölkəmizin vəziyyətinə gəlincə isə, əsla siz deyən kimi deyil. Bizim ölkəmizin vəziyyəti təhlükəsizlik baxımından istisnasız olaraq bütün qonşu ölkələrdən dəfələrlə yaxşıdır. Bizim sərhədlərimiz möhkəmdir. Siz deyirsiniz ətrafdan bizə hücum edirlər. Hansı hücum? Ağılsız bir nəfər hücum etdi. Əlbəttə, o da özü olsaydı, əsla hücum etməzdi. Səddam tək olduğunu

bilsəydi, heç zaman hücum etməyə cürət göstərməzdi. Ona ürək-dirək verdilər, arxasında dayandılar, həvəsləndirdilər. Mən bilmirəm ki, siz bunları bilirsiniz, yoxsa yox. Mən bilirəm, yaxından xəbərim var. Müharibə boyunca bizə çox məxfi informasiyalar çatırdı ki, bəzi ölkə başçıları Səddamla xüsusi söhbətlər edib, tapşırıqlar veriblər. Düzdür, bəziləri də deyirdilər ki, etmə. Onu bu işdən çəkindirənlər də bizdən ötrü yox, onun özündən ötrü bunu edirdilər. Deyirdilər ki, bu sənin üçün təhlükəlidir. Bizim bundan da xəbərimiz var. Bəziləri də onu aslan kimi həvəsləndirdilər, kömək etdilər, imkan yaratdılar.

**Məcburi müharibənin səbəbi**

Ərəb ölkələri, arxalarında ABŞ olmaqla, uzun illər ona sursat göndərdilər. Bundan ötrü yox ki, biz hansısa pis bir iş görmüşdük. Eşitmişəm ki, ətrafda bəzi insanlar deyirlər ki, İslam Respublikası gərək kiməsə hücum bəhanəsi verən bir iş görməsin. Biz doğrudan da bir iş görməmişdik. Bizim böyük günahımız bu idi ki, şah diktaturasını devirmiş, sonra da asılı olmaq istəməmişdik.

**ABŞ-la razılaşmaq?!**

İnqilabın əvvəlində iş başında olan cənablar belə düşünürdülər ki, ABŞ-la razılaşmalıyıq, bundan başqa yolumuz yoxdur. Əlbəttə, indi bu sözü deməkdən çəkinmirlər, amma o zaman çox açıq danışmırdılar. Bəzi müzakirələrindən bəlli olurdu ki, fikirləri belədir. Yəni biz ABŞ-a bağlanmasaq, məmləkətin işləri yolunda getməyəcək. ABŞ-a bağlanmaq nə deməkdir? Yəni ABŞ-ın ölkəyə ayağını açmaq və onun qüdrətini, nüfuzunu arzulamaq. Birinci gün az, ikinci gün bir qədər artıq və getdikcə daha çox; yəni məmləkəti yenidən amerikalılara vermək. Bəs biz nə üçün inqilab etdik?! Nə üçün bu qədər adam öldürüldü?! Bu baxımdan, biz bir günah etməmişdik ki, deyək İraq bizim günahımıza görə hücum etdi. Hücum bundan ötrü idi ki, müstəqil bir İslam hakimiyyəti qurulmuşdu. İslam dünyasında, İraqın özündə, ərəb və müsəlman ölkələrində oyanış dalğası baş qaldırdı. Onların hamısı hiss etdi ki, İslam oyanışı onlara da son qoya bilər, buna görə birləşdilər. Başqa sözlə desək, bizdə olan bir müsbət cəhətə görə bizə hücum etdilər, onlarda olan mənfi cəhətə görə yox. Sonra da 7 il təzyiq göstərib bütün bu böyük enerjini xərclədilər. Lakin İranın bir qarış torpağını belə bizdən ala bilmədilər. Onlar istəyirdilər ən azı bütün Xuzistanı alsınlar. Əvvəldə deyirdilər ki, Tehrana qədər gedəcəyik, amma əgər təkcə Xuzistanı da alsaydılar, bəs idi. Məgər bu azdır?!

**Qeyrətli xalq**

Siz bilirsiniz ki, ölkənin gəncləri bu 8 ildə nə etdilər. İndi beləcə oturub deyirsiniz ki, bizim təhlükəsizliyimiz yoxdur. Əgər bu ölkəyə bir hücum olsa, mən bilmirəm siz cəbhəyə gedəcəksiniz, yoxsa yox. Amma bilin ki, bu xalq və bu ölkənin gəncləri yenə də gedəcəklər, yenə də müdafiə edib İslama və ölkənin ərazibütövlüyünə zərər toxunmasına qoymayacaqlar. Bu ondan ötrüdür ki, bu gün vəzifəli şəxslər arasında xalqın içindən çıxmayan bir kəs yoxdur.

**Vəzifəli şəxslərin xalqdan olması**

Mən özüm fəxr edirəm ki, yaşayışım xalqın yaşayışı kimidir və vəziyyətim Məşhəddə yaşadığım dövrlə fərqlənməyib. Ölkənin vəzifəli məmurları da az-çox xalqdandırlar, xalqın ağrılarını bilirlər, xalqın istəklərindən xəbərdardırlar. Bəziləri doğrudan ürək yandırırlar, bəziləri isə bayaq toxunduqları kimi, bəzi sahələrdə bir qədər laqeyddirlər. Düzdür, bu, eyibdir və buna çarə qılmaq lazımdır ki, bu xərçəng yayılmasın. Əvvəldən onun yayılmasının qarşısını almaq lazımdır; ya kimyəvi dərmanlarla, ya da çarəsiz halda cərrahiyyə əməliyyatı ilə.

**Məntiqsiz yekun**

Hal-hazırda ölkənin təhlükəsizlik vəziyyəti yaxşıdır. Elə bilirsiniz ki, dünyanın təhlükəsizlik xidmətlərində bu işlərdən baş vermir və bunlar təkcə İranda mövcuddur?! Bu işlər hər yerdə var. Azadlıq və demokratiyadan dəm vuran ölkələr də bu məsələrlə doludur. İndi 2-3 yaramaz peyda olub bir iş görübsə, bunu bütün təşkilatın hesabına yazmayın. Əlbəttə, bunu bilin, mən birinci gün dedim, aparılan təhqiqatlar da göstərir ki, məsələ Təhlükəsizlik nazirliyinin hüdudunda qalmayacaq, ümidvarıq tezliklə daha aydınlaşacaq. Bunun bir başı mütləq bayırda olmalıdır. Mən ilk gün deyəndə bəziləri inkar edirdilər, amma indi bizə məlumatlar çatır və bu fikir güclənir ki, bu iş bizim təhlükəsizlik orqanlarımızdan bayırdakı xarici kəşfiyyatlarla əlaqəsiz deyil. Bu işləri görən düşməndir.

İngiltərə kəşfiyyatının İntellegent aparatının Mİ-6 bölməsində ən yüksək rütbəli şəxsiyyətlərdən biri SSRİ-nin casusu idi. Bu haqda kitab yazıblar, fars dilinə də çevrilib. Mən bir dəfə də bunu demişəm. Yaxud bu yaxınlarda ABŞ-da yüksək rütbəli məmurlardan birini tutdular. O, Rusiyanın casusu idi. Belə hadisələr baş verir.

**Gizli rəislər**

Hər halda, bəzi məsələlərə dair fikirlərinizi mütləq islah edin. Deməyin ki, Təhlükəsizlik nazirliyinin casusluqdan başqa bir işi yoxdur. Təhlükəsizlik nazirliyinin xalq arasında casusluqdan başqa bir işi varmı?! İşi budur. Siz nə üçün gileylənirsiniz? Təhlükəsizlik nazirliyi sizin yanınıza getmir, dostların yanına getmir. Axtarır, düşmən olsa, onu tapır. Məgər bu, pisdir?! Bu, pis işdir ki, adını casusluq qoyursunuz?! Xəbər gətirib-aparmaq Təhlükəsizlik nazirliyinin eyiblərindəndir?! Təbii ki, xəbər gətirib-aparmalıdır. Bundan başqa bir iş görsəydi, etirazımızı bildirib tənqid edərdik. Bizim iradımız budur ki, Təhlükəsizlik nazirliyi bu sahələrdə bir qədər zəif çalışır. Daha güclü çalışmaq lazımdır. Bəli, bu irad düzgündür. Cəmiyyətdə müxtəlif qruplar, gizli rəislər, çox təhlükəli adamlar var. Təhlükəsizlik nazirliyi onları tapıb cəzalandırmalıdır.

**Sual:** Mən sizdən üzr istəyirəm. Əgər icazə versəniz, onun sualı barədə bir məqama toxunmaq istəyirəm. Dostumuz söhbətlərinin əvvəlində dedi ki, bu sual hamı tərəfindən ona verilib. Amma deməliyəm ki, bizim heç birimiz bu qədər sərt sualla müvafiq deyilik.

**Cavab:** Mən ondan incimirəm. Belə güman etməyin. Bunun heç bir eybi yoxdur. Əgər razılaşdırılmamışdısa da, hər halda, bilin ki, mən narahat deyiləm. Əgər narahat oldumsa da, bundan ötrüdür ki, nə üçün bir nəfər bu məsələdə yanlış fikirləşir.

**Sual:** Mən əvvəldə dostlardan üzr istəyirəm. Çünki indi deyəcəklərim planlaşdırılmayıb. Lakin bu gün qarşıma çıxan bir məsələ ilə bağlı gördüyümü demək istəyirəm. Düşünürəm ki, sizin eyib axtarmaq adlandırdığınız məsələlərin çoxu bizim üçün yaranan şübhələrdən irəli gəlir. Bu da informasiya çatışmazlığı ilə əlaqədardır. Misal olaraq, özüm üçün meydana çıxan bir şübhəni deyirəm. Biz vaxtın azlığına və sualların çoxluğuna görə bu gün səhərdən oturub söhbət etdik ki, mövzuları təyin edək. Sualları müəyyən etdik ki, söhbət daha nizamlı olsun, biz daha yaxşı bəhrələnə bilək. Bura gələndə suallar da müəyyən olunmuşdu və şəxslər də, amma oturduqda, sizin yanınıza gəlməzdən əvvəl, adını çəkmək istəmədiyim bir nəfər bir kağız gətirdi. Bu kağızın üzərinə sual vermək üçün mövzular yazılmışdı. Dedilər ki, bunu mütləq birinci sual kimi soruşun. Sizdən soruşulan ilk sual o idi.

**Cavab:** Sual nə idi?

**Sual:** Bələdiyyənin təbliğatı barədə idi.

**Cavab:** Bu sizin sualınız deyildi?

**Sual:** Toplantıda qəbul olunmamışdı.

**Cavab:** Hər halda, siz sualdan zərər görmədiniz.

**Sual:** Düşünürəm ki, burada bu işə reaksiya verməyən qrupda qüsur var. Biz düşünürük ki, hər halda, burada qanunlara daha artıq riayət olunsun. Əgər kənardan sual hazırlayıb versələr, biz öz suallarımızı verməyə macal tapmayacağıq.

**Cavab:** İndi mən sizin hamınızdan soruşuram: Onun dediyi sual sizin heç birinizin deyildi?

(İştirakçıların sükutu)

**Sual:** Səhər bu dostların hamısı orada idi. İclasda Hacı ağa Ələmülhüda və digərləri də iştirak edirdilər. Söhbət belə oldu ki, sizə sual vermək azaddır və heç bir problem yoxdur. Belə qərara gəldik ki, dostların özləri bəzi mövzuları hazırlasınlar. Bütün suallar deyildi və mövzular müəyyən edildi. Biz mövzuları qeyd etdik, sonra səsə qoyuldu və bu sualların verilməsi dostlar tərəfindən qəbul olundu.

**Sual:** Bağışlayın ki, mən sözünüzü kəsirəm. Mən öz gözlərimlə gördüm ki, suallar kompüterdə yığılmış vəziyyətdə idi və bu sual verilməməliydi. Mən öz fikrimi bildirdim. Ümumiyyətlə, sualların nümayəndəlik tərəfindən verilməsinə dair şübhə yaratmaq istəmirəm.

**Cavab:** İndi siz bu sualın verilməsinə etiraz edirsiniz?

**Sual:** Söhbət tənqiddən gedir, biz də tənqid edirik.

**Cavab:** Çox gözəl. Çox da mühüm məsələ deyil. Əlbəttə, daha yaxşısı budur ki, birgə bir qərara gəlmisinizsə, ona əməl edəsiniz. Bu doğrudan da çox lazımdır.

**Sual:** Mənim üçün belə bir şübhə var ki, dostlar tərəfindən qəbul olunmayan bu sual nə üçün verildi. Əlbəttə, belə deyil ki, biz bu sualın verilməsini istəməyək. Xeyr. Siz gözəl cavablar da verdiniz və biz onlardan bəhrələndik. Amma belə bir toplantıda vaxtın azlığına rəğmən, qabaqcadan razılaşdırılmamış bu sual bu formada verildi. Halbuki dostlar təxminən saat dörddən oturub söhbət etmiş və vaxtın azlığına görə çoxlu mövzuları ixtisara salmışdılar. Bu, düzgün iş deyildi.

**Cavab:** Çox yaxşı. Amma indi daha artıq vaxt tələf olur. Qoyun vaxtdan istifadə edək, xüsusən də saat yavaş-yavaş, siz demiş, qırmızı xətlərinə çatır. Cənablardan bir nəfər də öz sualını versin.

**Bələdiyyə idarəçiliyi**

**Sual:** Sizin izninizlə bələdiyyələr barədə bir sual vermək istəyirəm. Enişli-yoxuşlu 20 ildən sonra bələdiyyə məsələsi bu bir neçə gündə icra

olunmaqdadır. Əvvəla, soruşmaq istərdim ki, İslam Respublikası quruluşu üçün tanıdığımız xüsusiyyətlərə əsasən, bələdiyyələrin cəmiyyətin idarəsində hansı rolu var? Başqa bir məsələ budur ki, bir mənada, unuversitet cəmiyyətdən ayrı bir şey deyil. Universitetə və tələbə təbəqəsinə xas olan bəzi problemlərin həlli cəmiyyətin vəziyyətinin yaxşılaşmasına gətirib çıxara bilər. Tələbələr istəyirlər ki, öz problemlərini özləri həll etsinlər və universiteti bir növ idarə etsinlər. Xüsusən indi idarəçilikdə əməkdaşlıq və bu kimi məsələlər deyilirsə, onlar bu işi görsünlər. Tələbələrin problemlərini həll etmək üçün universitetdə Tələbə şurası məsələsi səslənir və tələbələr istəyirlər ki, qərarların qəbul olunduğu şuralarda fəal nümayəndələri olsun. Bu barədə bəzi qanun və əsasnamələr qəbul olunsa və bəziləri əvvəldən də mövcud olsa da, lakin hələ də ciddi surətdə icra olunmayıb. Bunun üçün bəzi maneələr var. Məsələn, bəzi universitet rektorları universitetin idarəsində tələbənin müdaxiləsi ilə heç cür razılaşmırlar. Bəzilərinin də zahiri baxımdan etirazları yoxdur, lakin sözlərindən göründüyü kimi, Tələbə şurası formal və qeyri-həqiqi bir şey olacaq. Mən bilirəm ki, bu məsələ birbaşa sizin məsuliyyətinizə aid deyil, icra məsələsidir. Lakin Tələbə şuraları barədə ümumi fikrinizi bilmək istərdim.

**Cavab:** Şübhəsiz, tələbələrin istəkləri var. Onlar bu istəklərini müdirlərinə çatdırmalıdırlar. Bu sahədə məsləhətləşib özləri qərar versinlər. Universitetin tələbə vasitəsi ilə idarə olunmasına gəlincə isə, xeyr, mən bununla müvafiq deyiləm. Mən indiyə qədər kiminsə məntiqli şəkildə belə bir ideya ilə çıxış edib, tələbənin universiteti idarə etməsini söylədiyini eşitməmişəm. Tələbə universitetin qonağıdır, müdiri deyil. Universitetin bir rektoru olmalıdır. Bunun bir təşkilata ehtiyacı var. Heç şübhəsiz, tələbənin mənafeyini nəzərə alan məsul şəxslər lazımdır. Çünki ümumiyyətlə, universitetin varlığı tələbəyə görədir. Əgər tələbəmiz olmasaydı, universitet də istəməzdik, başqa bir şey düzəldərdik. Buna görə də, onun mənafeyi, taleyi, ehtiyacı və ölkənin ona olan ehtiyacı nəzərə alınmalıdır. Amma tələbənin universiteti idarə etməsini məntiqli və elmi bir ideya kimi eşitməmişəm və belə olduğunu da düşünmürəm.

**Universitet rektorları**

Burada başqa bir məsələ var. O da budur ki, müəllimlər universitetin idarəsində rol oynasınlar. Bu yenə bir qədər məntiqlidir. Lakin bu da mənim fikrimcə, mütləq və ümumi şəkildə düzgün deyil. Universitet öz müdirləri, rektorları tərəfindən idarə olunmalıdır. O müdirlər də mütləq tabe olduqları orqanın siyasətlərini icra etməlidirlər. Universitetin vəziyyəti pis olsa, buna

rektor məsuliyyət daşıyır. Əgər bu vəziyyət rektorun zəifliyindən, yaxud pis işləməsindən deyil, nazirliyin ona verdiyi proqram nəticəsində əmələ gəlsə, nazir məsuliyyət daşıyır. Nazir məsuliyyət daşıyırsa, nazirdən soruşmaq olar. Lakin orada nazirin tabeliyində olmayan bir qrup olsa və ümumiyyətlə, nazirin qərarlarından, nazirliyin və hökumətin proqramından heç bir fərman almasa, onun qarşısında heç bir öhdəlik götürməsə, təbiidir ki, insan heç kimdən məsuliyyətə cavabdehlik tələb edə bilməz.

**Tələbənin universitetdə olmasının fəlsəfəsi**

Düzdür, tələbələr dərs oxumaqdan əlavə, universitetdə çoxlu fəaliyyətlər göstərə bilərlər. Çəkinmədən sizə deyirəm ki, dərs oxumağı yaxşı hesab etdiyiniz - əslində, yaxşı olsa da, olmasa da - bu işlərə qurban verməniz əsla düzgün deyil. Təhsil birincidir. Sizin orada olmanızın fəlsəfəsi dərs oxumaqdır. Əgər bir tələbə dərs oxumasa, heç şübhəsiz, bundan ötrü cavab verəcək. Xalqa, Allaha və hamıya cavab verməli olacaq. Universitetin açılmasında rolu olan hər kəsə cavab verməli olacaq. Və o, Allah-Taala yanında cavab verməli olacaq. Dünyada belə məsələlərdə kimsə o birisinin yaxasını tutmaya bilər. Amma şübhəsiz, qiyamətdə soruşacaqlar ki, niyə dərs oxumadın. Deməli, birinci iş dərs oxumaqdır.

**Siyasi məsələlərdə mötədillik**

Bu da şübhəsizdir ki, dərs oxumaq tələbənin bütün vaxtını tutmur. Onun üçün əlavə vaxt da qalır. O bu vaxtı düşüncə məsələlərinə, siyasi məsələlərə sərf etməlidir. Universitetdə siyasi iş ifrat və ya təfrit halında olmamalıdır. Elə vaxt təfrit olur və universitet sanki bir ölüyə bənzəyir. Bu qədər gənc var, lakin bəzən siyasi məsələlərdə nə mövqe bildirirlər, nə danışırlar. Universiteti bu hala sövq edənlərə Allah lənət eləsin! Bəzən də tələbəni ona heç bir aidiyyəti olmayan məsələlərə, qrup və cinahlara dair müxtəlif problemlərə qatırlar, onun gənclik qüvvəsindən istifadə edib o tərəf-bu tərəfə çəkirlər. Bu da mənim fikrimcə, ifratçılıqdır.

**Siyasi dərk**

Bəzən deyirlər ki, dünyada belədir, filan ölkədə elədir. Tutaq ki, doğrudan da elədir. Məgər bu, yaxşıdır ki, tələbələr universitetlərini tətil etsinlər, dərs oxumasınlar, gəlib filan partiyanın, filan cinahın xeyrinə, onun düzgün olub-olmamasını araşdırmadan, bir hərəkət etsinlər?! Məgər bu, yaxşı bir şeydir ki, biz onu yamsılamaq istəyək?! Bu baxımdan, siyasi iş

dedikdə, tələbələrin hər birində doğrudan da siyasi anlayışın, dərkin və siyasi təhlil qüvvəsinin yaranmasını nəzərdə tuturuq.

**Tələbə nəşrləri**

Allaha sığınırıq o gündən ki, bu ölkədə siyasi anlayışı olmayan və dünyanın siyasi şəbəkələrini təyin etmək iqtidarında olmayan şəxslər vəzifələrə gəlsinlər. Bu iş nə vaxt görülməlidir? Həyat boyu, xüsusən də gənclik dövründə. Tələbəlik mühiti də çox yaxşı, qaynar və həyəcanlı mühitdir. Bu mövqedən istifadə etmək lazımdır. Güman edirəm ki, əvvəlki görüşdə bunu sizə xatırlatdım. Əgər deməmişəmsə, indi deyirəm. Siz kömək etməlisiniz ki, nəşrləriniz vasitəsilə tələbələr təhlil qabiliyyəti əldə etsinlər. Yəni siyasi məsələləri anlasınlar, siyasi şəbəkələrin nə olduğunu başa düşsünlər, pərdəarxasını görsünlər. Tələbələr boş vaxtlarında elmi-mədəni məsələləri izləsinlər. Bu ekskursiyaların bəzisi çox yaxşıdır; xüsusən sizlər ki, Allahın lütfü ilə müsəlman uşaqlarsınız və az-çox İslam məsələləri ilə, universitetlərdə dindarlığın və təqvanın inkişafı ilə tanışsınız. Bu, çox əhəmiyyətlidir.

**Təqva**

Siz kim və hansı universitetə bağlı olsanız, hansı siyasi və elmi cinahdan olsanız, təqvaya ehtiyaclısınız. Əsas məsələ budur. İnsan təqvalı olsa, yəni özünü gözləsə, - təqvanın mənası da budur: insan öz əməl və rəftarına nəzarət etsin ki, yanlış və qaydasız iş görməsin - kim olursa-olsun, necə düşünürsə-düşünsün, siyasi üsulu necə olursa-olsun, təhlükə yaratmaz, heç bir işə ziyan vurmaz, ondan ətrafa yaxşılıq yayılar. Mənim fikrimcə, əsas budur ki, bacardığınız qədər özünüzü, digərlərini, dostlarınızı, yoldaşlarınızı, sizin jurnallarınızı oxuyanları təqvalı, dindar və pak yetişdirin.

**Zorakılıq**

**Sual:** İnşallah, çox yorulmuş olmazsınız. Ötən aylarda biz cümə namazında və məscidlərdə bir sıra fiziki münaqişələrin şahidi olduq. Bu münaqişələr bəzən həm də təhqiramiz idi. Bilmək istərdim ki, siz bu hadisələrin səbəb və amillərini necə təhlil edirsiniz? Müxtəlif təbəqələr və rəsmi orqanlar üçün belə quruplarla mübarizə yolunu nədə görürsünüz?

**Cavab:** Çox pisdir. Mən bu kobud davranışların əleyhinəyəm. Əlbəttə, indi zorakılığın və kobudluğun inkarı mod olub. Bəzi yerlərdə zorakılıq lazımdır. Lakın xalqın ümumi yaşayış mühitində kobud tədbirlər çox pisdir. Xüsusən əgər bu rəftarlar dava-dalaşla, sizin sözünüzlə desək, fiziki

münaqişələrlə sonuclansa, qat-qat pisdir. Mən bunun bir növ tərbiyəsizlikdən və kifayət qədər inkişaf etməməkdən qaynaqlandığını düşünürəm. Fitr bayramı namazında da buna toxundum və dedim ki, bu işlər pisdir. Mən cümə namazı barədə xüsusi olaraq düşünürəm ki, hətta kobud olmayan tədbir də pisdir. Yəni bir nəfər qalxıb, məsələn, cümə imamına etiraz edir. Əgər ona etirazınız varsa, sizi heç kim zorla namaza gətirməyib. Qalxın gedin. İnsan doğrudan da belə asanlıqla, yaxşılıqla və səs-küysüz görülə bilən bir işin əvəzinə qalxıb etiraz etməyə başlasa, haram iş görüb. Halbuki cümə namazı xütbəsini dinləmək vaicibdir. Əgər siz imamı ədalətli bilmirsinizsə, nə üçün buraya gəlmisiniz?! Bu baxımdan, mən bu növ işlərlə əsla müvafiq deyiləm. Bu, yaxşı hal deyil.

**Pis işlərdən çəkindirmə**

Cəmiyyətdə pis işlərin qarşısını alan yollardan biri pis işlərdən çəkindirmə və pis işləri pis saymaqdır. Pisin yaxşı olmasına qoymayaq, yaxşının da pis. Pis işlərdən çəkindirmək belədir ki, deyin: cənab, siz nə üçün bu pis işi görürsünüz? Bir nəfər desin, iki nəfər desin, on nəfər desin, nəhayət, qarşı tərəf tərk etməyə məcbur olacaq. Yəni əgər dəfələrlə deyilsə, psixoloji cəhətdən məğlub olacaq.

**Dillə yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmənin möcüzəsi**

Mən çox rahat, asanlıqla, dava-dalaşsız, dillə edilən yaxşı işlərə dəvət və pis işlərdən çəkindirməni doğrudan da İslamın möcüzələrindən biri bilirəm. Məsələn, bir nəfər pis bir iş görür, deyirlər ki, cənab, sən bu işi etməməli idin. Bunu de və get. Deyir ki, o qayıdıb mənə iki söyüş verəcək. Eybi yox, qoy söyüş də versin. Allahın əmrini yerinə yetirmək üçün buna dözün. Əgər ikinci nəfər də desə ki, cənab, sən gərək bunu etməyəydin. Bilin ki, əgər dava da etsə, davası birincidən az olacaq. Üçüncü nəfər, onuncu nəfər, iyirminci nəfər də beləcə. Bu etiraz təkrar olunsa və iyirminci adama çatsa, siz elə bilirsiniz o adam bir də bu işi təkrar edər?! Pis işlərdən çəkindirmək doğrudan da möcüzə edir. Təkcə dillə. Əllə çəkindirmək dövlətin işidir. Əgər haradasa günahkara qarşı əllə və cəza şəklində tədbir lazım olsa, yalnız dövlət qurumları bunu edə bilərlər. Xalq belə etməməlidir. Amma dillə hamı etməlidir və bunun təsiri böyükdür.

**Sual:** Siz builki söhbətlərinizin birində dediniz ki, bəzi mətbu orqanları xalqın imanına hücum edirlər. Bu çıxışdan bir neçə gün sonra möhtərəm prezident Birləşmiş Millətlər Təşkilatında bu məzmunda bir cümlə dedi ki,

biz insanın səadəti bəhanəsi ilə onun azadlığını əlindən ala bilmərik. Bizim məktəbimizdə deyilib ki, insan səadətində imanın xüsusi yeri var. Digər tərəfdən, sual və şübhələr sahəsində azad şəkildə öz yolunu tapmayan və irəliləməyən imanın həqiqi dəyəri yoxdur. Bu baxımdan, müəllimlərinin sözündə qeyri-uyğunluq hiss edən bir şagird kimi bu barədə fikrinizi bilmək istəyirəm.

**Cavab:** Xeyr, bu iki sözü bir yerə toplamaq mümkündür. Baxın, bir vaxt biz sizin dediyiniz formada tərif olunmuş səadəti təmin etmək üçün bir hərəkət edirik. Tərif olunmuş səadətin də nə olduğu bəllidir. Azadlıq məhdud edilsə də, heç kəs buna qarşı çıxmır. Qanuna əsasən, hər hansı bir cinayətdə təqsirli bilinənlər həbs edilirlər. Dünyada heç kim etiraz etmir ki, niyə sizdə həbsxana var. Halbuki həbs etmək azadlığı məhdudlaşdırmanın ən bariz nümunəsidir. Niyə heç kim etiraz etmir? Çünki bu, qanunda tərif olunmuş bir hərəkətdir. Hər şey müəyyən edilib və heç kəs buna qarşı çıxmır.

Sizin gətirdiyiniz sitatın da bununla ziddiyyəti yoxdur. Bu, azadlığı məhdudlaşdırmanı qadağan etmir. Amma bir də var ki, biz gəlib qanunun qəbul etmədiyi, yaxud məsələnin ölkənin və xalqın qəbul etmədiyi bir fərzi maraq bəhanə edib məhdudiyyət yaratmaq istəyirik. Təbii ki, o bunu inkar edib. Bu, düzgündür və biz də bunu qəbul edirik.

**Xalqın imanının qorunması**

Mətbuat üçün də meyar bizim konstitusiyamızın və qanunlarımızın təsdiq etdiyidir. İstər qəzet olsun, istər başqa bir şey, əgər doğrudan da xalqın imanını zəiflətsə, qanun onunla mübarizə aparmalıdır. Qəzet qırmızı xətt deyil ki, ona yaxınlaşmaq mümkün olmasın. Xeyr, burada fərq yoxdur. Əgər doğrudan da bir qəzet xalqın azğınlığına şərait yaradırsa, məsələn, yalanları yayır, yaxud xalqın imanını sarsıdırsa, təbii ki, qanun ona qarşı tədbir görməlidir və buna haqqı çatır. Mənim fikrimcə, bizim qanunlarımız buna kifayət edir.

**Mətbuat**

Fikir ayrılığına səbəb ola biləcək məsələ, hər hansı bir işin bu növdən olub-olmamasıdır. Əlbəttə, bunun meyarı da qanundur. Qanun bunu araşdırmalıdır. Mən özüm indi mövcud olan bəzi qəzetləri yüz faiz zərərli bilirəm. Bu mənim fikrimdir. Amma onları bağlamağa heç bir cəhd etmirəm. Baxmayaraq ki, bunu edə bilərəm; yəni istəsəm, mümkün işdir, lakin etmək istəmirəm. Mən deyirəm ki, aidiyyətli orqan bu nəticəyə gəlsə, bağlasın. Əlbəttə, bəzən aidiyyətli orqanlara deyirik ki, xəbəriniz varmı bu qəzet nə

deyir, o cənab nə iş görür. Bəzən onların bundan xəbəri olmur və bundan sonra tədbir görəcəklərini deyirlər. Bəzən də xəbərləri olur, yaxud səhlənkarlıq edirlər və ya fikirləri başqadır. Hər halda, mətbuata qarşı tədbirin meyarı qanundur və mənim fikrimcə, bu işə bir qədər diqqətsizlik var. Dediyim kimi, bugünkü bəzi mətbu orqanları bizim meyarlarımızla uyğun deyillər. Yaxşı olar ki, aidiyyətli orqanlar doğrudan da düzgün, məntiqli və qanuni şəkildə onlara qarşı tədbir görsünlər və xalqı bunların əlindən qurtulsun.

**Partiyalar qanunu**

**Sual:** Mən məzlum şəhid Doktor Behiştinin həyatını mütaliə edəndə gördüm ki, bir yerdə ondan partiyalar barədə soruşublar, o da çox maraqlı bir bölgü aparıb. O buyurmuşdu ki, mənim fikrimcə, partiyalar iki qisimdir: islami partiyalar və qeyri-islami partiyalar. İslami partiyalar məramlarında İslamın adı çəkilən partiyalardır, qeyri-islami partiyalar isə İslam adı çəkilməyənlər. Buyururdu ki, bizim fikrimizcə, islami partiyalar fəaliyyət göstərməkdə azaddırlar. Sonra qeyri-islami partiyaları iki qismə bölür: İslama zidd olan partiyalar və qeyri-islami partiyalar. Qeyri-islami partiyalar işlərində və məramnamələrində İslama qarşı çıxmayanlar, yalnız qeyri-islami istəkdə olan partiyalardır. O buyururdu ki, bunlar da bizim nəzərimizdə azaddırlar. İslama zidd partiyalar isə yenə də iki qismə bölünürlər. Bunların bir qismi elmi və nəzəri baxımdan İslama ziddirlər, bir qismi isə əməli baxımdan. Deyir ki, İslamla nəzəri cəhətdən ziddiyyətdə olanlar da bizə görə, azaddırlar, amma əməli cəhətdən İslama qarşı çıxan partiyalar bağlanmalıdır.

Mənim fikrimcə, partiya yaratmaq insanın siyasi sahədə yeni nailiyyətlərindən biridir. Biz inqilabdan sonra da partiyaların yaranmasını gözləyirdik və gözləyirik. Bunun əqli dəlili də budur ki, düzgün, yaxud yanlış olmasından asılı olmayaraq, cəmiyyətdə mövcud olan bütün təfəkkürlər ümumi dəstəyi əldə etmək üçün dinc yollardan istifadə etməldirlər və cəmiyyət münaqişədən uzaq olmalıdır. Lakin İranda mövcud olan partiya qanunları buna zəmanət vermir. Bu bəlkə də ondan ötrüdür ki, uzun illərdən sonra hələ də partiyalar öz əsas funksiyasını tapa bilməyiblər. Əvvəla, dediyim mövzu barədə sizin fikriniz nədir? İkincisi isə, İranda partiyalaşmanın indiki vəziyyətdən çıxması üçün nə təklif edirsiniz?

**Cavab:** Əvvəla, cənab Behiştinin bu sözü yəqin ki, partiyalar haqda qanunun yazılmasından əvvəl deyilib. O öz fikrini bildirib. Qanun yazıldıqdan sonra isə meyar odur. Onun fikri bir nəzəriyyə kimi bəzi yerlərdə deyilə bilər, amma mötəbər olan qanunda göstəriləndir. Əlbəttə,

indi partiyalar haqda qanun mənim yadımda deyil. Əgər bilsəydim, baxıb hazırlaşardım. Lakin mənim özümün bir fikrim var. Bu sizin fikrinizlə tam uzlaşmır, bəzi fərqləri var. Biz müxalif, yaxud müvafiq partiyalarla necə rəftar edək? Azad olsunlar, olmasınlar? Bu başqa söhbətlərdir və dediyim kimi bunun meyarı qanundur.

**Partiyalar**

Partiyalar məsələsinə gəlincə, bilməlisiniz ki, mənim özüm inqilabın qələbəsindən əvvəl uzun illər partiyalaşma üçün çalışmışam. İnqilabın qələbəsinə 2-3 il qalmış biz oturub bir partiya təsis etdik. Əlbəttə, o zaman partiya yaratmaq çox təhlükəli idi, icazə vermirdilər. Bunu məxfi etməli idik. Məxfi iş də doğrudan da təhlükədir. 10, 20 nəfərlik bir qrupun bir yerə toplaşmasının bilinməsi kifayət idi. Heç bir iş görməsəydilər, yaxud çox sadə bir siyasi iş görsəydilər də, bu, onların hər birinin uzun illər həbsə salınmasına və bəzilərinin işgəncə altında öldürülməsinə səbəb ola bilərdi.

O zaman bu birlik üçün bir partiya əsasnaməsi hazırlamağı lazım bilirdik. Əlbəttə, birlik və əlaqələr vardı. Hətta mən 1978-ci ildə İranşəhrə sürgün olunandan sonra da bizim partiya əlaqələrimiz yerində idi. Bəzən mərhum Bahünər Tehrandan oraya gəlirdi və biz fikir mübadiləsi aparırdıq. O zaman bəzi vaxtlar müxtəlif məsələlər müzakirə olunurdu. Məsələn, deyirdilər ki, bu mövzuları siz araşdırın, amma kağız üzərində olmasın. Nəhayət, inqilab qələbə çaldı və biz ilk bir neçə gündə oturub əsasnaməni yazdıq və partiyanı rəsmən təsis etdik. Demək istəyirəm ki, mən düzgün mənada olan partiyanı qəbul edirəm. Lakin bu gün bizim cəmiyyətimizdə baş verənlər, indi yaranan partiyalar yanlış formadadır. Bunun rövnəqli olmaması üçün həsrət çəkməyə, təəssüflənməyə dəyməz. Heç olmasın. Belə partiyalaşmanın və bu növ partiyabazlığın heç bir xeyri yoxdur.

**Partiyanın məntiqli forması**

Mən partiyaları iki qrupa bölürəm. Bu, şəxsi fikrimdir. Siz qəbul edə də bilərsiniz, etməyə də. Nə qanun deyil, nə də mən xalqın mütləq qəbul etməsinə israr etmirəm. Sadəcə, fikrim budur. Bir qisim budur ki, siyasi, etiqadi, yaxud dini fikir sahiblərinin bir qrupu oturub birlik yaradır, özləri ilə xalq arasında bir əlaqə sistemi qurur, xalqın dəstəyini qazanmağa çalışır, öz fikirlərini onlara çatdırırlar. Yerli şöbələr, özəklər təşkil olunur. Onlar bir mərkəzdə oturub öz düşüncələrini, siyasi, qeyri-siyasi, dini, yaxud qeyri-dini fikirlərini öz kanalları vasitəsi ilə insanlara çatdırırlar, qəbul edən insanlar da

onlarla birləşirlər. Mənim fikrimcə, partiyalaşmanın bu üsulu məntiqlidir. İslam Respublikası Partiyası belə yaradılmışdı və bu formada idi.

**Qərb partiyaları**

Bir qrup partiyalar da bu gün Avropa və ABŞ-da yayılmış partiyalar qismindəndir; misal üçün, Respublikaçılar Partiyası, Demokrat partiyası, İngiltərə Fəhlə Partiyası, İngiltərə Mühafizəkar Partiyası kimi. Bu partiyaların təməli bizim dediyimiz kimi deyil. Xüsusi bir qrup bir çox məsələlərdə bir-biri ilə həmfikir olmasalar və bəzən bir-birinə müxalif fikirdə olsalar da, öz aralarında tərif etdikləri ortaq bir maraqla oturur, razılaşır və bir partiya yaradırlar. Xalq arasında bu növ partiya məşhurdur. Bunun ideoloji üzvü yoxdur, məsləhətli üzvü var. Əsas fərq bundadır. Məsləhətli üzv nədir? Budur ki, filan oliqarx, filan biznesmen, filan müəllim, filosof, bəzən də ruhani partiyanı müdafiə edir. Məsələn, filan ruhani deyir ki, mən öz müridlərimə fərman verəcəyəm ki, sizin namizədinizə səs versinlər, müqabilində siz də, məsələn, mənim məscidimə, yaxud kilsəmə bu imtiyazı verməlisiniz. Onlar da qəbul edirlər. Səs verənlər nə namizədi tanıyırlar, nə ona hakim olan fikirlə tanışdırlar, nə partiyanın təsisçilərini əməlli-başlı tanıyırlar, nə də o namizədin nə etmək istədiyini bilirlər. Məscidin imamı, məsələn, “Hindistan Konqres Partiyasına səs verin” dediyindən, bunlar da səs verirlər. Təsadüfən, elə bu məsələ Hindistanda baş verib və bəzi müsəlmanlar Konqres Partiyasına səs veriblər. Bir neçə milyon müsəlman Konqres Partiyasının namizədinə səs verib. Halbuki onlarla nə əqidələri, nə fikirləri, nə imanları eynidir, nə də ümumiyyətlə, onların məmləkətdə nə etmək istədiklərini bilirlər. Təkcə o cənabın “müsəlmanların xeyri bundadır” dediyi üçün bu işi görüblər. Yaxud məsələn, bir milyonçu deyir ki, mən sizə bu qədər pul verirəm, partiyanıza kömək edirəm, amma gərək məni filan yerə səfir göndərəsiniz. Səfir təyin etmək, bir yerin müfəttişi qoymaq, filan siyasi postu vermək Qərb partiyabazlığının mütləq şərtlərindəndir. Çünki heç kim iman üzündən çalışmır, razılaşma əsasında işləyirlər.

**Bütün işləri görən partiyalar**

Mən bilmirəm siz Qərb demokratiyası və onların seçkiləri ilə nə qədər tanışsınız. Bu sahədə nə qədər artıq məlumat əldə etsəniz, Qərb demokratiyasının və ondan törəyən partiyaların uğursuzluğunu daha artıq dərk edəcəksiniz. Bir kitab var, məncə, onu oxumamısınız. Yəqin oxumaq üçün vaxtınız az olur. Bu kitab ABŞ-ın məşhur roman yazıçısı olan Hovard Fastındır. Səhv etməsəm, hələ də yaşayır və təxminən 10-12 kitabı var. Onun

bəzi kitabları məndə var və çoxunu oxumuşam. O, çox yaxşı roman yazıçısıdır. Bir qədər də solçuluğa meyllidir. Əlbəttə, ABŞ-da işlənən solçuluğu deyirəm. Bildiyiniz kimi, ABŞ-da solçu ədalət, ictimai rifah və bu kimi sözləri bir qədər səsləndirən, yaxud kitabında yazan adamdır. Onun "Amerikalı" adlı bir kitabı var: ata-anası Şərqi Avropa ölkələrinin birindən olan, əziyyətlə Sakit okeandan keçib Avropa mühacirləri ilə birgə özünü ABŞ-a çatdıran, iş, sənət və bir parça çörək axtaran bir şəxsin əhvalatıdır. Səhv etməsəm, ABŞ-da doğulan insan amerikalı sayılır, oranın vətəndaşı olur. Dediyim bu şəxs üçün də ABŞ pasportu alırlar. Halbuki ata-anası amerikalı deyillər. Bu kitabda onun böyüməsi, inkişafı, hüquq təhsili alması, hakim olması və nəhayət, seçkilərə qoşulması təsvir olunub. Kitabın girişində mütərcim yazır ki, bu, romandır, amma həqiqətən, baş verib, ABŞ-ın hansısa ştatında məşhur bir adamın həyatı barədədir. İnsan bu kitabı oxuyanda anlayır ki, seçki nə deməkdir. Məntiqli bir cəmiyyətdə yaşamaq istəyən bir insan üçün bu meyarların heç bir mənası yoxdur. Bu xalqın bələdiyyə və mer seçkilərindən tutmuş ştat, konqres və prezident seçkilərinə qədər heç bir seçkidə rol oynamır. Onlar sadəcə seçkilərdə iştrak edib səs verirlər, əslində, isə ciddi rol oynamırlar. Namizədlərin seçildiyi klublar, ümumiyyətlə, xalqdan ayrı bir şeydir və ona aidiyyəti yoxdur. Məsələn, Demokrat Partiyasının filan ştat şöbəsinin klubu. Bu cənab necə seçilir ki, aşağı bir mərhələdən ştat mərhələsinə ucalır, sonra konqresə yol tapır və nəhayət, nə vaxtsa prezident olur. Bu, çox qəribə işlərdəndir. Düzgün insani meyarlarla əsla uyğun gəlmir. Orada işi görənlər partiyalardır. Əlbəttə, arsızlıq, pulluluq, sionist dayağın olması, göyçəklik, natiqlik, bəzən də fəal və cazibədar həyat yoldaşının olması mühüm rol oynayır. Onlarda partiya belədir. İndi ölkədə partiyalaşma üçün səy göstərən bu cənabların istədiyi daha çox belə partiyalardır. Mən bu növ partiyanı qəbul etmirəm.

**Partiyalaşmanın məqsədi**

Bir müddət əvvəl bir münasibətlə dedim ki, partiyada hakimiyyətə gəlmək məqsədi olmamalıdır. Baxmayaraq ki, uğurlu bir partiya üçün hakimiyyət qaçılmazdır. Yəni seçki zamanı çoxlu tərəfdarı olan və xalqın həmfikir olduğu partiyanız varsa, təbii ki, bu və ya digər şəxsin prezident olmasına biganə qala bilməzsiniz. Şübhəsiz ki, birini qəbul edirsiniz. Təbii olaraq sizin bu fikriniz təsirini buraxır və ona səs verənlər çoxalır. Amma partiyanın məqsədi hakimiyyətə gəlmək olmamalıdır. Məqsəd xalqın fikrini sizin inandığınız düzgün istiqamətə yönəltmək olmalıdır. Mənim partiya barədə fikrim budur. Siz qəbul edib-etməməkdə azadsınız.

**Din və gənc**

**Sual:** Hər şeydən öncə, bizə vaxt ayırdığınız üçün sizə təşəkkürümü bildirirəm. İndi inqilabın ömründən 20 il ötür. Bu 20 ildə bizim ölkəmizdə İslam quruluşu hakim olub, bütün dövlət orqanları İslama uyğunlaşıb. Lakin universitetlərdə və bu inqilabda böyümüş gənc nəsil arasında dindənqaçma problemi var. Siz əvvəlki görüşünüzdə buyurdunuz ki, öz nəşrlərinizə tamamilə dini rəng verin. Bu, çox yaxşı bir məsələdir. Amma bu sahədə problem odur ki, biz nəşrlərimizə dini materiallar daxil etdikdə oxucularımızı əldən veririk. Statistikalara və sorğuların nəticələrinə görə, dini mətləbləri əks etdirən nəşrlərin tirajı azdır. Sizdən soruşmaq istərdim ki, hansı yolu təklif edirsiniz? Biz gənc nəsillə din arasında əlaqə qurmaq üçün öz nəşrlərimizdən necə istifadə etməliyik?

**Cavab:** Siz deyirsiniz ki, cavanlar dindən qaçırlar. Mən bu nəticəyə gəlməmişəm. Bəli, gənclər arasında dindən qaçan var, amma bu gün dinə inanan, dini qəbul edən və istəyən gənclərimiz də çoxdur.

**Gənclərin dindən qaçması**

**Sual:** Əlbəttə, gənc nəsil fitri olaraq din təşnəsidir. Amma təəssüf ki, məsul şəxslərin bəzi əməllərinə və dinə dair göstərilən pis simaya görə bir qədər dindənqaçma var; təqdim olunan dindən.

**Cavab:** Çox yaxşı. Mən də bunu başa düşdüm. Düzdür, bir dəstə belədir. Bunun səbəblərindən biri sizin dediyinizdir. Yəni bəzi vaxtlar dini təbliğat düzgün üsullarla aparılmır. Yaxud dindən qaçan adam düzgün təbliğatla qarşılaşmır. Çünki təbliğat həmişə ümumi deyil. Bizdə cürbəcür təbliğatlar var. Bu onun səbəblərindən biridir. Başqa bir səbəb də bu ola bilər ki, bəzi adamlar dini vəzifələrin çətin olduğunu düşünürlər. Məsələn, din ictimai rəftar, məhrəm və naməhrəm münasibətləri, namaz qılmaq haqda vəzifələr müəyyən edib. Bu vəzifələrə əməl etmək bəzilərinə çətin gəlir. Belələrinin dinlə düşmənçiliyi yoxdur, dindən acıqları gəlmir. Bəzən bir nəfər iki kəlmə səmimi söz deyəndə ürəkləri yumşalır da. Çox mənəviyyatlı namaz qılmaları da mümkündür. Amma vəzifə onlara ağır gəlir. Bəşərin xisləti belədir: məsuliyyətdən qaçır. Bu, insanın təbiətindəndir. Onunla mübarizə aparmaq lazımdır. Məsələn, insanlar idmandan qaçmırlar?! İdman din deyil ki. Bəzilərinə nə qədər deyirsiniz ki, idman edin, etmirlər. İndi bizim xalqımız arasında idman ümumidir?! İranda idman edə bilən insanların hamısı idman edirlər?! Buna görə də, vəzifədən və ağır işdən qaçmaq insanın

cisimliyindən qaynaqlanan bir haldır. Bizim torpaq cəhətimiz zəruri olaraq insanı məsuliyyət və vəzifə qəbul etməkdən çəkindirir.

Digər bir məsələ də budur ki, bəziləri dindardırlar, əməl də edirlər, lakin dinin təkrar olunan sözündən inciyirlər. Mən yəqin ki, dindar bir adam sayılıram, inşallah, əməl də edirəm. Lakin hərdən radioda, televiziyada, hüseyniyyədə, yaxud başqa bir yerdə bəzilərinin dini təbliğ etdiklərini görəndə dinləməyə taqətim qalmır. Çünki çox təkrar olunmuş və aşağı səviyyəli söz deyirlər. Halbuki mənim səbir-hövsələm də nisbətən, pis deyil. İndi bu gənc, məsələn, sizin jurnalınıza baxıb görür ki, bir dini məsələ barədə dünən radiodan eşitdiyi, srağagün filan yerdə hüseyniyyədə deyilən, ata-anasından eşitdiyi bir sözü deyirsiniz. Belə ola bilər. Amma düzgün və əsaslı din cəlbedicidir. İndi ölkə daxilində ən yuxarı tirajlı kitablar dini kitablardır. Əlbəttə, bunlar müxtəlif səviyyəlidirlər. Bəziləri ümumi insanlar səviyyəsindədir, bəziləri yuxarı səviyyədə, bəziləri isə çox yuxarı səviyyədə. Xalq və gənclər bu kitabları sevirlər.

**Məqsədə çatmaq**

Mən sizdən istəyirəm ki, mətbuatda "dindənqaçma" adlı ümumi fikir məsələsinə mütləq yenidən baxasınız. Yəni oxucularınızı itirməmək adı ilə qəzetinizin materiallarını diniləşdirməkdən çəkinməyin. Bəli, onu düzgün, gözəl və ürəkaçan formaya salın. Bu sizin zövqünüzdən asılıdır. Məndən nə etmək lazım olduğunu soruşsanız, mənim ümumiyyətlə, bilməməyim də mümkündür. Amma gözəl sözlərlə, yaxşı dini mövzular seçməklə oxucularınızı artıra bilərsiniz. Təkrar işlərdən, təkrar rollardan, oxucu üçün heç bir mənası, anlamı olmayan təkrar dini şüarlardan çəkinin.

**Mətbuatda yaxşı işlər**

Siz xalqa və gənclərə yaxşı töhfələr verə bilərsiniz. Mənim fikrimcə, siz qardaş və bacıların mətbuatda görməli olduğu yaxşı və yerli iş, bəlkə də vacib məsələ budur ki, gəncləri bacardığınız yolla namaza alışdırın. Kim necə bilirsə, buna səy göstərsin. Namaz çox yaxşı bir şeydir. Kimin namazla arası yaxşı olsa, düz yolda olması zəmanətli olar. Namazla aranın yaxşı olması budur ki, namaz onun üçün ürəkaçan olsun. Bu da namazın sözlərinə diqqət yetirməklə və onları anlamaqla baş verir. Sizin mühüm işlərinizdən biri budur ki, namazı oxucularınıza başa salın. Demək istəmirəm ki, namazın tərcüməsini əvvəldən sonuna qədər bir nömrədə yazın. Xeyr. Namazdan bir məqamı seçin. Məsələn, rükunu, qünutu, raz-niyazı, “İhdinəs-siratəl-

müstəqim”[41] ayəsini götürün və üzərində işləyin. Misal üçün, 50 ildir namaz qılan 60 yaşlı bir insan da yeni şeylər öyrənsin. Zahirən kiçik və qısa olan namaz çox geniş bir okeandır. Çalışın bu sahədə olan minlərlə məqamdan birini bacardığınız qədər işıqlandırın.

**Sual:** Mən öncə sizin bu toplantının əvvəlində xalq və onların rolu barədə dediyniz söhbətlər üçün təşəkkürümü bildirirəm. Cəmiyyətdə sizin nəzərlərinizə olan baxış təəssüf ki, başqa cürdür. Mən düşünürəm ki, sizin bu toplantıda dediyiniz sözlərlə bu şübhələrin çoxu aradan qalxacaq.

**Cavab:** Mən bu sözləri həmişə deyirəm.

**Sual:** Məqsədim sizin açıq söyləmənizdir.

**Cavab:** Həmişə belə açıq danışıram. Mən keçən dəfə Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə də bu sözləri təfsilatı ilə dedim. Başqa yerlərdə də deyirəm.

**Sual:** Onda mən səhv etmişəm. Vermək istədiyim sual Ali Məhkəmə barədədir. İndi mənim sözlərim haqqında sizdə niyyətimin düzgün olmamasına dair şübhə yarana bilər. Buna görə də, belə olduğunu düşünürsünüzsə, xahiş edirəm bu sual silinsin və mən başqa bir sual verim.

**Cavab:** Sualınızı verin, sözünüzü deyin.

**Ali Məhkəmənin nöqsanları**

**Sual:** Biz gənclərə görə, Ali Məhkəmə sistemində bir sıra nöqsanlar var. Mən bir məmuru, yaxud bütün sistemi günahlandırmaq istəmirəm. Siz dediniz ki, Ali Məhkəmə yaxşılaşıb və 10 il bundan qabaqkından yaxşıdır. Mən bunları qəbul edirəm və inanıram ki, sabah bugünkündən də yaxşı olacaq. Lakin bəzi kiçik nöqsanlar həm bəzilərinə bəhanə verir, həm də həqiqətən, bir qədər qüsur sayılır. Məsələn, ötən il ölkənin ən yüksək rütbəli şəxslərindən biri konstitusiyanın bir maddəsinəəsasən, bir sərəncam imzaladı. Mən düşünmürəm ki, İslam İnqilabından 20 il ötdükdən sonra unudulmuş bir maddəni sərəncam formasında elan etmək İslam Respublikasına yaraşsın. Bu sərəncamda göstərilirdi ki, bir müttəhimi 24 saatdan artıq saxlamaq olmaz. Lakin eyni zamanda, təəssüf ki, təcridxanaların çoxunda bu maddəyə əməl olunmur; xüsusən Təhlükəsizlik qüvvələrinin təcridxanalarında, bəzən İnqilab, yaxud Ruhani məhkəmələrində.

[41] Fatihə/5.

Digər tərəfdən, Ruhani məhkəməsi barədə də bir sıra sözlər deyilir. Əslində, Ruhani məhkəməsi imamın yadigarıdır və mən düşünürəm ki, gənclərin çoxu onun zərurətini dərk edirlər. Lakin söylənilən irad budur ki, bu məhkəmə konstitusiyada nəzərdə tutulmayıb. Bu məhkəmədə icra edilən bəzi üsullar da nöqsanlıdır. Məsələn, orada məhbuslar vəkil tutmaqda problemlə rastlaşırlar. Oradakı yenidən baxış sisteminin, yaxud məhkəmənin verdiyi bəzi qərarlarların doğrudan da məhkəmələrin səlahiyyəti çərçivəsində olub-olmamasını bilmirik. Yadımdadır ki, bir neçə il bundan əvvəl Ruhani məhkəməsinin hökmü ilə bir mətbu orqanı bağlandı. Bu, ruhanilərə məxsus məhkəmənin səlahiyyəti çərçivəsindədir, yoxsa yox?! Ruhani məhkəməsi qeyri-ruhanilər haqda hökm çıxara bilərmi?! Belə kiçik nöqsanların aradan qaldırılması üçün yaxşı deyilmi Ruhani məhkəməsinin səlahiyyətləri yazılı və tam şəkildə konstitusiyada və ya digər qanunlarda müəyyən edilsin və şəffaf şəkildə xalqın ixtiyarına verilsin?!

**Cavab:** Çox gözəl. Buyurduğunuz kimi, Ali Məhkəmənin nöqsanları var. Mən heç zaman bunu inkar etmirəm. Başqa orqanlar kimi orada da bəzi qüsurlar var. Onlar aradan qaldırılmalıdır. Lakin xoşbəxtlikdən, sizin dediyiniz bu bir neçə irad düzgün deyil. Məsələn, 24 saat saxlamaq məsələsi prokurorun sanksiyası olmadan belədir. Amma sanksiya olsa, çox zaman bundan da artıq saxlamaq olar, bunun eybi yoxdur. Əlbəttə, müvəqqəti təcridxanalar Ali Məhkəmənin ixtiyarında deyil, hökumətin ixtiyarındadır, Təhlükəsizlik nazirliyinə tabedir. Amma onların iddiası budur ki, prokurorun qərarı olmadan bunu etmirlər. Əgər kiminsə prokurorun hökmü olmadan bu işi görməsi məlum olsa, şübhəsiz, cəzalandırılmalıdır. Bunu bilin. Belə deyil ki, biz kiminsə 24 saatdan artıq saxlandığını bilək. Səs-küyə səbəb olan son mühakimələrdə deyirdilər ki, qanun pozuntusu baş verib. Mən araşdırmaq üçün adam göndərdim, gördüm ki, xeyr, belə deyil. Məhkəmə məmurları üçün əsas olan qanundur. Onların necə və nə etmələri üçün qanunlar müəyyənləşdirilib. Yaxşı bilirlər ki, Hakimlərin İntizam Məhkəməsi heç kimdən utanıb-çəkinmir; şikayət olunan və cinayəti sübuta yetən hər bir hakimi işdən azad edir. Bəzən həbs və mühakimə də edirlər. Hakimlər bu məhkəmədən qorxurlar.

**Ruhani məhkəməsi**

Dediyiniz Ruhani məhkəməsi də imamın gözəl işlərindən biridir və qanuna zidd deyil. Konstitusiya bunu inkar etmir. Mən burada Ruhani məhkəməsinin fəlsəfəsini sizə açıqlayım. Bax, ölkənin prezident kimi ən yüksək məmurlarının ruhani ola bildiyi, yaxud Ali Məhkəmənin sədri kimi

mütləq ruhani olduğu - Ali Məhkəmənin sədri gərək müctəhid olsun - bir quruluşda yaşayırıq. Parlament üzvləri ruhani ola da bilərlər, olmaya da. Digər tərəfdən, ruhanilərin xalq arasında nüfuzu, məscid və mehrabları var. Belə bir quruluşda adi məhkəmələr ruhanini düzgün, yerində və lazımi səviyyədə mühakimə etməyə qadir deyillər. Məsələn, tanınmış bir ruhani bir səhv etsə, hansı məhkəmə bu işə baxmağa cürət edər; hansı müstəntiq onu dindirə bilər?! Əlbəttə, ola bilsin, kimsə cəsarətli olsun və desin ki, xeyr, biz bunu edərik. Amma bunun üçün çoxlu işlər görülməlidir. Halbuki xüsusi bir məhkəmədə gənc bir hövzə tələbəsi onu asanlıqla dindirə və istintaqa cəlb edə bilər. Məsələn, cənab Reyşəhri kimi nisbətən gənc bir tələbə cənab Şəriətmədar kimi bir təqlid müctəhidini asanlıqla mühakimə etdi. Bu yalnız Ruhani məhkəməsinin əlindən gələr. İmam bunu bilirdi.

Digər tərəfdən, ruhanilərdə bu imkan varsa, onların arasında kimlərsə peyda olub qanunu pozacaqlar. İmam bir çıxışında ruhanilər haqda danışır və onları tərifləyirdi. Sonra dedi ki, ruhani libası geyənlərin bəziləri odda yanacaqlar. Yəni belə deyil ki, kim əyninə ruhani paltarı geyinsə, müqəddəs insandır. Xeyr. Ruhanilərdən də kimsə qanunu poza bilər. Ruhani məhkəməsi olduqda, bu qanun pozuntularının qarşısı alınır. Çünki onun gücünü bilirlər. Buna görə Ruhani məhkəməsi zəruri idi, indi də zəruridir və imamın yaxşı işlərindən sayılır. Əlbəttə, bu məhkəmənin yaradılmasında mənim də rolum olub. Bu məsələ imamı düşündürürdü. Mən də bir gün onun yanına gedib bəzi sözlər dedim. Sonra anladım ki, ona çox təsir edib.

Ruhani məhkəməsinin nizam-intizamına, qayda-qanunlarına gəlincə isə, deməliyəm ki, hər bir şeyi tamamilə nizam-intizamlıdır. Yəni yazılmış şəkildə qaydaları və qərarları var. İndi yadımda deyil, bilmirəm ki, harada qəbul olunub. Amma bilirəm ki, çox dəqiq əsasnaməsi var. Bəzi işləri heç bir fərq olmadan eynilə digər məhkəmələr kimidir. Burada da həmin qanunlar hakimdir. Güman edirəm ki, bəzi məsələlərdə xüsusi qanunları var. Olmasa da, yenə həmin qanunlar icra olunur.

Ruhani olmayanı bu məhkəməyə gətirmirlər. Ruhani və qeyri-ruhaninin iştirak etdiyi cinayət işində, məncə, qeyri-ruhaninin işini də oraya gətirirlər. Bu məhkəmənin mətbuata ümumiyyətlə, aidiyyəti yoxdur. Bir qəzeti idarə edən ruhani bu məhkəmədə göstərilən hər hansı bir cinayəti törətmişsə, ruhani olduğuna görə oraya gətirir və mühakimə edirlər. Bu, mətbu orqanı olduğuna görə deyil. Mətbuat cinayəti başqa bir məhkəmədə araşdırılır.

Bunu da sizə deyim ki, Ali Məhkəmənin möhtərəm sədri cənab Yəzdi Ruhani məhkəməsinin bu vəziyyəti ilə çox da müvafiq deyil. O belə düşünür

ki, Ruhani məhkəməsi, ümumi məhkəmə sisteminə birləşdirilməlidir. Lakin mən bunu məsləhət görmürəm. Bu həm də indiki qanunlara ziddir. Bu məhkəmə imamın yadigarıdır. Onda bu qədər böyük mənfəət də var. Siz bu sahədə Ali Məhkəməyə etiraz etməyin. Çünki onlar bununla çox da razı deyillər.

**İnqilabçıların mövqeyinin dəyişilməsinin səbəbləri**

**Sual:** İslam inqilabının nailiyyətlərinin və həzrət imamın məqsədlərinin dəyişilməsi son 20 ildə qlobal hegemonizmin əsas məqsədlərindən olmuşdur. Bizim fikrimizcə, onlar bu sahədə bəzi müvəffəqiyyətlər də əldə etmişlər. Misal üçün, özlərini öncüllərdən və fədakar inqilabçılardan bilənlərin bəziləri bu mövqelərindən 180 dərəcə dönüş etmişlər. Onlar ABŞ-la mübarizə, iqtisadi məsələlər və fəqihin rəhbərliyi məsələlərində mövqelərini əvəzləmişlər. Onlar bir zamanlar fəqihin mütləq vilayətini müdafiə edirdilər, lakin indi bu prinsiplərə şübhə ilə yanaşırlar. Ölkənin düşüncə və mədəni məsələlərindən, universitetin inqilabdan öncəki və sonrakı vəziyyətindən tam agah bir şəxs kimi, sizcə, bu hal özünü hansı yolla göstərib və bu sahədə biz hansı rolu ifa edə bilərik?

**Cavab:** Kimlərinsə öz qabaqkı mövqelərindən geri çəkilmələri çox qəribə və yeni bir şey deyil. Hər halda, insan həyatda müxtəlif dəyişikliklər edir. Bəzən bir sıra faktorlar bu dəyişikliyə zəmin yaradır, yaxud onu sürətləndirir. Burada dünyəvi maraqlar var, şəxsi maraqlar var, sevgi və nifrətlər var. Əgər bu şəxslər inqilabın düzgün yolundan, onun təlimlərindən doğrudan da uzaqlaşmışlarsa, səbəbi əksərən bunlardır. Burada yanlış düşünmələr, bəzi neqativ hallarla rastlaşmalar da var. Bunların hamısı təsirli amillərdir. Biz bunun oxşarını çox yerdə müşahidə etmişik. Təəccüb etmək lazım deyil. Allah-Taaladan istəməliyik ki, bizi və digərlərini Özünün doğru yolunda saxlasın.

**Doğru yolun çətinliyi**

Siz hər gün dəfələrlə, ən azı 10 dəfə "Bizi doğru yola hidayət et" cümləsini təkrar edirsiniz. Bu nə üçündür? Bir dəfə Allahdan istədiniz, yetər. Lakin siz hər namazın ilk iki rəkətində bunu təkrar edirsiniz: "Bizi doğru yola hidayət et". Bu ondan ötrüdür ki, doğru yol çətin, enişli-yoxuşludur. Bu yolda səhvə düşənlər çoxdur. Çoxları üçün bu hal qarşıya çıxır. İnsan Allaha sığınmalıdır. Mənim fikrimcə, siz gənclər çox asanlıqla Allahın doğru yolunda qala bilərsiniz. Çünki yuxarı yaşlarda bizlər üçün yaranan tamahlar və nəfsi istəklər gənc üçün az qarşıya çıxır.

**Dünya və axirət səadəti**

Allahın yolu yaxşı bir yoldur. Dünya və axirət səadəti Allahın yolundadır. Bu inqilab, bu İslam Respublikası quruluşu, bu şüarlar, imamın və inqilabın vasitəsilə ortaya qoyulan bu dəyərlər ölkənin və xalqın səadətinin qarantıdır. Bunlar ölkəni xilas edəcək amillərdir. Bu ölkənin çox acı və çətin yaxın keçmişi olub. Lakin o bu hərəkət səbəbindən özünü ayağa qaldıra bildi. Əgər inqilab olmasaydı, bu gün ölkəmizin vəziyyəti maddi və mənəvi baxımdan sizin gördüyünüz ölkələrdən qat-qat pis idi. Əgər inqilab olmasaydı, maddi və mənəvi baxımdan durumumuz, bizim yaxınlığımızda və əcnəbi güclərin ixtiyarında olan ölkələrdən qat-qat pis olardı.

**Düşmən - problemlərin əsas amili**

Əlbəttə, düşmən də öz səyini göstərir. Bəziləri belə düşünürlər ki, bütün problemlər özümüzdəndir, sərhədlərin o tayını, düşmənin təbliğat şəbəkələrini, siyasi işləri, məkrli planları təsirsiz bilməliyik. Lakin mən belə düşünmürəm. Bəli, öz təqsirlərimiz, özümüzün, yəni daxili qüvvələrin nöqsanları şübhəsiz, mühümdür. Buna heç bir şübhə yoxdur. Lakin onları əsas amillərdən hesab edirəm. Mənim fikrimcə, düşmən çox aktivdir. Buna da diqqət yetirmək lazımdır.

**İncəsənət istedadları**

**Sual:** Hamımız bilirik ki, tələbənin təhsilə və təcrübəyə ehtiyacı var. Onun işində yıxılmaq və problemləri aradan qaldırmaq var. Lakin bizim kimi teatr və ümumiyyətlə, incəsənət tələbələrinin qarşısında bir sıra problem və maneələr mövcuddur. Bu təcrübə yolunda çox şeylərdən bəhrələnə bilmirik. Yanlış təhsil, müxtəlif üslublar, tələbə işlərinə dəyər verməmək, məşq yerinin, yaxud ssenarinin olmaması kimi imkansızlıqlar bu sahədəki problemlərdəndir. Öz mədəni səviyyəmizi yüksəltmək, yeni sözlər demək və yeniliklər yaratmaq üçün bizim də bəzi imkanlara ehtiyacımız var. Biz də təcrübə aparmalı, səhvə yol verməli və işimizi düzəltməliyik. Bilmək istəyirəm ki, bu problemləri aradan qaldırmaq barədə fikriniz nədir və hansı çıxış yollarını məsləhət görürsünüz?

**Cavab:** Mən incəsənət tələbələrinə kömək göstərmək üçün nə etmək lazım olduğu barədə düşünməmişəm. Mənim fikrim budur ki, incəsənət sahəsində, xüsusən də teatr sənətində bizim doğrudan da çox ehtiyaclarımız var. Bir tərəfdən də həqiqətən, çox yaxşı istedadlar mövcuddur. İstər aktyorluq, istər rejissorluq sahəsində çoxlu istedadlarımız var və hamısı da

inqilab dövrünə aiddir, inqilabdan qabaqkı dövrə deyil. Mənim kinoteatrla yaxın əlaqəm yoxdur. Televiziyada yayımlanan, yaxud başqa filmləri vaxt tapanda görürəm. Gördüyüm həddə deyə bilərəm ki, inqilabdan sonrakı yaxşı aktyorlar iniqlabdan qabaqkılardan çoxdur. Baxmayaraq ki, o zamandan da çox yaxşı aktyorlarımız var. Lakin bunlar nisbətən, daha çoxdur. Bu, istedadı göstərir. Göstərir ki, bu mühit insanları yetişdirə bilir. Televiziyanın yayımladığı "Əshabi-Kəhf" serialının rejissorluğu çox çətindir. Bu, çox böyük işdir. Doğrudan da dünyanın məşhur filmləri ilə müqayisə ediləsidir. Bu bizim gördüyümüz adi seriallardan qat-qat yaxşıdır. Bu onu göstərir ki, bizim bu məharətimiz var. Əlbəttə, film təkcə aktyorluq və rejissorluq deyil, sözsüz ki, başqa amillər də var. Amma hər halda, bu sahədə çox yaxşı istedadlarımız var və onları yetişdirmək lazımdır.

**İncəsənət müstəqilliyi**

Sizin kimi yeni gənc nəsil düzgün etiqadlarla, düzgün dini baxışla tam surətdə bu işlərə qoşulmasa, istər kino, istər teatr sənəti ölkədə lazımi inkişafa nail ola bilməz. Nə qədər ki, bizim rejissorlarımız, yaxud ssenaristlərimiz bu şəxsiyyətlərin, sizin dilinizlə desək, personajların jest və hərəkətlərini Qərb filmləri formasında göstərməyə çalışır, biz bir yerə çatmayacağıq. Təəssüf ki, İslam və inqilab təfəkkürləri ilə çox tanış olmayan bu şəxslərin bəzi filmlərində bu təqlidçilik görünür. Mən bu sahədə fəaliyyət göstərən və dəfələrlə buraya gələn bəzi şəxslərə demişəm ki, duzsuz söz, ifadə və parodiyalar onlara məxsusdur. Biz müstəqil olmayınca, din və İslam rəngini, iranlı ənənəsini və mədəniyyətini işlərimizə daxil etməyincə uğur qazana bilməyəcəyik. Bu mənim fikrimdir.

**İncəsənətə ehtiyac**

Mən düşünürəm ki, imkanlar yaradılmalıdır. Əlbəttə, incəsənətə ehtiyac Tibb institutuna ehtiyac kimi ümumi deyil. Yəni hamı incəsənətə ehtiyaclı olduğunu duymur; həmçinin yaxşı rejissora və yaxşı aktyora. Əlbəttə, bu bizim problemimizdir. Yeni nəsil olan sizlər hələlik bir qədər səbirli olmalı, dözməlisiniz ki, inşallah, sonralar insanlar yavaş-yavaş tanış olsunlar, sizin kafedranızın və digər incəsənət kafedralarının vəziyyəti də yaxşılaşsın.

**Sual:** Çox kiçik və ciddi sualım var. Baxmayaraq ki, bu da razılaşdırılmayıb. Amma soruşmaq istərdim ki, sizin halınız necədir?

**Cavab:** Əgər sağlamlıq baxımından soruşursunuzsa, Allaha şükür olsun, yaxşıyam. Düzdür, bu ilin əvvəlində, iyun, iyul, avqust aylarında məndə, ürək xəstəliyi ehtimal edilən güclü bir zəiflik göründü və bir müddət bizi ciddə şəkildə işdən saxladı. Əlbəttə, bir yerdə yatmadım, lakin çıxış çətin olurdu. Ən pis hal həzrət imamın ildönümündə çıxış üçün onun məqbərəsinə gedəndə yarandı. O bir neçə dəqiqə mənim üçün çox çətin keçdi. Sonra həkimlər dedilər ki, işin çoxluğuna görədir, bir qədər azaldın, yaxşılaşacaqsınız. Mən də indiyədək belə etmişəm və işlərimi bir qədər azaltmışam. Allaha şükür olsun ki, indi halım yaxşıdır. Allah sizi müvəffəq eləsin!